**Sübhan ABASBƏYLİ**

# PEYĞƏMBƏRLƏR

**Kazan - 2012**

**Sübhan Abasbəyli (Əhədzadə)**
PEYĞƏMBƏRLƏR. – Kazan şəhəri: «AAA» nəşriyyatı, 2012 – 000 səh.

Sübhan Əhədzadə Kamran oğlu,təxəllüsü Abasbəyli,Massallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur.Orta təhsilini Yeyənkənd,sonra isə Ərkivan kənd orta məktəbində almışdır.1976-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun(Universitet) tarix-ictimaiyyat fakültəsini,eyni zamanda Moskva Marksizim-Leninizim İnistitutunun iki illik mühaziraçi-təbliğatçı şöbəsinin Bakı flialını bitirmişdir.Masallı,lerik rayonlarında müəllim,təlim-tərbiyə işləri üzrə direktor müavini,məktəb direktoru vəzifələrində işləmişdir.------------------------------------------------------------
1995-ci ildən Tatarstan Respublikasının Kazan şəhərində yaşayır.2007-ci ildən Tatarstanda Azərbaycan Milli-Mədəni Muxtariyyatın təftiş-nəzarət komissiyasının sədri,idarə heyyət üzvü,2012-ci il dekabrından 2017-ci ilə qədər Reqional İctimai Təşkilatı AMMM-ın sədri işləmişdir.------------------------------
Azrbaycan Yazıçılar Birliyinin,Jurnalistlər birliyinin üzvüdür,”Qızıl Qələm”Media mukafatı laureatıdır və bir çox fəxri diplomlarla təltif olunmuşdur .”Axırıncı güllə”,”Peyğəmbərlər”,”Ana Fəryadı”,”Quzeydn Güneyə bir salamım var” kitablarının müəllifidir.Ailəlidir.------------------
“Axırıncı güllə” və “Peyğəmbərlər” kitabları ikinci dəfə nəşr olunmuşdur.----

İSBN-978-5-9222-0494-1.

## Ön söz (графика)

İlahiyyatçı Hacı Şahin Həsənli

Uca Yaradan Quranda elçilərini tərifləyərkən onları "bəndə" adlandırır. Yəni, bəndəliyin nümunəsi ilahi peyğəmbərlərdir. Elə biz də ilk öncə bəndəlik mövzusunun üzərində dayanmaq istərdik.

Müasirlərimizin yol verdikləri səhv bəndəliyi, itaətkarlığı mütləq şəkildə azadlığın antonimi kimi anlamalarıdır. Problemin kökündə də azadlığın səhv tərifi durur. Azadlıq özbaşınalıq, instinkt və meyillərin axarına düşmə kimi başa düşülür. Necə ki, cəmiyyətdə özbaşınalıq anarxiya və nizamsızlığa səbəb olur, insanın instinktləri ilə idarəolunması onun psixoloji dizbalansı, daxili nizamsızlığı ilə nəticələnir. Mahiyyət etibarı ilə, insan qul olmağa məhkumdur, lakin kimə və nəyə itaət etmək seçimindən asılı olaraq, insanın azad olub-olmadığını söyləyə bilərik. Əgər insan özünü hadisələrin axarına buraxıb, heyvani instinktlərini rəhbər tutarsa, əlbəttə ki, başqalarının qulu olması qaçılmaz olacaq. Çünki, instinktlər qeyri-şüurinin tərkib hissəsi olaraq bir-birinə zidd çıxırlar. Onlar müvəqqəti tələbatların qarşılanması üçün işə

düşdüyündən insanı sağlam düşünməkdən, mənfəətini və ziyanını müəyyən etmək qabiliyyətindən məhrum edirlər. Daxili çaxnaşmalardan əziyyət çəkən, müvəqqəti tələbatlarını ödəmək üçün çalışan insan başqalarının təsirinə asanlıqla düşür, daha doğrusu düşməlidir. Çünki, bu cür insanlar, öz müqəddəratını düşünə bilmədiyindən, başqalarının hazırladığı ssenari üzrə yaşamalı olurlar. Odur ki, istədiyini edən insan əslində başqalarının istədiyini edəndir. İslam itaətə layiq olan yeganə qüvvənin ağıl olduğunu bildirir. Ağıl ilahi bir nurdur, hər bir insanın daxilində Allahdan olan bir hissədir. Dəmir parçaları maqnitə meyilləndiyi kimi, ağıl insanı İlahiyə qovuşdurur. Bunun üçün ağılın qarşısında duran maneələri – bütləri aradan aparmaq lazımdır. Nəfsin buxovlarından azad, instinktlərin alətinə çevirilmiş yox, insanın bütün daxili meyillərini nəzarətində saxlayan ağıla itaət hürriyətin zəmanətidir. İlahi hökmlərin əsas məqsədi də ağılı mənəmçilik mancanağından azad etməkdir. Ona görə də, İlahi buyuruqları kamil surətdə icra edən şəxs, yəni bəndə - aqil və hürrdür. Allaha bəndəlik eynən azadlıqdır. Beləliklə də, peyğəmbərlərə iman gətirməklə, ilk öncə onların azadlığını təsdiqləyirik, çünki azad olmayan bir şəxs başqalarına azadlıq yolunu göstərə bilməz.

Müasir dünyada mütəfəkkirləri maraqlandıran əsas sual cəmiyyətin azadlıq yaxud ədalət prinsipləri üzərində qurulması ilə bağlıdır. Müasir məfkurə azadlığı ədalətin əksi hesab edir. Əgər azadlıq

başlanğıc üçün bərabərlikdirsə, ədalət nəticə üçün bərabərlikdir. Məsələn, biri öz qabiliyyətlərinə görə başqasını üstələyirsə bu azadlıqdır. Əgər qabiliyyətindən asılı olmayaraq başqaları ilə eynidirsə, bu ədalətdir. Bu yanlışlığın kökü müasir fəlsəfənin maddiyyat və mənfəətpərəstliyə söykənməsindədir. Çünki son iki əsrdə həm azadlıq, həm ədalət sırf iqtisadi məfhum olaraq anlaşılır, bütün ictimai sferalar iqtisadiyyatdan törəmə kimi qəbul olunur. Həm azadlığı şüar elan edən liberalizm, həm ədalət bayrağı adı altında çıxış edən sosializm demokratik sistemi ilk növbədə insanın maddi durumunun təkamülünə xidmət etdiyinə görə təqdir edirlər. Hər iki məktəbin demokratiyaya fərqli yanaşması da iqtisadi nəzəriyyələrin fərqliliyindən doğur. Nəticə etibarı ilə, azadlıq nəfsi istəklərin azad olmasını, ədalət isə bərabərliyi nəzərdə tutur. Yəni, azad cəmiyyət nəfsi istədiyini edən fərdlərdən ibarət, ədalətli cəmiyyət isə hamının eyni olduğu bir nizama deyilir. Həm son əsrlərin təcrübəsinə, həm məntiqə əsaslanaraq bu yanaşmanın tərəqqi deyil, tənəzzülə səbəb olduğunu görərik. Nəfsi azad edən bir düzən əslində insanı instinktlərin köləsinə, yəni yırtıcı heyvana, şəxsi mənafei üçün hər bir şeyi məhv etməyə hazır şüursuz varlığa çevirir. Əksinə, hamını bərabərləşdirən, eyniləşdirən düzən cəmiyyəti fərdi təşəbbüsü olmayan sürüyə çevirir. Demək, problemin kökü insana, tərəqqiyə, ədalətə və azadlığa səhv yanaşmadadır. İnsanı qida zəncirinin son həlqəsi kimi tanımaq insanı

zoosferanın fövqünə yönəltməkdənsə, onu yenidən meşə həyatına qaytarır. Ona görə ilk öncə insanı heyvanat aləmindən fərqləndirən xüsusiyyətini – ilahi ruha malik olmasını tanımaq lazımdır. İnsan ali varlıq olduğunu anlamalıdır ki, aliliyə meyillənsin. İlahi peyğəmbərlərin təliminin ana xətti də məhz bu idi.

İstənilən ictimai düzən insan hidayətinə, yəni ilahi mahiyyətinin qələbəsinə xidmət etməlidir. Ədalət də, azadlıq da hidayətə xidmət etməlidir. Ədalət və azadlığa İslam məhz bu prizmadan yanaşır. Azad o kəsdir ki, nəfsin buxovlarından qurtula bilsin, ədalət odur ki, hər bir şey öz yerində qərar tapsın. İctimai düzənin başlıca məqsədi insanın instiktlərlə idarə olunan heyvandan Allahın xəlifəsinə, ilahi iradənin icraçısına çevirsin. Bu, əslində çətin bir şey deyil, insan zatən tərəqqi etmək, ilahi xüsusiyyətlərə malik olmaq istəyir. Ona görə, peyğəmbərlər qəlbləri fəth edə bildilər. Təsadüfi deyil ki, onların dəvəti məhz bütlərə "Yox" deməklə başlayırdı. Bütlərə, bütləşənlərə və bütləşdirdiklərinə yox demədən, insan azad ola bilməz. Cəmiyyətdəki proseslər birbaşa insan daxilindəki proseslərlə həmahəngdir. İnsan ya hadisələr selində boğulub bir şəxsiyyət kimi aradan gedər, ya da selin qarşısında durub şəxsiyyətini möhkəmlədər. Cəmiyyətdə zülm və zorakılığa qarşı mübarizədə yalnız nəfsinə qələbə çalan insan müvəffəq ola bilər. Axı zülm və zorakılıq nədir və nədən doğur? Diktatura və totalitarizmin səbəbləri nədədir? Öz instinktlərini təmin etmək məqsədilə

başqalarını istila etmək və ya başqasına boyun əymək. İctimai nöqsanların kökündə insanların fərdi nöqsanları durur. Odur ki, cəmiyyətin zülmlə ədalət arasında seçimi fərdlərin daxilindəki mənəvi seçimlə müəyyən olunur. Peyğəmbərin ilk missiyası məhz insanları fərd olaraq islah etmək olub, çünki xarici düzən daxili düzəndən törəmədir. Fironla mübarizə aparmaq üçün seçilmiş Musa ilk öncə öz daxilində olan Fironu məğlub etməlidir. Yalnız bundan sonra onun zülmə qalib gəlməsi mümkün ola bilər. Daxili ədalətə nail olmadan ictimai ədalətə qovuşmaq mümkünsüzdür.

Bu baxımdan peyğəmbərlərin şərafətli həyat yolunu öyrənmək olduqca böyük əhəmiyyət kəsb edir. Çünki bu ilahi şəxsləri tanıdıqca insan onlara aşiq olur, insan isə sevdiyinə bənzəməyə çalışır. Elə bu səbəbdən bəşərin hidayəti üçün nazil olan Quran əsasən peyğəmbərlər barədə qissələr nəql edir. Həmvətənimiz Sübhan Əhədzadənin Qurani-Kərim və tarixi sənədlərdə ilahi elçilərin həyatı barədə məlumatı nəzmə çəkməsi olduqca maraqlıdır. Düşünürəm ki, Allahın nəbiləri barədə belə bir poema ilk dəfədir ki, yazılır. Tarixin incə şer dilində yazılması onu daha oxunaqlı, böyük oxucu kütləsi üçün cəlbedici, zövqə oxşayan edir. Sübhan müəllimə öz təşəkkürümü bildirməklə yanaşı, Allahdan ona bu işdə uğurlar azrulayıram.

# Bismillahir–Rəhmanir–Rəhim

Sənin tərifinlə başlanır əsər,
Yarandı həyatda izninlə bəşər.
Ey əziz Allahım, sənsən yaradan,
Bir ömür yaşadan,silən aradan.
Sən doğulmamısan,varlığın əzəl,
Yaratdın həyatı qüdrətdən gözəl.
Düyanın sirrinə hakimsən özün,
Hər şeyə qadirdir tək bircə sözün.
Dünyada ən gizli sirlər ki, vardır,
Mənası Rəbbimə həm aşikardır.
Aləmləri hələ yaratmamış sən,
Xatəmi-Ənbiya nurdu əzəldən.
Kainatı heçdən, yoxdan yaratdın,
Sirli xəzinənin pərdəsin atdın.
İstədin insanlar tanıya səni,
Sonsuz kainata naxış düzəni.
Dünyanı yaratdın sən altı günə,
Ki, insan salmasın özün çətinə.
Bir anda da xəlq eyləyə bilərdin,
İnsanlara bir nümunə göstərdin.



# Adəm Və Həvvanın Əhvalatı (s)

Əvvəl asimanı, bütün aləmi,
Torpaqdan yaratdı sonra Adəmi,[1]
Həvvanı xəlq etdi Adəmə yoldaş,
Düşünmək, danişmaq, ağıllı bir baş.
Mələklər dedilər:-Sənsən yaradan,
İbadət edirik sənə hər zaman.
Sənsən aləmlərdə vahid hökmüran,
Niyə yaradırsan, qan tökən insan?
“Mənim bildiyimi siz bilmirsiniz,[2]
Bəzi cisimlərin adın deyin siz!”
Mələklər dedilər:- Deyə bilmərik,
Sən nə öyrətmisən, onu bilirik.

“Ey Adəm, sən söylə, bildir onlara”
Adəm ki, söylədi bir-bir onlara.
Mələklər susdular, gözlərdə sual,
Allahın önündə dayandılar lal.
Allah dedi:- Edin Adəmə səcdə!
Mələklər əyildi onun önündə.
Təkəbbürlü İblis, cin tayfasından,[3]
Dedi:-O, torpaqdan, mən isə oddan,
Niyə səcdə edim?- Üstünəm ondan.
İlahi İblisi qovdu yanından,
Ad verildi ona:“Şeytani-məlun”,
“Dərgahdan qovulan”-xəbərdar olun,
Qiyamətə qədər istədi möhlət,[4]
İlahidən ona verildi rüsxət.
Adəmlə Həvva ki, düşdü cənnətə,
Şeytan da başladı kin- kidurətə.[5]
Şad-xürrəm yaşayır, çətinliyi yox
Behişt meyvələri “yeyirdilər” çox.
Çaylar kənarını seyr edirdilər,
Ətirli bağlarda hey gəzirdilər.
Behiştə girərək hiyləgər şeytan,
Onların yanına gələrək pünhan.
Şeytan çox danışdı, ürəyin aldı,
Axır ki ,onları o, razı saldı:
-Kimsə bu meyvəni əgər ki, yesə ,
Ölməzlik qazanar, deyirəm kəsə!
Adəmə göstərdi, şeytan ağacı,
Dedi ki, meyvəsi meyvələr tacı.

Adəm:-Bizə olmaz ağac meyvəsi,
Qadağandır  onun hər bir danəsi.
Həvva dedi:-Yeyək, olaq biz ölməz,
Adəm dedi:-İnan, bu fayda verməz.
Şeytan:-Eşidin siz,sizinləyəm mən,
Sizləri sevirəm, etibar et sən!
Axır ki, azdılar, qulaq asdılar,
Hər ikisi dərhal çılpaq qaldılar.
Utanıb qaçdılar hərə bir yana,
Əl atdılar əncir yarpaqlarına.
-Ey Adəm!-Səs gəldi, eşitdi onlar:
-Mən sizi etmişdim axı xəbərdar!
Bu ağacdan meyvə dərib yeməyin,
Şeytana aldanıb, dostluq etməyin.
Adəm də, Həvva da, xeyli ağladı,
Onların fəryadı ürək dağladı.
Allah bağışladı, keçdı günahdan,
Yenə səda gəldi, o gözəl Şahdan.
-Enin yer üzünə, yer sizə məkan,
İşləyin, yaşayın, çoxalsın insan.
Mənim sözlərimi kim ki, unutmaz,
İlahi köməydən o, məhrum olmaz.
Mömin insanları gözləyir cənnət,
Şeytana uyanlar görərlər şiddət!
Qəfildən endilər yer kürəsinə,
Adəm Hind tərəfə, dağ zirvəsinə.
Həvva endirildi  Mərvə dağına,
Şeytan da,Bəsrənin od torpağına

Adəm çox çağırdı:-Həvva hardasan?
Gözlər hey aradı:-Bəlkə dardasan?
Fəsillər bir-birin hey əvəz edir,
Adəm hey axtarır, gözləmir, gedir.
Bu vaxt yaxınlaşdı ona bir mələk,
Həvvanın yerini xəbər verərək:
-Bu istiqamətdə əgər ki, getsən,
Çatarsan Həvvaya, yolu qət etsən.
Ümidi çox artdı, ürək oldu şad,
Səhər yola düşdü,Allahdan imdad.
Yollar təhlükəli, yırtıcı heyvan,
Adəm hey yeriyir, titrəyirdi can.
Susuz səhraları qoyur arxada,
Tez-tez yeriyirdi, fikri Həvvada.
İllər ötüb keçir, yoxdur bir xəbər,
Adəm hey yeriyir, içində kədər.
Həvva da gözləyir, dilində Adəm,
Əyləşib baxırdı gözlərində qəm.
Ancaq ki, görünmür başının tacı,
Göz yaşı tökürdü hey acı-acı.
Yalvarır Allaha, istəyir kömək,
Yanına yetişdi göydən bir mələk:
-Darıxma, az qalıb, gələcək Adəm,
Ayrılıq günləri bitəcək, bu dəm.
Mələyin sözündən sevindi Həvva,
Dərindən köksünə çəkərək hava.
Girdi mağaraya, axşam vaxtıdır,
Ağac budaqları onun taxtıdır.

Yabanı bitkilər, meyvələr yeyir,
Yarpaqdan özünə “paltarlar”geyir.
Cənnəti düşünür, tökür göz yaşı,
Ürəyi darıxır, ağrıyır başı.
İblisin sözünə vermişdi qüvvət,
Adəmi günaha etmişdi dəvət.
Düşünür, ağlayır, ötübdü zaman,
Ox artıq atılıb, boş qalıb kaman.
Səhər tezdən Həvva durdu ayağa,
Baxdı uzaqlara dağdan aşağa.
Gördü ki, uzaqdan gəlir qaraltı,
Bəlkə də Adəmdir, gülür həyatı.
Gözünü ovaraq bir daha baxdı,
Onun gözlərindən damcılar axdı.
Dağdan aşağıya yıxıldı, qaçdı,
Adəm də, görərək əllərin açdı.
Ərəfat dağınıa yaxın bir məkan,
Onlar görüşdülər ürəkdə bir can.
Şadlıqdan gözləri çağlayır leysan,
Hər iki bədəndə oynayırdı qan.



# Qabil və Habilin Əhvalatı

Allahın izniylə bitdi qəm-kədər,
Onların üzünə güldü həm qədər.
Günlər, aylar ötdü, illər dəyişdi,
Adəmlə Həvvadan övlad yetişdi.
Əvvəl qız doğuldu, sonra da oğlan,
Allahdır göyərdən, Allahdır alan.
Daha sonra oğlan, qız da doğuldu,
Adəmin övladı dörd nəfər oldu.
Oğlanların adı Qabillə Habil,
Eqima həm Liza qızlarıydı, bil!

Qabil daş ürəkli, həm də ki, nadan,
İmansız,yaramaz, kobud bir insan.
Habili təqvalı, içdə mərhəmət,
Göstərir hamıya məhəbbət, ülfət.
Qoyun otarardı düzlərdə, dağda,
Allahı unutmaz, salardı yada.
Qabil yer şumlayar, taxıl əkərdi,
Habili özünə hey işlədərdi:
“Xeyli qüvvətliyəm, zəifdir Habil,
Zəiflər işləsin”-deyərdi Qabil.
Peyğəmbər oğluna etdi nəsihət ,
İstədi mehriban olsunlar külfət:
-Üstün o insandır, güclüdür təqva,
Gərəkdir qardaşlar etməyə dava.
Əgər istəyirsən kim güclü, görək,
Qurban hazırlayın, Allaha verək.
Kimin ki, qurbanı qəbul olunar,
Allahın yanında adı bulunar.
Habil sürüsündən bir qoç gətirdi,
Qabil tarlasından sünbül yetirdi.
Durub gözlədilər bir xeyli onlar,
İntizarla keçir dəqiqə, anlar.
Habil dua etdi xeyli Allaha,
Göz yaşları axdı onun bir daha.
Qabil sə boylanır, elə hey baxır,
Onun gözlərindən kin-küdrət axır.
Birdən göy səmanı bürüdü duman,
İldırım şığıdı, yandı asiman.

Şimşək alovlandı, qoçu apardı,
Bir hündür zirvədə alova sardı.
Qabilin sünbülün dağıtdı külək,
Kol-koslara çırpdı onları fələk.
“Qurbanın yetərli, Habilim sevin”,
Qabil sə Habilə bəsləyərək kin.
Qabil and içdi ki:-Verrəm əziyyət,
Səni öldürəcəm, edirəm nifrət.
-Məni öldürməyə əgər ki, qalxsan,
Sənə əl vurmaram, olsa da imkan.
Öldürsən, ey qardaş, unutma bunu,
Özünə qazarsan dərin quyunu.
Habilin sözləri etməd təsir,
Qabilin əsəbdən əlləri əsir...
Günəş öz şüasın zirvədən süzür,
Habilin sürüsü çəməndə üzür.
Başının altına yastı daş aldı,
Ağac kölgəsində yuxuya qaldı.
Baxırdı kənardan imansız Qabil,
Gözləyirdi nə vaxt yatacaq Habil.
Əlinə alaraq böyük bir daşı,
Şirin yuxudaydı onun qardaşı.
Yavaş-yavaş gəldi, yaxina cəllad,
Qardaşı oyandı ,ey dadibidad!
Habil elə bildi vəhşi bir heyvan,
Bir də baxıb gördü ürəkdə bir can.
Başının üstündə dayanıb qardaş,
Ağır zərbələrdən parçalandı baş.

Sıçradı Qabilin üz-gözünə qan,
Dayanmaq bilmirdi bu vəhşi insan.
Zərbələr vururdu, ölmüşdü Habil,
Vəhşidən də vəhşi, ey quduz Qabil!
İlk dəfə qan tökdün, öldürdün qardaş,
İtirdin həyatda ən yaxın sirdaş.
Əsasını qoydun nifrətin, kinin,
Şeytan ürəyini qaraltdı sənin.
Yenə gözlərimdən töküldü damcı,
Nə çoxdur indi də, çəkdirən acı.
İlahi,qoy gəlsin Sahibi-Zaman (s),
İnsanlar içindən yox olsun şeytan.
Gələcək o günlər, zühur edəcək,
Haqq- ədalət yer üzünə gələcək.
İndi görək Qabil orda nə edir?
Qardaşın ölümü nə fayda verir?
Habil uzanmışdı, üz-gözündə qan,
Bədəni səssizdi, çıxmış ondan can.
Qoyunlar qalmışdı dağda çobansız,
Habil son yuxuya getmişdi cansız.
Qardaş hərəkətsiz, Qabil hey baxır,
Onun gözlərindən göz yaşı axır.
Səmada uçurdu yırtıcı quşlar,
Qan iyinə uçub toplaşmış onlar.
Qabil bilmirdi ki, nə etsin indi,
Qalmışdı ortada qardaşın meydi.
Atıb getsə əgər yeyəcək qurd-quş,
Əsməyə düşmüşdü, gətirmir duruş.

Birdən qara qarğa endi torpağa,
Yerdə çala qazdı, uçaraq dağa.
Yenidən qayıtdı, əti tulladı,
Çalanın üstünə torpaq qaladı.
Qabil gəzdi, tapdı sümük parçası,
Qazdı qardaşına məzar çalası.
Basdırdı qardaşı, torpaqla örtdü,
Ağır dəqiqələr, saatlar ötdü.
Günəş qürub etdi, qayıtdı Qabil,
Ata xəbər aldi:-Hardadır Habil?!
Qabil atasına verdi sərt cavab,
Ata cavabından çəkdi iztirab.
Bildi ki, Habilin qaldadır başı,
Görəsən nə edib ona qardaşı?
Getdi axtarmağa:-Habil, hardasan?!
Cavab ver səsimə, bəlkə dardasan?!
Ata çox səslədi, gəlmədi cavab,
Ürəyi əsirdi, gətirmirdi tab.
Qoyunlar mələşdi, tez getdi ora,
Gördü qan tökülüb orda daşlara.
Ata fəryad etdi, səsi yayıldı,
Dağlar Peyğəmbərin səsini aldı.
Bildi ki, öldürüb qardaş qardaşı,
Axırdı sel kimi gözünün yaşı:
-Allah lənət etsin, ey Qabil sənə!
Niyə qan axıtdın sən yer üzünə?!
Allah qan tökməyə səni yaratdı?!
Şeytan səni nə tez yoldan çıxartdı!

Qabil qorxusundan dağlara qaçdı,
Günlərlə səhəri dağlarda açdı.
Qırx gün Habilinə ağladı,Həzrət,
Göz  yaşı  axıtdı  anası, dəhşət.
Sonra Allah ona verdi bəşarət,
Allahdan gəlmişdi onlara rəhmət:
“Sənə Habil kimi saleh bir övlad,
Hədiyyə verilir, gözün olsun şad”.
Doqquz aydan sonra uşaq doğuldu,
Hamısı sevindi, bəxtiyar oldu.
Uşağın adını Şis qoydu Həzrət,
Hədiyyə deməkdir,vardır kəramət.
Yəmən səhrasına köç etdi Qabil,
Öz dinini atdı yaramaz, qatil.
Qabildən olanlar oldu zülümkar,
Güclülər zəifi ağladır zar -zar.
Bütlər peyda oldu, çox tez yayıldı,
Yüngül əyləncələr xeyli çoxaldı.

# Şis Və İdris Peyğəmbərin Əhvalatı (s)

Şis-i Allah verdi etdi mərhəmət,
Ata-anasına həm dayaq, qüvvət.
İllər bir -birini hey əvəz etdi,
Həzrəti Adəmin axırı  yetdi.
Min illik bir tarix arxada qaldı,
Allah Peyğəmbərin canını aldı.

Min il vuran ürək vurmadı daha,
Peyğəmbər qayıtdı yenə Allaha...
Allaha qoşdular çox yerdə şərik,
Qabil övladları oldu müşərrik.[6]
Adəm oğlu Şisin nəsli çoxaldı,[7]
Məkkə ətrafında onlar köç saldı.
Adəmin dinini saxladı Həzrət,
Mehriban yaşayır, şeytana lənət.
İllər bir-birini hey əvəz etdi,
Adəm oğlu Şis də,dünyadan getdi.
Şisin tayfasından həzrət İdrisə,[8]
Allah nəbuvvətlik verdi o şəxsə.
Təqvalı, imanlı, çox düz danışan,
Allah dərgahında sevimli olan.
Həqqı qoruyardı, ürəkdə rəhmət,
Təbliğ eyləyərdi xalqa risalət.
Yazmağı, tikməyi İdrisdən qalıb,
Nankor insanları təşvişə salıb.
Allaha hədsizdi onda məhəbbət,
Allah dərgahına ucaldı Həzrət.
Adəm övladları daha da artdı,
Şeytana aldanıb dinini satdı.



# Nuh Peyğəmbərin  Əhvalatı  (s)

Adəm övladları dindən çıxdılar,
Həqiqi Allahı “vurub” yıxdılar.
Şeytanın sözünə inanıb onlar,
Daş bütlər yaradıb ona uydular.
Güclü zəiflərə olaraq hakim,
Onları işlədir özünə daim.

Unutdular onlar həzrət Adəmi,
İyrənc işlər bürümüşdü aləmi.
Onların içində Nuh adlı bir şəxs,
İmanlı, təqvalı, rəhimli bir kəs.
Vahid,tək Allaha edərdi iman,
O,büt "allahları" pisləyər hər an.
Dörd min il əvvəllər yenə İraqda,
Nuhun əhvalatı baş verdi orda.
Allah peyğəmbərlik ona bəxş etdi,
Təbliğ etmək üçün risalət yetdi.
Doqquz yüz əlli il çalışdı Həzrət,
Xalqı ibadətə çox etdi dəvət.
Dülgərlikdi işi, həm də təbliğat,
Ancaq eşitmədi dinsizlər, o vaxt.
Təhqir edilərək çox incidildi,
Az adam tərəfdən hörmət edildi.
Axırda Allahdan vəhy gəldi Nuha:
"Təbliğatı saxla, etmə bir daha.
Kafirlər heç zaman etməzlər iman",
Nuh, çox kədərləndi, ürək oldu qan.
Peyğəmbər qarğadı, edərək nifrin,
-Kökü qoy kəsilsin tezcə kafirin!
Allahdan Həzrətə yenə vəhy yetdi,
Gəmi düzəltməyi tövsiyə etdi:
"Torpağı, aləmi sular basacaq,
Gəmiyə minənlər nicat tapacaq".[9]
Həzrət möminləri yanına aldı,
Allahın hökmünü o, başa saldı.

Meşə kənarında hər gün xeyli iş,
Hər gün tikintidə gedir yüksəliş.
“Nicat”gəmisinin yayıldı səsi,
Lağ- lağı edirdi kafir dəstəsi:
-Ey Nuh, su ki yoxdur, harda üzəcək?
Ya çay kənarına aparın, görək.
Yelkənlər vacibdir bunu, unutma!
Pərlərin yerini yaddan çıxartma!
İmansızlar gülür, qəh -qəhə çəkir,
“Nuhun başı xarab”-şayələr əkir.
Gəmi tikintisi alaraq vüsət,
İşə səsləyirdi onları Həzrət.
Uzunluğ iki yüz, eniydi yetmiş,
Hündür iyirmi beş xəbəri gəlmiş.
Üç mərtəbə, oxşayırdı nəhəngə,
Uyğun gəlir otaqları ahəngə.
Səksən ilə qədər iş getdi orda,
Möminlər gözləyir hey intizarda:
“Görəsən nə vaxtdan tufan olacaq?
Nə vaxt yer aləmin sular basacaq?”
Günlərin birində gəldi bir qarı,
Qızıydı həyatda onun son varı.
Qarı sual verdi, Peyğəmbər baxdı,
Qarının gözləri yaşardı, axdı:
-Nə vaxt kafirlərdən qurtularıq biz?
Çox narahat olur hey ürəyimiz.
Allahdan vəhy gəldi Həzrətə yenə:
“Onun təndirindən sudur nişanə”.

Qarı eşidərək bu şad xəbəri,
Ürəyi sevindi güldü gözləri.
Döndülər evinə, gözlər intizar,
Hər gün baxırdılar təndirə onlar.
Günlərin birində gördü qızcığaz ,
Təndiri su basıb, ürək oldu yaz.
Tez qaçıb Həzrətə verdilər xəbər,
Gələrək gördülər, yaş oldu gözlər.
Səmanı bürüdü qara buludlar,
Yayıldı möcüzə, şəhər oldu car.
İman edənləri səslədi Həzrət,
Onları gəmiyə edərək dəvət.
Allahdan vəhy gəldi həzrəti Nuha:
“Müxtəlif  heyvanlar götürsün daha”.
Gəmiyə minirdi ürəkdə iman,
İldırım şığıyır, gurultu, boran.
Leysanlı yağışlar başlandı haman,
Yer altından sular qalxdığı zaman.
Nuhun adamları gələrək bir-bir,
Quşlar, heyvanlar da ora düzəlir.
Nuh nəzarət edir qayda-qanuna,
Təqvalı insanlar gəlir yanına.
Heyvanlar yığıldı alt mərtəbəyə,
Quşlar uçub gəlir üst mərtəbəyə.
Orta mərtəbədən möminlər baxır,
Gördülər hər yeri su alıb axır.
Həzrətin öz oğlu yox idi hələ,
Nuh baxdı uzağa gələrək dilə.

Gördü oğlu Yamı, üzür dağlara,
Çağırdı oğlunu:-Ey oğul, bura!
Bu acı taledən qurtarmaq olmaz,
Allahın qərarı inan, qaçılmaz!
Yam:-Bu uca dağlar qurtarar məni!
Dalğalar batırdı kafir bəndəni.
Həzrət İlahidən kömək istədi,
Axı uşağıydı, ürək dözmədi.
-Ey Nuh, ailəndən deyildir ki,Yam,
O, kafir,imansız, yox ona inam.
Bilmədiyin işi məndən istəmə!.
-Allahım, lütfünü sən əsirgəmə!
Soruşduğum üçün əhv edin məni,
Köməyə çağirdim Allahım, səni.
Nuhun oğlu ilə kafir zövcəsi,
Bütlərə inanan şəhər kütləsi.
Suya qərq oldular, yetmədi dada,
Uca dağlar belə qaldılar suda.
Dəryada üzürdü Nuhun gəmisi,
Uca Allahıydı onun hamisi.
Mələyin Həzrətə dediyi sözlər,
Yazıldı taxtaya, şaşırdı gözlər.
Nuh həmən taxtanı gəmidən asdı,
Möminlər oxudu, ürəyi yandı.
Görəsən nə idi taxtada olan?
Nicat gəmisini dardan qurtaran.
Mövzudan kənara yenə də çıxaq,
Sözün axarına, səmtinə axaq.

Alahın vəsfindən edərək söhbət,
Bir az uzaqlaşaq tufandan ,əlbət..
Dünyanın əvvəlin, sonunu bilən,
Yenisin yaradan, köhnəsin silən.
Bütün aləmlərdə tək bir hökmüran,
Adəmdən Xatəmə dəyişməz, duran.
Ən xırda canlının dəryada görən,
Onların yeməyin, içməyin verən.
Bərəkət, bolluğu yaradan sənsən,
İnsanı öldürüb sonra diriltdən.
Ey böyük Allahım, rəhimsən bizə,
Vaqifsən ən gizli sən sirrimizə.
Danışaq yenə də, həzrəti Nuhdan,
Nuhun yazdırdığı sirli kəlamdan.
Min doqquz yüz əlli birinci ildə,
Qazıntı  işləri car oldu dildə.
Qaf dağları dindi, açdı qədim sirr,
Həzrətin özündən söz-söhbət gəzir.
Üç illik zəhmətlə tapılır gəmi,
Daşlaşmış taxtalar gəzir aləmi.
Onların içində kiçik bir taxta,
Uzun minillikdən gəlmiş bu vaxta.*
Taxtanın üstündə sami diliylə,
Yazılar orada solmamış hələ.
Alimlər heyyəti, o səkkiz nəfər,
Böyük mücadilə onlar etdilər.
Taxta öz sirrini axır ki, açdı,
Günəş də sevindi, şüasın saçdı.
*-dörd min il.

Qədim dil müəllimi Aumaksı,
Oxundu taxtanın qədim yazısı.
İngilis alimi, o böyük insan,
Açdı yazıları, qalmadı pünhan.
Peyğəmbər ağlamış,istəmiş kömək,
Müqəddəs şəxslərə o, and içərək:
“Ey mənim Allahım,bizlərə rəhim,[10]
Sən mərhəmətinlə kömək et,Rəbbim!
Müqəddəs şəxslərin əzəmətinə,
And verirəm səni, kömək et mənə”.
Müqəddəs şəxslərin adını orda,
Yazıb göstərmişdi həmin taxtada.[11]
Mühəmmədlə İlya, Şəbər, Şübeyr,(s)
Həzrəti Fatimə, tarixlər deyir:
“Onlar əzəmətli həm də ki, əziz,
Onların xətrinə kömək edin siz.
Dünya həm yaşayır onlara görə,
Onların adına, müqəddəslərə.
And verirəm Allah, kömək edəsən,
Bizi doğru yola yönəldəsən sən”.
Taxtadan sözləri yazaraq haman,
Heç bir dəyişikliyə varmadım inan.
Bu taxta parçası təbərrük üçün,
Həzrət yazdırmışdı orda özüyçün.
Bəlkə də Cəbrail ya vermiş ona,
Ya da ki,cənnətdən gətirmiş ona.
Dünyanı heyrətə ,o taxta saldı,
Möcüzəni görüb şaşırıb qaldı.

Hələ doğulmamış gözəl insanlar,
Nuhun önəmində yad olmuş onlar.
Moskva muzeyin sənəd bəzəyir,
Onu görənlərin qəddini əyir....
Sübhan, hara üzdü nicat gəmisi?
Haraya göndərdi Nuhun hamisi?
Oxucunu çox da, qoyma nigaran,
Qayıt geriyə ki, saxlama pünhan.



# Həzrəti Nuh Quşları Torpaq Axtarmağa Yollayır

Günlərlə həftələr ötərək keçir,
Möminlər ağlayır, hey dua edir.
Üzürdü şimala nicat gəmisi,
Gəminin taleyi üzür hər kəsi.

Düşünür insanlar, artır həyacan,
Gözlər intizarda, üzülürdü can.
Leysan yağış yağır, hey göydən axır,
Şimşək, od yağdırır, ildırım çaxır.
Nə torpaq görünür, nə göydə ulduz,
Gəmi hara gedir, ünvanı sonsuz.
Peyğəmbər, möminlər edərək səcdə,
Yalvarır Allaha hey göyərtədə.
Qırxıncı gün gəldi, yağışlar kəsdi,
Külək həzin-həzin gəmiyə əsdi.
Səma işıqlandı, boyandı nura,
Günəş də, şuasın yayaraq ora.
Möminlər sevindi, gözləri güldü,
Allaha səcdəyə onlar düzüldü.
Həzrət Nuh, qarğanı çölə buraxdı,
Qarğa xeyli uçdu, ətrafa baxdı.
Qonmağa nə ağac, nə torpaq tapdı,
Yenə də, geriyə  gəmiyə *çapdı*.
Gəmi xeyli üzdü, bu dəfə Həzrət,
Atdı göyərçini Allahdan qüvvət.
Hamı gözləyirdi quşdan şad xəbər:
“Görəsən göyərçin nə ilə gələr?”
Budur göy səmada göyərçin üzür,
Dimdiyində yarpaq, gəmini süzür.
Həzrəti Nuh gördü, ürək oldu şad,
Onların üzünə gülürdü həyat.
Göyərçini yenə atdı Peyğəmbər,
Daha göyərçindən çıxmadı xəbər.

Peğəmbər bildi ki, yaxındır torpaq,
Ləpələr gəmini hey döyür şaqraq.
Üzürdü şimala, səma da ayaz,
Birdən göyərtədən baxan qızcığaz.
Sevincək qışqırdı:-Görünür torpaq!
Qalxdı möminlərin gözündən qapaq.
Cudi dağına ki, onlar yan aldı,*
Peyğəmbər göstəriş Allahdan aldı.
Əvvəlcə quşları buraxır göyə,
Sonra heyvanları göy çəmənliyə.
Axırda özləri düşürlər bir-bir,
Həzrət adamlara göstəriş verir.
Həyat davam edir yenidən yerdə,
Oğurluq, quldurluq yoxdu içərdə.
Nə əzilən vardı, nə  əzab verən,
Hamı çalışırdı ,gülürdü çəmən.
Həzrət çox yaşadı tufan çökəndən,
İnsanlar artdılar onun nəslindən.
Bir gün oturmuşdu təmiz havada,
Əzrail enərək göründü orda.
Nuha salam verdi, həyatın sordu:
-Ömründən razısan?-yanında durdu.
Peyğəmbər duraraq yerin dəyişdi,
Kölgəlik tərəfə dərhal yetişdi:
-Ömrümü bənzətdim gözəl bir ana,
Günəşli bir yerdən keçdim, o yana.
Min il yaşasa da, həyatda Həzrət,
Bir ana bənzətdi ömrünü, heyrət.
*-Türkiyə,(Allah bilən yaxşıdır.)

Gözlərini yumdu, köçdü həyatdan,
Həzrət də sonunda düşərək atdan...

## Hud Peyğəmbərin Əhvalatı (s)

Ərəb diyarının cənubi şərqi,
Adı "Rubil-Xali" yox bir tərəqqi.
Susuz bir aləmdir həyatdan uzaq,
İnsanlar düşmüşdür oradan qaçaq.
Nə bitki yetişir, nə də ki, bostan,
Susuz bir səhradır, dillərdə dastan.
Qədim zamanlarda, hər tərəf insan,
Ad tayfası salmış orada məsgan.
Əlverişli mühit, əkin və biçin,
Meyvə ağacları, tarlalar əlçin.
Üzüm bağlarında üzümlər şanı,
Bəs indi görəsən, o bağlar hanı?
...Bir şəhər saldılar, adı da İrəm,
Gözəl oxucuma, məlumat verəm.
Oxşarı yox idi, həddindn gözəl,
Şəddad tikdirmişdi əvvəllər, əzəl.
Cənnət adlandırır, edirdi xəyal,
Görən, haradandır Şəddadda bu hal?
Onların bütləri, qibləgahları,
Ziyarət edirlər çox Allahları.
İnsanı xəlq edən çıxmışdı yaddan,
Daş allahlar idi"yaradan"çoxdan.

Güclü zəiflərə tuturdu divan,
Haqlının səsini kəsirdi pünhan.
Onların içində mehriban insan,
Xeyirxah, imanlı,Allahdan qorxan.
Hud adlı şəxsiyyət, Allahı sevən,
Bütləri pisləyən, həqq sözü deyən.
Allah nəbüvvətlik verərək ona,
Təbliğ etmək üçün Ad tayfasına.
Hud öz elinin içinə getdi,
Onları Allaha o, dəvət etdi.
Hudu çağırdılar onlar“Divanə”
Lağa qoyurdular, vururlar tənə.
Onların az sayı etdilər biət,
Allah elçisinə göstərdi hörmət.
Allah öz qəzəbin endirdi ora,
Yağışlar yağmadı, bitmədi qora.
Aclıq yavaş- yavaş işlədi qana,
Tayfa inanmadı yenə də, ona.
Allahdan vəhy gəldi həzrəti Huda:
“Sığının bir yerə, getməyin bada”.
Göyün üzərini alaraq bulud,
Kafirlər sevindi: “Məhv olacaq Hud”.
Səmada buludlar gətirdi tufan,
Dəhşətli küləklər qoymadı bir can.
İrəm şəhərini edərək yeksan,
Mərmər sütunları tulladı haman.
Kafirlər çırpıldı orda torpağa,
Bir daha qalxmadı onlar ayağa.

Cəhənnəmə vasil etdi onları,
Sanki heç əzəldən yox bostanları.
İrəm şəhəri də, döndü səhraya,
Qumlarla örtüldü  ibrət dünyaya.
Tufan sakitləşdi, möminlər baxdı,
Onların üzündən göz yaşı axdı.
Şəddadın dediyi, o gözəl“cənnət”,
Xəbər yetişmədi bir xeyli müddət.
İndi Rubil- Xali quru bir səhra,
Yağışlar üzünə həsrətdi ora.
İnsanlar yaşamır, qarğanıb daha,
Asi olmuşdular çünki, Allaha.
Qumların altında yatan, o şəhər,
Axır ki, sirrini açdı bir təhər.
Alimlər qazdılar çox dərin qatda,
Tapdılar şəhəri qumların altda.



# Saleh Peyğəmbərin Əhvalatı (s)

Ərəb çöllərinin şimal parçası,
Yaşayırdı orda səmud tayfası.
“Vadil-Qura”adlanırdı çox qədim,
“Allah”idi bütlər, məlumat verim.
Daşlara inanıb gətirmiş iman,
Həqiqi Allahdan uzaqlaşmış can.
Onların içində gözəl bir insan,
Pak və əqidəli, təqvalı olan,
Adı Saleh idi, əməli saleh,
Ona xoş xasiyyət vermişdi taleh.

Allah  onu seçdi  özünə  elçi,
Tohidi tanıtsın o, böyük dilçi.
Allahdan göstəriş alaraq Həzrət,
Öz qəbiləsində başladı söhbət.
Bir olan Allahdan moizə etdi,
Onun varlığından danışdı, dedi:
-Bizləri yaradan, xəlq edən odur,
Öldürüb yenə də ,dirildən odur.
Allah daş bütləri yox etsə əgər,
Bir anlıq onlardan qalmaz bir əsər.
Çox çalışdı Həzrət, etdi təbliğat,
Az adam inandı, korlandı ovqat.
Onu öldürməyə qurdular plan,
Yolunun üstündə dayandı düşman.
Gizlənib güddülər bir xeyli müddət,
Üzsünlər başını gələndə Həzrət.
Qayanın dalında pusquda duran,
Daşın uçmasından öldülər bir an...
Səmud tayfasında baş büt,”qibləgah”,
Dağda yerləşirdi həmin daş “allah”.
Mərasimlər orda edilir icra,
Yalvarır önündə, düşəndə dara.
Yenə də qəbilə sərf edir əmək,
Xeyli qurban kəsir,istəyir kömək.
Həzrəti Saleh də ,getdi birbaşa,
Gördü camaatı diz çöküb daşa.
Dedi:-Xeyri olmaz bu daşın sizə,
Əziyyət  verməyin  ürəyinizə.

Allahı tanıyın, odur yaradan,
Odur insanların əlindən tutan.
Daş yaradılandır, zərbədən sınar,
Allahdır yaradan, odur xiridar.
Dedilər:-Ey Saleh, dəli olmusan?
Lazımsız sözlərlə niyə dolmusan?
Allah adamısan? Göstər möcüzə!
Görək, biz inanaq, gələk üz-üzə.
Bir daşın içindən gəl çıxart dəvə,
Həm hamilə olsun ona əlavə.
Həzrət eşidərək nadan sözləri,
Səmaya yönəldi məlul gözləri.
Onlardan bir günlük istədi möhlət:
-Sabah görüşərik!-danışdı Həzrət.
Allaha yalvardı bütün gecəni,
Dedi:-Məyus etmə, ya Rəbbi məni.
Bütlərdən bəlkə də, olarlar uzaq,
Haqqın yolun tutar,olmazlar nahaq.
Allahdan vəhy gəldi, Saleh sevindi,
Həzrətin gözündən şadlıq ələndi...
Səmud qəbiləsi hamısı orda,
Ürək intizarda, gözləri dağda:
"Görən həqiqətən qaya doğacaq?
Qayalardan necə dəvə çıxacaq?"
Camaat təşvişlə susur, danışır,
Onların gözündən od- alov daşır.
Göründü Peyğəmbər, əynində əba,
Ona baxırdılar bütün el- oba.

Həzrəti Salehin gözlərində yaş,
Dua edə- edə gəlirdi yaxaş.
Camaat izləyir, baxırlar daşa:
“Dəvə çıxacaqmı ordan birbaşa?”
Əlini uzatdı Həzrət qayaya,
Qaya parçalandı iki parçaya.
Daşlar dərələrə hey səpələndi,
Dəhşətli gurultu qəlbə ələndi.
Qayanın içindən bir dəvə çıxdı,
Camaat çığırdı, gözləri axdı.
Dəvə hamiləydi, gözəldi gözlər,
Sakit, xoşa gələn tükü də məxmər.
Peyğəmbər edərək şükür səcdəsi,
Möcüzə kövrəltdi orda hər kəsi.
Camaat Allaha etdilər iman,
Yenə bəzilərin aldatdı şeytan.
...Dəvə otlayırdı hər tərəf çəmən,
Üç günün içində doğaraq həmən.
“Salehin dəvəsi”adın verdilər,
Çəməndə otlayır, hey gəzirdilər.
Dedi:-Allahdandır, o dəvə bizə,
Siz onu qoruyun, gəlməsin gözə.
Dəvənin südündən yeyirdi hamı,
Aləmə səs saldı südünün tamı.
Saleh peyğəmbərin artır hörməti,
Kafirlərin isə kin -küdurəti.
Onu öldürməyə plan qurdular,
Doqquz nəfər kafir dilbir oldular.

Quldur banda toplaşdılar bir gecə:
“Öldürsünlər peyğəmbəri bəs necə?”
Qərara aldılar:“Əvvəl dəvəni,
Allahın verdiyi bu nişanəni.
Sonra da özünü doğrayıb tökək,
Canımız onlardan qurtulsun gərək”.
..Dəvə, balasıyla otlayır, gəzir,
Hərdən də bulaqdan gedib su içir.
Kim süd istəsəydi gəlib sağırdı,
Südündən xəstələr şəfa tapırdı.
Dəvə yaşayırdı çöllərdə belə,
Bilmir hazırlanır ona bir tələ.
Günorta  istidə, köşək yanında,[12]
Susuzluq var idi onun canında.
Köməksiz, günahsız balayla ana,
Bilmir bələnəcək bir azdan qana.
Bulağın suyundan su içən vaxtı,
Cəllad qılıncını başına çaxdı.
Təzədən köksünə endirdi zərbə,
Sanki o,düşmənlə çıxmışdı hərbə.
Dəvə inildədi, əyildi başı,
Axdı gözlərinin sel kimi yaşı.
Baxdı balasına can üstündə can,
Sanki deyirdi ki:“Qaç qurtar burdan”.
Nərə çəkib dəvə qalxmaq istədi,
Balaya son dəfə baxmaq istədi.
Heyhat,yenə zərbə başına dəydi,
İnlədi, başını körpəyə əydi.

Gözlər bir- birinə etdilər vida,
Ana balasına baxdı:“Əlvida!”
Köşək uzaqlaşdı gözü anada,
Kafirlər qovurdu, qaçırdı, o da.
Bala çıxdı dağa, bəlkə yaşaya,
Baxdı aşağıya,ordan  anaya.
Quldurlar qalxdılar ardınca dağa,
Köşək hey istəyir qaçsın uzağa.
Hər tərəf sıldırım, hər tərəf qaya,
Süzüldü gözündən yaş aşağıya.
Quldurlardan biri atdı bıçağı,
Köşək diyirləndi dağdan aşağı.
Quldurlar tutdular, kəsib atdılar,
Çirkin bir məqsədə onlar çatdılar.
Möminlər eşitdi bu cinayəti,
Kafirlərdə olan kin- küdurəti.
Allahın Elçisi tutaraq xəbər,
Qarğadı onları, ağladı gözlər.
Bütpərəstlər yenə əlbir oldular,
Həzrəti Salehə pusqu qurdular.
Gecə aləmində hər tərəf duman,
Həzrəti Salehə qurulmuş plan.
Həmin gecə göyün üzü bozardı,
Hər yeri qorxulu toz-duman sardı.
Allahın əmrini aldı Peyğəmbər:
“Uzaqlaşsın evdən tezcə möminlər”.
Gecə evlərində şadlıq məclisi,
Dəvə əti yeyir kafir dəstəsi.

Onlar şadlıq edir, gözləyir, heyhat!
Nə vaxt qapanacaq Həzrətə həyat.
Birdən göyün üzü sanki partladı,
Torpaq inildədi, qat -qat çatladı.
Səmud qəbiləsi çaşıb durdular,
Dəhşətli səslərdən qulaq tutdular.
İldırım şəhəri edərək alt-üst,
Evlər, imarətlər töküldü üst-üst.
Kafirlər yandılar, tamam soldular,
Bütlər qırıq -qırıq zəbun oldular.



# İbrahim Peyğəmbərin Əhvalatı (s)

Fərat, Dəclə çayı aramla axır,
Babil vilayəti gül -çiçək açır.
Dörd min il öncədən belə diyarda,
Kənan oğlu Nəmrud şah idi orda.
Ur adlanan şəhər, böyük bir saray,
Hökmü, iradəsi salmışdı haray.
Zülmü, əziyyəti qalxmışdı zilə,
Hikgəsi çoxalır hey ildən- ilə.
Özünü yaradan hesab edirdi,
“Mən də dirildirəm”o, hey deyirdi.
Çoxallahlıq idi xalqın inamı,
Ulduza sitayiş olmuş məramı.

“Allahlar” salınmış orda məbədə,
Yerləşir bütləri həm Zəqirədə.[13]
Adamlar verirdi çox-çox hədiyyə,
Bütlər əhalini qorusun, deyə.
Kahinlər münəccim həm də,adlanır,
“Hər şeyi bilənlər”-özlərin sanır.
Gəldilər, Nəmruda verdilər xəbər:
-Bir uşaq doğular, hey verər kədər.
Nəmrud bu xəbərdən kədərləndi çox,
Sanki ürəyinə sancıldı bir ox:
-Doğulan oğlanlar məhv olsun gərək!
Doğan qadınlardan məlumat bilək!
Qızları saxlayın, oğlanlar ölsün!
Babil vilayəti hökmümü görsün!
Başlandı evlərdə ağlaşma, şivən,
Körpələr al-qana bələndi həmən.
Bir qadın qorxudan dağlara qaçdı,
Mağara içində ev-eşik saldı.
Doğaraq uşağı saxladı pünhan,
Uşaqsız evinə o, gəldi haman.
Allah İbrahimə olaraq həyan,[14]
Qorudu körpəni orada hər an.
Barmağın sormağı öyrətdi ona,
Arada gəlirdi yanına ana.
Süd verir,bəsləyir körpəsin dağda,
Mələklər ananı qoymadı darda.
Uşaqdan xəbərsiz həm Kövsəriyyə,
Ana bildirmədi heç bir kimsəyə.

Bir müddət gedirdi beləcə həyat,
İbarahim böyüyür günbəgün,saat.
Anası körpəsin qoynuna aldı,
Gətirdi şəhərə, yanına saldı.
Məmurlar baxdılar iki, üç yaşlı,
Ancaq üç həftəydi uşaq olalı.
Allah, İbrahimi edərək xilas,
İmranın evində olmadı bir yas.
Uşaqlıq vaxtında atasız oldu,
Körpəsi yetkinlik yaşına doldu.
İbrahim babasın çağırır "Ata",
Azərin yanında boy ata-ata.
Əyrini, yaxşını həyatda gördü,
Bütlərin heçliyin qəlbinə hördü.
İnamından hamı tutaraq xəbər,
Bütlərə nifrəti car oldu şəhər.
Nəmrud da eşitdi onun özündən,
Kahinlər od tutdu yanar sözündən.
Babil torpağından uzaqlaşdı qış,
Yaz gəldi, ölkədə başladı yağış.
Yataqdan qalxaraq oyandı torpaq,
Çaylar cana gəldi axaraq şaqraq.
Döndü gülüstana baxçalar,bağlar,
Yaşıla büründü meşələr,dağlar.
Yenə də baharı etsinlər bayram,
Şəhərdən kənara çıxdı izdiham.
Şənlik edənlərə o, qoşulmadı,
Onların yanında həzrət qalmadı.

Necə ki, camaat itdilər gözdən,
Tez işə başladı verdiyi sözdən.
Həzrəti İbrahim bütləri vurdu,
“Belə Allah olmaz!”-söylədi,durdu.
Balta işə düşdü, bir-bir haqladı,
Böyük bütü ancaq şahid saxladı.
Baltanı asaraq bütün çiynindən,
Sərbəst nəfəs aldı, Həzrət dərindən.
Şənliyə gedənlər geri döndülər,
Məbəddə bütləri sınan gördülər.
Böyük büt qalmışdı, çiynində balta,
Getdi çatdı xəbər dərhal Nəmruta.
Hamı İbrahimi təqsirkar bildi,
İbrahim təcili saraya gəldi.
Qazi sual verdi:-Sənmi etmisən?
Allahları sənmi qırıb tökmüsən?
-Axı hardan bilim, əziz insanlar!
Böyük büt söyləsin,kimlərdi onlar?.
Sözdən qazi susdu, vermədi cavab,
Nəmrud da dinmədi, dil oldu kabab.
Dedi:-Bilirsən ki, bütlər danışmaz,
Belə sual vermək sənə yaraşmaz.
Dedi:-Sizlər daşa inanırsınız,
Daşlardan ötəri hey yanırsınız.
Niyə qorumadı onlar özlərin?
Niyə açmadılar axı gözlərin?.
Babil camaatı susaraq baxdı,
Gözləri utanıb aşağı axdı.

Kahinlər hirsləndi,əsəbləşdi bərk,
Haqqı, ədaləti etmədilər dərk.
Nəmrud hirslə dedi:-Zindana atın,
Bu canini həmən odda yandırın!.
Əsgərlər tutdular Həzrəti həmən,
Zindana atdılar heç rəhm etmədən.
Nəmrud istəyirdi ən böyük tonqal,
Uzaqdan görünsün alovu dərhal.
Camaat bilsin ki, İbrahim yanır,
Allahlar dönükdən intiqam alır.
Hazırlıq işləri gedirdi ciddi,
Nəmrudun əmrindən keçirdi yeddi.[15]
Əmr etdi:-İbrahim saraya gəlsin,
Əyan-əşrəf, hamı gəlişin bilsin.
Əsgərlər gətirdi əlində qandal,
Məmurlar susaraq baxırdılar lal.
İbarhim Nəmruda etmədi səcdə,
Orda olan kütlə gəldilər vəcdə.
Nəmrud sorğu etdi:-Edirsən günah,
Yerdə yox, göylərdə gəzirsən Allah.
Dedi:-Öldürəndir, həm də dirildən,
Bütün canlılara odur can verən.
-Mən də insanlara verirəm nicat,
İstəsəm öldürər verərəm həyat.
Firon tələb etdi, hər iki dustaq
Dərhal gətirdilər, canlandı otaq.
-Cəllad,sağdakının tez alın canın,
Soldakının isə əfv etdim qanın .

Canları alanam, həm də dirildən,
İstəsəm açaram iplərin əldən.
Dedi:-Günəş şərqdən doğulur əzəl,
Xəlq edib bunları Yaradan əvvəl.
Bacarırsan əgər,sən qərbdən doğur,
Çıxart ürəyimi, qanımla yoğur.
Nəmrud şaşıraraq, dil topuq çaldı,
Ağıllı sualdan karıxıb qaldı.
Dedi:-Deyirsən ki,xəlq edən Allah,
Həmçinin öldürən, yenildən Allah.
Sübut et bunları biz baxaq, görək,
Sənin Allahına ibadət edək.
İbrahim gözlərin dikdi səmaya,
Əllərin qaldırdı uca Xudaya:
-Ey ulu Xaliqim, kömək et mana,
Bu kafirlər bəlkə gələ imana.
İbrahim eşitdi:"Dörd quş parçala,
Ətini qarışdır, çöllərə payla.
Çağırsan onları yanına uçar,
Ölmək,dirilməyə sübutdur quşlar".
Həzrəti İbrahim dörd quş istədi,
Ətini doğradı, çöllərə səpdi.
Ucadan quşları səslədi Həzrət,
Birləşdi əzalar, vardır kəramət.
Quşlar qayıdaraq qondular yerə,
Batmadı möcüzə bu kafirlərə.
Nəmrud, camaatı etmədi biət,
Təzədən zindana atıldı Həzrət.



# Həzrəti İbrahimin Oda Atılması

Dağın ətəyində qalandı tonqal,
Həzrət gətirildi əlində qandal.
Babillilər gəlmiş orda “şənliyə”,
Nəmrudla kahinlər həm düzənliyə.
Tonqalın alovu saçırdı şölə,
Uzaqdan istisi yayılır öylə.
İbrahim baxırdı, sakitdi ürək,
Qarşısında peyda oldu bir mələk:
-Ehtiyacın varmı nəsə bir şeyə,
Baxaraq Həzrətə soruşdu, deyə.
Dedi:-Kimsələrə yox ehtiyacım,
Allahdır köməyim, odur ilacım.

Allah İbrahimi etdi imtahan,
Beş aldı sınaqdan, sevindi bu an.
Yenə mələk endi, üzük gətirdi,
Allah hədiyyəsin ona yetirdi.
Altı cümlə yazılmışdı qaşında,
Tap oxucum yazılanı daşında.[16]
Allahdan vəhy gəldi alova yenə:
"Sərin ol Həzrətə, dön gülüstanə".
Alov nərə çəkir zəbanə, göyə,
Peyğəmbər ümidlə baxır səmayə.
Mancanaq Həzrəti tulladı oda,
Hamının gözləri qaldı alovda.
Onlar sevinirdi, İbrahim yandı,
Nəmrud da Həzrəti kül olmuş sandı.
Əllərinin ipi yanaraq həmən,
Alovun içində açdı " gül-çəmən".
Camaatı orda bürüdü dəhşət,
Nəmrudun üzündə qorxulu vəhşət.
Kahinlər susdular, oldular rəzil,
İzdiham önündə əzil ha əzil.
İnsanlar gördülər dəhşətli anı,
Alışan tonqaldan qurtulan canı.
İnansa da orda çoxu, Həzrətə,[17]
Nəmruddan qorxaraq yox ibadətə.
Allah qüdrətini görərək, nadan,
Azad etdi onu, o kafir haman.
Toxunmadı ona Nəmrud bir daha,
İbadət etmədi ancaq Allaha.

Peyğəmbər evləndi varlı qadınla,
Xalasının qızı Sara xatınla.
Malı, qoyunları günbəgün artdı,
İmanlı insanlar hər gün çoxaldı.
Nəmrud qərar verdi:-Rədd olub itsin,
Alınsın mal-qara, lüt-üryan getsin!
İbrahim, qazıya etdi şikayət:
-İşlədim xeyli vaxt, çəkdim əziyyət.
Nəmrud qoy ömrümü qaytarsın geri,
Sonra da söyləsin: “Lüt-üryan yeri”.
Qazılar etdilər xeyli məşvərət,
Gördülər düz deyir, haqlıdı Həzrət.
Etdiyi şikayət qəbula yetdi,
İbrahim malıyla Babildən getdi.

## Peyğəmbərin Vətəndən Qovulması. İsmayıl Peyğəmbərin Anadan Olması (s)

Onlar köç etdilər sübh tezdən, səhər,
Fələstin tərəfə gedir peyğəmbər.
İmanlı, təqvalı xalası oğlu,
Dostu Lut da onla gedir bu yolu.
Əvvəlcə Kənana, sonra Misirə,[18]
Gəlib yetişdilər varlı bir yerə.
Misir hökmüdarı Sənan bin Əlvan,
Gördü gözəlliyin Saranın haman.

İstədi təcavüz etsin Saraya,
Özü də bilmədən düşdü bəlaya.
Onun xəyanəti öz yerin tapdı,
Əlləri qurudu, belində qaldı.
Yalvardı Həzrətə:-Keç günahımdan,
Belə iş tutmaram bir də heç zaman.
Həzrəti İbrahim onu əhv etdi,
Əlləri açıldı, sağlamlıq yetdi.
O vaxtdan onlara edərək hörmət,
Gördü Peyğəmbərdə izzət,kəramət.
Hacəri Saraya etdi ərməğan,
Bir də İbrahimə etmədi yaman.
Misirdə bir müddət ömür etdilər,
Fələstin tərəfə yol eylədilər.
Fələstin torpağı Səmud elində,
O,"Ölü" dənizin sahillərində.
Həzrəti İbrahim Luta ərz etdi:
-Allahı burada təbliğ et,dedi.
Peyğəmbərin özü,yaxın adamlar,
Yollarına davam etdilər onlar.
Günlərin birində gözəl bir səhər,
Mələklər gətirdi ona şad xəbər:
-Yerin xırda-xırda daşları qədər,
Sayınız artacaq sizin, Peyğəmbər!
Həzrət bu müjdədən vəcdəyə gəldi,
Yenə yollarına onlar düzəldi.
Əl-Xəlil adlanan gözəl diyarda,
Peğəmbərin köçü dayandı orda.

İllər bir- birini hey əvəz etdi,
Peyğəmbər yaşlandı, qocalıq yetdi.
Uşaq həsrətilə qovrulan Həzrət,
Allahın müjdəsin unutmur əlbət.
Sara İbrahimin halını görür,
Onun əhvalını qəm-qüssə bürür.
Təklif etdi alsın ikinci arvad,
Övladsız həyatı olmasın bərbad.
Saranın izniylə Hacəri aldı,
Saranın boynuna qolunu saldı.
Əhval yaxşılaşdı oldu şad-xürrəm,
Hacər oğul doğdu, car oldu aləm.
Qohum-əqrəbalar şadlığa gəldi,
Kənan torpağında sevinc yüksəldi.
Uşağın adını İsmayıl qoydu,
Ürəyi sevindi, gözləri doydu.
Həddindən çox İsmayılı sevirdi,
Tez-tez ona:"Əziz oğlum"-deyirdi.
Saranın xoşuna gəlmədi bunlar,
Qadınlar bu işi daha çox anlar.
Ağlayıb hönkürdü o, yana-yana,
Gözlərini yumub söylədi ona:
-Apar uzaqlara görməsin gözüm,
Ürəyim inciyir, qalmayıb dözüm.
Bu sözdən İbrahim sarsıldı yaman,
Qanı çox qaraldı, əzildi haman.
Həzrət xəstələndi, gözlər ağladı,
Ürək parçalandı, bədən sustladı.

Səhər yatağında yatmışdı Həzrət,
Həzrəti Cəbrayıl göründü, əlbət:
-Allah fərmaişi gəlibdir sənə,
Əməl et ,hörmət et Sara deyənə.
Götür İsmayılı apar Məkkəyə,
Külək bələdçidir, gələr köməyə.
Hacərlə birlikdə qoyarsan orda,
Allah öz  bəndəsin qoymayıb darda!



# Hacərlə İsmayılın Məkkəyə Aparılması

İbrahim yuxudan oyandı erkən,
Yol üçün azuqə ayırdı evdən.
Hacərlə birlikdə düzəldi yola,
Gedir uzaqlara körpə bir bala.
Məkkə vadisinə gəldilər onlar,
Çadır düzəldərək rahat oldular.
Üç gün orda qaldı həzrət İbrahim,
Ayrılıq vaxtıdır, Allahdır rəhim.
Hacər ağlayaraq şivən qopartdı.
Onun ürəyində qəm-qüssə artdı:

-Kimin ümidinə qoyursan bizi?
Bu susuz səhrada hər ikimizi.
-Allah ümidinə qoyuram sizi,
Allahdan kəsməyin ümidinizi.
Allah nicat verən,kömək edəndir,
Bütün insanlara ruzi verəndir.
Səni gətirməyi özü istəmiş,
Xudadan gəlibdir belə fərmaiş.
İbrahim üzünü göylərə tutdu,
Göz yaşı axıtdı, əlindən tutdu:
-İlahi, kömək ol ailəmə sən,
Hamıya mehriban,nicat verənsən.
Sənin ümidinə qoyub gedirəm,
Bunları əmanət sənə edirəm.
Bu susuz səhranı döndər cənnətə,
Hami dur verdiyim bu əmanətə.
İnsan məkanına buranı döndər,
Varlı et Allahım, bərəkət göndər.
Onun gözlərindən leysan çağladı,
Alıb İsmayılı hönkür ağladı.
Yavaş-yavaş uzaqlaşdı oradan,
Hacər qəmli-qəmli baxdı arxadan.
Tək-tənha səhrada qaldılar onlar,
Allahın nə böyük hikmətləri var.
Vaxt-vədə ötürdü, keçirdi günlər,
Həzrət İbrahimdən çıxmırdı xəbər.
Xeymədə azuqə tamamən bitdi,
Su da, azalaraq sonuna yetdi.

Ananın ki, südü çəkildi tamam,
İçməyə olmadı onlarda bir cam.
Susuzluq yandırdı yazıq ananı,
Uşaq inildəyir, gedirdi canı.
Hacər məcbur olub dağlara qaçdı,
Dağlarda,daşlarda o, çığır açdı.
Gah Mərvə qaçirdı, gah da Səfaya,
“Allahım, kömək ol naçar anaya”.
Ərinin sözünü saldı yadına,
Ağlayır, yalvarır heyYaradana.
Bədən susuzluqdan tir-tir əsirdi,
Ayaqlar qan idi, daşlar əzirdi.
Düşündü ki, yəqin beləymiş fələk,
“Gedim ki,birlikdə körpəmlə ölək”.
Dağdan aşağıya enmək istədi,
Ciyər parasını görmək istədi.
Vəhşi heyvan səsi eşitdi haman,
Tükləri ürpəşdi can qorxusundan.
Ana körpəsinin yanına qaçdı,
Əsə-əsə gəldi, qucağın açdı.
Gördüyü mənzərə onu sarsıtdı,
Bədəndə təlatüm, qüvvə yaratdı.
Baxırdı anaya, oynadır ayaq,
Süzürdü gülərüz anasın uşaq.
Dumduru, şəffaf su axırdı ordan,
Körpənin ayağı islanır sudan.
Allaha diz çökdü, axdı göz yaşı,
Onun göz yaşları əritdi daşı.

Əlləin qaldırdı gözəl Allaha,
Xeyli dua etdi ona bir daha.
Günlər tez əridi,gəldi Peyğəmbər,
Axan suyu görüb sevindi gözlər.
Allaha yalvardı, göylərə baxdı,
Onun gözlərindən damcılar axdı.
Azuqə qoyaraq Kənanə döndü,
Allahla dostluqdan yenə öyündü.
Suyun əlaməti quşlara çatdı,
Məkkə üzərində sayları artdı.
Cərhum qəbiləsi gördü uzaqdan,
Axışdı adamlar başqa diyardan.
Həzrəti İsmayıl, həzrəti Hacər,
Yaşadı birlikdə, xoş keçdi günlər.
Ərəb qaydasını onlar kəsb etdi,
Ətrafdan onlara xoş rəftar yetdi.



# Lut Peyğəmbərin Əhvalatı (s)

İsmayıl gəlmişdi artıq beş yaşa,
Anası Hacərlə yaşayır qoşa.
Cərhum qəbiləsi onu sevirdi,
Köməklik göstərib hörmət edirdi.
Həzrəti İbrahim Kənanda yaşar,
Qocalıq yaşına çatmışdı onlar.
Qəfildən onlara gəldi üç qonaq,
Ev yəsi sevindi,qızardı yanaq.
Oxuyaq kitabı olaq xəbərdar,
Allahdan başqası deyil xilaskar.
Həzrəti İbrahim kəsdi bir toglu,
Yesinlər qonaqlar olsunlar dolu.

Yemək yemədilər,qalaraq dinməz,
Ləzzətli təamdan almadılar həzz.
Peyğəmbər baxaraq gözündə sual,
Onun qonaqları oturmuşdu lal.
Qonaqlar görərək onda təşvişi,
Açıq danışdılar, məqsədi, işi:
-Biz bəşər deyilik təamlar yeyək,
Gəlmişik ki, sənə şad xəbər verək.
Həzrəti Saradan oğlun olacaq,
Allah müjdə verir, nəslin artacaq.
Adını İshaq qoy, bu bir göstəriş,
Həyatınız gülər, olar yüksəliş.
İbrahim karıxdı, gözlər oldu şad,
Saranın bənizi olaraq gülşad.
-Artıq qocalmışıq,indi doxsan yaş,
Ağarıbdır saqqal, ağarıbdır baş.
Mələklər onlara dedilər həmən:
-Allah var edəndir, unutma ki, sən!
Bu sözlər onların ürəyin açdı,
Ər-arvad gözündən al günəş saçdı:
-Siz niyə gəldiniz axı üç nəfər?
Müjdə xəbərini tək də söyləyər.
-Azıbdır yolunu azğın bir tayfa,
Nəfəs almayacaq orda bir qafa.
Peyğəmbər verərək yenə də sual:
-Yəni kafirlərmi tamam, o mahal?
-Səddum tayfasıdır yolunu azan,
Allaha çoxdandır hey şərik qoşan.

Yoxdur oralarda təqvalı olan,
Yoldan çıxmışdılar hamısı, inan.
İbrahimin qəlbin bürüdü kədər,
O, Lutun haqqında istədi xəbər.
Mələklər dedilər:-Nicatdadır Lut,
Uşaqlar amanda, övrətin unut!
Verərək xəbəri, yox oldu onlar,
Sonra həzrət Luta qonaq oldular.
Axşam tərəfidir, qurtarmışdı iş,
Qonaq saxlamağı etdilər xahiş.
Həzrət sıxılsa da, gəldilər evə,
“Deməyin qonağıq”-etdi əlavə.
Həzrət öz evində etdi xəbərdar:
-Şəhərdə qonaqlar olmasın izhar.
Əgər eşitsələr Səddum tayfası,
Yığışıb gələcək çönüb qafası.
Kişi ilə kişi yatardı orda,
Qonaqlar zorlanar həmin diyarda.
Lut bəd arvadına evi bağladı,
Qadın sirri yenə aləmə yaydı.
Evinin damında qaladı ocaq,
Ki“Tez gəlin bizə, evdə var qonaq”.
Səddum qəbiləsi tutdular xəbər,
Məcburən girdilər evə birtəhər.
Lutdan qonaqları etdilər tələb:
-Gizlətmə onları, bizimdir bu dəb.
Lut xeyli yalvardı kafir bəndəyə:
-Son qoyun bu çirkin işə, əyriyə!

Dedilər Həzrətə xeyli acı söz,
Xəcalət tərindən islanmışdı göz.
Qonaqlar çıxdılar evdən eşiyə,
Barmaq uzatdılar gələn "elçiyə".
Birdən göz qamaşdı, alov ucaldı,
Səddum adamları kor olub qaldı.
Peyğəmbar görərək belə haləti,
Gözləri böyüdü, ürpəşdi əti.
Qonaqlar dedilər:-Hamıya örnək,
Biz bəşər deyilik, mələyik, mələk.
Səhər sübh buralar viran olacaq,
Göydən od yağacaq, yer alışacaq.
Allahdan fərmaiş gəlibdir gerçək,
Bu kafir diyarı dağılsın gərək.
Öz adamlarını götür, uzaqlaş,
Xain arvadınsa yanacaq birbaş!.
-Kaş yanıb kül olsun belə camaət,
Sübh uzaq deyilmi?-tələsdi Həzrət.
Lutlə uşaqları getdilər ordan,
Səddum qəbiləsi oldular viran.
İylənmiş su artıb daha çoxaldı,
"Bəhri-Lut" deyildi, belə ad aldı.
Allah həzrət Luta verərək nicat,
Çıxdılar oradan qohumlar rahat.
Sonra İbrahimin yanına gəldi,
Tayfası birləşdi, əhval düzəldi.

# Həzrət İshaqın Anadan Olması (s)

İsmayıl gəlmişdi on üç yaşına,
Anası çəkirdi sığal başına.
Mələk ,İbrahimə vermişdi xəbər,
Uşaq olacağın demişdi səhər.
Fələstin torpağı, günəşli bir gün,
Şad xəbər eşitdi camaat bütün.
Yetmiş beş yaşında həzrəti Sara,
Uşağı doğuldu, Allahdan çara.
Həmin gün quşlar da,nəğmə oxudu,
Kənan camaatı şad- xürrəm oldu.
Həzrəti İbrahim kəsərək qurban,[19]
Evlər işıqlandı, oldu çıraqban.
Allahın vədəsi göyərib bitdi,
Saranın arzusu yerinə yetdi.
Adı İshaq oldu, getdi iztirab,
Sevinc qığılcımı qoxudu gülab.
Ellər“Əhsən”-dedi, oldu möcüzə,
Xoş əhval yayıldı evlərə, düzə.
İshaqın bir yaşı olanda tamam,
İsmayıl da gəldi, verərək ilham.
İbrahim Peyğəmbər, iki oğlunu,
Tarixdə ilk dəfə dəb qoydu bunu.
Bir də ki, özünü etdirdi sünnət,
Vacib oldu ümmətinə bu adət.
İsmayıl qayıtdı, əzizdi Vətən,
Məkkə torpağına tələsdi həmən.



# Həzrəti İbrahim Həzrəti İsmayıl İlə Kəbə Evini Tikirlər

Adətinə uyğun Peyğəmbər, yenə,
Azuqə apardı Hicaz elinə.
Arvadı Hacərlə qaldı bir müddət,
Oğlu İsmayılla edərək söhbət.
Allahdan Həzrətə gələrək fərman:
“Kəbəni tikməyə başlayın haman!”.[20]
Hündür bir təpəni yoxladı, seçdi,
Oğlu İsmayılla xeyli yol keçdi.
İsmayıl dağlardan seçirdi göy daş,
Ataya oğuldur, həm də ki, sirdaş.

Dünyanın əzəlin, sonunu bilən,
Allahdır hər şeyi nizamla düzən.
Başlandı orada  fərəhli bir iş,
Hər gün tikintidə gedir yüksəliş.
Kəbənin divarı hər gün gül açır,
Hicaz torpağına günəş nur saçır.
Divar hörmək üçün durur daş üstə,
Quşlar dövrə vurur başının üstə.
"Məqmı İbrahim"-adlandı o daş,
Keçdi nəsillərə, izləndi yaddaş.
Deyirlər həmin gün İldırım çaxdı,
Dağlara, daşlara gurultu axdı.
Endi yanar kürə, düşərək dağa,[21]
Büründü ətraflar parlaq işığa.
İbrahim sübh çağı dağda göründü,
Parıldayan o daş tarixə döndü.
Uzaqdan-uzağa parlayır, yanır,
Baxanın gözləri hey işıqlanır.
Sevinə - sevinə gətirdi daşı,
Onlar fırlandılar hey divar başı.
Daşı bənd etdilər, o pak divarda,
Hansı ki, boş bir yer qalmışdı orda.
Müqəddəs daş yerin divarda aldı,
Hər üçü sevindi, çox məmnun qaldı.
Qara daş haqqında başqa bir fikir:
"Adəmdən yadigar"deyən həmfikir.
İbrahim dağlardan, o daşı tapmış,
Kəbə divarına bənd etmiş, yapmış".

Məkkədə ucaldı müqəddəs məscid,
Şərqdə, qərbdə qapı, şərəfli, məcid.
Hər iki qapıda ətirli otlar,
Hacər örtük saldı, şad oldu onlar.
Əyildilər ata, oğul səcdəyə,
Qoşa əllərini qaldırıb göyə.
Allah dərgahına üzün tutdular,
Allaha bir daha yaxın oldular:
-İlahi, qəbul et öz evini sən!
Həqiqətən sən eşidən, bilənsən.[22]
Etmişik hər zaman sənə itaət,
Göstərmə bizlərə İlahi, şiddət.
Tövbəni, günahı sənsən əhv edən,
Ey böyük Allahım, mərhəmətlisən.
Həccin qaydaların öyrət sən bizə,
Peyğəmbərlər yolla həm nəslimizə.
Həzrəti Cəbrail göylərdən endi,
“Duan qəbul oldu”-danışıb dindi.
Həccin qaydaların ona öyrətdi,
Ağ paltar geyməyi tövsiyyə etdi.
Zəmzəm suyu ilə qüsul verməyi,
Kəbə ətrafında təvaf etməyi.
Səfa, Mərvə yeddi dəfə hərəkət,
Möminləri həccə edəsən dəvət.
Həzrət İbrahimə verdi göstəriş,
Dərhal da Kəbədən etdi pərvəriş.
Həzrəti İbrahim zirvəyə qalxdı,
Günəş də boylanıb Kəbəyə axdı.

Bütün insanları çağırdı Həccə,
Göz yaşı süzüldü hey bircə-bircə.
Həzrətin səsinə vermədilər səs,
O il ziyarətə gəlmədi bir kəs.
İbrahim, İsmayıl, bir də ki Hacər,
Ziyarəti əvvəl onlar etdilər.
İlk hacı adını aldılar onlar,
Bir daha Allaha yaxın oldular.



# Həzrəti İbrahimin Oğlu İsmayılı Qurban Kəsmək İstəməsi

Həzrəti Cəbrail göylərdən endi,
Allahın dostuna göstəriş verdi.
-Ərəfat, Minaya yubanmadan get,
Gecəni qalarsan, sərəncama yet!.

O, deyilən yerə vaxtında çatdı,
Ərəfatda gəzdi, Minada yatdı.
Zilhiccə ayında, səkkizinci gün,
Tərviyə adlandı o gün büsbütün.
Gecə aləmində yatdığı yerdən,
Həzrəti İbrahim oyandı birdən.
Gördüyü yuxudan dəhşətlər duya,
Uzanıb təzədən getdi yuxuya.
Yenə də yuxuda gördü, sərasər
Diksinib ayağa qalxdı birtəhər.
"İsmayılı qurban kəsir Rəbbinə".
Həzrət, başın aldı iki əlinə:
"Bunu İsmayıla anlatsın necə?"
O,başını tutdu, yatmadı gecə.
Əyləşdi torpağa, ürəyində qəm,
Başı əyilmişdi, gözlərində nəm.
Görərək atasın İsmayıl bihal,
Soraraq:-Atacan, nədir ki bu hal?
Beynini, qəlbini nədir dağlayan?
Tez aç ürəyini, nədir sızlayan?
-Röyada gördüyüm, ağrılı bir an,
Səni Allahıma kəsirəm qurban.
-Ey uca Allahın əziz Xəlili,
İmtahan vaxtıdır, sən ol ürəkli.
Yubatma bu işi, ey ata, bitir,
Allahın əmrini yerinə yetir.
İsmayıla əvəz vardır yanında,
Allaha əvəz yox bütün cahanda!

Gedəndə anama deyərsən salam,
Gözümü bağla ki, olma bitamam.
Sevgi üstün gələr, əllərin əsər,
Allahın fərmanı bəlkə gecikər.
Məni sən görərsən mətin,səbr edən,
Əlimi bağla ki, tərpənməyim mən.
Atacan, bıçağı itilə yaxşı,
Kəsilsin rahatca oğlunun başı.
Ata, inciməyim dəhşət ağrıdan,
Nigaran olma sən oğlun sarıdan...
Atanın gözündən yaşlar axırdı,
Ürəyi çırpınır, göz qaralırdı.
Allaha sevgisi övladdan yüksək,
İmtahan verirdi İbrahim, gerçək.
İsmayılın əl -ayağın bağladı,
İçin-için, hönkür-hönkür ağladı.
Sonra İsmayılı bağrına basdı,
Ürəyindən ağır-ağır daş asdı.
Gözlərini öpdü, ürəy dağladı,
Ata, oğul için- için ağladı.
İmtahan verirdi oğulla, ata,
Mələklər baxırdı səmadan alta.
Peyğəmbər alaraq bıçağı ələ,
Ağlaya -ağlaya gələrək dilə.
Üzünü göylərə tutdu bir daha,
Dualar oxudu uca Allaha.
Bıçağı boynuna çəkdiyi zaman,
Həzin səda gəldi:“İbrahim,dayan!

Allah qarşısında verdin imtahan!
Əvəzə qoyun kəs, İlahi fərman!”.
Səsə çevrilərək həzrət İbrahim,
Qərarı dəyişmiş, o böyük hakim.
Gördü gözəl bir qoç aşağı enir,
Mələyə- mələyə onlara gəlir.
Dodaqları əsdi, ürək döyündü,
Hər iki yanaqda damcı göründü.
Səcdə etdi Yaradana bir daha,
Ata-oğul ağlayırdı Allaha.
İsmayıl gedərək qoçu gətirdi,
Qurbanlıq qoç kəsib işi bitirdi.
O ildən başlandı belə bir adət,
Müqəddəs Məkgəni edən ziyarət.
Dünya üzərində hər bir müsəlman,
İsmayıl qurbanı kəsər hər zaman.

## İbrahim Peyğəmbərin Vəfatı. Həzrəti İshaq (s)

Günlər ötdü, aylar, illər dəyişdi,
Həzrəti Saranın ömrü yetişdi.
Həzrəti İbrahim Harun elindən,
Torpaq satın aldı bir şəxs əlindən.
Həzrəti Saranı kəfn-dəfn etdilər,
Çox yerdən insanlar yasa yetdilər.

Həzrətin məqsədi otlaqlar tapmaq,
Qoyun sürüsünə köçələr yapmaq.
Təəssüf ki, Saranı yolda itirdi,
Kənana Sarasız özün yetirdi...
İshaq, əmisinin yanına getdi,
Hərranda evlənib Kənana yetdi.
Arvadı Rəfqadan oğlanlar əkiz,
Hər iki oğlunu tuturdu əziz.
Adları Yəqub, Eys,-hər iki uşaq,
Ata, anasına olmuşdu dayaq.
Həzrət yüz yetmiş beş yaşıni atdı,
Ömrünü əridib sonuna çatdı.
Yığdı övladların yanına, əlbət,
Ömrü yetişmişdi, etdi vəsiyyət:
-Allahın dinindən düşməyin uzaq,
Halal çörək yeyin, olmayın nahaq.
Tək olan Allahı siz tutun əziz,
Hər gün dua edin ona şübhəsiz...
Həzrəti Əzrail gəldi yanına,
Ömrünün çatdığın ərz etdi ona.
-Dost dostun canını belə tez almaz,
İşlərim lap çoxdur, on ilə çatmaz.
Əzrail qayıtdı, Allaha dedi,
Onun dediyini Allah bilirdi:
-"Dost dostla görüşə etiraz etməz,
İbrahimə deynən o, daha dinməz".
Həzrət gözləyirdi, Əzrail yetdi,
Eşitdi sözləri o, gülümsədi.

Tapşırdı evini oğlu İshaqa,
Tərk etdi dünyanı, qovuşdu haqqa.
Qəbri Sara yatan bir mağarada,
Qüdsi-Xəlilullah adlanır o, da.



# Həzrəti İsmayıl, həzrəti İshaqın Vəfatı. Yəqub Peyğəmbərin əhvalatı (s)

Həzrəti İsmayıl dolaraq yaşa,
Şərafətli ömrü yetişdi başa.
Seyyidə xatundan on iki oğlu,
Ərəbə yayıldı tayfası, qolu.
Oğlu Nəbatiyə vəsiyyət etdi,
Yüz otuz yaşında həyatı bitdi.
Anası Hacərlə yanaşı qəbri,
“Hacəri-İsmayıl”ad aldı yeri...
Həzrəti İshaqın varı çoxaldı,
Qoyun sürüləri, otlaqlar aldı.

Hər şeyin əzəli, hər şeyin sonu,
Həzrət də,geyərək qocalıq donu.
Gözlər zəiflədi, beli əyildi,
Ömrünün qürubu axır ki, gəldi.
O, oğlu Yəquba, etdi vəsiyyət,
Allahdan istədi ona nübüvvət.
Eys xəbər tutdu, yarandı nifrət,
Başlandı Yəquba açıq ədavət.
Qərarını verdi:"Yox olsun qardaş"
Onun ürəyindən asıldı bir daş.
Biçarə anası eşitdi bunu,
Gizlənməyə vadar etdi oğlunu.
Yəqub dayısına, Hərrana getdi,
Yolda bir ağacın altına yetdi.
Yorulmuşdu yatdı, görərək röya,
Yerdən ucalmışdı nərdivan, Aya.
Mələklər oradan qalxıb enirdi,
Yəqubun yanında dövrələnirdi.
Birdən qulağına xoş nida gəldi,
Allahdan Yəquba müjdə verildi:
"Ey Yəqub,üzülmə,amandasan sən,
Var-dövlətin olar, yüksələcəksən.
Sənə, züryətinə haqdan nübüvvət,
Allahdandır bunlar, verilir qüvvət"
Yəqub bu röyadan xeyli oldu şad,
Ürəyi sevindi, gözləri gülşad.
Dayısı Ləbbanın yanına gəldi,
Bir müddət yaşadı, əhval yüksəldi.

Dayısı qızına verərək könül,
Dedi dayısına, gözlər açdı gül.
Ləbban çox hörmətlə dinlədi onu:
-Böyük qızı verək, sonra da bunu.
Böyük qız köçməsə adətə görə,
Kiçiyi köçürmək ayıb bizlərə.
Yəqub böyük bacı Liyanı aldı,
Bir müddət Rəhillə nişanlı qaldı.
Başlıq parasını ödəmək bir şərt,
Hərranda dəqiqdir həm belə adət:
"Hər qıza yeddi il işləyə gərək,
Çobanlıq edərək qazana çörək"...
Liyadan, birdə ki, hər iki kəniz,
On oğlan doğuldu, oldular əziz.
Rəhildən hələ ki, yox idi övlad,
Allah sevindirdi, Rəhil oldu şad.[23]
Uşağın adını qoydular Yusif,
Üzdən nur tökülür, gözləri arif.
Deyirlər, həmən gün ildırım çaxdı,
Kahinlər evindən od -alov qalxdı.
Artıq tamam oldu qoyulan müddət,
İcazə istədi vətənə Həzrət.
Dayısının qəlbin bürüdü kədər,
Söylədi Yəquba, ağladı gözlər:
-Sənin ayağında vardır bərəkət,
Kaş ayrı düşməyə ailə, külfət.
Gəl bölək sürünü ikiyə, yarı,
Birinci bölümdən doğulanları.

Erkək doğularsa hamısı sənin,
Əhdə vəfadaram, gəl olma bədbin.
O ildə doğuldu qoyunlar erkək,
Yəquba Xudamız eylədi kömək.
Dayısı əhdinə edərək əməl,
Erkək quzuları verdi əlbəəl.
Getməyə qoymadı, üzüldü yenə,
Başqa şərt söylədi kürəkəninə:
-Dişi doğularsa bu il qoyunlar,
Hamısı sənindi yenə də onlar.
Əl -ələ verərək razı qaldılar,
Bir il də qalmağa qərar aldılar.
Qoyunlar bu dəfə doğuldu dişi,
Nə gözəl Allahın hər fərmaişi.
Yəqubun sürüsü xeyli çoxaldı,
Vətənə getməyi qərara aldı.
Qohumlar, tanışlar görüşdü bir-bir,
Sübh tezdən Vətənə onlar köç edir.
Get -gedə Vətənin gəlirdi iyi,
Yəqubun sevinir, gülür ürəyi.
Yəsir torpağında çadır qurdular,[24]
“Özləri dinlcəlsin”-deyə durdular.
Bu torpağda sakin bədzat qardaşı,
Artıb çoxalmışdı qul- qaravaşı.
Həmin gün şikara çıxmışdı onlar,
Yəqubun köçünə yaxınlaşdılar.
Görəndə qardaşın qorxaraq ondan,
Çadırda gizləndi can qorxusundan.

Tapşırıq verdi ki, gələrsə əgər,
Sürünün sahibin istərsə əgər.
Deyin ki,Yəqubdur,Eyisin qulu,
Əslində Eysindir, biz də ki,qolu.*
Eyslə adamları gəldi yaxına,
Yəqubun sözləri çatanda ona.
Ürəkdən silindi kin- küdurəti,
Közərdi, alışdı can məhəbbəti.
Düşərək atından yaxına gəldi,
Ağlaya -ağlaya ucadan dedi:
-İshaq oğlu Yəqub Eyslə qardaş,
Bir ürək parçası, qanı bir sirdaş.
Yəqub tez çadırdan bayıra çıxdı,
Qardaş məhəbbəti çağlayıb axdı.
Qardaşlar ağlayır, göydə də duman,
Sanki olmamışlar incik bir zaman.
Yəqubun şəninə göstərdi hörmət,
Onun şərəfinə verdi ziyafət.
Yəqub qardaşına bağışladı mal,
Kindən-küdurətdən qalmadı bir hal.
***-köməyçi**



# Bünyaminin Anadan Olması.
# Rəhilin Vəfatı

Yolda müsibətə oldular düçar,
Rəhil yolda doğdu,qaldılar naçar.
Çoxlu qan itirdi ana biçarə,
Tapılmadı dərman, olmadı çarə.
Həlak oldu özü, sağ qaldı övlad,
Bünyamin adlandı, verilərək ad.
Beytilhəmdə ona qazıldı məzar,
Kənan torpağına gəldilər ağlar.
Yaşayırdı hələ atası İshaq,
Yaşı yüz səksəndi,xəbərdar olaq.

Oğlunu görəndə sevindi Həzrət,
Onun ürəyinə yetişdi qüvvət.
Ayaqlar əssə də durdu ayağa,
Özünü toplayıb gəldi qabağa.
Ata- oğul həmən açaraq qucaq,
Həsrət tellərini kəsdi bu sayaq.
Həzrəti İshaq da olaraq rəhmət,
Yaxından, uzaqdan yığışdı külfət.
Gəlib cəm oldular onlar bir yerə,
Xidmət göstərdilər ona son kərə.
Həzrəti İbrahim uyuyan torpaq,
Həzrəti İshaqa açaraq qucaq.*
Eyis yubanmadan qayıtdı geri,
Yəsir torpağıydı onun iş yeri.
Həzrət İsmayılın öz doğma qızı,
Eysin zövcəsiydi bir dan ildızı.
Dəməşq tərəflərə malik oldular,
Xeyli çoxaldılar, ora doldular.
Yəqub atasının yurdunda qaldı,
İsrail adını orada aldı.[25]
Allah nübuvvətlik bəxş etdi ona,
Nəslini artırıb yaydi hər yana.

*-bir yerdə



# YUSİF VƏ ZÜLEYXA (s)



# Həzrəti Yusifin Uşaqlığı

Yusif  anasını itirdi erkən,
Ürəyi alışdı kədərdən, qəmdən.
Dərdini kimsəylə bölmədi, düzü,
Uzun zaman onun gülmədi üzü.
Bir nur parçasıydı gözləri, sifət,
Bal kimi sözləri, dildə bəlağət.
İnci tək söz seçir,süzür dilindən,
Alqışlar alırdı Kənan elindən.
Gözəllikdə yoxdur ona bərabər,
Ağıl-kamalından söz açır ellər.
Atası daha çox sevirdi onu,
Ata sevgisinin yox idi sonu.

Gözündən qoymazdı onu uzağa,
Onunla dönürdü ürəyi dağa.
Atadan qardaşı on bir nəfərdi,
Bünyamin doğmaydı, anası birdi.
Bənizi günəş tək saçırdı işıq,
Peyğəmbər çöhrəsi, vardı yaraşıq.
Qardaşları onu qısqanır çoxdan,
Yusifi nifrətlə süzürlər hər an.
Günlərin birində doqquz yaşında,
Gözəl yuxu gördü sübhün başında:
"Günəşlə Ay, on bir Ulduz baş əyir,
Yusifin önündə həmən görsənir".
Yuxusun ərz etdi, dinlədi ata,
Bir-bir gördüyünü salaraq yada:
-Ata, onlar sanki canlı idilər,
Mənə gülümsəyib təzim etdilər.
Yəqub Yusifini diqqətlə süzdü,[26]
Ata xoş sözləri saplara düzdü:
-Allah həyatını hey yüksəldəcək,[26a]
Sənə bütün dünya başın əyəcək.
Bu sirri saxla ki, olmasın izhar,
Yoxsa ki, qardaşlar olar xəbərdar.
Agah olsalar ki, sirrindən əgər,
Xar olar həyatın, istirab çəkər.
Ancaq qardaşları tutdular xəbər,
Yusifin həyatı hey oldu kədər.
Qardaşlar düşünüb oldular əlbir,
Onu öldürməyə qurdular işbir.

Yusifin yanına gəldilər həmən,
Nəvaziş etdilər bayağı dildən:
-Gəl sən də bizimlə gedək çöllərə,
Baxaq dağda, düzdə bitən güllərə.
Oynayarsan bizlə, könlün xoş olar,
Evdə darıxmaqdan ürəyin solar.
Həzrəti Yəquba onlar dedilər,
Ona dil tökdülər, söz də verdilər:
-Atacan, Yusif də bizimlə gəlsin,
Dağda, düzənlikdə gəzib dincəlsin.
Atası Yusifi hədsiz çox sevir,
Uzağa göndərmək onu istəmir.
Onlara etmirdi Həzrət, etibar,
Qorxurdu onları şeytan azdırar:
-Qorxuram ki aza, canavar yeyə,
Gözlərim kor olar, belimi əyə.
-Ata,söz veririk, narahat olma,
Ozünü əzaba, kədərə salma.
Axır ki, Həzrəti razı saldılar,
Əyri işlərindən sevinc aldılar.
Yolun ortasında gəldilər dilə,
Onu incitdilər, saldılar ələ.
Dəyişdi durmadan saxta üzləri ,
Masqadan silindi şeytan gözləri.
Quduz canavara döndülər onlar,
Əsəbdən dişləri kəsdi dodaqlar.
Yəhuda silləni vuraraq üzə,
Sərhəd saxlamadı o, acı sözə.

Yusifin burnundan açılaraq qan,
Bir kimsə olmadı uşağa həyan.
-Axı, mən sizlərə doğma bir qardaş,
Atamız Yaqubdur, sizə mən sirdaş.
-Zəhlə tökən, yalançının birisən,
Yaqubun yox, Rəhilədən yetimsən.
Yalançı yuxunla istəyirsən sən,
Bizləri özünə kölə edəsən?
Atamız hamıdan səni çox sevir,
Səni əzizləyir, diqqət göstərir.
Yuxarı qaldırdı Yəhud qılıncı,
İstədi doğraya, çəkdirə acı.
Levi qışqıraraq:-Yəhud bir dayan!
Axıtma çöllərə günahsız bir qan!
Yəsakir, Dan söylədilər:-Nə,edək?
Zəbulun, Cad dedilər ki:-Düşünək.
Rubil, Əşir, Nəftal gəlib durdular,
Şəmunun fikrinə şərik oldular:
-Gəlin yaxınlıqda quyuya ataq,
Yusifin şərindən canı qurtaraq.
Orda ölməsə də bir kimsə tapar,
Ya bəlkə tacirlər aparıb satar.
Tapdılar hamısı bu işə çarə,
Yusif sə qalmışdı aciz, biçarə.
Allaha yalvarıb edirdi fəryad,
Ağlayıb onlardan istəyir imdad:
-Anasız uşağam atmayın məni,
Ağladıb üzməyin ata qəlbini.

Ah, yumuşalmadı o, vəhşi üzlər,
Daha vəhşiləşdi ,o nadan gözlər.
Qardaşlar uşağın qolun burdular,
Quyuya ataraq kələk qurdular.
Yusif  bihuş oldu, bataraq suda,
Allah daş yetirdi tutaraq  o, da.
Qalxdılar birlikdə suyun üzünə,
Huşunu qaytardı onun özünə.
Yaxında eşitdi çox həzinli səs:
“Yusif, üzülmə sən, gələcək,o kəs”.
Mələyin səsindən o, vəcdə gəldi,
Gözlər işıqlandı, ruhu yüksəldi.
Sonra da, gözləri yumuldu,yatdı,
Röyada qəribə hədiyyə çatdı...
Mələklər boynundan asdılar nişan,
Yusifdə yarandı təbəssüm haman.
Nişanın üstündə, o şəxsin adı,
Özü olmasa da, adı yazıldı.*
Adəmdən lap öncə nuru var imiş,
Nuh onun adını gəmidə çəkmiş.
Adına and vermiş, kömək istəmiş,
Musa da haqqında müjdə söyləmiş.
Dünya ona görə tutmuş bərqərar,
Həqq, ədalət ancaq ondan nur tapar...
Bir də gördü on bir ulduz,Günəş, Ay,
Anası  da ona çalırdı  laylay.
Quyu nurla dolmuş, işıqlı idi,
Onların hamısı gülümsəyirdi.
*-son Peğəmbər

Yusif gözlərini bu zaman açdı,
Boynunda kı, nişan gur işıq saçdı.
Bədəni dincəldi, qəm-qüssə getdi,
Ürəyi sevindi, şad- xürrəm yetdi.
Quyunun dibində, bir daşın üstə,
Yusif yaşayırdı, qəlbi ahəstə.
İnsansız çöllükdə dərin bir quyu,
Həzin çeşmə çıxır, sərindi suyu.
Üç  gün idi Yusif tuturdu oruc,
İftar açmaq üçün açırdı ovuc.
Quyu kənarında əylədi Karvan,
Su üçün gəlmişdi ora Sarivan.
Quyunun içinə ipi atdılar,
Suyun əvəzində zərə çatdılar.
Qardaşlar quyunu izləyir, baxır,
Hamısı toplaşıb oraya axır:
-Bu qul bizimkidir,-keçdilər başa,
Qiymət də kəsdilər qardaş,qardaşa.
On yeddi dirhəmə satdılar onu,
Nə oldu görəsən işlərin sonu?
Nə cavab versinlər onlar ataya?
Cumdular quzuya, kəsdilər, aya!
Qanını tökdülər, mələdi ana,
Yusifin köynəyin bulayıb qana,
Ağlaya-ağlaya, evə gəldilər:
-Atacan Yusifi qurdlar yedilər.[26b]
Peyğəmbər sarsıldı, bəd xəbər aldı,
Gedərək özündən o, huşsuz qaldı.

Sərin su tökdülər onun üzünə,
Peyğəmbər ayıldı, gəldi özünə.
Aldı köynəyini baxdı, qoxladı,
Nəsə fikirləşdi, baxdı, saxladı.
Dedi:-İnsaflıymış sizin canavar,
Köynəyinə belə diş atmamışlar.
Ata inanmadı, etdi ahuzar,
Fəryad etdi Həzrət, ağladı zar-zar:
-Yalvarıram sizə, düz deyin mana,
Sizi and verirəm, O, Yaradana.
Həqiqət söyləyin, deyin siz düzü!
Ona nə etdiniz, hardadır özü?!
İsrar etdilər ki, canavar yedi,
"Allah şahiddir ki"-onlar söylədi.
Çirkin işlərindən utanmadılar,
Yalan danışmaqdan usanmadılar.
Həzrət sarsılaraq tökdü göz yaşı,
Ağardı təmamən saqqalı, başı.



# Həzrəti Yusif Qul Kimi Satılır

Kənan torpağından gedir karivan,
Misirə səmt alır, üstündə bir can.
Həsrətlə baxırdı Kənan elinə:
“Bir də,qayıdacaqmı ana Vətənə?”
Onun gözlərindən süzülürdü yaş,
Dəvələr gedirdi ləngərlə, yavaş.
Başını döndərüb baxaraq dala,
Bəlkə də, bu çöllər yadında qala.
Həzin səs eşitdi, arxaya baxdı,
Onun gözlərindən qızıl qan axdı.
Allahım, ayrılıq necə yamandı,
Heç kimə göstərmə Allah,amandı.
“Qardaşlarım məni pula satdılar,
Ana məzarından ayrı saldılar.
Gedirəm evimdən, bilmirəm hara,

Yəqin ki, gedirəm lap uzaqlara.
Atamın əhvalı  necə olacaq?
Mənsiz necə yaşayacaq,duracaq?”.
Silərək  əliynən Yusif, göz yaşın,
Çağırmaq istədi, dik tutdu başın.
Ani fikirləşirdi:”Atam eşitməz,
Harayıma indi bir kimsə yetməz.
Əlvida ay ana ,məni bağışla,
Əlvida atacan, çevrildim qula.
Atamla, qardaşım sənə əmanət,
İlahi yazığam, səndən mərhəmət”.
Boynundan asılan göy daşa baxdı,
O daşdan qəlbinə sərin meh axdı.
Allahın vədini salaraq yada:
“Quyuda vermədi ömrünü bada.
Ona verməlidir həm məhəbbəti,
Allahın eşqidir onun dövləti.
Özünü Allaha məxsus etməli,
Onun məbudunu ancaq görməli.
Allahdır hər şeydən uca dünyada,
Ondan istəyənlər qalmaz ki,darda.
Hər şeyi nizamla yerinə qoyan.
Xudadır yaradan ey Yusif, oyan!
Niyə ağlayırsan, fəryad edirsən?
Allahın əmriylə axı gedirsən”.
Öz- özünü Yusif etdi məzəmmət:
“Daha ağlamaram”-düşündü əlbət.
Yalvardı Allaha, sovuşdu  kədər,

Karivan gedirdi, vururdu ləngər.
Sariban oxuyur, sevinirdi çox,
İşləri yaxşıydı, bir çətinlik yox.
Çıxmamış yoluna, orda yolkəsən,
Rahat gəlmişdilər,“onlara əhsən”.
Daha bilmirdilər dəvə belində,
Cəvahir gedirdi onun əlində.
Bu zərin eşqinə onlardan uzaq,
Çıxmadı önünə heç bir yalquzaq.
Karvanbaşı Malik yenə bilmədi,
Zərin qiymətini o, görəmmədi.
O Malikk ki, sonra xəbərdar olar,
Göz yaşı axıdar, zar-ar ağlayar.
Şair, gecə keçir, yoruldun daha,
Dua et, o böyük  uca Allaha.



# Həzrəti Yusif Misir Əzizinin Sarayında

Satılan mallarla Yusifi, başa!
Çıxartdı hərraca, Sariban paşa.
Misir əzizi də, gəlmişdi ora,
Baxırdı bazarda satlıq mallara.
Misir ölkəsinin böyük adamı,
Hörmət edirdilər orada hamı.
Yusif gözəllikdə əqlini aldı,
Mərifət, ədəbi kəməndə saldı.
Xəsislik etmədi almağa bir can,
Etsin Züleyxaya onu ərməğan.
Allahın yazısı beləymiş, demək,
Yusif saraylarda yaşasın gərək.

Əziz öz evinə onu gətirdi,[26v]
Saray adamları diqqət yetirdi.
Sarayda yuyunub geyərək təzə,
Köhnə paltarları atdılar közə.*
Yusifi görərək Züleyxa, haman,
Gözəllik önündə sarsıldı yaman.
Onun danışığı, ədəb -ərkanı,
Riqqətə gətirdi xeyli insanı...
Onu satan Malik tapdı sarayı,
Pulları qaytardı, saldı harayı.
Dedi:-Verin uşağı,oldum peşiman,
Qaytarın Yusifi amandır, aman!
Əziz onu sarayından qovladı,
Malik fəryad etdi, hönkür ağladı...
Yusif qazanaraq özünə rəğbət,
Misir əzizində ona məhəbbət.[27]
-Götürək Yusifi biz oğulluğa,
Biz də sahib olaq yaşıl budağa.
Deyərək, bildirdi o, Züleyxaya,
Maliyə naziri bilmədi, aya!
Sonra başqa səmtə dönəcək həyat,
Kökdən dəyişəcək, gələcək bir vaxt.
Günlər keçir, aylar bir-bir ötürdü,
Yusif namaz qılır, hey düşünürdü.
Yaş gəldikcə onun yaşının üstə,
Züleyxa baxırdı ona ahəstə.
Alırdı Yusifi hər gün yanına,
Sevgi göstərirdi həmişə ona.
*-yandırıldı

On səkkiz yaşına çatmışdı artıq,
Allah kəsməmişdi ondan yaraşıq.
Çöhrəsi Günəşə olaraq bir tay,
Görəndə çıxmırdı, utanırdı Ay.
Onu bir görənlər edirlər heyrət,
Sarsılır yerində, olmurdu halət.
Mərifət, ədəbi ürək fəth edir,
Mənalı sözləri qəlb sevindirir.
Bütün saray əhli onun aşiqi,
Ondan başqa yox idi ki, laiqi.
Züleyxa olmuşdu Yusifə heyran,
Görməyəndə onu yandırır hicran.
Məhəbbət alovu əridir onu,
Görən nə olacaq eşqinin sonu?
Misir ölkəsinin gözəl xanımı,
Deyirdi:-Dincəltsin,alsın canımı.
Eşqin qirdabında alışım, yanım,
Onun qucağında yatım, ayılım.
Çağırdı, söylədi:-Ol mənə dərman,
Bu xəstə könlümə olginən loğman.
Dərdliyəm, dərdimə olasan şəfa,
Sevindir sevəni, olma bivəfa.
Dedi:-Alovlanır, eşqlə yanıram,
Mən ona aşiqəm, onu anıram.
Onsuz zindan olsun mənə bu aləm,
Ey Züleyxa, bil ki, onu sevirəm!
-Kimdir ürəyini belə fəth edən?
Sevən bu qəlbimi üzürsən,nədən?

-Mənim sevgim ucadan da, ucadır,
Ona bəşər çatmaz, eşqim Xudadır.
Bütün canlıları odur yaradan,
Yenə də aparan, silən aradan.
Allahı sevirəm, ürək onundur,
Ağır dərdlərimin pənahı odur.
Canlılar, cansızlar onun yanında,
Yaratmaq, aparmaq ixtiyarında.
Haramdır, Züleyxa, ayıl,bunu bil!
Allahın önündə ey qafil, əyil!
Əziz, öz evində məni yüksəltdi,
Çörək, paltar verdi, etibar etdi.
Mən necə ərinə xəyanət edim?
Allahın yanında xəcalət çəkim?
Başqa adamınsan, onun varısan,
Yusifə haramsan, özgə yarısan.
Züleyxa eşitdi belə sözləri,
Yağışa qərq oldu sevən gözləri.
Eşqi, məhəbbəti çoxaldı daha,
Ürək qubar etdi, dözmədi aha.
Geri çəkilmədi eşq xülyasından,
Misir torpağında car oldu dastan.
Sarayda kimsələr olmayan zaman,[27a]
Qapılar bağlandı Yusifə haman.
Çağırdı Yusifi, gəldi qabağa,
Yenə boylanaraq yaxın, uzağa.
Söylədi:-Əzizim,mənəm cananın,
Eşqin ocağında sənin yananın.

Dərdindən olmuşam dəli- divanə,
Şam kimi yanırsan, mənsə pərvanə.
Sənin məhəbbətin öldürür  məni,
Mən hara gedim ki, unudum səni?
Ey gül üzlü cavan, indi səninəm,
Həyatda nə desən mən sənə verrəm.
Bəsdir uzaq qaçdın, sevgilim yetər!
Gəl oxşa qəlbimi, bilməz kimsələr.
Züleyxa örpəyi çiynindən aldı,
Tez daş allahının üzünə saldı.
-Niyə örpəyini üzünə saldın?
Çiynindən örpəyi nədən ki,aldın?
-Utanıram allah görməsin bizi,
Yoxsa bağışlamaz heç birimizi.
-O daş heykəlindən utanaraq sən,
Tez açdın örpəyi çiyinlərindən.
Sənin o daş bütün Allaha möhtac,
Bütün müşgüllərə Allahdır əlac.
Mələk göydən endi, gətirdi xəbər:
“Qaç burdan qapıya ,sınar cəftələr”.
Yusif eşidərək qapıya qaçdı,
Onun ürəyində gül -çiçək açdı.
Bir əfi ilandan qaçırdı yalqız,
Allahı köməyə çağırır yalnız.
Əl atdı qapıya, cəftələr dəmir,
Açılır önündə, gəlmir səs- səmir.
Yusif son qapıya çatanda haman,
Züleyxa köynəyi cırdı arxadan.

Qaçmaq istəyəndə yenə irəli,
Misir əzizinin görsəndi əli.
Züleyxanın əri girdi otağa,
Züleyxa qızardı, keçdi bucağa.
Qadını Yusiflə qan- tər içində,
O, görür onları evin içində.
Züleyxa ağlayır, əl atır başa,
And içir bütünə, evdəki daşa:
-Məni zorlayırdı sənin bu qulun,
Ən ağır cəza ver, xəbərdar olun!
Kəniz də söylədi:-Xanımım naçar,
Mən də şahidiyəm,Yusif  günahkar.
Yusif sakit- sakit onlara baxdı,
Onun ürəyindən qəm- kədər axdı.
Misir əzizinə tutdu üzünü,
Hər şeyi danışdı ,sözün düzünü:
-Züleyxa aşiqdir əzəldən mənə,
Heç zaman xəyanət etmədim sənə.
Sarayda böyüdən, şan-söhrət verən,
Sənsən sarayında hörmət göstərən.
Allaha aşiqəm yalnız əzəldən,
Ərli qadınlara göz dikmərəm mən.
Allah icazəsi mənə olmadan,
Subay qadınlar da, haramdı inan.
Allah hüzurunda ağ kətan kimi,
Günahsız tərk edim mən bu aləmi.
Misrin Əzizi də, qalmışdı çaşqın,
Kimə inansın ki, susurdu dalğın.

Züleyxa, kənizi dil -dil ötürdü,
Həqq əldən gedirdi,Allah görürdü.
Allahdan fərmaiş Yusifə gəldi,
Kədərli ürəyi dərhal düzəldi:
"Sən çağır köpəni, anayla gəlsin,
Soruş həqiqəti, dillər kəsilsin".[27b]
Yusif tez dilləndi, baxdı Potifar:
-Mənim sözlərimə bir şahidim var.
Tez Misir Əzizi soruşdu ondan:
-Danışın, söyləyin bizlərə haman!
...Sarayda bir körpə uşaq yaşardı,
Gülüşü, sevinci aşıb- daşardı.
Axır zamanlarda olmazdı rahat,
Ana qucağında tapardı həyat.
Saray dəhlizində gəzərdi ana,
Məhəbbət göstərər, süd verər ona.
Uzaq bir mahaldan gəlmiş saraya,
Qohumluğu çatır həm Züleyxaya.
Peyğəmbər onları hərdən dindirər,
Başına əl çəkər, xoş üz göstərər.
Uşaq hey ağlayıb çığıran zaman,
Yusif köməyinə çatardı haman.
Uşağı nazlayar,sağlıq umardı
Uşaq sakitləşər, gözün yumardı...
Yusif dərhal getdi, uşaqla gəldi
Bu uşaq şahiddir, gözlərin sildi.
Gözlər iriləşdi, gülüşdü onlar:
-Dil açmayan körpə necə danışar?.

Qaldırıb əllərin uca Allaha,
Yusif dua etdi ona bir daha.
Saray adamları kəsilib qulaq,
-Necə danışacaq bu körpə uşaq?
Onlar bilmirdilər istəsə  Allah
Daşlar da danışar,açar düzəngah.
Yusif duasını qurtaran zaman,
Uşaqdan səs gəldi danışdı haman:
-Əgər cırılıbsa  köynək qabaqdan,
Yusifdir günahkar, deyir Yaradan.
Yox, əgər arxadan cırılsa köynək,
Züleyxadır səbəb, həqiqət  gerçək.
Saray adamları qaldılar çaş- baş,
Yusifə baxdılar gözlərində yaş.
Cırılmış köynəyi onun arxadan,
Ey uca Allahım sənsən yaradan.
Züleyxa başını aşağı saldı,
Misir Əzizindən töhmətin aldı:
-Hiyləgər qadınlar qan çalovudur,
Şeytanın özüdür, bir alovudur.
Tövbə et əməldən, öz günahından,
Günahsız cavanın dərdli ahından.
Məsum bir insana rəhmin gəlmədi?
Ürəyin daş oldu, şərəf  bilmədi".
Yusifə üz tutdu söylədi:-Cavan!
Sənin barəndə də oldum bədgüman.
Bağışla, əgər ki, qəlbinə dəydim,
Acıqla danışdım, hissini əydim.

Üzünü tutaraq  saray əhlinə:
-Bu sirr yayılmasın Misir elinə!
Züleyxanı sonra əfv etdi əziz,
Ürək qübar etdi, yandı şübhəsiz.
Əziz, Züleyxanı hədsiz sevirdi,
Onun məhəbbətin sadiq bilirdi.
İndi anladı ki, uğursuz, bədbəxt,
Əzilən həyatı, əzilən bir bəxt.
Ürək alışaraq, gördü xəyanət,
Bir daha gülmədi, öldü dəyanət.
Yusifi sevirdi övladı təki,
Onun düzlüyünə yox idi şəkki.
Züleyxaya eşqlə bir də baxmadı,
Bir daha ürəyi ona axmadı.
Ürəyində pünhan qaldı dərd-səri,
Yaralı, kimsəsiz gəzir sərsəri...
Züleyxa atmayır geriyə addım,
Elə hey düşündü:”Eşqimə çatım”.
Pünhan olan sirri xalqa oldu çar,
Şəhər camaatı oldu xəbərdar.
Saraydan bayıra çıxmadı çölə,
Qapandı evinə, sanki bir kölə.
Hər gün sifarişlər edərək ona,
Ya da çağıtdırır onu yanına.
Ovçunun oxları getsə də, boşa,
Yenə də vurmağa çalışır, haşa!
Tələlər qururdu hər cığırında,
Düşmürdü tələyə sevgili can da.

Züleyxa vurulmuş gözəl cavana,
Lakin biganəydi onun ruhuna.
Züleyxa və Yusif söz-söhbətləri,
Dəldi divarları, gəzdi şəhəri:
“Züleyxa quluna eşq elan etmiş,
O,qul Züleyxanın əksinə getmiş”.
Belə söhbətlərlə dolmuşdu şəhər,
Evlərdə, küçədə hər axşam, səhər.
Ancaq Züleyxadan gedirdi söhbət,
Misir gözəlinə azaldı hörmət.
Züleyxa kənizə göstəriş verdi,
Zəngin qadınları o, dəvət etdi.[27v]
Saraya onları çağırdı qonaq,
Hamıyla görüşdü, açıldı dodaq.
Süfrəni bəzətdi Züleyxa şövqlə,
Ülgüclü bıçaqlar düzüldü zövqlə.
Züleyxa Yusifə verdi göstəriş:
-Gözəl paltar geyin,budur fərmaiş.
Mənim işarəmlə girərsən evə,
Verərsən əlinlə əlimə meyvə!
Qadınlar əyləşib edirdi söhbət,
Gülüb danışaraq, vururlar töhmət.
Qızlar tutur onu dəhşət qınağa:
-Necə öz qulunu sevər bir ağa?
Heç danışılası söz-söhbət deyil,
Bu iş Züleyxaya yaraşan deyil.
Süfrəyə düzülmüş almalar gözəl:
-Başlayın ay qızlar, qoy işləsin əl.

Züleyxa onlardan edərək rica,
Baxırdı gözaltı zala ehmalca.
Qızlar almaları soyduğu zaman,
İşarə verildi Yusifə haman.
Qapılar açıldı birdən taybatay,
Qapıda görsəndi parıldayan Ay.
Görənlər gözlərin həmən sildilər,
Qapıdan girəni mələk biidilər:
-İnsan ola bilməz, bəlkə bir mələk,
Siz deyin Züleyxa, bizlər də bilək..
Bənizi Ay kimi saçırdı işıq,
Gözləri dəniz tək verir yaraşıq.
Danışıq kəsilmiş, susmuşdu onlar,
Gözəllik önündə donmuşdu qızlar.
Pərdə arxasından Misir əzizi,
Görürdü uzaqdan, o ağ bənizi.
Qızların əlində oynayır bıçaq,
Al qana bulaşmış,kəsilmiş barmaq.
Yox idi ağrıdan bir xəbər, əsər,
Susub baxırdılar canlı bir əsər.
Yusif şux yerişlə gəldi irəli,
Alma dolu qabı tutmuşdu əli.
Züleyxaya verdi, baxmadan belə,
Tez çıxdı otaqdan, dönərək yelə.
Züleyxa söylədi:-Ey gözəl qızlar!
Həqiqəti deyin, kimdir günahkar?
Siz indi gördünüz, titrədi bıçaq,
Əliniz kəsildi, kəsildi barmaq.

Onu tez-tez görür, ötür yanımdan,
Az qala nəfəsim çixa canımdan.
Ürək daş ha deyil, canlı bir insan,
Gözəllik önündə sarsılır bu can.
Təəssüf  ki,eşqimə verməyir cavab,
Saray zindan oldu, həyatım xarab.
Bu sevən qəlbimi sevmədi, heyhat,
Xoş sözlər söyləyib etmədi rahat.
Qızlar danışdılar hamısı bir- bir:
-O, insan deyil ki, sanki mələkdir.
Onu biz görəndə hamımız çaşdıq,
Günahsiz olmağın indi anladıq.
Züleyxa dinlədi bu xoş sözləri,
Dedi:-Siz ey Misrin şux gözəlləri.
Bir sınayın siz də, bəlkə bəxtiniz,
Zirvəyə ucalsın sizin təxtiniz.
Məni sevmədi ki,yoxdur bir sözüm,
Sizi bəlkə sevdi, ürəyim, gözüm.
Özündən arxayın üç nəfər gözəl,
Getdilər ardından onun əlbəəl.
Şirin sözlər deyib onla güldülər,
Nəvaziş göstərib dil- dil ötdülər.
Yusif  anlayaraq hiyləni, şəri,
Mərifətlə rədd etdi o, gözəlləri.
Geriyə qayıtdı yenə də qızlar,
Səma gah boşalar, gah da ki dolar.
Yayın istisində yağışlar yağar,
Gecələr yerindən parlaq ay saçar.

Küləklər qaçışar hər tərəflərə,
Ulduzlar uzaqdan boylanar yerə.
Günəş şüasını hey əsirgəməz,
Əvəzini almaz, minnət götürməz.
Bir parça torpaqdan yarandı insan,
Yenə də torpağa qaytarır zaman.
Allah yaradandı,  görəndi Allah,
Yenə həyatımız kül olar ,eyvah.
Dünyanın sirləri sonsuz bir ümman,
Hər zərrə danənin hesabı Rəhman.
Züleyxa qızlardan sordu haləti,
Onlar cavabında açdı söhbəti:
-Yusif otağından çıxartdı bizi,
Amma ki, üzmədi ürəyimizi.
Heyran olduq ədəbinə, əqlinə,
Şirin sözlərinə, şirin dilinə.
Misrin gözəlləri görmədi günah,
Hər şeyin düzünü bilirdi Allah.
Züleyxa duraraq:-Sağ olun,dedi,
Əri Potifarın yanına keçdi.
Dedi:-Barmaqların necə kəsdilər,
Bir görməklə həmən tir -tir əsdilər.
Vurdu Züleyxaya möhkəm bir sillə,
Sıxdı biləyini hər iki əllə.
Dedi:-Özün kimi yüngül qızları,
Yığmısan başına sən dayazları.
Heç zaman əsilli ərini atmaz,
Zahiri bəzəyə vurulub, satmaz.

Qadın olmalıdır ərin baş tacı,
Qadın verməməli ərinə acı.
İnsan ki, nəfsinin əsiri olar,
Şeytanın əməli qəlbinə dolar.
Sən uydun şeytana,özünü yaxdın,
Məni həm özünü daşlara çaxdın.
İndi bütün Misir bizdən danışır,
Dost -tanış içində ürək alışır.
Heç kimin üzünə baxa bilmirəm,
Saraydan kənara çıxa bilmirəm.
Axşam sübhə kimi ürəyim sızlar,
Gözüm yuxusuzdur, bədənim azar.
Sən idin qəlbimdə istəkli sevgim,
Dünyada sən idin qəlbimə hakim.
Məhv etdin arzumu, əzildim tamam,
Nüfüzum sarsıldı, puç oldu dünyam.
Bir vaxtlar deyirdin:"Sevirəm səni",
Ürəyin tez döndü, aldatdın məni.
Daha mənim üçün canlı bir ölü,
Yandırdın əlinlə açan bir gülü.
Keçmiş məhəbbətə edirəm qurban,
Səni öldürmürəm, vermirəm ziyan.
Yusifi narahat etmə sarayda,
Sizin hiylənizdən uzaq olsa da.
Görürəm həyəcan, əzablar çəkir,
Ürəyində sənə hey nifrət əkir.
Çəkildi əzizin ürəyinə dağ,
Züleyxa ağladı, qaraldı çırağ.

# Züleyxanın Səyahətə Çıxması

O eşq dəlisinin  kənizi vardı,
Sirrini kənizlə həm paylaşardı.
Kəniz də,özünə ən yaxın olan,
Züleyxanı sevir, əsirgəmir can.
Görürdü xanımı lap əldən gedir,
Hər gün arıqlayır, əziyyət çəkir.
-Əl çək bu sevdadan, söylədi ona,
Həyatın solacaq, yetəcək sona!
Züleyxa düşündü, qərara aldı:
"Bəlkə səyahətlə ürək açıldı".
Dedi:-Karı Mama hazırlıq apar,
Gedək səyahətə ,unudulsun  yar.
Nil çayında gəzək, gözəllik görək,
Quşların səsinə qulaq kəsilək.
Baş kəniz eşitdi, qızlar duydular,
Saray işçiləri çox şad oldular.
Züleyxa, ətrafda qul-qaravaşlar,
Çayın sahilinə gəldilər onlar.
Ürəkdə göz yaşı, özü birtəhər,
Çıxdı səyahətə Züleyxa səhər...
Oxucum, sizinlə saraya gedək,
Unutduq Yusifi, nə edir görək.
Çayın sahilində dincələk bir az,
Budur, evimizə yaxınlaşır yaz.
Şair,öz qarşında, o pürrəngi çay,
Ulduzlar da baxır,çox sevinir Ay.

İndi çay soyumuş, unutma bir an,
Çıx təmiz havaya, çöldə gəz-dolan.
Qəlbinə süzülsün misralar təzə,
Peyğəmbər haqqında əsəri bəzə.
Ümidəm Allahın mərhəmətinə,
O, söz xəzinəsin hey açar mənə.

## Kahinlərlə Ziddiyətlərin Kəskinləşməsi

Azad nəfəs aldı Yusif sarayda ,
Züleyxa yox idi hələlik orda.
Saray işlərinə bir-bir nəzarət,
Həm də İlahiyə hər gün ibadət...
Sirrini saxlamır, o qalın divar,
Misir kahinləri olur xəbərdar.
Büt idi onların inanc bir yerı,
Heykəl allahlardı görən gözləri.
Kahinlərin varı,çoxlu torpaq pay,
Minlərlə qulları ,taxıllar tay-tay.
Yüz illərlə yığdıqları xəzinə,
Heç bir kimsə hali deyil sirrinə.
Orduları vardı, durub keşikdə,
Casusları gəzir evdə-eşikdə.
Firona həm təzyiq göstərir onlar,
İğtişaş törədir, xalqdan bac alar.
Xüsusu adamlar evləri bir-bir,
Gözəl qız axtarır, saray bəzənir.

İzlənir insanlar, çalınır uşaq,
Ya zorla alınır, əldən gedir haqq.
Ən böyük büt allah sarayda idi,
Ora əhv edilmək, paklıq yeriydi.
Ölülər orada edilir mumya,
Bu işdən kahinlər qazanır dünya.
“Bağışlanmaq”günü orada bayram,
İnsan izdihamı, əllərində şam.
Danışır daş allah, yanında heç kəs,
Məsləhətin verir, çıxardır gur səs.*
Danışdığı zaman nə dil, nə dodaq,
Tərpənməyir üzü, səs gəlir ancaq.
Danışan zamanda daş bütə baxmaq,
Misir xalqlarına olmuşdu yasaq.
Camaat səcdədə qalmalıydılar,
Başların aşağı salmalıydılar.
Allahlar sevirdi orda “hədiyyə”,
İnsanlar qoşurdu daşa bədiyyə.
Misrin hökmüdarı Amon Hütonu ,
Öldürməkdi məqsəd kahinlər onu.
Ant Mahun sevirdi həm təxti-tacı: [28]
“Hüton ölməliydi, budur əlacı”...
Amon Hüton sevmir heç kahinləri,
Ziddiyətlə keçir bütün günləri.
Gözləyir döyüşə əlverişli an,
Hazırlıq işləri gedirdi pünhan.
Dəqiq bilmirdilər hər iki tərəf,
Kimə məğlubiyyət,kimə sə şərəf.
*-sirri sonra açılacaq.

Hələlik döyüşdən qorxur, çəkinir,
Vaxtın gəlməsini onlar gözləyir.



# Yusifin Potifarın Sarayında Başqan Seçilməsi

Əzizin başqanı yumaraq gözün,[29]
Yusifə son kərə  ərz etdi sözün.
İmanlı şəxs kimi dünyadan getdi,
Allah dərgahına yüksəlib yetdi.
Potifar seçmini edərək haman,
Yusifi sarayda o, seçdi başqan.
Peyğəmbər işləri alaraq ələ,
Hörməti yayıldı Misirə, elə.
Tək olan Allahı o, təbliğ edir,
Dosta, tanışlara məsləhət verir.
Şirin söhbətləri gəzirdi el- el,
Ürəklər susurdu, olurdu tel-tel.

Tərifi, cəzası hər şey ölçüdə,
Haqqı, ədaləti qoruya, güdə.
Sarayın başqanı olandan bəri,
Başlandı sarayda bolluq günləri.
Qılınc oynatmağı, qurşaq tutmağı,
Uzaq məsafəyə yay -ox atmağı.
Saray həyətində öyrənmiş erkən,
Yenə də məşq edir Yusif ürəkdən.
Potifar Yusifi hərdən özüylə,
Aparır şəhərə, köylərə, çölə.
Lakin, o hadisə yayılaraq ha,
Potifar gəzməyə getmədi daha.
Yusifi təqsirsiz bilsə də, vəzir,
Şəhərdə söz-söhbət şayələr gəzir.
O, daha Yusiflə əvvəlki qədər,
Etmədi söhbətlər,göyərdi kədər.

## Züleyxanın Səyahətdə Darıxması

Gəl biz də gəzişək Nil sahilini,
İzləyək Misirin şux gözəlini.
Qul-qaravaşlarla gəzib dolaşdı,
Təmiz hava aldı, xeyli yol aşdı.
Su altına cumdu, baxdı kölələr,
Dəryanın dibində gəzdi incilər.
Züleyxaya ləl etsinlər ərməğan,
Hey alqış alsınlar öz xanımından.

Bir qul əlində ləl çıxaraq sudan,
Tapdığı incini verərək haman.
Hamı təriflədi qiymətli daşı,
Züleyxa süzmədi qul-qaravaşı.
Gözlərin döndərdi o, uzaqlara,
Biganə qalmışdı ,baxmır onlara.
Karı Mama dindi, dəyişdi halət,
Dinib -danışaraq etdi cəsarət:
-Bu ləl ən böyükdür ləllər içində,
Gözəl bir incidir  Misir elində.
Niyə öz bəxtinə sevinmiyorsan?
Niyə qəlbimizi  sən edirsən qan?.
Züleyxa başını döndərdi asta,
Dedi:-Ey qəlbimi görməyən usta.
Mənim xəzinəmdə elə bir ləl var,
Onun qiymətini bilmir insanlar.
O xəzinədir ki, mənim can evim,
Orda sakin olub gözəl sevgilim.
Onun baxışını dünya varına,
Heç bir xəzinəyə, ləl diyarına.
Həmin xəzinənin yanında bu daş,
Bir daş parçasıdır hörmətli yoldaş.
İnan ki, o ləli sevdiyim andan,
Gözümə görsənmir nə zər,nə fidan.
Mənim zərim odur, o,bir gülüstan,
Odur ürəyimdə sevgili canan.
Həsrətindən inan,hər gün yanıram,
Hər nəfəs alanda onu anıram.

Quruca nəfəsim izləyir məni,
Gözümə görsənmir gəzinti, yəni.
Qayıdağın saraya, sevgilim orda,
Əli əllərimə toxunmasa da,
Orda olmalıyam, dözməyir ürək,
Onu görməliyəm,mən orda gərək...
Züleyxaya baxan, analıq edən,
Züleyxa yolunda ölümə gedən,
Karı Mama bu sözlərdən alındı,
Gözü yaşla doldu, ürəyi yandı.
Dedi:-Tutdur onu, dar olsun zindan,
Qırmanc vurdur ona,süzülsün al qan.
Bəlkə məcbur olub, razılıq verə,
Yanan gülüstanın eşqdən göyərə .



# Yusifin Zindana Salınması

Onlar qayıtdılar saraya indi,
Saray işçiləri görüb sevindi.
O isə görmürdü orda heç kimi,
Gözləri axtarır, gəzir aləmi.
Onu səsləyənə vermirdi cavab,
Ürəyi yanırdı, gətirmirdi tab.
“Çıxmadı pişvaza yenə o məğrur”
Hirslənib əlini, əlinə vurur:
“Ağasını kölə heç saya salmır,
Mənim gəlişimi vecinə almır”.
Yusifə Züleyxa göndərir xəbər:
“Boğur ürəyimi iztirab, qəhər.

Razılıq verməsə gözləsin zindan,
Qisas almalıyam həmişə ondan”.
Yusif  bu sözləri eşidən zaman,
Sevincək söylədi kənizə haman:
-Gedin Züleyxaya söyləyin məndən,
Zindan həyatını seçdim bu gündən.[29a]
Saray həyatında yoxdur heç gözüm,
Sarayın “keyfindən” qaçıram özüm.
Ölsəm də, Allaha çıxmaram dönük,
Dünya gözlərimdə olubdur sönük...
Züleyxa hirslənir, ərinə  gedir,
Xeyli söz söyləyir, şikayət edir:
-Baş kahin Yusifdən xeyli narazı,
Allahlar da ondan qalmırlar razı.
Vacibdir ki, göndər onu zindana,
Şad xəbər yayılsın burdan hər yana.
Misir kahinləri olsunlar xürrəm ,
Bəzi söz-söhbət də, kəsilər bu dəm.
“Allahlar yanında günaha batsın?
Günahsız insanı zindana atsın?”
Misir Əzizini fikir apardı,
Qəlbini, ruhunu qəm-kədər sardı.
Yusifi  çağırdı  o, öz yanına,
Şirin söz söylədi həm ünvanına:
-Ancaq ki, gərəkdir zindana salım,
Artıq söhbətlərin qarşısın alım.
Dedi:-Zindan mənə yaxşıdır daha,
Qadın hiyləsindən uzaqdır kaha.

Allah məsləhəti beləymiş yəqin,
Ürəyim də mənə hey edir təlqin.
Xəyanət etmədim heç zaman sənə,
Zindan həyatı da qəbuldur mənə.
Yusifin qoluna vuruldu zəncir,
Zindana salındı orda “müqəssir”.

## Qəsd

Kahinlər toplanıb etdi məşvərət,
Zəhərlə öldürmək oldu məsləhət.
“Bəlkə də döyüşsüz çataram kama,
Günəş işıq saçar mənim dünyama”.
Kral sarayında çox axtardılar,
Qızılla, gümüşlə “divar yardılar”.
Onlara çalışan tapdılar, heyhat!
Şahın süfrəsində işləyən bir zat.
Kralın aşbazı, ən yaxın adam,
Satdı şərəfini, itirdi tamam.
Həmfikir taparaq məqsədə çatdı,
Şahın saqisini özünə qatdı.
Xəyanət etdilər onlar şahına,
Sadiq qalmadılar söz dəhanına.
Nadanlıq, küdurət, uzaq ol qaldan,
Hərislik, dönüklük, atılan yaldan.
İnsanın başına bəladır nəfsi,
Uçruma aparar tamah hər kəsi.

Bir zərrə qətrədən yaranan insan,
Allah verdiyinə qane ol, dayan!
Uzat ayağını yorğana görə,
Şeytana sən uyub qalma biçarə.
Düz-çörəy itirən, unutqan olma,
Özün sən özünü bəlaya salma.
Dostluğa sadiq ol ,qalma biganə,
Düzlük, doğruçuluq budur yeganə.
Kral əyləşmişdi təxti-rəvanda,
Saray adamları durmuşdu yanda.
Kraliça, Vəlihəd oturmuş yan-yan,
Hamı gözləyirdi bir söz kraldan.
Otağa girdilər şərabçı, aşbaz,
Yemək gətirdilər, tamından olmaz.
Süfrəyə düzüldü yeməklər daha,
Şərabçı şərabı süzərək şaha.
Hökmüdar yeməkdən istədi dada,
Şərabçı dözmədi, gəldi fəryada:
-Şahım, zəhərlənib burada yemək!
Dəhşətdən sarsıldı hamıda ürək.
Hökmüdar tikəni süfrəyə atdı,
Kədər dəryasında qəmləndi,batdı.
Dedi:-Ey şərabçı, iç şərabı tam,
Aşbaz da,qoy yesin qalmasın təam!
Saqi şərabını tamamən içdi,
Başını əyərək önündən keçdi.
Aşbaz sa qorxaraq yemədi yemək,
Qorxudan bağazın tutdu ösgürək.

Şərabçını söydü, aşbaz susmadan,
Satqın adlandırdı, onu durmadan.
Hökmüdar əmr etdi:-Tutun bunları,
Salın zindanıma bu düşmanları.
Soruşub öyrənin, kim çəkmiş əncam?
Kim mənim qətlimə vermiş sərəncam?
Saqi söylədi ki, o təhrik etdi,
Şəraba tökməyə zəhəri verdi.
Tökmək istəyəndə qışqşrdı vicdan,
Ürək dilə gəldı, titrədi hey can.
Aşbaz sa söylədi:-Yoxdur rəhbərim,
Öldürün siz məni, qoy tez gəbərim.
Əsgərlər onlara vurdular qandal,
Məsgənləri odu ən dərin padval.
“Qəsdi törədənə fitva verən kim?
Qoy dəqiq öyrənsin bunları hakim”.
Zindanın rəisi aldı sərəncam,
Qoyuldu onlara ciddi intizam.
Zindanda çoxaldı çoxlu mühafiz,
Qəsdçilər olmadı heç nəzarətsiz.
Hər ikisin döyüb çox incitdilər,
Qəsdin mənbəyini tələb etdilər.
Aşbaz dilə gəldi, açaraq sirri:
-Yoldan çıxartdılar kahinin biri.
Aldatdı var-dövlət, qəlbimi tamah,
Dünyadan üzmüşəm əllərimi, ah!.
Kahinlərin şər sözünə inandım,
Ürəyim od tutdu, alışıb yandım.

Hökmüdar bilirdi, təxmin etmişdi,
“Kahinlərdir düşmən”-hiss eləmişdi.



# Yusifin Zindan Həyatı

Müqəssir bilindi, o məsum cavan,
Günahsız birini verdilər qurban.
Təqsiri nə idi görəsən onun?
Qadın hiyləsinə büründü oyun.
Onunla murada çatmadı, o can,
Üzünə qapandı qaranlıq  zindan.
Zindanın  daxili çirkin, rütubət,
Pis qoxu bürüyüb məhbəsi dəhşət.
Qışqırıq ucalır hey birdən -birə,
Paltarlar qoxuyub, basıb bit -birə.
Siçanlar oynaşır küncdə- bucaqda,
Yemək qırıqları gəzir otaqda.
Məhbəsin içində qurulub divan,*
Qırmancla döyülür günahı olan.
*-cəza yeri

Qırmancın ucunda qurğuşun kütlə,
Cəllad hey döyürdü, yetirir qətlə.
Zərbənin yerindən sıçrayır al-qan,
Zindanda ucalır qışqırıq hər an.
Ağır daş işində  işləyir məhbus,
Hər tərəf gözətçi, hər tərəf casus.
Aclıqdan sümüklər görsənir belə,
Azca əyləşəndə, vurulur belə.
Qüvvəsi olmayan işləyə bilmir,
İş yerindən bir də geriyə gəlmir.
Məhbuslar inanır orda bütlərə,
Yusif salınmışdı belə bir yerə.
Gecə tanrılardan kömək diləyir,
Ordan qurtulmağı arzu eləyir.
Həzrəti Yusifdə xoş bir davranış,
Zindanda oldular onlar dost-tanış.
Onlara göstərir mərhəmət, şəvqət,
Getdikcə Yusifə çoxaldı hörmət.
Yarandı daxildə nizam-intizam,
Təmizlik başlandı, yarandı inam.
Hər tərəf yuyuldu, oldu tər-təmiz,
Dedi:-Ətir saçsın bizim yerimiz.
Allahdan Həzrətə gəldi fərmaiş,
Vəhy mələyi verdi ona göstəriş:
“Sən vahid Allaha çağır onları,
Tanısınlar uca Pərvərdigarı”...
İstədi yaratsın özünə inam,
Dedi:-Veriləcək ləzzətli bir şam.

Balıq  yeyəcəyik, yumuşaq çörək,
Dedilər:-Məlumat hardan,de görək?.
Dedi:-Allah verib yuxu yozmağı,
Yuxuda görmüşəm sübh səhər çağı.
Məhbuslar Yusifə çaşqın qaldılar,
Çoxları yuxunu ələ saldılar.
Gözlədilər onlar, nə olacaq şam?
Bəzi dustaqlarda yarandı inam.
Məhbuslar gözləyir, gözlər intizar,
Göz yaşı süzülür, zarıyır zar-zar.
-Gəlin qəbul edin gələn yeməyi,
Züleyxa göndərib, dözmür ürəyi.
Qapıya yönəldi məhbus gözləri,
Çaşqın saldı mühafizin sözləri.
Onlara verildi balıq  və  çörək,
Məhbuslar sevindi, döyündü ürək.
Hamı çaşqınlıqla baxaraq bu dəm,
Dil-dodaq qurudu, gözlərində nəm.
O gündən Yusifə çoxaldı hörmət,
Gördülər yuxunu,  gerçək həqiqət.
Yusif  dəvət  etdi  tək  bir  Allaha,
Hər şeyin meyarı haqqa, Dərgaha:
-Daş bütlərdən qaçın, uzaqlaşın,ah!
Tək olan Allaha aparın pənah.
Xudamız qurtarar, açılar zindan,
Cəhənnəm odundan qoruyar, inan.
Allahdır yaradan, odur öldürən,
İnsanı ağladan, həm də, güldürən.

Zindanda olanlar eşidir, görür,
Allaha  inamı  ürəkdə  hörür.
Zindanban orada görərək bunu,
İçərdə başlanan qayda-qanunu.
Natəmiz işlərdən yoxdur bir əsər,
Yusif gələn gündən bitmişdi kədər.
Zindanban Yusifə salaraq diqqət,
Görürdü Yusifdə düzlük, həqiqət.

## Zindanda Yusifə Züleyxanın Göstərişilə Əzab Verilməsi

Züleyxa kənizin yanına aldı,
Kənizlə Yusifə namə yolladı:
-Əgər dediyimə sən razı olsan,
Tezliklə çıxarsan, açılar zindan!
Yusif, ‘yox’ cavabı verdi kənizə:
-Əyilmərəm  sizin  istəyinizə.
Zindanda qalaram neçə il olsa,
Bilsəm ki, azacıq nəfəsim qalsa.
Əqidəmi satib olmaram betər,
Belə sifarişlər etməyin, yetər!.
Züleyxa eşitdi Yusifdən xəbər,
Dərdi qübar etdi, yüksəldi kədər.
Ürək daşa döndü, artaraq hikkə:
-Döyülsün təcili, ram ola bəlkə!

Zindanın rəisi  aldı sifariş,
Ürəyi yansa da, verdi göstəriş.
Bağladılar onu dəmir dirəyə,
Cəllad qamçı vurur açıq kürəyə.
Məhbuslar hamısı ağlayırdı qan,
Yusifin halına acıyır zindan.
Zindanban sızlayır, ağrıyır ürək,
Dedi:-Əmr verilib, vurula gərək.
Züleyxa tapşırıb cəza verilsin,
Verilən qərarlar icra edilsin.
Yusif çığırmadı, dözdü cəzaya,
Ümid etdi Allah verən qəzaya.
Qamçı cəzasından olmadı fayda,
Balıq qonaqlığı yetmədi dada.
-Yeməyin azaldın!-dedi Züleyxa,
Yusif oruc tutdu, dözdü aclığa.
Bax buna deyilər iman, sədaqət,
Əyəmmədi onu işkəncə, şiddət.
Axırda Züleyxa əl çəkdi ondan,
Bütünü sındırdı, dedi ucadan:
-Xeyirsiz birisən,etmədin kömək,
Bu neçə illəri vermişdim əmək.
Belə büt söyləyin, nəyimə gərək?
Onun Allahına  sayğılar verək.
Göz yaşları onun həmdəmi oldu,
Gözlər zəiflədi, yanaqlar soldu.
Yaşamaq həvəsi azaldı tamam,
Ürək solğunlaşdı, puç oldu inam.

# Aşbazla Saqinin Yuxusu

Yazmışdım əvvəlin, əziz oxucum,
Qəsdçilər haqqında verin siz sorum.
Necə yaşayırlar şah düşmənləri?
Necədir onların məhbəs günləri?
Yusifin yatdığı zindanda onlar,
Başqa bir otaqda tutmuşdu qərar.
Nəhayət yerlərin dəyişdilər? həm,
Həzrət yatan yerə onlar oldu cəm.
Günlərin birində o, iki nəfər,
Yusifə xitabən belə dedilər:[29b]
-Kömək et bizlərə, yuxumuzu aç,
Günəş ol, nurundan üzümüzə saç.
Aşbaz tez söylədi:-Bir tabaq çörək,
Başımda gedirəm, ayağım yüyrək.
Quşlar dimdikləyir, yeyirdi bir-bir,
Sonra uçub gedir, yenə hey gəlir.
Saqi də söylədi:-Üzümü sıxdım,
Şaha vermək üçün üzünə baxdım...
Peyğəmbər, Allaha edərək dəvət,
Tək olan Allaha verdi zəmanət.
-Bütdən uzaqlaşın,varlığı bir boş,
Allaha yalvarıb ardınca hey qoş.*
Onlar tək Allaha etdilər iman,
Sanki ayıldılar onlar yuxudan.
Yusif:-Saqi ora qayıdar yenə,
Şahın sarayına, köhnə işinə.
*-qaç

Aşbaz asılacaq, cəllad tez gələr,
Quşlar da başına hey qonar, dələr.
Aşbaz tez söylədi:-Düz deyil yozum,
Mən zarafat etdim, yalandı yuxum.
Göz yaşı axıtdı, ağladı  aşbaz,
Yusif :-Ağlama sən, səbr et bir az.
Alalhın yazısın dəyişmək olmaz,
Ağlamaqla yara yeri sağalmaz.
Mühafizlər  yenə  ora  gəldilər:
-Hazırlaşsın aşbaz, saqi!-dedilər.
Yusif dedi:-Saqi, sah sarayında,[29v]
Olanda məni də, salarsan yada.
De ki, günahsızdır,yatır zindanda,
Yadına salarsan, vaxtın olanda.
Ani fikirləşdi, Yusif  hiss etdi,
Günaha  yol verdi, ürəyi  əsdi.
“Niyə ki,insandan dilədim kömək?
Allahım həmişə mənlədir gerçək”.
Yalvardı Allaha, ağladı zar -zar.
Peyğəmbər inləyir, bitmir ahuzar,
Məhbəs adamları yanaraq ona.
Təsəlli verirlər hey yana- yana:
-Odur bağışlayan, günah əfv edən,
Allahdır öldürən, həm də dirildən.
Gecə- gündüz yalvararaq Allaha,
Yatmırdı ağlayır, susmurdu daha.
Nəhayət göründü o, vəhy mələyi,
Yusifin sevindi, güldü ürəyi.

-Allah bağışlayır, əhv edir səni,
Hələ yeddi il də gözləyir səni.
Dedi:- Həyatımı burda qalaram,
Təki bağışlasın, əfv etsin Xudam.
Sevindi Peyğəmbər, gözləri güldü,
Məhbuslar Yusifdə titrəyiş gördü.
Bildilər ki, yenə vəhy gəlib ona,
Gəlib yığılışdılar  onun başına.

## Aşbaz Dar Ağacından Asıldı

Aşbazla, saqini tez gətirdilər,[30]
Kral sarayına həm yetirdilər.
Sarayda quruldu məhkəmə,divan.
Kahin, aşbaz,saqi, gözlərində qan.
Kral Hutep, Potifar, gözləyir hakim,
Mühafiz buraxmır içəri heç kim.
Ən əvvəl aşbazla sorğu edildi,
-Zəhəri kim verdi?- sual verildi.
Aşbaz öz sözünü burada dandı,[31]
Satmadı kahini, övladın andı.
Təhdid etmişdilər kahinlər onu,
Gözləyir təhlükə bircə  oğlunu.
Dedi:-İşgəncəylə, verdim ifadə,
Saqi də vədimə oldu aludə.
Lakin, satdı məni şərəfsiz çıxdı,
Mənim həyatımı büsbütün yaxdı .

Kahinlər cəzadan qurtuldu belə,
Hiyləgər Mahuni keçmədi ələ.
Hakim elan etdi:- Asılsın aşbaz,
Nankorlar həyatda inan, ucalmaz!
Nankorun beynidir quşların yemi,
Quşlar dimdikləsin, gəzsin aləmi.
Şərabçı zindandan edilsin azad!
Enarusun dərhal oldu üzü şad.
Hökmüdar söylədi:-Saqi,şərab süz!
Ləziz yeməkləri süfrəmizə düz!
Günlər,aylar ötdü, ömr -gün yetdi,
Kral Amon Hütep dünyadan getdi.
Ata taxt -tacına oğul oturdu,
Ağılla, insafla ölkəni qurdu.
Toplandı yanına alim, aqillər,
Saraydan çəkildi bir-bir cahillər.
Əkinə, biçinə, edildi diqqət,
Körpülər salındı, gücləndi dövlət.
Bütləri sevməzdi, nəinki hörmət,
Onlarda görməmiş xeyir, kəramət.

## Gənc Kral Qəribə Yuxu Görür

Günlərin birində, şirin yuxudan,
Hövlənək ayıldı yatağdan o, dan*
Qəribə bir yuxu gördü Hökmüdar,
Təzədən yuxuya gedərək naçar.
*-sübh tezdən

Yenə yuxu gördü, qalxdı ayağa,
Saray qulluqçusu girdi otağa:
-Yuxu yozanları çağırın gəlsin,
Yuxumu yozsunlar,işlər düzəlsin!
Dərhal toplandılar yuxu yozanlar,
Hökmüdar danışdı, eşitdi onlar:
-Yeddi öküz otlayırdı çəməndə,[31a]
Gözəl-göyçək gəzirdilər düzəndə.
Yeddi arıq öküz dənizdən çıxdı,
O kök öküzləri yeyərək baxdı.
Ayıldım, təzədən yuxuya getdim,
Yenidən təzə bir röyaya yetdim.
Yeddi qəşəng sünbül gəlirdi xoşa,
İki göz lazımdır etsin tamaşa.
Yabanı sünbüllər peyda oldular,
Qəşəng sünbülləri bir-bir uddular.
Yuxunu yozanlar qaldılar çaş-baş,
Cavab vermədilər, dillər oldu daş.
Kahinlər utandı, oldular xəcil,
Hökmüdar önündə dayandı rəzil.
Baş kahin Ant Mahun istədi rüsxət,
Yuxunu yozmağa o, aldı möhlət.
Hökmüdar mürəxxəs etdi onları,
Yola saldı onun lal baxışları.
Bir gün gözlədilər, varid oldular,
Kahinlər saraya gəlib doldular.
Yoza bilmədilər şahın yuxusun,
Bir kimsə olmadı röya oxusun.

Saqi də, görürdü  bütün bunları,
Birdən yada düşdü məhbəs anları.
Xəyalına gəldi məhbəsdə həyat,
O necə unutmuş Yusifi, heyhat!
-Hökmüdar,tapmışam yuxunu yozan,
Naçar qalmamışdır Yusif heç zaman.
Dedi:-Yubanmadan alın saraya,
Qoy çarələr etsin həmən röyaya!
Saqi dedi:-Şahım, evidir zindan,
Günahsız tutulub, atılıb çoxdan.
Hökümdar dinmədi, düşündü bir an,
“Günahsız və zindan, qarışıq yaman”.
Dedi:-Get zindana, bir cavab gətir!
Saqi yubanmadan zindana gedir.
İki dost görüşür, gözlər ağlayır,
Ruhu təzələnir, ürək çağlayır.
Dedi:-Ya Peyğəmbər, bağışla məni,
Yeddi il unutdum təmamən səni.
Dedi:-Alalhdandır bizlərə qismət,
Verilibdi mənə məhbəsdə müddət.
-Bu gün,lap indicə düşdün yadıma,
Müşgül işimiz var, çatın dadıma.
Yusif gülümsədi:-Söylə yuxunu!
Dedi:-Bəs necə ki,hiss etdin bunu?
Yusif gülümsədi, yenə gözlədi,
Saqi sakitləşdi, sağlıq dilədi.
Şahın yuxusunu ona danışdı,
Cavabını aldı, sevinci daşdı...

Şahın hüzuruna o, varid oldu,
Yuxunu söylədi, gözləri doldu:
-Nil çayının suyu aşıb daşacaq,
Yeddi il Misirdə bolluq olacaq.
Sonra Nil çayının suyu enəcək.
Yedi il Misirdə aclıq sürəcək.
-Yaşasın yozana!-Firon söylədi,
-Onu gətirsinlər!-Əmr eylədi.
Saqi sevinərək tez çölə çıxdı,
Leysan yağış kimi zindana axdı.
Məhbəsdə olanlar tutdular xəbər,
Onların canında var oldu təpər.
-Şahımın həmişə canı sağ olsun!
Həyatı Allahın nuruyla dolsun!
Qurub yaratdığı dillər əzbəri,
Xeyrixah əməli gəzir elləri.
Əgər şah istəsə gəlim saraya?
Baxsın ah-naləmə, yanan haraya!.
“Barmaq  kəsən qadınların dastanı”,[31b]
Qoy açılsın Züleyxanın planı.
Günahsız olmağım olmasa sübut.
Bütün həyatımı sən zindanda tut!
Yusifin sözləri şahı sarsıtdı,
Məhbusu görməyə maraqı artdı:
-Yubanmadan tapın, o qadınları,
Öyrənin, nə olub şər planları?...
On bir il öncənin bir hadisəsi,
Şəhəri bürüdü carçının səsi.

Axtarış əmrini insanlar duya,
Müqəssir qadınlar gəldi sorğuya.
Əzizin qadını gözəl Züleyxa,
Qapqara  saçları, əlləri yuxa.
Gələrək saraya, sorğu yerinə,
Dərdinin üstünü dərd aldı yenə.
Misirin Əzizi sarayda yoxdur,
Xəstədir, ürəkdə yaralar çoxdur.
Kral əyləşmişdi təxti-rəvanda,
Məhkəmə quruldu şah sarayında.
Sorğular başlandı, dindi ürəklər,
Açıldı orada şəxsi diləklər.
Züleyxa təqsiri boynuna aldı,
Danışdı hər şeyi, yadına saldı:
-Yusif  ləkəsizdir, rədd etdi məni,
Xəyanət etmədi ərimə yəni.
Allahına heç vaxt dönük çıxmadı,
Zindanı o, seçdi, mənə baxmadı.
On bir il zindanda yatır ,yox günah,
O, bir Peyğəmbərdir, ürəkdə Allah.
Zindana Yusifi göndərdim ki, mən,
Baş əysin arzuma, olsun mən deyən.
Arzularım dəydi hamısı daşa,
Ərimin həyatı gedərək boşa.
Onun ürəyini heç oxşamadım,
Onunla evləndim, heç yaşamadım.
Özümü yandırır hər axşam ahım,
Nə cəza versəniz qəbuldur, Şahım!.

Kraliça Nefərti:-Günahın çoxdur,
Cəza almalısan, nicatın yoxdur.
Gözəlliyə satdın halal ərini,
Zindana atmısan məzlum birini.
Hökümdar söylədi:-Atın zindana,
Yusifi təcili gətirin mana.
Saqi,mühafizlə  zindana yetdi,
Şahın sözlərini o, bəyan etdi:
-Sübut olundu ki, günahın yoxdur,
On bir il yatmısan, əzabı çoxdur.
Yusif söylədi ki,yatmadım hədər,
Məhbuslar Allaha iman etdilər.
Zindanda qalanda incimədim cox,
Mənim insanlardan şikayətim yox.
Yusif məhbuslardan halallıq aldı,
Zindanban, mühafiz çox razı qaldı.
Təntənəylə Həzrət saraya gəldi,
Haqq bərqərar oldu, işlər düzəldi.



# Yusif Peyğəmbər Şah Qəbulunda

Hökümdar sarayda verdi sərəncam,
Ki, çəkilsin yuxuya doğru bir əncam.
Kahinlər, münəccim, yuxu yozanlar,
Hökümdar yanına toplandı onlar.
Dördüncü Amon Hüt edərək tələb:
-Kahinlər danışsın, qoy açılsın qəlb.
Ant Mahun baş əydi, gətirmədi tab,
Dedi:-Yuxuya yox tutarlı cavab.
Şahımın yuxusu qəribədir çox,
Yuxunu yozmağa bir təfəkkür yox.
Hökmüdar söylədi:-Nəyi bilirsiz?
Boşuna saraya gedib -gəlirsiz.
İşiniz-gücünüz başqa -başqa iş,
Lazımsız işlərə  etmisiz vərdiş.

Üzünü çevirdi, Yusifi gördü,
İti nəzərləri şirin söz hördü.
Dedi:-Əvvəllərdə görüşmüşük biz?
Dedi:-Bəli şahım, bilirsiniz siz.
Atanız mirvari hədiyyə etdi,
Sizin əlinizlə boynuma yetdi.
Heç vaxt unutmaram, o gözəl anı,
Sanki bəxş etdiniz mənə dünyanı.
Hədiyyə hələ də mənim özümdə,
Dünya qədər əziz ,şirin gözümdə.
Yusif, bir anlığa xəyala daldı,
Uşaqlıq çağların yadına saldı...
Hazırda qarşıda məğrur dayanan,
Başını əymişdi ona bir zaman.
Varis, anasına etiraf etmiş,
Özü də bilmədən başını əymiş.
Misir əzizindən bunları bilmiş,
Fikri uzaqlaşdı,canlandı keçmiş...
Xəyaldan ayılıb özünə gəldi,
Şaha çox diqqətlə qulaq kəsildi.
Hökmüdar yuxunu bir də danışdı,
Cavab tələb etdi, onlar baxışdı.
Saqiyə məhbəsdə verilən cavab,
Yenə təkrar oldu, qoxudu gülab:
-Nil çayının suyu aşıb-daşacaq,
Yeddi il Misirdə bolluq olacaq.
Sonra Nil çayının suyu enəcək,
Yeddi il Misirdə aclıq sürəcək.

Hökmüdar söylədi:-Nədir bəs əlac?
Söylə tez yolunu, edim səni tac.*
-Bolluq vaxtı geniş anbarlar tikin,
Bütün çöllükləri şumlayıb əkin.
Aclıq illərində anbarı açar,
Misir ölkəsində gül -çiçək açar.
Salondan xəfifcə uğultu keçdi,
Hamı bu yozuma sərin su içdi.
Kahinlər hamısı heyrətdə qaldı,
Yusifin yozumu qorxuya saldı.
Yusifin xoş səsi, məntiq, düşüncə,
Hamının diqqəti yönəldi gəncə.
Şah onu götürdü baş məsləhətçi,
Otaqlar ayırdı, verdi gözətçi.
Yusif Peyğəmbərin birinci işi,
Misir fironundan öncə xahişi:
-Tutulan qadınlar qoy əfv edilsin,
Zindandan məhkumlar evinə gəlsin.
Dedilər:-Məhkumlar şuluq edərlər,
Dedi:-Mən vəkiləm, xeyir verərlər.
Dedilər:-Qadınlar şər-böhtan ələr,
Dedi:-Bağışlamaq Allahdan gələr.
Məhkumlar hamısı evinə döndü,
Üzləri pislikdən, xeyirə çöndü.
Qadınlar çıxdılar, üzləri güldü,
Pis işləri qəlbdə, gömüldü, öldü.
Züleyxa zindandan evinə gəldi,
Yusifin mərdliyi qəlbini dəldi.
*-mənsəb

Əri yatağından bir az dikəldi,
Züleyxanı görüb o, dilə gəldi.
Dedi:-Sən Yusifə əzablar verdin,
Rahatlıq vermədin, kədər yetirdin.
Məkrinə inandım, günaha batdım,
Qadın hiyləsiylə zindana atdım.
Yusif sə pisliyı dərhal unutdu,
Yenə yaxşılığı, saflığı tutdu.
Ömrümün sonudur,artıq gedirəm,
Bütün zəhmətimi  halal edirəm.
Xeyli çalışsam da sevmədin məni,
Xəyanət etmədim, atmadım səni.
İndi günahını mən əfv edirəm,
Verdiyin“zəhəri”şərbət içirəm.
Bütə, tanrılara inanmıram mən,
Vahid tək Allahı sevir ürəkdən.
Yusifə söyləyin, əzizə yansın,
Dua etsin mənə, hərdəbir ansın.
Qadın hiyləsinin qurbanı oldum,
Həyatda beləcə saraldım, soldum.
Çox istərdim Yusif yanımda ola,
Mənim əllərimi əlinə ala.
Ancaq gecdir indi, daha az qalıb,
Qəlbimi titrəyiş, soyuqlar alıb.
Ona sən ərə get, ruhum olsun şad,
Saray xanimanım olmasın bərbad.
Sarayım, dövlətim qoy sənin olsun.
Sevinclə, şadlıqla gözlərin dolsun.

Əziz susub baxdı, gözlərində yaş,
Danışa bilmədi o, yavaş -yavaş:
-Niyə həyatımız olmadı qoşa?
Züleyxa!-Nitqini vurmadı başa.
Əbədi gözlərin yumaraq daha,
Qəlbində inamı gözəl Allaha.
Züleyxa göz yaşı tökdü üstünə,
Hönkürə-hönkürə danışdı yenə:
-Bağışla əzizim, bağışla məni,
Mən sevə bilmədim sevən qəlbini.
Günahım əlindən sən həlak oldun,
Gözəl həyatında saraldın -soldun.
Saray adamları qan ağladılar,
Misir əzizinə yas saxladılar.
Acı hadisədən şah tutdu xəbər,
Yusiflə bərabər ora gəldilər.
Saray adamları qəmgin qaldılar,
Onu son mənzilə yola saldılar.



## Həzrəti Yusifin Misir Əzizi (Vəziri) Təyin Edilməsi

Toplandı saraya adamlar bihal,
Onların üzündə çaşqın bir sual:
“Kim olacaq görən ikinci adam?
Kimin həyatına qonacaq ilham?”.
Hamı gözləyirdi, nə deyəcək, Şah?
Şah susur gözləyir, ovqatı gümrah.
Birdən vəhy mələyi gətirdi fərman:
“Misir əzizliyin istə sən şahdan”.
Yusif söz istədi Kraldan haman,
Kral da söz verdi, razıydı ondan.
Yusif danışaraq şumdan, əkindən,
Misir torpağından, sudan,biçindən.
Dedi:-Hazır olaq gərək, qıtlığa,
Addım-addım yaxınlaşan aclığa.

Məsul vəzifədə razıyam qalam ,
Şah istəsə Misir əzizi olam.[31v]
Əzizlə sarayda xeyli işlədim,
Yaxşını, əyrini, pisi izlədim.
Xəzinə qədrini məndən daha çox,
Biləməz bir kimsə,varda gözüm yox.
Hökümdar şad oldu, razılıq etdi,
Öz xanımından da,xoş sözlər yetdi.
Ant Mahuni bundan olaraq əzgin:
“Gör kim oldu “əziz”indi ölkənin?”
Ürəkdə düşündü, narahat oldu,
Üzü heç gülmədi, bənizi soldu.
Baş kahin qayıtdı iqamətgaha,
Qəsdi düşündülər onlar bir daha:
-Yusifi vacibdir öldürək gərək,
Onun cəzasını biz mütləq verək!
Dedi topanağın baş sərkərdəsi: [32]
-Döyüşdür bunların son bir çarəsi!
Baş kahin döyüşə  etdi etiraz:
-Hələ imkansızıq, gözləyək bir az.
Qərara aldılar yeni bir görüş,
“Axır başlanacaq belə bir döyüş”...
Günlər, aylar keçir, illər dolanır,
Misir  torpağında bolluq yaranır.
Gündən-günə artır orda yağışlar,
Nil çayında aşır -daşır bol sular.
Hər gün gecə-gündüz Misir Əzizi,
Gündən qaralmışdı onun bənizi.

Dəyişdi burada köhnə üsullar,
Tikildi, çəkildi anbarlar, yollar.
Hər ambara bir kanalla su axır,
Kiçik arxla əkinlərə paylanır.
Arxlardan su axır,canlanır əkin,
Canlanır baxçalar,canlanır biçin.
Bu üsulu Yusif  ixtira etdi,
Vaxtında yetişdi, köməyə yetdi.
Taxıl ambarları etdilər inşa,
Hava qurğuları qurdu birbaşa.
Taxıl çürüməsin, qoy zay olmasın,
Hava tənzimlənsin, taxıl solmasın.
Buğdası olanla edildi söhbət,
Onlarla kəsildi müqavilə, şərt:
"Buğdanı havayı versələr əgər,
Aclıq illərində geriyə gələr.
Əgər verməsələr buğdanı onlar,
Vaxt-vədə gələndə pulla alarlar".
Yusif  Hökmüdarla etdi məsləhət,
Bir yerdə əyləşib etdi məşvərət.
"Çoxlu kölələri olan bir insan,
Çətinlik önündə durar bir zaman.
Quldarın yanından qulular çıxar,
Dövlətə sığınar, həm azad olar.
Çevrilməzlər onlar qula, alətə,
Gəlib yazılarlar bizim dövlətə.
Qul sahiblərinə vurular zərbə,
Gəlməzlər dövlətlə üz-üzə,hərbə.

Dövlətin əlində toplanar bir güc,
Hökmüdar əlində bərq vurar ülgüc.
Qulular olarlar müstəqil, azad,
Torpaqları olar, becərər gülşad.
İşləyib dövlətə vergi ödəyər,
Evlənib özünə  ev-eşik tikər".
Yusif düşünərək tökmüşdü plan,
Hökmüdara demiş, özgəyə pünhan.
Ölkədə gedirdi güclü tikinti,
Böyük quruculuq, geniş əkinti.
Körpülər salınır, çəkilir yollar,
Əkin sahələri, böyük kanallar.
Taxıl anbarları dolur, bağlanır,
Hava qurğuları tez-tez yoxlanır.
Yusifin evidir ən ucqar evlər,
İşləyir, dincəlmir, gəzirdi ellər.
Hökmüdar edərək ona sifariş:
"Tez gəlsin saraya,olan fərmayiş".
Yusif  uzun yolu çaparaq getdi,
Hökmüdar Hutepin yanına yetdi.
Dostlar görüşdülər, yüksəldi təpər*,
Kraliça Yusifə verdi xoş xəbər:
-Adaxlı seçmişik, gəl, tələs, evlən!
Belə bir gözəl qız tapılmaz, bilsən.
Atası Allaha edəndi iman,
Yoxdu gözəllikdə ona tay olan.
Dodaqlar gönçədir, yanaqlar lalə,
Ağılda, kamalda yoxdur tay belə.
*-qüvvət- mənasında

Gözləri mavidir, sanki bir dəniz,
Sözləri şirindir, özü ağbəniz.
Şəvə tək saçları sulayır meydan,
Ürəklər yandırır, alışdırır can.
Yerişi gözəldir, coşdurur qanı,
O qıza bərabər dünyada hanı?
Sənə də aşiqdir, ürəyi əsir,
Sənin imanına olubdur əsir.
Adı Esenasdır, Kamsesin qızı,
Gətir sarayına sən o ıldızı!.
Yusif gülümsədi, qaçdı dodaqlar,
Həya təri gəldi, açdı yanaqlar.
Gözlənilməz oldu verilən xəbər,
Qəlbində canlandı hey xatirələr.
Anasın, atasın yenə düşündü,
Onun gözlərində kədər göründü.
Dedi:-Sizlər mənə ən yaxın adam,
Həyatda varsınız, buna çox şadam.
Mənim həyatımı düşündünüz siz,
Kasıb bir insana dəyər verdiniz.
Görüşərəm onla, tanış olaram,
Toy-büsat barədə razılıq allam.
İndi rüsxət verin, verim hesabat,
Ölkə işlərindən alın məlumat.
Kral dedi:-Get dincəl, istirahət et,
Sonra nişanlının sən yanına get!



# Yusif  Peyğəmbərin Esenasla Evlənməsi

Gözəllər gözəli çox gəldi xoşa,
Məhəbbət köhləni çaparaq qoşa.
Qızın gözəlliyi, iman, fərasət,
Hər sözündə izzət, gözəl bəlağət.
Toy-büsat quruldu, iki novcəvan,
Ürəklər birləşdi oldu çıraqban.
Toy günün səhəri, şirin bir röya,
Gördü Peyğəmbəri,gəlibdir toya.
Atası qocalıb, zəifləyib çox,
Onda cavanlıqdan bir əlamət yox.
Peyğəmbər ayılıb durdu ayağa,
Göz yaşı süzüldü, axdı yanağa.

Qardaşları ona versə də, əzab,
Onun varlığına etməsə də tab.
Yenə bağışlamış Yusif onları,
Belə olmalıymış Allah vadarı.
Bəs niyə vermirdi Kənana xəbər?
Bəlkə bağlayibdı yolları çəpər?
Dünya başdan-başa sirlərlə dolu,
Görəsən hardadır sevincin yolu?.
Ey uca Allahım sənsən yaradan,
Təksən aləmlərdə vahid hökmüran...
Muhafiz Yusifə gətirir xəbər:
-Görmək arzulayır səni bir nəfər.
Deyir, Babildənəm, Malikdir adım,
İzləyir bizləri hər addım-addım.
Lap çoxdan burada gəzir, axtarır,
Səni soruşanda gözləri axır.
Yusif eşidəndə üzü dəyişdi,
Üzünə sevinclə, kədər yetiışdı.
Dedi:-Get dəvət et, gətir saraya,
Nəvaziş göstərin, alın buraya!
Mühafiz tələsik saraydan çıxdı,
Saray darvazasın axtardı, baxdı.
Gördü söykənibdir orda sütuna,
Dedi:-Buyur, Malik!-söylədi ona.
Gətirdi qonağı şah sarayına,
Hörmət, izzət ehsan etdi payına.
Hamama apardı, paltarlar verdi,
Yusifin yanına haman gətirdi.

Onun pişvazına çıxaraq özü,
Sevincdən, kədərdən islandı gözü.
Mehriban görüşüb ürək oldu şad,
Üzləri, gözləri olaraq gülşad.
İyirmi beş ildir, keçmişdir zaman,
Malikin gözləri sulandı haman.
-Yaxşı yadımdadır, orda satıldım,
Misir bazarında qula qatıldım...
Yusif xatırladı yaxın həm uzaq,
Qardaşlar qurmuşdu məkirli duzaq.
Dedi:-Satmağıma peşiman oldum,
Qayıtdım geriyə, əzizi sordum.
Muhafiz qəbula buraxdı məni,
Göz yaşı axıtdım, soruşdum səni.
Dedim ki, Yusifi satmıram daha,
Düşmüşəm əzaba, batdım günaha.
Aldığım pulları qaytardım ona,
Ondan,"Yox"-cavabı verildi mana.
Vermədilər səni, dedilər:"Yeri!
Bir daha qayıtma saraya geri.
Satılan qayıtmaz, bunu bilginən,
Ölçülməz dəyəri onun pul ilən".
Dedim ki, pulları alınız məndən,
Göstərin Yusifi, öpüm gözündən.
Yusif gülümsədi:-Bunlar yadımda,
Səninlə görüşüm həm xəyalımda.
Doqquz yaşım vardı, otağa gəldin,
Günahın yox idi ey Malik sənin.

Mən Allah elçisi, bunu bilirsən,
Bütlər diyarıdır, yaxşı görürsən.
Allahın əmrilə gəlmişəm bura,
Allahdır ucaldan, gör gəldim hara?
Babam İbrahimdi, bütləri qıran,
Daşları məbəddə vurub sındıran.
Allah onu yanar oddan qorudu,
Məni də, qoruyan Allahım oldu.
Malik,gəl sarayda baş danışan ol!
Həmişə yanımda görüşək bol-bol!
-Mənə ya Peyğəmbər,verdiniz şərəf,
Yanına aldınız, eylədiniz  əfv.
Axtarıram səni, iyirmi beş il,
İndi yanındayam, açılıbdı dil.
Nə desən hazıram qulluğunda mən,
Yanında qalaram, qovlamasan sən.
Malikə sarayda ayrıldı otaq,
Yusifin sağ  əli Malik olacaq.

## Yusifə Qəsd.

Taxıl əkənlərə söz verir əziz:
-Əgər beş il qabaq vergi ödəsiz,
Beş il də, vergisiz əkərsiz taxıl.
Sizə xeyri olar, artar mədaxıl,
Yeddi il vergini ödəyən bir zat,
Yeddi il vergidən olarlar azad.

Torpaq sahibləri qazanar özü,
Dövlət də, qazanar bu işdən düzü...
Dövlət xəzinəsi dolar, boşalar,
Xeyli taxıl alar, mal-dövlət alar.
Həmçinin taxılı pulsuz verən kəs,
Dövlət kömək edər, inciməz əbəs.
Qıtlıq illərində həm pulsuz alar,
Dövlət təminatın mütləq qazanar.
Şahın yuxusunu yozandan bəri,
Xoş xəbər bürümüş uzaq elləri.
Yusifin hörməti xeyli yüksəldi,
Onun sözlərinə diqqət kəsildi.
Hər yerdə alqışla qarşılanırdı,
Xalqın sevgisini həm qazanırdı.
Kahinlərə daha inanm azalmış,
Onların bütləri kimsəsiz qalmış.
Kahinlər istədi o yolla getsin,
Taxıl tədarükü onlar da, etsin.
Amon ambarına edirdilər cəm,
Qıtlıq illərini gözləyirlər həm.
Sorub baş kahinin həmən özündən:
-Sənin xoşun gəlmir onun özündən.
Amma ki, Yusifin yolun gedirsən,
Taxıl tədarükü sən də, edirsən.
Dedi:-Daxilimdə edirəm təsdiq,
Camaat içində etmərəm təsdiq.
Sözləri düzgündür, bu bir həqiqət,
Qorxuram cəmaət göstərə rəğbət.

Çox ağıllı biri, müdrik bir insan,
Şöhrəti yayılıb hər yerə, inan.
Onu öldürməsək Amona vaydır,
Amonun suqutu bizə hay-haydır.
Tapın siz burada bədheybət birin,
Pulla ələ alın, göstəriş verin.
Öldürsün Yusifi, budur son çarə,
Canımız qurtarsın ondan bir kərə.
Kahinlərdən biri ona söz verdi:
-Belə bir adam var, gətirrəm!-dedi...
Türmədə Yusiflə heç düz gəlməyən,
Hərəkət, əxlaqı heç düzəlməyən.
Gözləri göy idi, baş da ki, keçəl,
Ömründə etməmiş yaxşı bir əməl.
Kahinlər türmədən etdilər azad,
Onu öyrədərək oldular gülşad.
Saray qapısının yanında cəllad,
Pusqu qurdu orda bu evi bərbad.
Getmək istəyərkən Yusif yoluna,
Xain qılıncını çəkdi boynuna.
Mühafiz özünü verdi zərbəyə,
Razı oldu özü qurban getməyə.
Ağır yara aldı, həyatı soldu,
Yusifin yolunda o, şəhid oldu.
Malik çatdıraraq özünü əlbət,
İçirtdi xainə ölümcül şərbət.
Yusif  şəhid üçün göz yaşı tökdü,
Şəhidin önündə diz üstə çökdü.

# Züleyxanın Yusifə Qəsd Barədə Eşitməsi

Züleyxa tutaraq bu qəsddən xəbər,
Göz yaşı axıtdı, bürüdü kədər.
Şad xəbər alınca sevindi afət,
Göz yaşını sildi, taparaq qüvvət.
Şad olsa da üzü bu nazlı nigar,
Təəsüf ki, dəyişib artıq rüzigar.
Vaxtıilə səsli ,küylü bir saray,
Niyə axı susub?-haray ay haray!
Karı Mama, özü, bir- iki kəniz,
Gözlər kədərlidir, ağarıb bəniz.
Nə xidmətçi vardır nə də, kəcavə,
Bir nəfər mühafiz, yoxdu əlavə.
Qadın xəyanəti böyük saraya,
Zərbə vurdu burda abi- havaya.
“Zəlzələ”baş verdi, dağıldı saray,
Şənlikdən qalmadı bir əsər, haray!
“Yeddi qapıların”içi boş qaldı,
Divarları belə qəm-qüssə alıdı.
Züleyxa daş bütü ataraq çölə,
Ona inamını verərək yelə.
Tək olan Allaha gətirdi iman,
İnlədi,yalvardı,yandı bu zaman.
Yusifi ağlayır, xəyala dalır,
Hamıdan soruşur, xəbərlər alır.

Onda əzəllikdən yoxdur bir nişan,
Gözlər zəifləmiş, çəkilibdir qan.
Ərinə xəyanət saldı zülmətə,
Son qoydu şəhərdə olan hörmətə.
Şair,çox dərindən kədərlər yazma!
Ürək sızıldatma, buna çalışma.
Dünyanın nə böyük sirləri vardır,
Kimlərə soyuq qış, kimə bahardır.

## Qıtlıq İlləri Başlanır

Şahın yuxusundan krçdi yeddi il,
Hövlənək ayıldı Peğəmbər, qəfil.
Söylədi aşpaza:-Tez bişir yemək,
Şah acacaq indi, sərf edin əmək!
Dedi:-Şah indilər yeməyin yemir,
Axı yuxudadır, belə iş etmir.
Dedi:-Hazırlaşın yubanmadan siz,
İndi şah duracaq –söylədi Əziz...
Gecə aləmindən duraraq sərsəm,
Tez yemək istədi təcili, bu dəm.
Yusif aşbazlarla içəri girdi,
Ləziz yeməkləri süfrəyə verdi.
Kral təəccüb etdi, baxdı Yusifə:
-Nə tez hazırlandı yemək bu dəfə?
-Şahım, bilirdim ki, sən acacaqsan,
Həm də, susuzluqdan alışacaqsan.

Bu gündən başlanır ölkədə qıtlıq,
Yağışlar kəsilir, gəlir quraqlıq.
Nili çayı azalar, aşağı düşər,
Hər yerdə işimiz çox çətinləşər.
Yeddi il sürəcək əzab-əziyyət,
Ölkədə başlayır çətin vəziyyət.
Gerçək oldu yuxun,bunları sən bil,
Kimlər inanmadı, oldular cahil.
Sabahdan işimiz artıb çoxalar,
Oğurluq, quldurluq hər yeri alar.
Vacibdir ordunu biz hazır edək,
Sərhəd işlərimiz  güclənsin gərək!
Kral:-Səhər toplansın əşrəfi- əyan,
Hərbi sərkərdələr gəlsinlər haman!
Tezdən toplandılar, saray oldu gur,
Əyanlar təşvişdə, hamısı qorxur.
Şah danışdı işdən, hərbdən,ölkədən,
Yaranmış bolluqdan, başqa sahədən.
Dedi:-Bundan sonra dəyişir dövran,
Quraqlıq başlanar, ölkədə hicran.
Yeddi il sürəcək aclıq, səfalət,
Dəyişir ölkədə vəziyyət, halət.
Yuxum gerçəkləşdi, biliniz bunu,
Peyğəmbər var olsun, sevirik onu.
Bu gündən Amona etmirəm inam,
Şəriksiz Allaha mən də, qurbanam.
Adım Akinaton bu gün yazıldı,
İçimdə bütlərin qəbri qazıldı.
.

Amon əsgərləri quduzlaşıb tam,
Zorakılıq artıb ölkədə tamam.
Kahinlərdən tez-tez şikayət gəlir,
Xalqımın əfqanı göyə yüksəlir.
Körpə uşaqları zorlayır, söyür,
Onları qul  kimi işlədir, döyür.
Bu yaxında olmuş hadisə yenə,
Zorluq çıxarıblar ,deyildi mənə.
Yusif çatmasaymış vaxtında ora,
Günahsız insanlar gedərdi dara.
Daha susmaq bitdi, rəd olsun onlar,
İtsin gözümüzdən, o xain canlar.
Hürəm Hop ölkədə hərbiyə başqan,
Yusif sarayimda həm ”Baş danışan”.
Atın məbədlərdən bütləri, dərhal,
Bəsdir dayandılar önümüzdə lal.
Ordu hazır olsun, kəsilsin qovaq,
Amon hiyləsindən biz azad olaq...
Saraydan bütləri yerə saldılar,
Bütlər küçələrdə aşıb qaldılar.
Şahın qərarına gəlin şad olaq,
Pozğun kahinlərdə itibdi əxlaq.



# Döyüş

Kahinlər tələsik çağırdı iclas,
Onların içində başlanaraq yas.
Ant Mahuni dedi:-İşlər qarışıb,
Amonun üstünə təhlükə daşıb.
Əgər döyüş olsa məğlub olarıq,
Ağır vəziyyətdə bizlər qalarıq.
Gəlin biz onlardan üzr istəyək,
Dəymiş zərərləri həmən ödəyək.
Topanağın dindi baş komandanı,
Çəkdi qılıncını, tökdü candanı:*
-Hörmətdən tez salar bu təklif bizi,
Qılınc həll edəcək taleyimizi.
*-içini

Amonun qisasın qilinc alacaq ,
Nicat yollarımız zərbə olacaq.
Dərhal baş amonu o, həbs etdi,
Bəzi  kahinlərin ürəyi “getdi”.
Döyüşə hazırlıq əmrini verdi,
Böyük dərd-bəlanın içinə girdi.
Şəhərdə ordular durdu üz-üzə,
Düşmən kəsildilər,gəlib göz-gözə.
Hürəm Hop çağırdı təslim olmağa,
Qanun-qaydalara sadiq qalmağa.
Xeyli danışsa da, bir faydası yox,
Kahin ordusunda kin-küdurət çox.
Qardaşlar-qardaşa qılınc çaldılar,
Dövlət qoşunları zəfər çaldılar.
Kahin əsgərləri qalaya doldu,
Qapını bağlayıb giriftar oldu.
Topanağın orda baş xəzinəsi,
Çoxdandır şəhərə yayılmış səsi.
Yüz illərlə toplanılan var-dövlət,
Daş qalada gizlədilib çox sərvət.
Qapılar poladdan, qədim tökülmüş,
Qala divarları daşdan hörülmüş.
Qalaya soxulmaq çətindir-çətin,
Hündür divarları dayanmış mətin.
Hürəm Hop yenə də, sülhə çağırdı,
Yusif də, yaxından ora baxırdı.
Düşmən komandanı girdi oyuna,
Oxatan düzüldü divar boyuna.

Dövlət ordusunda çoxlu oxatan,
Atır düşmənlərə, ölür  xeyli can.
Polad qapılara vurulur zərbə,
Hökmüdar izləyir baxırdı hərbə.
Axır ki, qapının sındı cəftəsi,
Alqış sədaları bürdü hər kəsi.
Dövlət əsgərləri cumdu qalaya,
Bütlər də, yetmədi orda haraya.
Komandan vuruldu ox ilə haman,
Ant Mahuni çıxdı, açıldı zindan.
Kahinlər göz yaşı yenə tökdülər,
Hay-həşir qoparıb yerə çökdülər:
-Niyə baş allahı təhqir etdiniz?
Amon otağına niyə girdiniz?
Ölkəni yıxacaq, viran edəcək,
Sizin cəzanızı mütləq verəcək.
Ant Mahuni girdi Amon yanına,[33]
Qapını bağladı, baş əydi ona[34]
Hücrədən kahini etdilər uzaq,
Yəqin ki,hücrədə qurulmuş duzaq.
İnsanlar baxdılar, oldular çaş- baş,
Görənlər qışqırdı, gözlərində  yaş.
Baş kahin ağlayıb, döyərək dizə,
Çığırdı, bağırdı, əl atdı üzə:
-Baş amon indicə,qeybə çəkildi,
“Allah” uçub getdi, iztirab gəldi.
Misri döndərəcək külə, torpağa,
Aparıb çırpacaq ən hündür dağa.

Əsgərlər dinmədi,gözlərdə vəhşət,
Kahinin sözləri yaratdı dəhşət.
Hürəm Hop susaraq baxirdı naçar,
Peşiman olmuşdu komandan aşkar.
Peyğəmbər bu zaman gələrək ora,
Çox təəccüb etdi bu olaylara.
Amon hücrəsində fikirə daldı.
İnamla oranı diqqətə aldı.
Divarlara baxdı, yoxladı yeri,
Əsgərlər baxırdı ,çaşqın üzləri.
Ürəklərdə qorxu, gözlərdə vəhşət,
“Qeybə çəkilmişdi allah-büt,əlbət”.
Misrin baş kahini dinmir,gözləyir,
Yusifi diqqətlə süzür, izləyir.
Həzrət hiss etdi ki, tərpənir divar,
Güc verdi divara Yusif o ki, var.
Divar aralandı, eşidildi səs,
Baxırdı Yusifə əsgərlər, hər kəs.
Hücrənin dalında yeni bir hücrə,
Kahinlər Amonu qoymuşdu yerə.
İki kahin tutmuş bütün başından,
Heyrətlə baxırdı Yusifə ordan.[35]
Yusif dedi:-Tutun, qoymayın qaça,
Qorxuram sizlərə bəlalar aça.
Hürəm Hop sevindi, əllər Allaha,
Yusif duhasını gördü bir daha.
Bir anlıq komandan özün düşündü,
Qısqanclıq hissləri qəlbində söndü:

“Öz işiylə məşğul ola kaş hərə,
Qısqandım Yusifi çox nahaq yerə”.
Onu qardaş kimi sevdi Hürəm Hop,
Kahin hiyləsini dağıtmazdı top.
Baş komandan dedi:-Alın amonu,
Atın Nil çayına təcili onu!
Xəzinəni isə tapmaq olmadı,
Onun izlərini açmaq olmadı.
Zindanına salındı kahinlər dərhal,
Misirdə dəyişir yavaş-yavaş hal.

## Sahibkarlar Qulları Azad Edirlər

Misirdə torpağa bərəkət verən,
Nil idi bitgiyə gözəllik hörən.
Yağışlar azaldı, kəsildi haman,
Çayın səviyəsi endi bu zaman.
Kül oldu əkinlər, kül oldu bağlar,
Görməmişdi ölkə belə bir çağlar.
Quraqlıq hücuma keçərək haman,
Aclıq qılıncını çəkdi bu zaman.
Torpaq parçalandı, köksü yarıldı,
Əkilən məhsullar quruyub qaldı.
Torpaqın köksündə alışan alov,
Yandırır torpağı, açılır çalov.
Misrin ətrafları, qonşu ölkələr,
Aclıq tüğyan edir, artır xəstələr.

O zaman ki, Yusif  saraya gəldi,
Misirdə bərəkət, həyat yüksəldı.
İndi hər tərəfi bürüyüb aclıq,
Misirdə görsənmir bir belə qıtlıq.
Taxıl ambarında sap-sarı buğda,
Gözlənmir fəlakət, əziyyət burda.
Qonşu ölkələdən gətirir pənah,
Əliboş qayıtmır,köməkdir Allah.
Əhali alınmış siyahiyə həm,
Mohtəkirlər orda yığılmasın cəm.
Adamların adı dəqiq yazılır,
Quldarlara orda qəbir qazılır.
Qullar və kənizlər almırdı buğda,
Adları yox idi heç bir hesabda.
Qul, kəniz saxlamaq ağır hal aldı,
Onlar azad oldu, sahibsiz qaldı.
Nəzarət edirdi Yusif  hər şeyə,
Kimlər çıxıb gedir, gəlir ölkəyə.
Xarici ölkədən Misrə gələn kəs,
Yusifi görməli,qeyrisi əbəs.
Onun icazəsi olmadan belə,
Buğda verilməzdı kimsəyə, elə.
Kahinlər də, xeyli sərf etmiş daxıl*,
Yığıb saxlamışdı lap çoxlu taxıl.
Yığıb saxlanılan çoxlu taxıldan,
Çürüdü buğdalar, çıxdılar haldan.
Hava qurğuları orda olmamış,
Havasızlıq üzdən çürümüş, yanmış.
*-pul kisəsi

Tonlarla taxıllar zay olub getdi,
Var-dövlət tükəndi, sonuna yetdi.
Amma ki, dövlətin heç bir ambarı,
Çürümədi orda nə buğda, darı.
Yusif qurdurmuşdu havanı soran,
Hava təmizlənmiş, yox idi şoran, .
Torpaq sahibləri müflis oldular,
Aclıqdan qul, kəniz çölə doldular.
Azad olurdular kənizlər, qullar,
Könüllü dövlətə gəlirdi onlar.



# Züleyxa Yusifin Evlənməyini Eşidir

Züleyxa Yusifsiz ağlayırdı qan,
Onun həsrətindən alovlanır can.
Elə gün yox idi onu sormasın,
Yusifin eşqiylə yatıb, durmasın.
Getdiyi yerlərdə yar diləyirdi,
Gəldiyi yerlərə gül çiləyirdi.
Hər gün yuxusunda görürdü onu,
Nə vaxt ki, bitəcək ayrılıq sonu?
Allahdan köməklik diləyirdi həm,
Ona yetişməyi arzular sənəm.
Bəzən dəli kimi, dil- dodağı key,
Yusifin eşqilə alovlanır hey.

Misir torpağında dillər əzbəri,
Heç kimin dilindən düşmür sözləri.
“Yusif  və Züleyxa” dastanı gəzir,
Kimlərsə haq verir, kimlərsə əzir.
Yusifin haqqında hər kəlmə sözü,
Pulla satın alır  Züleyxa özü.
Onun sarayında qalmamış satlıq,
Ona əzab verir evində qıtlıq.
Gözəllikdən qalmamışdı əlamət,
Bədən zəifləmiş, çoxalmış illət.
Yusifin olduğu saraya gəlir,
Uzaqda dayanır, ürək dincəlir:
“Bəlkə görəcəkdir oradan, o can?
Sakit edəcəkdir ürəyin gülcan”.
Karı Mama dözmür, artır dərd-səri,
Görür Züleyxanı, gəzir sərsəri.
Qızının halına ürək dözmədi*,
Bir daha durmadı, ayaq gəzmədı:
-Məni eşitmədin, düşdün bəlaya.
Deyə, üzün tutdu o, Züleyxaya:
-Səni xəbərdarlıq etmişdim əvvəl,
Bu sevdadan qayıt, gec də olsa gəl.
Ərini itirdin, mən də gedirəm,
Səni özümdən də artıq sevirəm.
Əllərim üstündə böyütdüm səni,
Sənin vəziyyətin öldürür məni.
Niyə sevirsən ki, özgə malıdır,
Yusif evlənmişdir,onun yarıdır.
* qızı kimi sevirdi

Sonuncu cümləni söylədi ağır,
Gözdən yaş süzülüb aşağı axır.
Gözlər açıq qalır, dünyadan köçür,
Züleyxa ah çəkir,bərkdən hönkürür.
Daha bir yaxını əlindən getdi,
Həyat tənhalaşdı, qəm qüssə yetdi.
Zərbə dəyir yenə zərbə üstündən,
Göz yaşı süzülür onun gözündən.
Həyatı məhv olur eşqi üzündən,
Ürək zəifləyir gedir özündən.



# Kənan Diyarında Aclıq

Oxucum, gedəyin, Kənanda olaq,
Yəqub Peyğəmbərə kəsilək qulaq.
Peyğəmbər Yusifsiz görən nə edir?
Nisgilli ürəyi hayana gedir?
Sübhan, gecə keçir, uyuyub hərə,
Sənsə qələmini qoymursan yerə.
Həzrəti Yəqubdan sabah yazarsan,
Yusif dastanına bəzək vurarsan.
Ürək dilə gəldi:”Yaz, ey sənətkar!
Dünya çox fanidir, əsəri qurtar”.
Mən də razılaşdım, qələmi aldım,
Yenə düşüncəyə, xəyala daldım.
Ey böyük Nizami, böyük yaradan!
Hey səni düşündüm yazdığım zaman.

Hər bir misraların ətirlər saçır,
Oxucu gözündə kainat açır.
Necə yaratmısan qızıl“Xəmsə”ni?
Bir daha yetirməz bu dövran səni.
Kaş mən də şagirdin sənin olaydım,
Dahi dühasından aşıb-dolaydım.
Sənin sözlərindən alaraq ilham,
Yandı həyatımda qızıldan bir şam.
Nə qədər dünyada yaşayır  insan!
Sən də bu dünyada yaşayacaqsan!...
Əliynən oğlunu salamat verən,
Ürək tellərindən qəm-kədər hörən.
Otuz il Yusifə tökən göz yaşı ,
Həzrəti Yəqubdur, əridən daşı...
Kənan ellərini bürüdü aclıq,
Ana döşlərində süd etdi azlıq.
Çəmən,bağça yandı, zədələr aldı,
Ağacda meyvələr quruyub qaldı.
Əkilən taxıllar döndülər külə,
Dost oldu göz yaşı Kənanda elə.
Yağışlar yağmadı, qurudu torpaq,
Qurudu ağacda yamyaşıl yarpaq.
Adamların ahı göyə ucaldı,
Ölüm-itimlərin sayı çoxaldı.
Kənan diyarının yaşlı nəslini,
Peyğəmbər topladı,bilsin əslini.
Gəlib cəm oldular hamı bir yerə,
Məşvərət-məsləhət,söz dedi,hərə.

Həzəti Peyğəmbər məsləhət verdi:
-Nicat Misirdədir!-sözlərin sərdi...
Həzrəti Yaqubun övladları çox,
Vəziyyət pisləşmiş, çörəyləri yox.
Övladlar yığışıb xeyli düşündü,
Həzrəti Yaqubun yanına döndü.
Atadan oğulu ayıran müddət,
Otuz il keçmişdi, solmamış hiddət.
Peyğəmbər onlara söylədi, dindi:
-Allahdan siz qorxun,yenə deyindi:
-Körpə uşağıma nə yapdınız siz?
Nə oyun açdınız, kimə verdiniz?
Dedilər:-Yusifi parçaladı qurd,
Min kərə demişik, ay ata, unut!.
Bu qədər ağlayıb edirsən fəqan!
Gözlərin tutulub, əridirsən can!
Niyə inanmırsan axı sən bizə?!
Heç qardaş-qardaşı atarmı düzə?!
Qardaşlar qardaşı öldürərmi heç?
Gəl bu sözlərindən ay ata,vaz keç!
Bizlər aldatmadıq heç zaman səni,
Bizə də ağırdır, əzabdır yəni.
Qardaş itkisinə çətindir dözmək,
Sənin sə məqsədin hey bizi üzmək.
Yəhuda başına döyüb ağladı,
Şəmunun gözündən sellər çağladı.
Dedi:-İnanmıram mən daha sizə,
Şeytan çoxdan girib ürəyinizə.

Üzümə- gözümə atırsız yalan,
Çoxdan unudulub sizlərdə iman.
Çəkilin kənara, gəlməyin daha,
Yusifi tapşırdım Uca Allaha...
Peyğəmbər qapandı yenə təkliyə,
Ağladı Yusifə, hər gün bəkliyə...
Levi dillənərək:-İnsanlıq harda?
Şəmun,ey Yəsakir,sən ey Yəhuda,
Ey şeytan qılığlı ikiüzlülər,
Məkrli qardaşlar, saxta gözlülər.
Sizlər deyildizmi quyuya atan?
Yusifi sonra da, karvana satan?
Niyə atamıza düz demirsiniz?
Yalandan Allaha and içirsiniz.
Ey Zəbul, Dan, Cadi, Nəftalı,Əşir,
Sizlərin üzünü yusun mürdəşir.
Gedin atamıza düzünü deyin,
Haqqın,ədalətin paltarın geyin .
Qardaşlar Levini söyərək həmən,
Qılınc göstərdilər,sanki o düşmən.

## Vəhy Mələyi

Həzrət,Yusifinə tökür göz yaşı,
Gözləri tutulur, yanır göz -başı.
Tamam qurtarmışdı ərzaq payları,
Misirə getməyə qoymur onları.

Həzrəti Yəquba görünür mələy,
Narazılıq edib bildirdi diləy:
“Ey Yəqub, niyə ki, edirsən fəqan?
Elə hey ağlayıb olursan biryan.
Bir Yusifin yoxdur sənin yanında,
On bir övladların sağı-solunda.
Həzrət İbrahimin bir oğlu vardı,
O,qurub çağların hey yaşayardı.
Allahın əmrinə oldu çıraqban,
Tək olan oğlunu apardı qurban.
Allah da, görərək onda sədaqət,
Ona qoç yolladı, göstərdi şəfqət.
Sonra atan İsaq olaraq Həzrət,
Bütün nəslinizə verdi bərəkət.
Bəlkə yetişərsən, çatarsan ona,
Ey Yəqub, asi olma nazil olana”.
Mələk bu sözləri dedi, yox oldu,
Həzrətin bənizi saraldı, soldu.
Huşsuz vəziyətdə qaldı bir zaman,
Nəvələr gəldilər, gördülər haman.
Yəqub övladları ora oldu cəm,
Peyğəmbər ayılıb duraraq bu dəm.
Yalvardı Allaha:- Etmişəm günah,
Göz yaşı axıtdı ,xeyli çəkdi ah!
-Ey uca Allahım,qəlbə dolansan,
Bütün müşgüllərə qadir olansan.
Ailəm hamısı qurbandır sənə,
Allahım, ölürəm nicat ver mənə.

İztirab, ağlaşma yetərək sona ,
Sonra üzün tutdu oğlanlarına.
Dedi:-Hazırlaşın Misirə gedin,
Pul ilə buğdanı dəyiş-düş edin.
Onlar sevinərək üzləri güldü,
Onu dinləməyə öndə düzüldü.
-Bünyaminim isə bizimlə qalır,
Ürəyim onunla həm nəfəs alır.
Qardaşlar görüşür,qurtarır işi,
Kənandan Misirə gedir on kişi.



# Qardaşların Misirə Birinci Səfəri

Misir sərhəddini gəlib aşdılar,
Şəhər divarına yaxınlaşdılar,[36]
Sərhəddə sordular:-Məkanız hara?
Niyə  gəlmisiniz, bizdən nə çara?
-Yəqubdur atamız, yerimiz Kənan,
Babamız İbrahim, bütləri qıran.
Buğda almaq üçün Misirə yetdik,
Kənanda aclıqdır, pənah gətirdik.
-Sizlər xoş gəldiniz, açıqdır şəhər,
Axşamdır, dincəlin, açılsın səhər.
Sonra da, Əzizin yanına gedin,
Dərdinizi orda siz izah edin.
Satışa-alışa cavabdeh insan,
Misir Əzizidir köməyə çatan.

Onun icazəsi olarsa bu vaxt,
Deməmk,xoş üzlüsüz, açılıbdı baxt.
Çünkü möhtəkirlər artıb- çoxalıb,
Misiri hər yerdən cənginə alıb.
Qardaşlar şəhərə giriş etdilər,
Karvan düşən yerə tezcə yetdilər.
Dəvələr yerləşdi, yedilər yemək,
Sonra istədilər başqanı görmək.
Saraya gəldilər on nəfər qardaş,
Baxdılar diqqətlə oldular çaş-baş.
Saray gözəllikdən yanıb-sönürdü,
Baxanların başı bir də, dönürdü.
Divarlar işlənib al- qızıl suya,
Ehtiyacı yoxdur Günəşə, Aya.
Qapıda dayanıb çoxlu mühafiz,
Tükləri ürpəşdi, oldular biz-biz.
Belə bir məkanı görməmiş onlar,
Bir belə saraya girməmiş onlar.
Saray kənizləri eyni bir biçim,
Paltarı,özləri gözəldir seçim.
Sarayın katibi xəbərdar etdi,
Yusif peyğəmbərə sözləri yetdi:
-Kənan ellərindən on nəfər qardaş,
Çox cavan deyillər, ağarıbdır baş...
Kənan kəlməsini eşidən ürək,
Çırpındı atəşdən o,yandı gerçək.
Tələsdi onları görməyə həmən,
“Bəlkə həyatımda gül açır çəmən?”

Ayaq əsə-əsə arxaya keçdi,
Onları görməyə gizli yer seçdi.
Ürək inildədi, yaşardı  gözlər,
Ona doğma idi gördüyü üzlər.[36a]
Doğma qardaşını Yusif görmədi,
Ürəkdə sevinci uzun sürmədi:
"Bəlkə öldürüblər?"edərək xəyal,
Qəlbini titrətdi dəhşətli bir hal.
"Allahdır köməyim, axirət yazan,
Şeytani- məlunun işini pozan.
Dünyanın əvvəlin, sonunu görən,
Canlının, cansızın ömrünü hörən.
Ey gözəl Allahım,sənsən son duran,
Sənsən kainatda tək bir hökmüran".
Peyğəmbər düşündü, tapdı təsəlli,
Hər çətin müşgülün tapılar həlli.



# Yusifin Qardaşları İlə Birinci Söhbəti

-Malik, yanımıza Kənandan gələn-
Bilirsən ki kimdir orda gözləyən?
Vaxtıilə məni quyuya atan,
Sonra da qul kimi sizlərə satan.
On nəfər qardaşım gözləyir burda,
Amma ki, doğmamı görmədim orda.
Bu qardaşlar mənə qardaş, atadan,
Bünyamin atadan,həm də anadan.
Ordan ayrılanı düz otuz ildir,
Ürək sızıldayır, alışan dildir.
Malik:-Hansı cəza sən verəcəksən?
Ya da ki, onları  əhf edəcəksən?
-Mən onları bağışladım lap çoxdan,
Allahdır yaradan, var edən yoxdan.

Qoy onlar bilməsin hələlik düzü,
Sarayda gizlənsin olayın üzü.
Bir az dincəlsinlər, əhval düzəlsin,
Sonra da  qəbula  hamısı  gəlsin.
“Baş üstə!”-deyərək otaqdan çıxdı,
Qardaşlar tərəfə kədərlə baxdı.
Hamama aparb verdilər paltar,
Ayrıldı onlara gözəl otaqlar.
Qardaşlar hər işə edərək diqqət:
“Nədəndir onlara edilir hörmət?
Nədən ki, bizləri o, əzizləyir?
Sarayda onları nələr gözləyir?”
Yəhuda dedi ki:-Olacayıq xar,
Misir əzizinin bir kələyi var.
Levi dedi:-Yəqin elə şey olmaz,
Əvvəl hörmət edib axırda çalmaz.
Şəmun da danışdı:-Çox diqqət edir,
Görəsən əzizin məqsədi nədir?
Saraya gələndən keçdi az müddət,
Qardaşlar coşdulr,yüksəldi hiddət.
-Misirə gəlmədik burda qalmağa,
Çətinliklə gəldik buğda almağa.
Əsəbləşib gəzir hey otağ boyun,
Söyürlər əzizin kökünü, soyun.
Qapı döyülərək xidmətçi, əlbət,
Qardaşlar qəbula edildi dəvət.
Onlar şad oldular,əsdilər,amma,
Ürək öz simini çəkdi tarıma.

Yəhuda deyindi:-İşimiz bitdi,
Soyacaq bizləri, dəvələr getdi.
Şəmun əsəbləşdi:-Yavaşca danış,
İndi çətin vaxtdır, susmağa çalış!
Saray qulluqçusu verdi izahat,
Saray qaydaların öyrətdi rahat:
-İçəri girəndə edərsiz təzim,
Saray qanunların öyrənin bizim.
Soruşmasa əgər danışmayın siz,
Hündürdən gəlməsin orda səsiniz.
Hər şeyin yaxşısı doğrudur, bilin,
Yalan danışmasın ağızda dilin.
Əzizin yanında hörmətlə durun,
Ədəbdən ürəkdə bir heykəl qurun.
Qulluqçu qapının cəftəsin çaldı,
On nəfər qardaşı içəri aldı.
Özü həm də onlar edərək təzim,
Susdub gözlədilər,göstərib “əzim”.
Yusif qardaşların birbəbir süzdü,
Gözünün altında yaşları düzdü.
Lakin bildirmədi ağlayır gözü,
Özün ələ aldı, danışdı sözü.
Dedi:-Hansı eldən gəldiniz bura?
Hansı işləriniz düşübdür dara?
Levi:-Kənanlıyıq, o eldənik biz,
Yəqubdur atamız, birdir evimiz.
Kənanı bürüyüb amansız aclıq,
Sizə kömək olsun, o böyük Xalıq.

Əgər imkan olsa buğda aparaq,
Sizlərə minnətdar, duada duraq.
Dedi:-Ailədə neçə nəfər var?
Söyləyin bizlərə, kömək olunar.
-On iki qardaşdıq bir ailədə,
Bir qardaşı qurdlar yedi meşədə.
-Siz on nəfərsiniz, biri burda yox,
Gəlsəydi olardı buğda daha çox.
Şəmun:-Evdə qaldı, atamız yaşlı,
Yusifin dərdindən gözü hey yaşlı.
Bünyamin Yusifə hədsiz oxşayır,
Övlad həsrətindən günlərin sayır.
-Bəs sizlər harada tutmuşduz qərar?
Tək ancaq Yusifi yedi canavar?
Ruil:-Oynayırdı bizdən çox kənar,
Yetişə bilmədik, yedi canavar.
-Həqiqətdən uzaq hər bir sözünüz,
Düz baxa bilmirsiz, qaçır gözünüz.
On nəfər qardaşın gözü içində,
Ancaq Yusif qaldı qurdun dişində?
Sizin yanınızda niyə qalmadı?
Uşaq niyə sizə yaxın olmadı?
Üzləri qaraldı, göz bərə qaldı,
Ürəklər titrədi, dil topuq çaldı.
Yəhud:-And içirəm yedi canavar,
Xoş günümüz bitdi, ağladıq zar-zar.
-İnanmadım sizə, şübhələndim çox,
Amma ki, buğdaya bir etiraz yox.

Bünyamin gəlməsə bir daha sizlə,[36b]
Sarayda görməsəm onu mən gözlə.
Demək, sözləriniz tamam ağ yalan,
Bir dən də verilməz,düşünün bir an.
Onlar təzim edib çıxdılar çölə,
Peyğəmbər başını tutaraq ələ:
"Tövbə etməyiblər, sözləri saxta,
Ürəyi, gözləri sanki bir taxta".
Maliki çağırdı, kövrəlib dindi:
-Onların pulların qaytarın indi.
Buğda kisəsinin içinə ataq,
Kənanda görsünlər,savaba çataq.
Xəzinə pulunu al məndən apar,
Orda azalmasın haq-hesab,dinar.
Yusif zövcəsinin yanına gəldi,
Pərişan ürəyi bir az düzəldi.
Esenas,Yusifin görərək halın,
Sordu:-Pərişandır nədən əhvalın?
Dedi:-Qəbulumda on nəfər qonaq,
Otuz il əvvəldən verirəm soraq.
Qardaşlarım idi, quyuya atan,
Məni bu Malikə sonradan satan.
Yuxuya gəlmişdi,Günəş,Ulduz,Ay,
Mənə gülümsəyir, qəribə olay.
Yanıma gəldilər, səcdə etdilər,
Yenə gülümsəyib çıxıb getdilər.
Doqquz yaş içində hələ, o zaman,
Atama danışdım yuxumu haman.

Atam Yəqub mənə verdi şad xəbər:
-Peyğəmbər olarsan vaxt vədə gələr.
Danışma kimsəyə, qabağa qaçma,
Qısqanarlar səni, bu sirri açma.
Çox keçmədi sirrim açıldı, inan,
Qardaçlar kəsildi hamısı düşman.
Apardılar məni  uzaq bir yerə,
Atdılar quyuya, döydülər hərə.
Karvan ora gəldi, məni çıxartdı,
Yenə də qardaşlar geri qayıtdı.
Dedilər:-Qul bizim,qaçıbdı bizdən,
Qulun qiymətini istərik sizdən!
Qardaşlarım məni qul kimi atdı,..
Karvanın sahibi qul kimi satdı.
Karvanbaşı sonra oldu peşiman,
Aldığı pulları qaytardı haman.
Potifar, Malikə vermədi imkan,
Züleyxa xanıma etdi ərməğan.
İyirmi ildən çox axtardı Malik,
Sarayın önündə, çəkərək keşik.
Gördüyün Malikdir, o karvanbaşı,
Bütün sirlərimin Allahdır başı.
Atam peyğəmbərdir,Rəhildir anam,
Alovda yanmayan  İbrahim babam.
Saray həyatıma bələdsən özün,
Sirrimə vaqifsən,öyrəndin düzün.
Esenas eşitdi, ürəyi yandı,
Ərinin sirrini möcüzə sandı.

Malik də, eşitdi bir çox mətləbi,
Yusifin keçdiyi həyat məktəbi.
Allah istəyəni daş -kəsək əzməz,
Onun sevdiyinin önü kəsilməz.
Ən dərin quyuda onu saxlayan,
Şorlu suyu, şirin suya bağlayan.
Qadın fitnəsindən xəbərdar edən,
Hökümdar yanında ucalıq verən.
Allahım, sən etdin bunları əlbət,
Səndədir mürüvvət, səndə səxavət.
Bilmədiyim sirri özün bilirsən,
Darda qalanlara kömək edirsən.
Zövcənin gözündə böyüdü əri,
Əriylə öyündü, o gözəl pəri.....

## Baş Kahin Ant Mahunin Məhkəməsi

Yüz illər Misirdə hökmüran olan,
Kahinlərdir indi zindanda qalan.
Xəyanət yolunu seçdilər onlar,
Şahın ölümünə biçdilər donlar.
İttiham, istindaq qurtaran zaman,
Sarayda quruldu məhkəmə haman.
Kahinlər sorğuya edilərək cəlb,
Sorğuda əsirdi, titrəyirdi qəlb.
Dəqiq ittihamlar, dəqiq suallar,
Kahinlər qorxaraq oldular lal-kar.

Ant Mahun hər şeyi etdi etiraf:
-Amon daş parçası, camaat sa saf.
Onun nə bir gücü, nə də təsiri,
İnsanlar olubdur bir daş əsiri.
Kral:-Amon olan yer,həmin,o bina
Camaat toplanır ,gəlirdi ona.
Amondan dəyərli bir söz eşitsin,
Gələcək haqqında bilgiyə yetsin.
Amon "danışardı, səsində inam,
Gələcək işlərdən verərdi ilham".
Yusif:-Amon orda"danışan"zaman,
Amona baxmaqa verilməz imkan.
Amonun yerinə danışan kimdi?
O,harda dururdu, hansı "hakimdi"?
Ant Mahuni dedi:-Danışırdım mən,
Heykəl arxasında dururdum həmən.
Zaldan şaşırdıcı uğultu keçdi:
-Eşittiyimiz səs başqa səs idi.
Oxşamırdı o səs, Mahun səsinə,
Sübut gətirsinlər şahın özünə.
Hökmüdar söylədi:-Səsini dəyiş!
Xalqı aldatmağa etmisiz vərdiş.
Səsin dəyişilməsi möcüzə deyil,
İkiüz bir insan riyakardır bil .
Kahin olmaqdansa təlxək olaydın,
Xalqı sevindirib ənam alaydın.
Kahin görkəm aldı,dəyşildi səsi,
Vahimə bürüdü orda hər kəsi.

Kral həm zaldakılar etdilər heyrət,
Sonra baş kahindən sordular əlbət:
-Əgər sən ölsəydin əvəz edən kim?
Kim sənin yerinə olardı hakim?*
-Səsini dəyişən biri var bizim,
Onu tanımırlar bizlərdən heç kim.
O, bizlə yaşamır, bizlə işləmir,
Məxvi şəraiti,gəlmir səs-səmir.
Yazırıq öləndə vəsiyətnamə,
Yerini, yurdunu göstərən namə.
Kahinlər gedərək edirlər dəvət,
Təntənəylə gəlir üst-başı zinət.
Kahinlər xəbərsiz, bəzənibdi don,
Güman edirlər ki, danışan Amon.
Dedi:-Səndən sonra əvəz edən kim?
Dedi:-İxtiyar yox, sirrimiz  bizim.
Öldürsəniz məni yenə deməərəm,
Tapanaq gələcək,bundan əminəm.
*-baş kahin



# Möcüzə. Züleyxanın Gözəlliyi Özünə Qayıdır

Hələ boşalmayıb məhkəmə zalı,
Kahin sirri açmır,dəyişilmir halı.
Yusifin zövcəsi girərək zala,
Şaha yaxınlaşdı, gözləri ala.
Yusif təəcüblə baxaraq ona,
"Niyə gəlib axı şahın yanına?"
İncə səslə dedi, o nazlı sona:
-Şikayət edirəm Yusifdən sana!
Çoxdandır birini ərim incidir,
Qadındır, zəifdir, hey fəqan edir.
Nə gündüz, nə gecə olmayır aram,
Allaha yalvarır hər səhər, axşam.

Ağlamaqdan kordur onun gözləri,
Dilndən heç düşmür Allah sözləri.
Qurtarmış pulları, qiymətli nə var,
Onun sevgisindən şəhər olub car.
Bunların baisi mənim ərimdir,
Misir əzizidir, Peyğəmbərimdir.
Salonda olanlar etdilər heyrət,
Kahinlər sevindi, gördü cəsarət.
Saray adamları qalmışdı çaş-baş,
Yusif ərz elədi:-Ey mənə sirdaş,
Gəl evdə danışaq, xəbərdar olaq,
Nədən narazısan?- məlumat alaq.
-Evdə yox, burdaca olun xəbərdar!
Camaat önündə şah versin qərar!
O qadın burdadır, bizə çox yaxın,
İcazə versəniz, gətirim, baxın.
Şahənşah söylədi:Yaxına gəlsin,
Şikayəti varsa qoy hamı bilsin.
Dostlar inanmadı sözü eşitcək,
“Yusif incitməmiş kimsəni gerçək”.
Yusif sə hey baxır, gözləyir onu,
Görən nə olacaq bu işin sonu?
Hamı çaşqınlıqla qapıya baxdı,
Bir qadın əsayla salona qalxdı.
Kahin pıçıltıyla:-Yusif gör kimi?
Qoca qadınlar da incidilirmi?.
Yusifin zövcəsi yenə dilləndi,
Şaha üzün tutdu, kədərlə dindi:

-Sizin gördüyünüz bu qoca qadın,
Az qala unutmuş özün, soy adın.
Əzizin zövcəsi bir müddət əvvəl,
Vaxt vardı ölkədə hamıdan gözəl.
Adı Züleyxadır, dillər əzbəri,
Sevgi, məhəbbəti gəzir elləri.
Yusifin dərdindən olub divanə,
Eşqindən əriyib, dönüb xəzanə.
Qurtarıb evində qiymətli nə var,
Yüksəlir ah-fəqan, edir ahuzar.
Yusifin haqqında hər yeni xəbər,
Hədiyyələr verir Züleyxa, hədər.
Yusifin olduğu yerlərə gedir,
Uzaqdan da olsa səsin eşidir.
Yatanda, duranda onu düşünür,
Onu fikirləşir, ürək döyünür.
Yusif sə bir diqqət verməmiş ona,
Züleyxa evində hey yana-yana.
Axtarıb keyfini belə sormamış,
Sanki sarayında heç yaşamamış.
Züleyxa söhbəti kəsmək istədi:
-Danışma bunları, ayıbdır,-dedi.
Yusifin zövcəsi susmadı tamam,
Onun söz qəfəsi olmadı aram.
Kral dedi:-Eşidin,hörmətli xanım!
Yusif  təqsırkar sa cəzalandırım.
Əgər Züleyxaya axsaydı o can,
On bir il həyatı olmazdı zindan.

Əri Potifara çıxaraq dönük,
Həyatın məhv etdi,ürəyin sönük.
Ələ almaq üçün Yusifi, haman,
İşgəncə verdirdi heç utanmadan.
Kraliça:-Zindanda saxlatdırdı ac,
Günlərlə qalırdı o, ac- yalavac.
Züleyxa ərinə xəyanət etdi,
Qürur, ismətini dəyişib, bitdi.
Əri Potifar ki, onu sevirdi,
Onun sevgisini puça çevirdi.
Ərindən Züleyxa almadı cəza,
Yusif  bağışladı, Allahım yaza...
Böyük Nizaminin dediyi sözlər,
Oxusun sevənlər, açılsın gözlər.
"Əgər məhəbbətdə olmasa ismət,
O şəhvət hissidir, deyil məhəbbət.
Saf eşqin nurlu bir güzgüsü vardır,
Eşqin hesabından şəhvət kənardır.
Qərəzli bir sevda yaşamaz insan!
Eşq ilə qərəzi bir tutmaz insan.
Düz gəlməz eşq ilə qərəz müxtəsər,
Qərəz olan yerdə eşq qalxıb gedər.
Düzü, səndən başqa aşiqlər tamam,
Qərəzə sitayiş edirlər, müdam.
Saf eşq səninkidir, başqası nədir?
Onlar eşq adına bir bəhanədir.
Bir eşq doğruluqda tutarsa qərar,
Dostun yaxşılığı birə on olar.

Sevgi bu kamala çatarsa bir an,
Yaxşı ad qazanar özünə,inan.
Nizami, nə gözəl bir dövlətin var,
Hər zaman hər yerdə o rəvac tapar".
Sübhan, Nizamidən gətirdin "sitat",
Ona rəhmət oxu, bir savaba çat!..
Məhkəmə zalına çökmüşdü sükut,
Yusif, keçmişləri sən tamam unut!
Vəhy mələyi gəlib ona göründü,
Yusifin ürəyi bərk-bərk döyündü:
"Züleyxa dəyişib olub peşiman,
Yalvardı Allaha, gətirdi iman.
İndi müsəlmandır, imanı vardır,
Qəlbinin pənahı Pərvərdigardır.
İllər boyu durub yatmadı gecə,
Öz şəxsi həyatın almadı vecə.
Sizin kəbininiz kəsildi belə,
Toy edin, şənliyiz yayılsın elə.
Hamı razı qalar bu izdivacdan,
İndi müjdə verim,yeni bir tacdan.
Sonuncu Peyğəmbər Quranla gələr,
Dünyada möminlər, sevinər, gülər.
Qurani-Kərimdə yüz on dörd surə,
Yusif surəsi də, düşər dillərə.*
Bütün dünya sizdən deyib,danışar,
Sizin sözləriniz el- el dolaşar".
Yusif:-Pənahımdır, o uca Allah,
Odur hökmüdarım,ürəyimdə şah.
*-12-ci surə

Vəhy mələyi dedi:“Vəfalısan sən,
Allahın sevimli Peyğəmbərisən.
İstə Allahından, arzunu söylə,
Yerinə yetəcək, necə var öylə.
Allah eşidəndir, görən və bilən,
Odur bağışlayan, bizə rəhm edən”.
Mələk sözün dedi, qeybə çəkildi,
Sevinc, şadlıq hissi Yusifə gəldi.
Zalda sakitlikdir, danışmır heç kim,
Onlar gözləyir ki, danışsın hakim.
Yusif kənizlərdən çərşabı aldı,
Onu Züleyxanın başına saldı.
Ürəyində dua etdi Allaha:
-Gözləri açılsın onun bir daha.
Xeyli dua etdi, yaşardı gözlər,
Zaldakılar baxır, möcüzə gözlər.
Kahinlər inanmır, gülərək baxır,
Onların gözündən hiylə, şər axır.
Yusif yavaş- yavaş çərşabi açdı,
Otaq işıqlandı, ildırım çaxdı.
Züleyxa çığırdı:-Görürəm!-dedi,
Günəşdən zər-xara əyninə geydi.
Ürəkdə təlatüm, titrəyir dizlər,
Görməmişdi belə möcüzə gözlər.
Peyğəmbər çadranı yenə də saldı,
Züleyxanın üzü çadrada qaldı.
Peyğəmbər yalvardı istədi ilac,
Böyük Yaradandan sözünə əlac:

-Qaytar Züleyxanın gözəlliyini.
Ey böyük Allahım sevindir məni!
Çadranı qaldırdı onun başından,
Dəhşətli uğultu qopdu salondan.
İnsanlar sarsıldı,dərhal qalxdılar,
Gözlərdə şaşırtı yenə baxdılar.
Züleyxa qayıtmış cavan bir yaşa,
Heyrətlə baxdılar kipriyə, qaşa.
Baxıb gözlərini silirdilər hey,
Yenə baxırdılar, olmuşdular key.
Qocalıqdan yoxdur əsər- əlamət,
Saçları qaralmış, Alahdan rəhmət.
Qara göz, qara saç, ağappaq  üzü,
Meydan oxuyurdu qızlara  düzü.
Gözəllərlə orda  girmişdi  bəhsə,
Üzü çaşqın-çaşqın baxır hər kəsə.
Kəniz, tez- tələsik güzgü gətirdi,
Onu Züleyxanın əlinə verdi.
Züleyxa görərək gözəl üzünü,
Ucadan Allaha dedi sözünü.
Allaha yalvarıb edərək səcdə,
Saray adamları gəlmişdi vəcdə.
Kahinlərdən biri gəldi imana,
Ayrılaraq gəldi üzü bu yana.
Sidq ürəklə dua etdi Allaha,
Qayıtmadı topanağa bir daha.
Qalan kahinlər sə, etmədi iman,
Allah möcüzəsin sandılar yalan.

Kral da, möcüzdən edərək heyrət,
Allaha bir daha verdi şəhadət.
Kahinlər susdular, ağızlar lal-kar,
Özlərinə ziyan edən oldular.
Hökmüdar söylədi:-Atın zindana,
Orda xidmət etsin, o daş "amona".
Sevgi hicranına gəlin son qoyaq,
Evlənsin Yusiflə, biz də şad olaq.
Kraliça, Yusifin zövcəsi, hamı,
Şahın qərarına etiraz varmı?
Esenas gələrək yanına bu an,
Qolunu doladı boynuna haman.
Züleyxa əllərin qaldırdı göyə,
Sonra bir əlini qoydu ürəyə.
Dedi:-İndi ürək başqasın sevir,
Onunla döyünür, onunla əsir.
Allahın eşqidir indi amalım,
Onla rahat olur canım,camalım.
İlahi eşqindən ayrı eşq yoxdur,
Məni bataqlıqdan qurtaran odur.
Şahın qərarına edirəm hörmət,
Ancaq ibadətə verirəm diqqət.
Sonraki taleyim Allah əlində,
İlahi qisməti gözləyək biz də.
Yusif  əllərini açdı Allaha,
Xeyli dua etdi ona bir daha.
Şahın imanına təriflər dedi,
Onun qərarını o, dəstəklədi:

-Razıyam bu işə ,ey gözəl şahım,
Əmr etdi həmçinin uca Allahım.
Etirazım olmaz, qoy versin qərar,
Yəqin ki, xeyir iş inşallah olar.
Mənim fərasətli, ağıllı zövcəm,
Özünün rizasın göstərdi bu dəm.
Allahı sevəndi, ürəyində haqq,
Həyatda arxamdır, gözümə çıraq.
Misir hökmüdarı göstəriş verdi:
-Yazılsın tarixə möcüzə!- dedi.
Züleyxa çadranı yadigar aldı,
Hər gün ibadətə qapanıb qaldı.

## Yusifin Qardaşlarının Kənana Qayıtması

Kənan torpağına qardaşlar döndü,
Həsrət qığılcımı axır ki, söndü.
Peyğəmbər onlara,xoş gəldin-dedi,
Övladlar dilindən şirin söz yedi.
Qardaşlar danışdı şah sarayından,
Misirin özündən,O  Nil çayından.
Misir Əzizindən edərək söhbət,
Onlara sarayda edilən hörmət.
Levi:-Çağırdılar bizləri qonaq,
Ayrıldı  bizələrə sarayda otaq.

Qonaq saxladılar, xeyli dincəldik,*
Yolları xətərsiz Kənana gəldik.
Yəhud:-Hiyləgərdir Misir Əzizi,
Verdiyi suallar əzirdi bizi.
Şəmun:-Ata, sənə göstərdi maraq,
Haqqında eşitdi, keçirtdi  fəraq.
"İxtiyar qocadır"-deyərək yandı,
Kənan camaatın sorub dayandı.
-Bünyamin olsaydı bizimlə əgər,
Hər adam başına daha çox düşər.
Bünyamin gəlməsə bizimlə ora,
Bir daha verməzlər, düşərik dara.
Deyə-Ruil, Şəmun danışdı, dindi,
Onların gözündən ümid ələndi.
Kisələrin ağzın açanda birdən,[36v]
Verdikləri pullar düşdü içərdən.
Gördülər qardaşlar, gözlər böyüdü,
Baxıb bir-birinə gözlərin döydü:*
-Bəlkə də, bizləri sınayır onlar?
Axı niyə geri qayıtdı pullar?.
-Yəqin istəyir ki, yenə gələsiz,
Onunla yenidən görüşəsiz siz .
Bünyamin burada çatır dadima,
Ona baxib Yusif  düşür yadıma.
Dedilər:-Ay ata, gətirrik,qorxma!
Sağ-salamat sənə verrik darıxma.
Dedi:-Sizə daha inanmaram mən,
Yusifi də belə ayırdız məndən.
*-3-gün,*-şaşırmaq

Körpəni aparıb gətirmədiz siz,
Mənim ürəyimə millər çəkdiniz.
Onda da söz verib etdiniz əmin,
Qanını çəkdiniz hey ürəyimin.
Bəlkə indi deyəsiniz, mən bilim,
Ürəyim üstündə hər iki əlim.
Qəbrini göstərin edim ziyarət,
Qoca atanıza göstərin hörmət.
Dedilər:-Ay ata, parçaladı qurd!
Onların səsindən silkələndi yurd.
Peyğəmbər əlacsız, pərişan getdi,
Rəhilin qəbrini ziyarət etdi.
Təmizləyib sildi məzar daşını,
Yuxladı üstündə, tutdu başını.
Çənabi Əzrayıl görsəndi gözə,
Təbəssüm göstərdi, baxaraq üzə.
“O biri dünyada yoxdur övladın,
Bu dünyada axtar Yusifin adın”
Peyğəmbər oyandı, edərək səcdə,
Ümidi çoxaldı, gələrək vəcdə.
Qayıtdı evinə, şadlandı ürək,
Əsərin sonunu gəlin izləyək...
Oğlanları yenə xahiş etdilər,
Hamısı birlikdə ona getdilər.[36q]
Çətinlik üzündən o, razılaşdı,
Ailə sevinci yüksəlib daşdı.
-Elə ki, şəhərə yetişdiniz siz,
Qapıdan içəri cüt-cüt keçiniz.

Qoy sizi orada bilməsin bir kəs,
Bəd nəzər toxunar,baxmasın nakəs.

## Qardaşların Misirə İkinci Səfəri

Kənandan Misirə gedirdi karvan,
Çörəyin dalınca oldular rəvan.
Onlar çətinliklə yolu qət etdi,
Misir torpağına gələrək yetdi.
Şəhər divarları uzanıb gedir,
Keşikçi dəstələr nəzarət edir.
Qardaşlar şəhərə girdilər qoşa,
Hərə qardaşıyla vermiş baş-başa.
Bünyaminsə keçdi qapıdan təkcə,
Çün doğma qardaşı itmişdi öncə.
Ancaq ki, Bünyamin bilmirdi hələ,
Doğma qardaşına gedirdi belə.
Mühafiz görərək həm tanış üzlər,
Apardı saraya, gülürdü gözlər.
Enarus qapıdan içəri girdi:
-Qardaşlar gəldilər!-xəbərin verdi.
Yusif tapşırdı ki:-Gözləsin onlar,
Dincəlib sarayla tanış olsunlar!
Yusif pəncərədən onlara baxdı,
Bünyamini gördü, ürəyi axdı.
Otuz il idi ki, görmür qardaşın,
Dumanlandı gözü, tutaraq başın.

Ürəyi titrədi, yandı yanağı,
Gözdən yaş süzüldü,endi aşağı.
Köməyə çağırdı gözəl Allahı,
Sonra da səslədi Mimi Sabahı.
Dedi:-Qardaşlarım yenə də burda,
Doğmaca qardaşım bax,durub orda.
Adı Bünyamindir,oxşayır mənə ,
Odur, kədər qonub onun üzünə.
Get danış, söhbət et, nəvaziş göstər,
Girsinlər hamama, yuyulsun qan-tər.
Onlara çox diqqət göztəriniz siz,
Sonra da yanıma dəvət edərsiz!
Enarusa həmən göstəriş verdi:
-Yeməyi onlarla bir yeyək!-dedi.
Esenas,Yusifin yanına gəldi,
Mehriban baxışlar ürəyin dəldi:
-Həzrəti Yusifə səlamlar olsun,
Onun düşmənləri saralıb solsun.
Qardaşlar gəldilər, gözlərin aydın,
Allahın yaninda yüksəlsin adın.
Züleyxanı aldın, keyfin oldu çağ,
Gözlərində gülüş, ürəyində yağ.
De ki, üçüncüsün nə vaxt alırsan?
Sayını artırıb məmnun qalırsan.
Gülərək Peyğəmbər əlini aldı,
Qolunu belinə,boynuna saldı.
-Sən başımın tacı Yusif yarısan,
Sevgi ağacımın nübar barısan.

İki körpə uşaqımız var olsun,
Onlar da bizimlə bəxtiyar olsun.
Sizlərin könlünü küsdürüb, iraq,
Esenas, özümdən salmaram uzaq.
Sənin  ürəyini heç zaman, inan,
Ağrıdıb etmərəm səni pərişan.
Züleyxanı almaq mənə fərmaiş,
Uca Allahımdan gələn göstəriş.
Esenas gülərək qolların açdı,
Onun gözlərində gül,çiçək açdı.
-Zarafat edirəm, yəqin bilirsən,
Ürək qızdırırsan, kədər silirsən.
Allah fərmaişi qəbuldur mənə,
Ölənə kimi də, qurbanam sənə.
Kahinlər odlandı odlu sözündən,
Bütlər zərbə aldı  sənin özündən.
İnsanlar inanır  tək bir Allaha,
Cansız heykəlləri atdılar kaha*.
Bir Allah eşqidir sənin beynində,
Babanın köynəyi gəzir əynində.[37]
Bilirsən, haqqında , şaha şikayət,
Yuxuda dedilər,dedim nəhayət.
Şikayət bir səbəb bu möcüzəyə,
Dinimizi daha möhkəm etməyə.
Yusif  Esenasın üzündən öpdü,
Xırda inciyliyi uçurdub sökdü...
Nizamla qurulur həyatda hər şey,
Canlılar,cansızlar onunladır, hey.
*-,dağda oyuq

Yaradan, aparan, ən uca bir Şah,
Bəşər övladının  qibləsi Allah.
Yusif  Züleyxanı soruşdu ondan,
Dedi:-Söhbətləri ancaq Allahdan.
Hər gün hey Allaha ibadət edir,
Yeməyi unudur, səcdəyə gedir.
Kimsəylə danışmır, eləmir söhbət,
Allahadır ancaq onda məhəbbət.
Dedi:-Günahları azaldır iman,
Günahlar əriyir, təmizlənir can.
Qardaşlarım gəlib, əyləşək axşam,
Şirin söhbət edək, hamılıqla şam.
Məclisdə yerləri hər iki- iki ,
Əyləşsin qardaşlar belə hələ ki .
İki övladları  gəldi yanına,
Atası, anası  yandı canına,
Esenas qolunu boynuna saldı,
Yusif qucaqladı, yanına aldı.
Sonra otağına qayıtdı Həzrət,
Bir daha işlərə etdi nəzarət.
Gəldilər qardaşlar,quruldu məclis,
Üzləri gülürdü ,dilləri səlis.
Yusif maraqlandı, sordu əhvalın,
Yəqub peyğəmərin səhətin, halın.
Söhbət körpü saldı hər bir qardaşa,
Kənan diyarına, torpağa, daşa.
-Buğdanı alanda verilən pullar,
Kisənin içindən çıxdılar onlar.

Pulları görəndə biz çaşıb qaldıq,
Sizə vermək üçün geriyə aldıq.
Deyə, Levi dindi, gətirib verdi,
Həzrəti Yəqubdan salamlar dedi.
Dedi:-Pulunuzu xəzinə alıb,
Aparın geriyə, qıtlıqdan qalıb.
Qardaş-qardaşıyla edirdi söhbət,
Bünyamin tək qalıb, darıxır əlbət.
Sordu:-Tək niyə ki,oturmusan sən?
Niyə darıxırsan?  Niyə dərdlisən?
-Adım Bünyamindir, Yəqubdu atam,
Yox doğma qardaşım, ürəyim nakam.
-Əvvəldən olmayıb qardaşın sənin?
-Olub Yusif  adlı  qardaşım, bilin.
Deyirlər qurd yedi onu, o çağlar,
O vaxtdan ürəyim həmişə ağlar.
-Gəl otur yaxımda,ol mənə qardaş,
Bəlkə  salamatdır, qayıdar  sirdaş.
Bünyamin Yusifin yanına gəldi,
Ona təzim etdi, ürək düzəldi.
Yəhud ordan baxıb yavaşca dedi:
-Bir baxın,haradan, haraya gəldi?
Misir Əziziylə əyləşdi qoşa,
Hamı aşağıda, o keçdi başa.
Yusif qardaşını gördü yanında,
Doğma qanı coşdu onun canında.
Özündən asılı olmadan, aman!
Göz yaşı töküldü üzünə haman.

Gizlətmək istədi o, göz yaşını,
Döndərdi kənara məyus başını.
Özün ələ aldı Yusif peyğəmbər,
Peyğəmbəri sordu, ürəkdə kədər.
-Atamın əhvalı yamandı, yaman.
Gözləri tutulub ağlayır hər an.
-Anan yaşayırmı?-kədərlə sordu,
Sualı verəndə  ürəyi durdu.
-Körpə vaxtı anamızı itirdik,
İki qardaş oynayırdıq, gəzirdik.
Çox keçmədi Yusifimi qurd yedi,
Onlar gəldi, bizə belə söylədi.
Yusif ciddiləşdi:-Bir sirr deyimmi?
Səni sevindirib xoşbəxt edimmi?
Ancaq kimsələrə amandı, demə,
Sirri qardaşlara hələlik vermə.
Şad xəbər verəndə özün ələ al,
Verdiyin sözünü tez yadına sal.
Dedi:-And içirəm sirri açmaram,
Əgər ki,demişəm inan,qaçmaram.
-Arzu edirsənmi Yusifi görmək?
Onu əzizləmək, sevgi göstərmək?
Aldığı  zərbədən əsdi əl- ayaq,
Qışqırmaq istədi dondu dil-dodaq.
İniltili səslə:- Möhtərəm Əziz!
Yusifdən bir kimsə deyildir əziz.
Onu görmək üçün gəl canımı al,
Qardaşımı göstər, ürəyimdə qal.

-Görürsən Yusifi, qardaşım sənsən,
Qurdların yediyi, o Yusifəm mən.
Mənəm otuz ildir sizdən ayrılan,
Qəlbimi çox sıxır dözülməz hicran.
Səni buraxmaram bir də yanımdan,
İnan çox sevirəm artıq canımdan.
Qardaşlar gedərlər,sənsə qalarsan,
Qardaşın yanında xoşbəxt olarsan.
Bünyamin eşitdi dürlü sözləri,
Ürəyi titrədi, əsdi dizləri.
Yanan atəşini boğaraq qaldı,
Sevinci, kədəri içinə saldı.
Sonra gülümsədi, ürəyi rahat,
Üzünə gülürdü yeni bir həyat.
Yusif qardaşıyla edərək söhbət,
Göstərdi qardaşa isti məhəbbət.
Enarus sakitcə etdi xəbərdar:
-Ehtiyatlı olun, sirrin olar car.
Yusif söhbətini kəsərək haman,
Ayrıldı onlardan, çıxaraq ordan.
Sarayın bağına, çıxdı havaya,
Orda səcdə etdi gözəl Xudaya.
Qardaşlar aradı Bünyamini tez,
Suallar verildi üzünə tez -tez:
-Niyə ki ağladın?Niyə ki güldün?
Niyə nəşəlisən sən indi bu gün?
-Soruşdu anamı, onda ağladım,
Söhbəti dəyişib sözü bağladım.

Əziz danışaraq Misirdə işdən,
Kahin hiyləsindən,onla görüşdən.
Ürəyim açıldı, bir xeyli güldüm,
Əzizlə görüşdən həm də üzüldüm.
Eşidib sözləri qaldılar məmnun,
Yaxasın buraxdı qardaşlar onun.
Mimi Soba dəvət etdi onları,
Göstərdi sarayı, başqa canları*.
Ayrıldı yatmağa təmiz otaqlar,
Bərq vurur orada gözəl yataqlar.
Yusif səhər tezdən dedi Malikə:
-Diqqətlə baxarsan onlarda yukə.
Bünyaminə yükü özün hazırlat,
Qiymətli bir qabı oraya sən at.[37a]
Kənan diyarında belə qayda var,
Oğurluq edənlər, beş il qul olar.
Lakin,Bünyamini sən xəbərdar et,
Təcili onların yanlarına get...
On bir qardaş yüklərini aldılar,
Misirdən onları yola saldılar.
Kənanlı qonşular gəldilər yaxın,
Qoşulub Kənana başladı axın.
Azca getmişdilər, arxadan bir səs:
-Dayanın, uzağa getməsin heç kəs.
İtmişdir sarayda qızıl bir fincan,
Gərəkdir yoxlansın burada hər can!
Onlar and içdilər:-Bu ola bilməz,
Onların adları pisdə çəkilməz.
*-çöl quşları

Malik dedi:-Xeyir,axtaraq gərək,
Qızıl fincan itib, kimdədir görək.
Mühafizlər kisələrə tez baxdı,
Gözlər Bünyaminin qabına axdı .
Çaşqın-çaşqın Kənanlılar dayandı,
Hamı yatmış kimi baxıb oyandı.
Yəhud:-Sifətində bəs hanı abır?
Kənanı Misirdə etdin biabır.
Söhbət əsnasında Yusif də gəldi,
Sərrast bir ox kimi sözləri dəldi:
-Qızıl fincanımı oğurladız siz,
Etdiyim hörməti biri heç etdiz.
Oğurluq edənin nədir cəzası?
-Qula çevrilərlər, olsalar ası.
Ancaq ki ey əziz atamız qoca,
Yusifi qurd yedi, bu da qalınca.
Dözə bilməz atam belə cəfaya,
Gözləri tutulub,qalıb hay- haya.
Bir də atamıza söz vermişik biz,
Geri gətirməyə  inan, ey Əziz.
Bünyaminsiz indi bizlər nə edək?
Biz onsuz Kənana nə üzlə gedək?
Bağışla sən bizi ey böyük Əziz,
Qayıdaq Vətənə qəmsiz,kədərsiz.
Bizlərə bir daha etibar etməz,
Atamız inan ki, davam gətirməz.
Yusif dedi:-Burda Kənanlılar var,
Onlar da sizlərə şahidlik yapar.

-Onda məni saxla onun yerinə,
Deyə, Levi dindi, yalvardı yenə.
-Deyirsən ki,bizlər saxtakar olaq?
Oğrunu biz qoyub səni saxlayaq?
-Qardaşı Yusif də, bibisin üzdü,
Yəhud irişərək dodağın büzdü.
Yusifə bu sözlər ox kimi dəydi,
**Yəhudun sözləri belini əydi!!!**
“Kim məni çox sevib əziyyət verib,
Məhəbbət göstərib, gülümü dərib.
Bibim də çox sevdi, oğurluq yaxdı,
Qul kimi alaraq sinəyə taxdı.(38)
İstədi saxlaya yanında məni,
Düşündü, işlətdi belə hiyləni.
Atam çox sevirdi, düşdüm didərgin,
Kölə tək satıldım, hey oldum əzgin.
Züleyxa sevgidən zindana atdı,
Qırmancla döydürdü, aclığa qatdı”.
Peyğəmbər düşündü bütün bunları,
Qəlbindən keçirtdi qəmgin anları.
Allahın rizası yox idi hələ,
Yusif sirri aça, duya ailə.
Hər şeyin öz vaxtı, vədəsi vardır,
Vaxtsız dərilərsə meyvə də xardır.
Hələlik Peyğəmbər susub dözürdü,
Çətin işlərini bir-bir çözürdü.
Qardaşın qoluna vurdular qandal,
Üzündə qızartı çoxaldı xal-xal.

Qardaşlar qardaşa əlvida dedi,
Yəhuddan Bünyamin acı söz yedi.
Onları bürüdü üzücü kədər:
"Həzrəti Yəquba nə deyəcəklər?"
Levi:-Sizlər gedin, mən isə qalım,
Evə qayıtmağa yoxdu bir halım.
Atamın gözünə necə görsənim?
Üzüm gəlmir evə getməyə mənim.
Qardaşlar Kənana qayıtdı bezar,
Tutmuşdu onların ürəyin azar.
Necə baxacaqlar?-etdilər fəryad,
Ata imdadına, ey dadi-bidad.
Şəmun söylədi ki:-Yoxdu bir əlac,
Düz sözdən alına bəlkə bir ilac.
Ata inanmasa qonşular gələr,
Şahidlik edərlər, düzünü bilər.

## Qardaşların  Evə Kədərli Qayıtması

Yollar ayrıcında durub baxırdı,
Övlad həsrətiylə gözlər axırdı:
-Hələ bax yollara, gəlirmi karvan?
Nədənsə ürəyim darıxır yaman.
Mənim balalarım hayana getdi?
Bu gün səhər çağı qonşular yetdi.
Allahım onları sən mənə yetir,
Ayrılıq qəmini təmamən bitir!

Nəvəsi qışqırdı:-Baxın, babacan!
Uzaqda görünür qaraltı, çox can.
Baba sevinərək durdu ayağa,
Kor olmuş gözüylə“baxdı”uzağa:
-Diqqətlə bax oğlum, gələn kim ola?
Kimlər yan alıblar  bizim mahala?
-Doqquz nəfərdirlər, ey əziz babam,
Ancaq heç görsənmir əmimlə atam.
Yəqub peyğəmbərin ürəyi axdı,
Gözündən qəm-kədər, ildırım çaxdı.
-Darıxma ay bala, gözləyək bir az,
Arxadan gələrlər, başqa şey olmaz.
Peyğəmbər uşağa təskinlik verdi,
Amma pis xəbəri o, hiss edirdi.
Qardaşlar yavaşca gələrək yaxın,
Evlərdən bayıra başladı  axın.
Peyğəmbər onları dinlədi bir-bir,
İki övladından gəlmir səs-səmir.
Ruil atasına verdi məlumat,
Onun dil-dodağı olmuşdu çat-çat:
-Levi orda qaldı narahat, qəmgin,
Dedi,Bünyaminsiz ,ürəyim əzgin.
Əgər inanmırsan qonşudan soruş,
Aldatmırıq ata, hamısı olmuş.
Qardaşlar hamısı etdilər təsdiq:
-Ya Peyğəmbər inan, hamısı dəqiq!
-Mənim övladlarım oğurluq etməz,[37b]
Özgənin malına gözünü dikməz.

Bünyaminə özüm kimi əminəm,
Öyüd-nəsihəti verən həm mənəm.
Misirdə yoxdur ki, belə bir qanun,
Ancaq Kənandadır, öyrənin,duyun.
Əziz qanunları haradan bilir?
Bu işdə nəsə var, ürəyim deyir.
Peyğəmbər onları mürəxxəs etdi,
Qoca ata gəlib hücrəyə yetdi:
-İlahi, nə işdir gəlir başıma?
Bir-bir kədər yağır qoca yaşıma.
Peyğəmbər səbr etdi, gözlədi əlbət,
Hər gün məşquliyyət oldu ibadət.
Yalvardı Allaha hər səhər, axşam:
-Acı sızıltıdan mən kor olmuşam.
Məsləhət sənindir, ey Pərvərdigar,
Sənsən aləmlərdə vahid hökmüdar.
Dünyada yaşayan ən xırda bir can
Sənin köməyinə möhtacdır hər an.
Sənin iradəndə həm olan, olmaz,
Ey əziz Allahım, sənsən danılmaz.
Peyğəmbər ürəyi deyirdi ki, ha,
Hicranın ömrünə az qalıb daha.



# Bünyamin Qardaşı Yusifin Yanında

Qardaşı qardaşla gəldi saraya,
Kimsə yoxdur daha girə araya.
İki qardaş qucaqlaşdı, üzüldü,
Otuz ilin ayrılığı  gömüldü.
Göz yaşları qarışdı göz yaşına,
Bünyaminin sığal çəkdi başına.
Ürək danışırdı, susmuşdu dillər,
Yanaqlar islanmış, ağlayır illər.
Peyğəmbər əlini qaldırıb göyə,
Xeyli dua etdi gözəl  Xüdayə:
-Allah, ayrılığı bir də göstərmə,
Hicran əzabını sən bizə vermə.
Anam Rəhilənin ruhu şad olsun,
Atamın həyatı sevinclə dolsun.

Övlad itgisiylə etmə imtahan,
Şəfaətə möhtac verdiyin,bu can.
Çəkməsin ürəklər heç bir intizar,
Ağlamasın kimsə,ümidsiz zar-zar.
Övlad acısını bizdən uzaq et,
Ağlayan gözlərin köməyinə yet.
Solmasın həyatı, sönməsin çıraq,
Yaşasın ömrünü, olmasın fəraq
Mən indi qardaşa qovuşan kimi,
Allahım qovuşdur dərdli aləmi.
Qayıtsın evinə itkin düşən kəs,
Üzülməsin kimsə evində əbəs.
Yusif duasını qurtaran zaman,
Esenas, övladı gəldilər haman.
Uşaqlar sevinir, ürəklər gülür,
Dəhşətli ayrılıq gömülür, ölür.
Büyamin hamıyla görüşür bir-bir,
Gözlər gülümsəyir, hamı sevinir.
Malik də gələrək, başını əydi,
Şirin sözlərindən zər-xara geydi:
-Allah ayrılığı bir də, salmasın,
Ürək telləriniz yaşla dolmasın.
Ataniz da gəlsin, sevinin, gülün,
Toya, bayramlara belə düzülün.
Enarus,Mimi də, xoş söz söylədi,
Xeyir arzuladı, təbrik eylədi.

# Züleyxa Yusifə Göz Aydınlığı Verməyə Gəlir

Züleyxa eşitdi, gələrək ora,
Sevinc yaşlarıydı üzündə qora.
Esenası sevdi sanki bir bacı,
Yusifi dindirdi, özün baş tacı:
-Yetişdi qardaşın, yetirdi Allah,
Atan da, anan da gələr inşəllah.*
Həzrəti Yəqubdur, o gözəl atan,
Yetimin- yesirin dadına  çatan.
Uşaqlqdan vardı ağlın-kamalın,
Vermədin sirrini, nəydi amalın?
İndi öyrəndim ki, böyük bir tayfa,
Baban İbrahimdi,  ürəkli qafa.
Allahın dostuydu, bütə od tutan,
İsmayıl qurbanı dillərdə dastan.
Aclıqdan Misiri sən etdin xilas,
Misir amonuna düzənlədin yas.
Üzünə-gözünə olmuşdum heyran,
Səni ovlamağa hey atırdım can.
Sonra ürəyini görüb vuruldum,
Allahın eşqilə sənlə duruldum.
Allah daxilimdə yandırdı çıraq,
Çirkin işlərimdən edərək uzaq.
Cavanlıq yetirdi, gözlərimə nur,
Sənə zövcə etdi, verərək onur.
*-ana əvəzi

Sən bir vəsiləsən,səbəbkar Allah,
Mən sənin kənizin,sən isə bir şah.
Yusif:-İndi niyə  gəzirsən uzaq?
Ürək niyə olub Yusifdən qaçaq?
-Uca Allahımla edirəm söhbət,
İyirmi gündür ki, ancaq ibadət.
Ona səcdə edir, sanki yanar şam,
Günlərim beləcə hər səhər,axşam.
İnşəallah, Allahdan rüsxət olunca,
Qulunam mən sənə ömür boyunca.
Dedi:-Kimliyimi sən necə açdın?
Bura gəlməyinlə gur işıq saçdın.
"Axtaran tez tapar"-qımışıb dindi,
Sonra pilləkənlə aşağı endi.
Yusif, Esenasın üzünə baxdı,
Gülümsər gözləri gözünə axdı:
-Başımda dolanır belə bir fikir,
Hansınız daha çox Yusifi sevir?
Esenas gülərək:-Mən çox sevirəm,
Bunu həmən sənə sübut edərəm.
İndi yaşlı qadın yuxuna girir?
Onu kimlər tapıb yanına gətirir?
Hansı qadın bölər öz məhəbbətin?
Söylərmisən səbəb bu səxavətin?.
"Eşq olsun"-dedilər,gülüşdü hamı,
Bir daha xoş ovqat yandırdı şamı.
Peyğəmbər zövcəsin əlini aldı,
Gözləri gözünün içində qaldı.

Sonra Bünyamini aldı yanına,
Keçmiş günlərini saldı yadına.
Bünyamin eşitdi, ürəkdə dəhşət,
Ayaqları əsdi, gözlərdə vəhşət.
Nifrin yağdıraraq ağladı zar-zar,
Etdi qardaşlara qarğış, ahuzar.
Yusif dedi:-Nifrət Allaha yaddır,
Günahı əfv etmək gözəl bir addır.
Nifrət bəsləməyə doğulmadıq biz,
Yaxşı əməl edib salmalıyıq iz.
Əfv etdim onları, unutdum çoxdan,
Onları əfv etsin həm də,Yaradan.
Misir torpağında yeni bir həyat,
Allahın əmriydi, verdim izahat.
Esenas:-Kənandan Allah gətirdi,
-Misirdə Yusifi mənə yetirdi.
Deyə, gülümsəyib zarafat etdi,
Onları tək qoyub yatmağa getdi..
Ana məzarını soraraq Həzrət:
-Gedib etdinizmi qəbrin ziyarət?
Dedi:-Atamızla tez-tez getmişik,
Anamızı çox ziyarət etmişik.
Səhər sübhə kimi etdilər söhbət,
Yenə söz bazarı olmadı qəhət.

# Qardaşların Misirə Üçüncü Gəlişi

Ata övladların yanına çağırır,
Dəri üzərində məktub yazdırır.
Sonra da, onlara tutaraq üzün,
Belə ərz eylədi Peyğəmbər,sözün.[38a]
-Təcili toplanın, Misirə  gedin!
Məktubu aparın, təz əməl edin!...
Qardaşlar tələsik oldular hazır,
Şair də yatmadan düşünür, yazır.
Yolu qısaldaraq hey çaparaq  at,
Ürəklərdə ümid oldular sərvaxt.
Yolçular yorulub, əl-ayaq torpaq,
Axşam tərəfiydi,tərpənmir yarpaq.
Şəmun təklif etdi:-Yetişib axşam,
Əyləşib bir yerdə eyləyəyin şam.
Karvansara yolu deyildir uzaq,
Levini də bəlkə biz orda tapaq.
Verilən tekliflə razı oldular,
Karivan yoluna gelib doldular.
Atlar yorulmuşdu, özləri əzgin,
Axşam tərəfiydi, hava da sərin.
Atları ən əvvəl etdilər rahat ,
Karvanssara yeri qarışıq həyat.
Levini gördülər, uzanıb yatıb,
Əllərin başının altına atıb.
Qardaşlar oyatdı, durdu ayağa.
Sanki kürəyini söykədi dağa.

Dedi:-Siz gedəndən indiyə qədər,
İzləyirəm onu hər axşam, səhər.
Hər gün karetada əzizlə gəzir,
Bünyamin azaddır,nəyinki əsir.
Şahın sarayına aparır onu,
Əl-əlvan geyinib, bəzənib donu.
Bu qılıqda kölə olmaz, heç olmaz,
Bünyaminsiz Əziz evində qalmaz.
-Bünyaminin dərdi  bizləri əzir,
O isə burada  faytonda gəzir.
Yəhud əsəbləşdi, yenə söyləndi,
Onun gözlərindən nifrət ələndi.
Qardaşlar səfərdə sıxılmışdı çox,
Aldılar şad xəbər, ürək oldu tox.
Qoyun dərisini saldılar yerə,
Döşəmə üstündə uzandı hərə.
Yuxuya getdilər onlar ertədən,
Səs-küyə oyandı qardaşlar erkən.
Karvansara yeri, heyvan səsləri,
Sübh tezdən oyatdı yatan kəsləri.
Daha xoruzlara deyildir möhtac,
"Atları yemləyin, qalmasınlar ac".
Müsafir səsləri gəlir hücrədən,
Hamını oyadır səslər heç nədən.
Oyandı qardaşalr istər- istəməz,
Günəş şüaları hələ ki ,düşməz.
Əllərin yumağa gəldilər suya,
Levi də oxuyur, yolçular duya:

-Ey ulu Xaliqim, ey Pərvərdigar,
Hər iki aləmdə vahid hökmüdar...
Bütün müsafirlər yaxına gəldi,
Levinin xoş səsi ürəklər dəldi.
Levi əllərini qaldırmış göyə,
Diz üstə əyləşib,düşüb səcdəyə:
-Ey uca Allahım,sənsən yaradan,
Həm də ki,aparan, silən aradan.
Sənsiz külək əsməz,nə yağış yağar,
Sənsiz nə ay çıxar, nə günəş doğar.
Ey ulu xaliqim, ey Pərvərdigar,
Hər iki aləmdə vahid hökmüdar!
Levi dua edir uca Allaha,
Müsafirlər baxır, getmirdi daha.
Bu səs sehirləmiş sanki onları,
Yanlarına düşmüş əzgin qolları
Qayıtdılar onlar, başlar aşağı,
Dedilər:-Səsində haradan yanğı?
Hökmüdar, Əziz də, ona inanır,
İndi amon yoxdur, Allahı anır.
Lakin bilmirik ki, biz necə edək?
Biz necə Allahın yoluyla gedək?
Bizim inamımız olubdu Amon,
Ancaq yanılmışıq,varlığı bir son.
Misir dövlətinin Əzizi, başı*,
Sındırdı amonu,qara bir daşı.
Biz də istəyirik ona inanaq,
Biz də sizin kimi müsəlman olaq.
*-Baş danışan-Yusif

Levi dedi:-Artıq sizlər müsəlman,
Gərəkdir inana hər varlıq, hər can.
Ondan istəyənlər qayıtmaz əlboş,
Allaha duya et, hey ardınca qoş.
Uca, tək Allaha qoşmayın şərik,
Odur köməyimiz, ondan istərik.
Getdiyin yollarda onu unutma,
Nəfsinə aldanıb şeytana uyma.
Allah özümüzə bizdən ən yaxın,
O,şah damarımız,düşünün,baxın.
Həzrəti Adəmdən,Yəquba qədər,
Onların sözləri hamıya keçər.
Yəhud da, Şəmuna söylədi yavaş:
-Levi yaman coşub,hey ağrıdır baş.
-Əziz bir peyğəmbər-yolçular dindi,
Həm də Baş danışan Misirdə indi, .
Bütləri sındırıb məbəddən atan,
Kahinləri bir-bir zindana qatan.
Xalqı çətinlikdən,şərdən qurtaran ,
Züleyxanın gözün yenə qaytaran,
Ruzarsif  kasıbla, məzlum pənahı,
İnsanlar   tanıdı  uca Allahı.
Qardaşlar xəbərdən tamam karıxdı,
Onların gözündən şaşqınlıq  axdı.
Yolçular ayrılıb gedərək ordan,
Qardaşlar tək qaldı, olaraq pünhan:
-Əziz,Peyğəmbərdir?Atamız bilir?
Bəs niyə Bünyamin qula çevrilir?

Lakin o, bizimlə yaxşı davrandı,
Sarayda  saxladı, ürəyi yandı.
Verdiyi buğdanın pulun almadı,
Bizi əziyyətə heç vaxt salmadı.
“Ya Allah”-deyərək düşdülər yola,
“Nə ola Bünyamin sarayda ola”...
Saray mühafizi:-Dayan, siz hara?
-Əzizin yanına biz gəldik bura.
Mühafiz də, dərhal zəngini çaldı,
Xidmətçi gələrək qapıda qaldı.
On nəfər qardaşı tanıyıb həmən,
Enarus tez xəbər tutdu bu işdən.
Gəlib qardaşları saraya aldı,
Şirin söz söylədi, qulluqda qaldı.
Yusiflə Bünyamin tutdular xəbər,
Qardaşlar önündən silindi çəpər.
Dedi:-Sirrimizi açma sən hələ,
Hələlik lazımdır bizlərə belə.
Bünyamin:-Baş üstə,deyərək getdi,
Yusifdən hamıya göstəriş yetdi:
-Qardaşlarla bu gün olacaq söhbət,
Züleyxa, Malik də, gəlsinlər əlbət.
Bu gün qoy açılsın sirrim əzəldən,
Qardaşı saxladım, bilsinlər nədən.
Hamama aparın, qoy dincəlsinlər,
Sonra da qəbula həmən gəlsinlər.



# Sirr Açılır

Əzizlik tacını qoyaraq  başa,*
Dostlarla birlikdə keçdilər başa.
Artıq yığılmışdı bir xeyli insan,
Dəvət edilmişdi tarixlər yazan.
Züleyxa, Esenas girərək zala,
Otaq işıqlandı nurdan az qala.
Hər gözəlin ətrafında kənizi,
İşıq saçır hərəsinin bənizi.
Onlar yerlərində əyləşdi haman,
Misir əzizi də gəldi bu zaman.
Zalda əyləşənlər durdular dərhal,
Görəndə Yusifi, dəyşildi çox hal.
Yusif əyləşərək təxti-rəvanda,
Esenas, Züleyxa sağı-solunda.
*-Misirin Vəziri

Qardaşlar duraraq həm ayaq üstə,
Mühafiz göz qoyur, baxır ahəstə.
Əziz:-Xoş gəldiniz yenə də ,bizə,
Varmı bir ehtiyac köməyimizə?
Şəmun:-Salam olsun, izzətli Əziz,
Şanız-şöhrətiniz salbdır xoş iz.
Biz bura gələndə etdiniz hörmət,
Sizdən incimədik, gördük kəramət.
Peyğəmbər deyirlər burada sizə,
Hamı hörmət edir ailənizə.
Bünyamini verin evə aparaq,
Atamız darıxır, olubdur fəraq.
-Bünyamini şərtlə verərəm ki,siz,
Sualıma düzgün cavab veriniz.
Yusifin başına nə oyun açdız?
Onu harda atıb, hayana qaçdız?
Yəhud tez dilləndi:-Canavar yedi!
Qardaşlar qardaşın dediyin dedi.
-Geridə qalmışdır, o qəmli vaxtlar,
Yada salınmağın nə mənası var?
-Mənası olmasa heç soruşmazdım,
Tövbə etmişsiniz -deyərək sandım.
Ancaq ki ,yenə də, yalan dediniz,
Şeytanın sözünü bayraq etdiniz.
Yusifi quyuya atmadınızmı?
Sonra da siz onu satmadınızmı?
-Belə bir hadisə inan olmayıb,
Yusifi quyuya bizlər atmayıb.

Malik:-Siz Yusifi bizə satdınız,
Dərin bir quyuya atmışdınız siz.
Mənim adamlarım onu çıxartdı,
Sonra da siz gəldiz, mərəkə artdı.
On yeddi dirhəmə razılaşdıq biz,
Pulu sizə verdik, sonra getdiniz.
Kölə bazarında Əzizə satdım,
Sonra üzülərək, geri qayıtdım..
Züleyxa danışdı:-Ərim Potifar,
Yusifi bazardan alaraq  o yar.
Təvəllüd günümə etdi hədiyyə.
Övladım yox idi, sevinim deyə.
Yusifin adına başqa ad dedik,
Yusifə Ruzarsif adını verdik.
Qardaşlar özlərin itirdi bu dəm,
Onların üzünə qondu kədər,qəm.
Levi dilə gəldi, gözlərində yaş:
-Sizə yazıq olsun, ürəkləri daş.
Yusifi quyuya atmadınızmı?
Onu kölə kimi satmadınızmı?
Məni qorxudaraq verirdiz hədə,
Atamız kor oldu, alaraq zədə.
Allahın lənəti qoy olsun sizə,
Sizlərin ,o şeytan ürəyinizə.
Heç olmasa indi düzünü deyin,
Allaha üz tutun, tövbələr edin.
Qardaşlar başların saldı aşağı,
Həya təri basmış, yanır yanağı.

Şəmun tez əlini cibinə atdı,
Cibindəki məktub dadına çatdı.
Məktubu çıxardıb Yusifə verdi,
Ürək öz simini bir az da gərdi.
Peyğəmbər,naməni əlinə aldı,
Əllər əsə-əsə əlində qaldı.
Dəri üzərində yazılan sözlər,
Döndülər yağışa nisgili gözlər.
-Misir əzizinə olsun səlamlar,
Həzrəti Yəqubdan isti kəlamlar.
Oğlum Bünyamini etdiniz kölə,
Səbəbin bilmirəm ey Əziz hələ.
Övladlarım mənim oğurluq etməz,
Şeytanın ardınca sürünüb getməz.
Bir də ki, Misirdə yoxdur, o qanun,
Kənandadır yalnız, xəbərin olsun.
Bünyaminim əgər olmasa azad,
Bizi sevindirib sən etməsən şad.
And olsun Allaha, edərəm nifrin,
Düşər xəstəliyə, olarsan qəmgin.
Yer üzündən nəslin,kökün kəsilər,
Bəlaya düşərsən, ömrün əzilər.
Peyğəmbər oxuyur, ürəyi dolur,
Gözləri sulanır, yanaqlar solur.
Göz yaşları yağır, elə hey axır,
Qara saqqalını leysan isladır.
Üzülür ürəyi ,yanır Peyğəmbər,
Orda olanları boğurdu qəhər.

Qardaşlar şaşırıb Yusifə baxır,
Onların üzündən qəm-kədər axır.
“Ruzarsif  niyə ki, belə ağlayır?
Nə oldu ki ona, ürək dağlayır?”
Levi:-And verirəm uca Allaha,
Səbəbini söylə, dözmürəm daha.
Bəlkə sən Yusifin yerin bilirsən?
Söyləsən xəstəyə kömək edərsən.
Yusif göz yaşların dəsmalla sildi,
Duraraq ayağa, dil, dilə gəldi:
-Anasız bir körpə, satılan mənəm,
Otuz il həsrətdə yanan üzgünəm.
Qardaşlar eşitdi, üzləri döndü,
Ayaqlar mıxlandı, ürək döyündü.
Yəhudun sifəti oldu ağappaq,
Sanki işləmirdi gözlərdə qapaq.
Qardaşların əsdi əl-ayaqları,
Gəldi gözlərinə cavan çağları:
“Yəqin ki o, indi çağırar cəllad,
Onlar asılacaq”-tez düşündü Kad.
Şəmun ölümlərdən ölüm istədi,
Ruil, Qulun, Əşir sanki xəstədi.
Levi hönkür-hönkür əsdi, ağladı,
Ağlar gözlərindən leysan çağladı.
Daim,Ləta,Yəstaxir əsirdilər hey,
Ürəklər döyünür,olmuşdular key.
Yəhudun bənizi qorxudan soldu,
“Yəqin öldürəcək”-gözləri doldu.

Qorxu hissi əzir, keçir canına,
Zəhərli sözləri girmiş qınına.
Yusif  lap yaxına gəldi onlara,
Yanaraq söylədi o, qardaşlara:[38b]
-Sizlər mənə əziz, ürəkdə bir can,
Damarda qaynayır, axır eyni qan.
Əfv etdim sizləri, biliniz çoxdan,
Sizləri əfv etsin uca Yaradan.
Yusif  üzün  tutdu uca Allaha,
Sağlamlıq dilədi Əziz bir daha:
-Bağışla hamısın, ey uca Tanrı,
Keç günahlarından, əfv et onları.
Qardaşların bir-bir adın çağırdı,
Onun gözlərindən şəfqət yağırdı.
Ürəklərdən getdi qorxu duyğusu,
Yəhuddan çəkildi ölüm qorxusu.
Dodaqlar tərpəndi,”lal”dil,dil açdı,
Kədərli gözləri parladı, saçdı.
Yusifin sözündən karıxdı onlar,
Ürəklər tarıma çəkilən anlar.
-Əfv et bizi qardaş, bağışla özün,
Bizləri sarsıtdı mərdliyin, sözün.
Cəllad dar ağacdan assaydı bizi,
Daha şad edərdin ürəyimizi.
Onların gözləri leysan tökdülər,
Yusifin önündə dizə çökdülər:
-İndi biz köləyik  Misir elində,
Yaşamaq,öldürmək,sənin əlində.

Sat bizi,ya öldür, göndər sürgünə,
Biz baxa bilmərik yoxsa  üzünə.
Əgər bağışlasan, onda ver cəza,
Qoy bizim səsimiz çatsın ılduza.
Onda bəlkə bir az rahatlıq tapaq,
Haram olsun bizə başdakı papaq.
Yusif qardaşalrın tutdu əlindən,
Xoş sözlər süzüldü onun dilindən:
-Daha bu söhbətə qayıtmayaq biz,
Bir daha şeytana aldanmayın siz.
Bünyamini özüm saxlayaraq tam,
Kisəsinə qoyduq qızıldan bir cam.
Əvvəldən xəbərdar etmişdim onu,
Mühafizlər hamı bilirdi bunu.
Bünyamini almaq üçün yanıma,
Kənan qanunları çatdı dadıma.
Sirrimi açmağa yox idi rizam,
Bu gün biz veririk sirrimə xitam.
Levi:-Bir aydır ki, evimdir Misir,
Saray ətrafını izləyir,gəzir.
Utanıb getmədim Kənan düzünə,
Necə çıxaydım ki, ata üzünə?
Hər gün Bünyamini izləyir, süzür,
Görürdüm gülüşü gül-çiçək düzür.
Möcüzə haqqinda danışır hər can,
Şirin sözləriniz dillərdə dastan.
Uşaq yaşlarında gördün bir yuxu,
Qısqandılar sənə Kənanın çoxu.

"Gülümsəyir sənə Ulduz,Günəş,Ay,
Sonra səcdə edir, Allahdandır pay".
On bir ulduz bizik, alqış deyirik,
Sənin hüzurunda həm baş əyirik.
Qardaşalr hamısı edərək səcdə,
Saray məmurları gəlmişdi vəcdə.
Günəşlə Ay Kənan elində yaşar,
Onlar da gələcək, öz məqamı var.
Üç günlük qardaşlar şənlik etdilər,
Xoş niyyətə,xoş arzuya yetdilər.
Qardaşlar Yusifdən razı qaldılar,
Dönmək üçün evə, rüsxət aldılar.
Levi:-Dönməliyik, ata narahat,
Yollarımız uzaq, çətindi qat-qat.
Atamız Kənanda çox əzab çəkir,
Hər gün ürəyində qəm-kədər əkir.
Yusifin dərdindən itirdi gözün,
Artıq unutmuşdur atamız özün.
Yusif  köynəyini çıxartdı gerçək,[38v]
Verdi qardaşına,tapşırdı bərk-bərk:
-Atamıza verin, açılar gözü,
Xəstəlik sovuşar, sevinər üzü.
Atama deyin ki, yığsın tayfanı,
Satın ev-eşiyi, satın heyvanı.
Kənan diyarından Misirə gəlin,
Allahın əmridir, bunları bilin.
Misirdə işləyib yaşayarıq biz,
Qəmdən azad olar bu ürəyimiz.

Qurtardı qardaşlar, möhnət illəri,
Gözləyir bizləri şadlıq günləri.
Onlar dayanmadan düşdülər yola,
Sübhan, yolçulara xoş yol arzula!.



# Yəqub Peyğəmbər Keçmiş Günahını Yada Salır

Həzrəti Yəqubun tutulmuş gözü,
Baxırdı yollara, islanmış üzü.
Allaha yalvarır, ağlayırdı gah:
-Əfv et günahımı ey gözəl Allah...
İllər öncəsiydi, çox keçmiş zaman,
Getmir gözlərindən hadisə bir an.
Evdə qoyun kəsər, edərdi biryan,
Qonşuya da ətdən verərdi haman.
Yenə də, kəsilmiş yağlı bir toğlu,
Yedilər, doydular ,oldular dolu.
Amma, qonşuluqda bir kişi vardı,
Hər gün namaz qılar, oruc tutardı.

Adı Dənyal idi, əməli saleh,
Allahın adına olmuşdu valeh.
Cümə günü idi, yenə də oruc,
Yeməyə yox idi evdə bir ovuc.
Yəqub, uşaqları yeyib yatdılar,
Qonşuluq haqqını yerə atdılar.
Dənyal məcbur olub onlara gəldi,
Pay-sədəqə umdu, ürək əzildi.
Yəqub, uşaqları olaraq pünhan,
Sanki görmədilər Həzrəti,aman!.
Dənyal iftarını  su ilə açdı,
Səhər sübhə qədər yuxusu qaçdı.
Səhər vəhy mələyi göründü üzə,
Həzrəti Yəqubla qaldı göz-gözə:
-Ey Yəqub,var-dövlət Allaha məxsus,
Yadından çıxartdın bunları əfsus.
Qonşunuz Dənyalı sən saxladın ac,
Özünüz tox yatdız, o, ac- yalavac.
Bəs niyə qorxmadın uca Allahdan?
Qonşuluq haqqını çıxartdın yaddan!
Allah bu səhvini cavabsız qoymaz,
Qonşuluq haqqını namazın yumaz.
Vəhy mələyi dedi, görünməz oldu,
Yəqubun bənizi saraldı, soldu.
O  gündən yalvarır o, hey Allaha,
Əfv diləyir hər gün yanır birdaha.
Həzrət, keçmişləri düşünür, anır,
Keçmiş günahıla büsbütün yanır.

Göz yaşı axıdır durmadan Həzrət,
Allahdan istəyir şəfaət,rəhmət

## Həzrəti Yəqub Yusifin Ətrini Duyur

Həzrətin yeriydi hündür bir təpə,
Günəş də, boylanır nur səpə-səpə.
Nəvə gözlərini edirdi əvəz,
-Oğlum,bax uzağa,axtar, atlı gəz!
Ürəyim narahat olubdu  yaman,
Yusifin ətrini  duyuram haman.
Peyğəmbır yenə də, uzağa baxdı,
Ürək döyüntüsü dizinə axdı.
-Ay baba,sezilmir uzaqdan heç nə,
Bizə tərəf gəlir qoca bir nənə.
Sağda qonşulardır, söhbət edirlər,
Qızlar su daşıyır ,evə gedirlər.
Qadınlar darayır əllərində yun,
Yolun kənarında otlayır qoyun.
Göy üzü açıqdır, təmizdir səma,
Uzaqdan buludlar görünür əmma.
Baba, niyə  quşlar uçuşur elə?
Başımız üstündən belədən-belə?
Quşlar başımıza vururlar dövrə,
Günəş də sevinir, baxır bizlərə.
-Get çağır nənəni, özün yetirsin,
Özüylə bir bardaq su da gətirsin.

Yığışsınlar bura qohum -əqrəba,
Xoş xəbər gələcək bu günYəquba.
Nəvə tez qaçaraq hay-həşir saldı:
-Tez gəlin,babamız şad xəbər aldı.
Ay nənə, babama su apar sən də,
Səhərdən dayanıb yol keçidində.
Övladlar,qohumlar hamı oldu cəm,
Səlam gətirdilər Həzrətə bu dəm.
Zövcəsi Liya da, gəldi tələsik,
Dərin nəfəs alır o, kəsik-kəsik.
Həzrət su bardağın əlinə aldı,
İçib sərinləndi, xəyala daldı...
Yusifli günlərin andı bir daha,
Əlini qaldırdı uca Dərgaha:
-Allahım,Yusifin ətrin duyuram,
Ürəyim titrəyir, bihuş oluram.
Bu gün şad xəbəri sən yetirginən,
Yusifi təzədən mənə verginən.
Liyanın gözündən göz yaşı yağdı,
"Allahım,görəsən Yusifim sağdı?"
Fikirləşdi Liya, bacısın andı,
Yusifin anasın yadına saldı...
Uşaq doğulanda canı üzüldü,
İki körpələrin çırağı söndü.
Dedi:-Dediylərin kaş ki,düz ola,
Başını qaldırdı o, baxdı yola.
-Allah hüzurunda Rəhil soracaq,
Yusifdən olmadın niyə göz-qulaq?.

İlahi, bizləri naümid qoyma,
Sən,sevinc bəxş elə iki dünyama.
Nəvələrdən biri qışqırdı haman:
-Dağların önündə görünür karvan.
On bir atlı gəlir,o yandan bəri,
Atlılar sevincdən çapır düzləri.
Peyğəmbər duraraq dərhal ayağa,
Köməksiz, filansız gəldi qabağa:
“Gecədən qaçıbdı gözüm yuxusu,
Gəlib yaxınlaşır Yusif qoxusu.
Niyə on bir nəfər atlıdı orda?
Ürəyim söyləyir,Yusif də burda.
Əlim, ayaqlarım titrəyir tamam,
Allahım nə ola Yusifi tapam”.
Deyə, öz-özünə o, danışırdı,
Atlılar sürətlə yaxınlaşırdı.
Artıq atlılar da, seçilir gendən,
Bünyaminlə Levi gəlirdi öndən.
Qardaşlar nəhayət gəlib çatdılar,
Kənan torpağına sevinc qatdılar.
Endilər atlardan heç yubanmadan,
Öpdülər Həzrəti həm dayanmadan.
Şəmun dedi:-Ata, tövbə edirik,
Ən əvvəl Allahdan aman istərik.
Bağışla bizləri mehriban ata,
Həyatda etmişik ən böyük xəta.
-Mənə Yusifimdən verin bir xəbər,
Olsun ürəyimə həm qüvvət, təpər.[38q]

Bünyamin əlini qoynuna saldı,
Yusifin köynəyin oradan aldı.
Əlləri üstündə tutaraq zəri,
Kimsə danışmadı, baxırdı bəri.
Həzrət əsə-əsə aldı köynəyi,
Bir əliynən tutdu titrək ürəyi:
-Köynək Yusifindi!-Titrədi dili,
Üz-gözünə sürtdü, əsirdi əli.
Göz yaşları yanağına töküldü,
Xəfif-xəfif o, ağladı, üzüldü.
Dizləri üstündə oturdu yerə,
Əllərin qaldırdı uca göylərə.
-Ata, Yusifinin vardır səlamı.
Deyə,Bünyaminin güldü kəlamı.
İniltili zəif səslə söylədi,
Heç kim eşitmədi, ürək göynədi.
Köynək islanmışdı, ağlayırdı göz,
Baxanlar hıçqırır, inildəyir söz.
Diz çökdü torpağa, düşüb səcdəyə,
Mələklər də, yandı bu mənzərəyə.
Yalvardı Allaha:-Ey Pərvərdigar,
Sənədir ümidim, sənsən rəhimdar.
Yollara baxmaqdan sən xilas etdin,
Ağır günlərimdə imdada yetdin.
Arzumu göyərtdin ey əziz Xuda,
Daha bir istəyim yoxdur dünyada.
Peyğəmbər köynəyi yenə qoxladı,
Onu sığalladı, öpdü, yoxladı.

Həzrətin içinə titrəyiş doldu,
Ona səda gəldi, göstəriş oldu:
“Yenə sürt gözünə Yusifi qoxla,
Gözlərin açılar, yadigar saxla”.
Peyğəmbər köynəyi sıxdı gözünə,
Yenə də qoxladı, çəkdi üzünə.
Ətraf işıqlandı, nur gəldi gözə,
Dönərək qaranlıq parlaq gündüzə.
Möcüzə baş verdi Kənan elində,
Peyğəmbər köynəyi tutmuş əlində.
Qadın, kişi axıtdılar göz yaşı,
Bu möcüzə ağladırdı sərt daşı.
Toplanmış oraya qonşular, hərə,
Hamı sevinirdi bu şad xəbərə.
Peyğəmbər sakitdi, dinmirdi ürək,
Üz tutdu onlara, nə dedi görək:
-Otuz ildir məni hey aldatdınız,
Şeytana aldanıb, iman satdınız.
Mənə deyirsiniz, günahımdan keç!
Qardaş, qardaşı da, öldürərmi heç?
Yalvardım sizə ki, düzünü deyin,
Haqdan, ədalətdən siz paltar geyin.
Siz isə:-Qurd yedi, hey deyib durduz,
Şeytan sözlərindən mənə tor qurduz.
Gözlərim kor oldu, tökdüyüz oddan,
Siz daha vəhşisiz, o azğın qurddan.
Levi dedi:-Ata, biz azğınlarıq,
Ən zalım, qan içən pis insanlarıq.

Bizə rəhm eyləmə, ver ağır cəza,
Son qoy bu ləkəli həyatımıza.
-Ata, bağışladı Yusif  bizləri,
Hamını soruşdu, andı sizləri.
Dedi ki, həyatdır oldu bir qəza,
Əfv etsin atamız, verməsın zəza!
Yəhudun hiyləli söhbəti, sözü,
Güldürdü orada olan hər üzü.
Şəmun dedi:-Əziz, Yusif özüdür,
Ata, Yusif Misrin görən gözüdür.
Bizi tanımışdır o, görən gündən,
Pulu da almamış, əziz o üzdən.
Bünyamin qul deyil,bilirlər hamı,
Kisənin içinə atdırmış camı.
Allah elçi seçmiş,həm başçı bizə,
Həyatı büsbütün tamam möcüzə.
Levi dedi:-Yusif orda xilaskar,
Amonu sarsıtdı oldu cihaddar.
İnanır Allaha minlərlə insan,
Hamı onu sevir, danışır ondan.
Aclığın qarşısın ağılla aldı,
Günəş tək ətrafa gur işıq saldı.
Bünyamin də dedi:-Ey əziz ata,
Yusif dəvət edir yeni həyata.
Ailə qurmuşdu, övladı vardır,
Hər iki zövcəsi ağıllı yardır.
Firon Akinaton onu çox sevir,
Yusifdir Misirdə indi baş vəzir.

Sənə, anamıza göndərdi səlam,[39]
Qohum-əqrəbaya çox şirin kəlam.
Dedi ki:-Kənana səlamlar deyin,
Köç edin hamınız Misirə gəlin.
Yığılmışdı ora qohum, qəbilə,
Eşidən bilənlər gəlirdi hələ.
Süzərək hamını orda Peyğəmbər,
Çıxdı daş üstünə, qoxudu ənbər.
Dedi:-Çətin gündə sizlər var oldu,
Ürək sizlə güldü, sizlərlə doldu.
Otuz ildir Yusifimi görmürəm,[40]
Şadlıqla həyatda ömür sürmürəm.
Oğlanlarım məni çox incitdilər,
Şeytanın yolunu tutub getdilər.
Allaha həmd olsun,güldü üzümüz,
Yollardan ayrıldı indi gözümüz.
Gözlərim açıldı, sizlərsiz şahid,
Allahı həmişə tutunuz vahid.
İbrahim dinini unutmayın siz!
O uca Allahla vursun qəlbiniz!
Qonşuluq haqqını tutunuz əziz!
Aca, kasıblara sədəqə veriz!
Allah istədiyin pak görmək istər,
Günahına görə həm cəza verər.
Yalan, oğurluqdan siz olun uzaq,
Allahdan köməyi həmişə umaq.
Allah tövbələri əfv edən, keçən,
Odur bağışlayan,sevən,rəhm edən.

Mən də oğlanlarım,sizi əhf etdim,
Misirə köçməyə qərara yetdim.
Qoyun- quzuları bazarda satın,
Yetimin-yesirin dadına çatın.
Əfv edən insana Allah rəhm edər,
Bizləri gözləyir orda Peyğəmbər.
On bir ulduz səcdə edibdir ona,
Günəş, Ay da gərək başına qona.
Liya da əriylə durmuş yan-yana,
Yusifə xalaydı həmdə ki, ana.
Həzrətin əlindən tutdu bir uşaq:
-Babam hədiyyəmi nə vaxt alacaq?
Atam, əmiləri birinci gördüm,
Sizlərə gülüşdən bir çələng hördüm.
Gülərək Peyğəmbər nəvəsin süzdü,
Levinin əvvəlin gözündə düzdü.
Nəvənin əlini əlinə aldı,
Diz üstə oturdu, beləcə qaldı.
-Hədiyyə alaram,tələsmə, amma,
Söz verirəm bunu nazlı balama.
İndisə hazırlaş sən uzaq yola,
Dostlarla vidalaş, gəzin qol-qola.
Gecəni yatdılar ürəkdə  bahar,
Qardaşlar durdular, etdilər nahar.
Şad xəbər yayılmış,olmuşdu izhar,
Hazırlıq  işinə başladı onlar.
Peyğəmbər göndərdi Yəsirə çapar:
-Orda qardaşıma şad xəbər apar.

Ey əziz oxucum,narahat oldum,
Şairin sözündən demə yoruldum.
Həzrəti İshaqın əkiz övladı,
Yəqub həm də Eysdi onların adı.
Qardaşlar barədə yazılıb çoxdan,
Niyə incimişdi, çıxmışdı oxdan?
Artıq narazılıq sovuşub getmiş,
Onların ruhuna xoş niyyət yetmiş.
Çapar yubanmadan Yəsirə sürdü,
Peyğəmbərin xoş səlamın ötürdü.

## Bünyaminin Atası ilə,Anasının Məzarına Gəlməsi

Çağırdı oğlunu yanına Həzrət:
-Gedək məzarlığı edək ziyarət.
Ana məzarına gələrək onlar,
Şad xəbər verərək rahat oldular:
-Anacan,rahat yat,Yusif tapıldı,
Atam Yaqubun da, gözü açıldı.
Ana, biz Misirə gedirik daha,
Səni tapşırırıq uca Allaha.
Yusifin orada böyük bir rəhbər,
Bizi dəvət edir ora Peyğəmbər.
Övladı ah çəkdi, hönkür ağladı,
Ana məzarına göz yaşı axdı.

Məzara çəkərək Həzrət, əlini,
Ağladı, oxşadı öz Rəhilini:
-Gözəl günümüzü bircə görəydin,
Bizimlə Misirə sən də, gedəydin.
Darıxma Rəhilim, gələcəyəm mən,
Yusifin haqqında eşidəcəksən.
Həzrəti Yəqubla oğlu ağladı,
Quşlar da havada qanad saxladı.
Ana məzarından evə döndülər,
Ailə hamısı tez göründülər.
Liya yaxın gəldi, verərək salam,
Söylədi hüzünlü kədərli kəlam:
-İstərdim ki, mən də,sizinlə olam,
Bəxtsiz Rəhilimə ağlayam,dolam.
Dedi:-Köç edəndə ordan  gedərik,
Məzarı görərsən,vida edərik.
İstəmədim gəlib ağlayasan sən,
Ürəyin zəifdir, gözləməlisən.

# Eysin Qardaşının Görüşünə Gəlməsi

Qardaşı, qardaşdan eşitdi xəbər,
Yusifin sağlığı oldu bir zəfər.
Atayla övladlar tez atlandılar,
Kənan torpağına qanadlandılar.

Yəsirdən Kənana xeyli sürdülər,
Ata məkanını gəlib gördülər.
Yəqub övladları  pişvaza çıxdı,
Onların gözündən hey sevinc axdı.
Qardaşlar gülərüz gəldi üz-üzə,
Düşərək atlardan baxdı göz-gözə.
Səmimi görüşüb şadlıq qurdular,
Qohum-əqrabalar bir can durdular.
Gələrək evinə yaşlı həm cavan,
Ocaq qaladılar, kəsdilər qurban.
Üç gün şadlıq etdi qohum-qəbilə,
Sevinci bölüşüb hey gülə-gülə.
Eysin övladından Əyyubi-Səbur,
Səbri, səxavəti olmuşdu məşhur.
Cavan yaşındaydı, subaydı hələ,
Hörməti dolaşır hey dildən-dilə.
-Ata, icazə ver əmimlə gedim,
Misir diyarına səyahət edim.
Deyə, atasından o, xahiş etdi,
Atası oğluna güzəştə getdi.
Hazırlıq işləri qurtardı haman,
Ürək ayrılığı çətinmiş, aman![41]
Allahın Elçisi  baxaraq çölə,
Gəzib dolaşdığı çəmənə, gölə.
Atasın, babasın anaraq Həzrət,
Onları hörmətlə etdi ziyarət.
Qonşularla halallaşıb görüşdü,
Körpə uşaqların önünə düşdü.

Ayrılıq başladı, gözlər hey sulu,
Bu yanda Vətəndi, o yanda oğlu.
Qardaşlar mindilər ata, dəvəyə,
Qadınlar, uşaqlar həm kəcavəyə.
Vətəndən ayrılır düz yetmiş nəfər,
Bu yandan o yana çox ağır səfər.
Dedi:-Əzizlərim, siz ey yurddaşım,
Bizi yola salan qohum, qardaşım.
Rəhili əvvəlcə ziyarət edək,
Sonra yolumuzu dəvam etdirək.
Məzarın yanında dayandı karvan,
Dəvədən, atlardan düşdülər haman.
Məzar ətrafında vurdular dövrə,
Susdular hamısı, qəmliydi çevrə.
Liya, əri Yəqub, tək tənha məzar,
Bünyamin diz üstə gözləri ağlar.
Liya, bacısını deyib oxşadı,
Quşlar da havada qanad saxladı.
-Bizdən ayrılaraq, getdin çox cavan,
Başımın üstündən uçdu bir tavan.
“Yusif, Bünyaminim əmanət”-dedin,
Haqqın dərgahında ağ kəfən geydin.
Ancaq, əmanətin əlimdən çıxdı,
İtirdim mən onu, evimi yıxdı.
Otuz ildən çoxdur, ürəyim əsir,
Hər gün ahuzarla günlərim keçir.
Çox şükür Allaha aldıq şad xəbər,
Ayrılıq çağları qoy bitsin, yetər.

Yusif  Misirdədir, orada Əziz,
Allahın elçisi, xalqa çox əziz.
İndicə düşürük uzaq bir yola,
Nə olaydı ruhun bizimlə ola.
Liya ürəyini tutub yıxıldı,
Üzə su çiləndi, yenə ayıldı.
Eys, adamları etdilər vida:
-İlahi sizləri qoymasın darda.
Allah işinizə versin bərəkət,
Əyyubi Səbur da, sizə əmanət.
Karivan Misirə düşdülər yola,
Getdiyi yollara bol-bol nur dola.

## Züleyxaya Kənizin Nəsihəti

Allah günahını onun əfv etdi,
Əzəl gözəlliyi təzədən yetdi.
Qırx günü yalvarır uca Allaha,
Hər gün dua edir ona birdaha.
-Vədə də yetişdi Züleyxa xanım,
Niyə gözlədirsən Yusifi, canım?
Sən o deyildin ki, əridirdin can?
Sevgi tonqalında alışıb, yanan?
Hər cür təhlükəni  alaraq gözə,
Heç kimi eşidib,baxmırdın sözə.
Gözlərin görürdü Yusifi ancaq,
Alışıb yanırdın  sanki bir ocaq.

Gecə odlanırdın eşq ocağında,
Qıvrıla -qıvrıla öz yatağında.
O, sənə vermədi əzəldən murad,
Allahı çağırdı, edərək cihad.
Zindanı özünə eylədi saray,
Hər cür cəzalara dözərək, haray!
İndi bülbül gülü soraqlayır, hey,
Ürək sızıldayır, kədər çalır, ney.
Bəs niyə eşqinə vermirsən cavab?
Ürəyin dincəldib etmirsən savab?
Mələklərdir ancaq yaşayır tənha,
Kəbin də kəsilib, şükür Allaha
Evlilik azaltmaz Allaha eşqi,
Yolundan azdırmaz sevən aşiqi.
Evlilik, ibadət həm də ki,vəhdət,
Halal evlilikdən ayrıdır şəhvət.
Evlilik olmasa həyat var olmaz,
Gedənlər gedərlər,yerləri dolmaz.
Eşq ilə pərvəriş taparaq cahan,
Eşq xilas edəcək dünyanı, inan.
Bunların hamısı həm də, ibadət,
Ürək eşq odunda yanmağa adət..
Kənizin öyüdü gül açdı, əlbət,
Yenə də cövlanə gəldi məhəbbət.
Züleyxa özünə verərək bəzək,
Bir su pərisinə oxşadı gerçək.
Baxanın ürəyin edirdi viran,
Belə gözəllikdə harada insan?

Ayrıldı güzgüdən, durdu ayağa,
Keçdi göz oxşayan  ətirli bağa.
Yusifi bağçada gəzişən gördü,
Ətirli sözlərdən bir çələng hördü.
-Sələm olsun sizə!-Züleyxa dindi,
Eşqin paltarından gözə geyindi.
-Züleyxaya şirin sələmlar olsun,
Ürəyin həmişə sevgiylə dolsun.
Deyə, gülümsəyib tutdu əlindən,
Bal tək sözlərini süzdü dilindən.
Qızardı qadının al yanaqları,
Gah qalxır,endirdi göz qapaqları.
Dodaqlar titrədi, gələrək dilə,
Gülümsəyib özün alaraq ələ:
-Esenasa təkcə ayırıb sən vaxt,
Ürəyin olmayır məndən narahat?
Dedi:-Adlayırsan artıq çətini,
Mən təqdir edirəm ibadətini.
Dedi:-Allahıma xeyli ağladım,
Allahın eşqilə yandım,çağladım.
Borcluyam sizlərə, uca Allaha,
Razıyam həmişə, sağ ol birdaha.
Uca Allahımı  mənə tanıtdın,
Bəsirət gözümü açdın,oyatdın.
Dedi:-Pərvərdigar əfv etdi səni,
Göydə nigahladı, şad etdi məni.
Peyğəmbəri evə dəvət edərək,
Dedi:Nigahımız olsun mübarək,

Kənizlər süfrəni hazır etdilər,
Ləziz yeməkləri düzüb getdilər.
İlk dəfə birlikdə yedilər yemək,
Əsərin sonunu izləyək görək.

## Yusif Esenasla Bağda

Qıtlıq illərindən keçirdi dörd il,
Yağışlar yağmırdı, azalmışdı Nil.
Hələ də səfalət davam edirdi,
Yaxşı günlər bir-bir üçub gedirdi.
Ölkədə olsa da, ciddi nəzarət,
Yalanlar çoxalır, artır rəzalət.
Müxtəlif yollarla çalışır onlar,
Təxribat, çətinlik yaradırdılar.
Yusif yaratmışdı dəmir intizam,
Buğda satışında ciddiyət, nizam.
Möhtəkirlər həmən tutulur bir-bir,
Zindana salınır, vurulur zəncir.
Qul saxlamaq çətin, getdikcə ağır,
Göydən yerə kədər, quraqlıq yağır.
Azad olurdular getdikcə qullar,
Dövlət qulluğuna yazılır onlar.
Dövlət də, qulları edərək azad,
Torpaq payı ayrır, onlar olur şad.
Dövlətin nüfuzu yüksəlir xeyli,
Quldarlığı əzir Yusifin əli.

Qonşu ölkələri bürüyür böhran,
Taxıl ehtiyatı qurtaran zaman.
Aclıq,səfalət hey son həddə çatır,
Ölüm kabus kimi torpağa dartır.
Xilaskara dönür Misir ölkəsi,
Köməklik göstərir,sevir hər kəsi.
Taxıl satışından varlanır Misir,
Xəzinə hey dolur, çoxalır gəlir.
Ölkədə olanlar hamısı bilir,
Yusifin ağlına qurbanlar kəsir.
Səma açıq idi, hava da, təmiz,
Sübh tezdən ayağa duraraq Əziz.
Sarayın bağında gəzib dolaşdı,
Gözəllik önündə hey dolub-daşdı.
Bülbüllər səs-səsə nəğmə toxuyur,
Gül-çiçək bağçada ənbər qoxuyur.
Məst edir insanı, sevinir ürək,
Belə gözəl bağça de,harda görək?
Hovuzda balıqlar könül oxşayır,
Belə bir məkanda Yusif  yaşayır.
Esenas Yusifi görərək bağda,
Düşdü aşağıya tələsik o, da.
-Eşq olsun Allaha, Peyğəmbərinə,
Niyə səhər tezdən durmusan yenə?
Ərinin üzünə hey baxa-baxa,
-Yatmağa qoymadı yəqin,Züleyxa?
-Misir gözəlinə olsun səlamlar,
Arada ərini sancmağın da ,var?

Yusif  Esenasın tutdu əlindən,
Əyilib yavaşca öpdü üzündən.
Esenas nazlandı, axır ki,güldü,
Qısqanclıq hissini ürəkdə gömdü.
-Naharı ey gözəl yeyəkmi burda?
Gözəllik bəxş edək bu gözəl yurda.
Ancaq qorxuram ki, güllər utansın,
Sənin camalından qısqanıb yansın.
Dünya gözəlliyi cəmlənib səndə,
Misir əzizini saldı kəməndə.
Esenas utandı, dodaq büzüldü,
Mavi gözlərindən sevgi süzüldü.
-Niyə ki, özünü çıxartdın yaddan?
Gözəlliyin edir qızları başdan.
Hər ikisi güldü, tutdu qol-qola,
Kaş, hamının halı belə xoş ola.
Peyğəmbər,Esenas etdilər nahar,
Züleyxa da gəldi, şad oldu onlar.

## Yusif Fironun Qəbulunda

Kral Akinaton, kraliça Nüfərti,
Susmuşdu ağızlar, gəlmir hənirti.
Hamı gözləyirdi Şah danışacaq,
Sual-cavab edib söz soruşacaq.
Şah isə susurdu, danışmır ancaq,
Ürəyini sanki didirdi sacaq.

Esenas, Züleyxa, Yusif  gəldilər,
Şeytanın gözünü həmən dəldilər.
Hökmüdar əhvalı dəyişdi dərhal,
Gərginlik əridi, yarandı xoş hal.
Dedi:-Sönük olur Yusifsiz saray,
Zirvədən də bizə gülümsəyir Ay.
İşlərin çoxluğu Yusifi əlbət,
Ayırıb bizlərdən bir az müvəqqət.
Danış vəziyyətdən, işlərdən yenə,
Ölkədə nə yerdə buğda, xəzinə?
Yusif vəziyyətdən verdi izahat:
-Buğdamız hələ var, olunuz rahat.
Allaha şükür ki, xəzinəmiz çox,
Misir ən varlıdır, əsgiyimiz yox.
Akinaton dedi:-Allaha şükür,
Misir əzizinə etdi təşəkkür.
-Kənandan ailən nə vaxt gələcək?
Əzizimin üzü nə vaxt güləcək?
-Gözləyirəm hər gün, ürəyim səsdə,
Gözlərim, qulağım gələn hər kəsdə.
Otuz il onlardan düşmüşəm ayrı,
Baxıram yollara, vətənə sarı.
Quşları süzürəm, görəsən onlar,
Kənan diyarına nə vaxt uçarlar?
Pislik etsələr də ,qardaşlar mənə,
Əfv etdim onları, qardaşdır yenə.
Allahın əmriydi Misirə düşdüm,
Sizlərlə Misirdə burda görüşdüm.

Mən bir vasitəçi, səbəbdir Allah,
Onun köməyiylə silinirr günah.
Çoxallahlıq bitdi,pak oldu Misir,
Aclıqdan qurtuldu, olmadı əsir.
Siz də, zövcəniz də gətirdiz iman,
Sizin imanızdan car oldu cahan.
Onu təsdiq etdin,inqilab etdin,
Misir ölkəsində  Allaha yetdin.
Tarix sizdən yazıb, sizi anacaq,
Dünya hey durduqca adın duracaq!
-Misiri qurtaran sən idin, mən yox,
Ölkəmiz borcludur sənə daha çox.
Allahın elçisi, müdrik bir can,
Saray əzizisən, mənə dost insan.
Səninlə bağlıdır Misirdə həyat,
Sənin köməyinlə tapmışam nicat.
Əgər mən tarixdə yaşasam, inan,
Demək ki, səbəbkar bizə olmusan.
Bizim adlarımız ayrı çəkilməz,
Ürəyim Yusifsiz sevinməz, gülməz.
Mənim kədərimdir, səndəki kədər,
Sənin qardaşınam, düşünmə hədər.
Atan mənim atam, anan da, anam,
Onları tez görmək arzusundayam.
Şah la Peyğəmbərin şirin sözləri,
Riqqətə gətirdi görən gözləri.
Rəsmi danışıqlar qurtardı, bitdi,
Saray məmurları işinə getdi.

Nüfərti, Esenas həm də Züleyxa,
Hər üçü rəfiqə, ürəyi yuxa.
Durdular ayağa söhbət bitincə,
Qarışdı sarayda sevinc-sevincə.
Akinaton etdi süfrəyə dəvət,
Gözləyir onları sarayda mətbəxt.
Yemək otağına keçərək onlar,
Gedən danışıqdan xoşhal oldular.
Qadınlar danışır, sevinir  ürək,
Bir az da biz ovdan danışaq,görək:
-Sarayda oturmaq sıxır qəlbimi,
Dövlətin işləri yorur beynimi.
Çıxağın biz ova, ürək açılsın,
Bir az ov eyləyık, fikrimiz qalsın.
Vəhşi heyvanlarlı görək ayağda,
Onları ovlayaq, at çapaq dağda.
Gəl sən də bizimlə,olarsan gümrah,
Yenə təkid etdi Peyğəmbərə, Şah.
Yusif:-Yaxşı olar, dincələr ürək,
Güzəl mənzərələr seyr edək,görək.
Ancaq ki, ov etmək ürəkdə yoxdur,
Gözəlliyə qıymaq, günahı çoxdur.
Dedi:-Söz verirəm atmarıq oxu,
Kəməndlə tutular ovumun çoxu.
Zarafat etdilər, sevinc qurdular,
Süfrə arxasından onlar durdular.
Kraliça Nüfərti edərək dəvət:
“Sarayın bağına edək səyahət”.

Qadınlar təkliflə olaraq razı,
Kişilər qalmadı bundan narazı.
Mərasim paltarın dəyişərək şah,
Ev paltarı geydi, olaraq gümrah.
Çıxdılar saraydan, girdilər bağa,
İki göz gərəkdir hüsnünə baxa.
Hansı meyvələrdən istəsən burda,
Quşlar oxuyurdu nəğmələr bağda.
Güllər bir-biriylə girərək bəhsə,
“Hansımızdı gözəl?”deyirdi,kəsə.
Xırda hovuzlardan sular axırdı,
Balıqlar üzürdü, hamı baxırdı.
Meyvələr sulanmış, ağacdan süzür,
Qırmızı almalar sularda üzür.
Bir yanda ağaclar açıbdır çiçək,
Bir yanda meyvələr verirdi bəzək.
Qu quşları üzür, hovuzlar təmiz,
Hər tərəf çiçəkdir, hər yer tərtəmiz.
Köçəri quşlara sanki bir məkan,
Hökmüdar ayırmış onlara zaman.
Bundan daha gözəl bağ ola bilməz,
Yaddaş heç unutmaz,ürəklər silməz
Xanımlar danışır, sevinir, gülür,
Onların üzündən sevinc süzülür.
Yusiflə hökmüdar ən yaxın bir dost,
Arada nə sərhəd, nə də ki, bir post.
Mühafiz görünmür, sanki yox imiş,
Kənardan göz qoyur onlar kirimiş.

Ayrılmaq çətindi, doymurdu ürək,
Gözlər gözəllikdən usanmır gerçək.
Artıq qaş qaralır, çıxdılar ordan,
Dünya gözümüzdə olsun çıraqban.

## Şahın Yusiflə Ova Çıxması

Günlərin birində, gözəl bir səhər,
Şah çıxdı şikara altında kəhər.
Sağında, solunda gedir ovçular,
Əldə qartal tutan mahir quşçular.
Aşpazlar, əsgərlər, hərənin yeri,
Hamının üzündə sevinc izləri.
Atlar şahə qalxır, çeynəyir cilov,
“Görəsən nə vaxtı başlanar bu ov?”
Hökmüdar minmişdi ərəb atına,
Qaçışda yox idi girən qatına.
Həzrəti Yusiflə, Hökmüdar qoşa,
Pis nəzər dəyməsin dostlara, haşa!.
Onlar at sürdülər dağlara, çölə,
Atları dönmüşdü uçuşan yelə.
Ovçular qovurdu Şaha şikarı,
Hökmüdar kəməndə salır onları.
Həzrəti Yusif də ,şahla çapırdı,
Belə gözəllikdən qüvvət tapırdı.
Lakin,ovlamağa qıymırdı ,inan,
Ürəyi gəlmirdi yandırsın bir can.

Gözəl bir ceyranı gözləri aldı,
Uzun kəməndini boynuna saldı.
İstəmədi oxla ovçular vursun,
Təbiət gözəli boynunu bursun.
Hökmüdar Yusifi alqış eylədi,
-Heç belə bilməzdim,-ona söylədi.
Yusif gəldi yaxın, ceyrana baxdı,
Ceyranın gözündən damcılar axdı.
Malik də saxladı atını dərhal,
Dəyişdi sifəti,olaraq bihal.
Şahla xidmətçilər çaparaq getdi,
Yusifin sözləri  Malikə yetdi:
-Ox tuşlanan vaxtı kəməndi atdım,
Bu ana ceyranı həyata qatdım.
Yanıqlı-yanıqlı mələdi ceyran,
Süzüldü üzündən göz yaşı, inan.
Ceyranı iplərdən açaraq Həzrət,
Başın tumarladı, gözdə məhəbbət.
Ceyran azca qaçdı,dayandı haman,
Başını döndərib baxdı bu zaman.
Yanaqlı-yanaqlı mələdi ceyran,
İki körpə bala səs verdi bu an.
Ceyran tez-tələsik getdi o səmtə,
Balalar titrəyir ayaqlar üstə.
İki bala ceyran lap yavaş-yavaş,
Ana tez tələsdi onlara birbaş.
Yaladı balasın, sanki lap çoxdan,
Görməmiş onları bu ana ceyran.

Öz xilasgarına baxıb mələyir,
Yusifə təşəkkür etmək istəyir.
Peğəmbər baxırdı gözündə şəfqət,
Ceyran mələyirdi, edirdi diqqət .
Tapşırdı Allaha Yusif onları,
Çapdılar arxadan dostlara sarı.
Atlar şahə qalxır, kişnəyirdi hey,
Sanki qayalar da çalırdı bir ney.
Hökmüdar razıydı, uğurlu bir ov,
Atlar şahə qalxır sanki bir alov.
Şənlənir, sevinir, gülürdü üzü,
Gül-çiçək açırdı onun hər sözü.
Birdən, çox dəhşətli hadisə oldu,
Ovda olanların bənizi soldu.
Kolların içindən zəhmli bir şir,
Şahın üzərinə sıçradı mahir.
Əsgərlər donaraq, gözlərdə dəhşət,
Məmurlar çığırdı, ürəkdə vəhşət.
Atın arxasında şirin pəncəsi,
Parçalandı dərhal arxa hissəsi.
Yanıqlı-yanıqlı kişnədi kəhər,
Hamının üzünü bürümüş qəhər.
Qılınc işlətməyə olmadı imkan,
Şahın öz əlində qalmışdı pünhan.
Atın dal ayağı çökmüşdü yerə,
Şirin dırnaqları oxşar neştərə.
Dişləri zəhimli, gözlər od saçır,
Pəncəsi dəridə şırımlar açır.

Vəhşi nərildəyib pəncəsin atdı,
Kəhərin arxası bir az da yatdı.
Daha da açaraq ağzını geniş,
Dünyanın qəribə işi var imiş.
Dünən hökum verən,ölüm əhv edən,
Qurtulmaq istəyir bu gün pəncədən.
Ömrünün çatdığın yəqin etdi, Şah,
"Əlvida"-söylədi bu dünyaya, ah!
Ancaq ki, Allahın mərhəməti var,
Əgər istəyərsə ölənlər qalxar.
Hər şey ani olur, dəyişir bir an,
Kəhər yıxılmışdı,qalxır bu zaman.
Şirin pəncələri üzülür atdan,
Sanki lap əzəldən getmiş həyatdan.
Hərəkətsiz qaldı, yatdı torpağa,
Qalxmadı bir daha, o şir ayağa.
Kral düşdü atdan, gələrək yaxın,
Şirə baxmaq üçün başladı axın.
Gözünün yanından sancılmışdı ox,
Şirdə yaşamaqdan bir hənirti yox.
At da bulaşmışdı al qızıl qana,
Həkimlər, mehtərlər çapdı yanına.
Yıxıldı torpağa kəhər at birdən,
Olmadı taqəti qalxmağa yerdən.
Hamı qorxa-qorxa  baxırdı Şaha,
Yusif dua edir Şaha, Allaha.
Hökmüdarın üzü solmuşdu,aman,
Əl-ayaq əsirdi can qorxusundan.

Sərin su verdilər, şah yudu üzün,
Bir qurtum su içdi, sildi üz-gözün.
Qurdular bir çadır tələsik orda,
Kimsə danışmırdı,dinmirdi şah da.
Özünə gələrək dindi hökmüdar:
-Kimdir həyatımı qurtaran didar?
Deyə, şah Yusifə baxaraq birdən,
Öz səfər taxtında əyləşdi həmən.
Yusif:-Kimdir şahın dadına çatan?
Şahın həyatına bir həyat qatan?
Uzaqdan baxırdı, əldə ox- kaman,
Kim imiş ki belə gizli qəhrəman?
Demək istəmirdi,olmuşdu pünhan,
Şahın həyatını qurtaran zaman.
İgid əməliynən öyünməz,gülməz,
Ancaq açılmışdı, sirr qala bilməz.
Bir əsgər Malikə uzadaraq əl:
-O vurdu!-Göstərdi onu əlbəəl.
Baxdılar Malikə orda olanlar,
Gətirdilər şahın yanına onlar.
Yusif ürəyində etdi iftixar,
Şahın sarayında olmadılar xar.
Malikin haqqında danışdı şaha,
Oxucum,yazmayım onu bir daha.
Qərib tarixçəni etməyim təkrar,
Sizləri etmişdim axı xəbərdar.
Malikin həyatı qoy olsun ibrət,
Sədaqət, imanı, ondakı qeyrət.

Həyatda kimsəni aldatma, yetər,
Axı, ölüm də var, qiyamət betər.
Malikin haqqında eşitdi onlar,
Təəccüb etdilər qulaq asanlar.
Dedi:-Həyatımı sən etdin xilas,
Nə arzu edirsən, nədir iltimas?
-Sağ olsun istəkli, həşəmətli şah,
Sizə kömək olsun o böyük Allah.
Qulun vəzifəsi ağaya xidmət,
İşi böyütməyə axı nə hacət?
Malikin məntiqli verdiyi cavab,
Şahın ürəyinə səpdi sərin“ab”*
-Əzizin dostusan,həmçinin mənim,
Mühafiz başqani, həm də güvənim.
Məsul vəzifəyə gətirdim səni,
Sənin sədaqətin kövrəltdi məni.
Şəhər kənarında gözəl bir bağın,
Saray ətrafında evin, torpağın.
Ərməğan edirəm sənə bir kəniz,
Əmrin icrasına qoy baxsın Əziz.*
O, şaha baş əydi təşəkkür etdi,
-Xidmətə həmişə hazıram!-dedi.
Şirin dərisini soydular həmən,
Asdılar çadırın hündür yerindən.
Yavaş-yavaş həyəcanı sovuşdu,
Gülüb danışdılar, mərəkə coşdu.
Ceyran kababının xoş lətafəti,
Meşədə yeməyin ətri, ləzzəti.
*-su,*-əziz-Yüsif

Hökmüdar,olanlar oldular rahat,
Ürəklər şad oldu, var oldu həyat.
Musiqi, müğənni oldular hazır,
Olan hadisəni tarixçi yazır.
Meşə havasının xoş rahiyyəsi,
Qartalların dağ başında qiyyəsi.
Quşların cəh-cəhi, həm zəngüləsi,
Sehirləyib burda olan hər kəsi.
Meşədə qaldılar üç gün,üç gecə,
Şənləndilər onlar lap ürəyincə.
Saray adamları xoşhal oldular,
Ürəklər sevindi, yeyb doldular.
Döndülər saraya ovları qanlı,
Hamının ovqatı nəşəli, canlı.
Yaxşı istirahət etdilər ovda,
Getdi his-pasları,ürəkdə qada*.
Qayıtdı saraya ,Yusif sevindi,
Açdı qucağını ,övladın dindi.
Züleyxa,Esenas:-Salamlar!-dedi,
Ailə Yusifdən xoş sözlər “yedi”.
*-kədər



# Yəqub Peyğəmbərin Misirə Gəlməsi

“Kənan diyarından həzrəti Yəqub,
Şəhər kənarına köç edib, durub.
Yetmişdən yuxarı qadın, uşaq, ər”,*
Sərhəddən mühafiz, gətirdi xəbər.
Həzrəti Yusifə verdi muştuluq,
Qurtarır nəhayət kədərdə sonluq.
Pis günlə yanaşı gözəl gün də var,
Kədər olan yerdə sevinc də yaşar.
Ayrılıq var, həm də isti görüşlər,
Göz yaşıyla bahəm şirin gülüşlər.
Xoş ola günümüz ,başda ola tac*
Olmaya insanlar kimsəyə möhtac.
Övlad hər insanda onurğa sutun,
Yoxdursa tez sönər ocağın-odun.
*-kişi,*-tac-şan-şöhrət.

Esenas,Züleyxa həm oldular şad,
Otuz il ayrılıq, ey dadi- bidad.
Gəldi hökmüdarın yanına,Həzrət,
Pişvaza çıxmağa  istədi rüsxət.
Hökmüdar söylədi:-Xəbər gözəldi,
Atan, qardaşların şükür ki, gəldi.
Hazırlıq görsünlər, bəzənsin şəhər,
Yollara düzülsün  mühafiz, əsgər.
Qoy Təbs əhalisi pişvaza çıxsın,
Şəhərdən təmizlik, gül-çiçək axsın.
Həzrətlə görüşə bir yerdə gedək,
Onun görüşünə hamımız yetək.
-Ey əziz hökmüdar,eşq olsun sizə,
Şərəf verirsiniz ailəmizə.
Yusif də, Malikə verdi sərəncam:
-Orda sakitliyə verilsin əncam.
Yollara düzülsün əsgər, mühafiz,
Şahın sarayından tarixçi,  hafiz.
Qurulsun bəzəkli bir neçə çadır,
Şahın gəlişini bilsin hər cığır.
Malik baş əyərək oldu mürəxxəs,
Lazımi göstəriş aldılar hər kəs.
-İcazə versəniz əvvəl mən gedim,
Atamla görüşüm ,hazırlıq edim.
Şah razılıq verdi, Yusif də getdi,
Atlara qoşulmuş faytona yetdi.
İti qaçan atlar dönərək yelə,
Quşları arxada qoyurdu belə.

Qürbət yerdə ürək sızlar, göz ağlar,
Vətən üçün ürəyimiz hey sızlar.
Günləri keçsə də, xoşbəxt, firavan,
Vətənsiz göz yaşı axıdar insan.
Dostun, tanışların sayı olar çox,
Ləziz yeməklərlə qarın olar tox.
Vətənsiz gözlərin həmişə acdır,
Ataya, anaya insan möhtacdır.
Ağac tək olarsa küləklər yıxar,
Yaxud da hər görən bir balta çaxar.
Qardaşsız, övladsız çox tez qocalar,
Başında min çovğun, min boran olar.
Allahın şəninə yaraşır təklik,
Nə qardaş lazımdır, nə də ki şərik.
Qızıl bir qəfəsə salsan bülbülü,
Bülbül fəqan eylər, arayar gülü.
Vətən, vətən deyib göz yaşı tökər,
Aç onu sən burax, tikanı öpər...
Atlar hey qaçırdı qan-tər içində,
Yusif tələsirdi "Allah"- dilində.
Həyəcanlı anlar yaxınlaşır lap,
-Atını saxlama, yetərincə çap!
Tutmuş hadisədən çoxları xəbər,
Yollarda gül-çiçək qoxuyur ənbər.
Mimi Soba çatmış, orada idi,
Nizam-intizama diqqət edirdi.
Qardaşlar Mimini tanıyır,sevir,
Onun barəsində xoş sözlər gəzir.

Çadırlar qurulmuş yaxın həm uzaq,
Orda yerləşmişdi ailə- uşaq.
Dəvənin üstündə, hündür bir təpə,
Peyğəmbər gözləri hey yolu öpə.
Gözləyir Yusifi:“Nə vaxt gələcək?
Nə vaxt övladını ata, görəcək?”
Həsrətli ürəyi bərkdən döyünür,
Atanın ürəyi bərk-bərk söyünür.
Yüsif atlarını hey durmur, çapır,
Sinədə ürəyi təsginlik tapır.
Şair, hiss edirsən sən bu səhnəni,
Bəzə sözlərinlə,  yaz hekayəni.
İncidən inci seç söz  xəzinəndən,
Misralar süzülsün şair sinəndən.
Mənasız sözləri heç zaman yazma,
Qar kimi əriyər ,yollarda azma...
Liya dözməyərək çadırdan çıxdı,
Onun yanağından damcılar axdı.
“Nə vaxt qovuşacaq oğluna ana?
Ayrılıq çağları yetişsin sona”.
İniltili səslə danışdı ürək:
-Nə vaxt Yusifini axı görəcək?
Bünyamin söylədi:-Darıxma ana,
Vaxta çox az qalıb, qovuşar sana.
Peyğəmbər susurdu ürəyində qəm,
Qardaşlar çıxdılar təpəyə bu dəm.
Yusifdən hələ ki,yoxdur bir xəbər,
Ümüdlər çoxalır, sökülür çəpər.

Ata fikirləşir:”Bəlkə hadisə?
Yox,gələr indicə, yubanır nəsə.
Faytonun təkəri bəlkə sınıbdır?
Bəlkə xəstələnib yolda qalıbdır?”
Bəlkələr çoxalır, baş alıb gedir,
Allahın elçisi hey var-gəl edir.
Uzaqda yüksəlir quru toz-duman,
Əsgərlər farağat dayandı haman.
Yollarda gözləyən insan kütləsi,
Görərək Yusifi, ucaldı səsi:
“Həzrəti Yusifə salamlar olsun,
Həm şadlıq günləri evinə dolsun!”
Camaat Yusifə  baş əyirdilər,
Ona hörmət-izzət  hey edirdilər.
Kənanlılar baxır, dillər olmuş lal,
Görməmişdi onlar belə cah-cəlal.
Yusifin atları gələrək yaxın,
Peyğəmbərə sarı başladı axın.
Duraraq faytonda baxaraq yana,
Axtarır atasın hey yana-yana.
“Nə ola quş olam, atama yetəm
Ata ürəyində  gül olam bitəm”.
Kral faytonu da mənzilə çatdı,
İnsanlar sevinib gül-çiçək atdı.
İzdiham bir anlıq susub gözləyir,
Görüş anlarını  bir- bir izləyir.
Atanın ürəyi:”Yusif!”-çığırdı,
Gözləri ağlayır,”yağış yağırdı”.

Dəvədən atıldı, əllər oldu qan,
Yusif qışqıraraq:-Atam,atacan?
Oğul dik yamaca yüyürdü,qaçdı,
Ata harayladı, əllərin açdı.
Hamı həyəcanlı, ağlayır hönkür,
Şahənşah da dözmür,göz yaşı tökür.
İlahi, ayırma övladı bizdən,
Ayırma onları ürəyimizdən.
Sənsiz ola bilməz nə gündüz, gecə,
Sənsiz yaşayarmı bir canlı, necə?
Sənsiz işıq saçmaz göydəki Ay da,
Sənsiz tarimardı hər şey həyatda.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Hər iki aləmdə vahid Hökmüdar.
Oğul atasının yanına çatdı ,
Peyğəmbər bir addım irəli atdı.
Ürək dözəmmədi, dayandı ayaq,
Oturdu torpağa, əsdi dil -dodaq.
Həzrəti Yusifin ağarmış üzü ,
Torpağa bulaşmış onun üz-gözü.
Ey bu hekayəni kağıza yazan!
İlahi səninlə olsun hər zaman.
Dözmədi Yusifin halına Sübhan,
Ağladı, göz yaşı tökərək haman.
Ata yıxılmışdı, əllər qabağa,
Yusif də, özünü atdı torpağa.
Torpağın üstündə qollar sarıldı,
Gözlər leysan yağdı, ata bayıldı.

Yusif atasını qucağa  aldı,
Dodaqlar üzündə beləcə qaldı.
Yaxına gəldilər qohumlar,qardaş,
Həya təri axır, islanmış göz- baş.
Utanırdı onlar, çün çirkli əməl,
Çirkaba bulaşmış onlardakı əl.
İstəkli anası  yetirdi özün,*
Qucaqlayıb öpdü oğlunun üzün.
Atası ayılmış, gəlmiş özünə,
Qucaqlayıb öpdü, baxdı gözünə.
Hökmüdar da gəldi etdi ziyarət,
Əyanlar yetişir, göstərir hörmət.
Yusif  təqdim etdi şaha atasın,
Yanında dayanan Liya anasın.
Hökmüdar dilindən şəkər yağırdı,
Həzrəti Yəqubu “Ata”-çağırdı.
Əyan-əşrəf salamlaşdı mehriban,
Onlara xoş sözlər oldu ərməğan.
Kral:-Şərəf verdiniz ailəmizə,
Biz sevinirik ki, gəldiniz bizə.
Əliboş gəlmədik hüzuruna biz,
Sizlərə varımdır bir hədiyyəmiz.
Saray katibinə verdi sərəncam,
Hədiyyə haqqında çəkildi əncam:
-Sizin durduğunuz bütün bu torpaq,
Bu gündən sizlərə edilir ilhaq.
Yaradan sizlərə qoy olsun kömək,
Birlikdə yaşayaq, xoş günlər görək.
*-ana əvəzi idi

Peyğəmbər də ona razılıq etdi,
Həzrətin dilindən xoş dua yetdi.
-Şahın övladları artsın, çoxalsın,
Özü və zövcəsi yaddaşda qalsın.
-Haşiyə çıxıram yenə, a dostlar,
Tarixdə yaşayıb xeyli hökmüdar.
Yaxşısı, pisləri, əzazil olan,
Xalqın yaddaşında yaşayan,solan.
Kral Akinaton, zövcə Nüfərti,
Yad edilir hər ikisi, niyyəti.
Düşübdür tarixə Allahı sevən,
Xalqının içində qazanmış güvən.
Nüfərtinin büstü indiyə kimi,
Muzeydə riqqətə salıb aləmi.
Tarixdə, kitabda soyad- adı var,
Dünya yaddaşında hey varaqlanar..
Misrin hökmüdarı, bir neçə əyan,
Döndülər saraya heç yubanmadan.
Atasın, anasın, həm bütün qardaş,
Ona əziz olan qohumlar, yurddaş.
Yusif dəvət etdi həmən saraya,
Saray adamları aldı araya.
Züleyxa, Esenas irəli gəldi,
Ən gözəl sözlərdən inci düzəldi.
Nəvələrin gördü, ürək oldu şad,
Otuz il ayrılıq, ey dadi-bidad!.
Hökmüdar qasidi gətirdi xəbər:
“Şahın sarayına gəlsinlər səhər.

Yaqub peyğəmbərin şərəfinə şah,
Ziyafət verəcək, gəlsinlər sabah".
Peyğəmbər dəvətə razılıq etdi,
Qulluqçu baş əyib oradan getdi.
-Yoldan gəlmisiniz dincəlin, yatın,
Qurtardı ayrılıq, kədəri atın.
Gərəkdir ki, sabah şah sarayında,
Gümrah olasınız hamınız orda.
Deyə, şirin yuxu Yusif dilədi,
Sözdən gülab çəkib ora çilədi.
Yenə atasını öpdü,oxşadı,
Məsum ürəyində nələr yaşadı?.
Ata-bala yan otağa keçdilər,
Xeyli söhbət edib tədbir biçdilər.
"Quyunun dibindən onu qurtaran,
Şan-şöhrətə, cah-cəlala çatdıran.
Atasın -anasın yenə qaytaran,
Xudadır yaradan, Xuda aparan".
Deyə, peyğəmbərlrər etdilər səcdə,
Ürəklər möcüzdən gəldilər vəcdə.
Sübh çağı duraraq iki peyğəmbər,
Əzizin sarayı qoxurdu ənbər.
Həzrəti Yəqubla birlikdə Liya,
Baxdılar bağçaya, bağa, saraya.
Esenas, Züleyxa, gələrək yaxın,
Qaynata önündə əydilər başın.
Həzrəti Yusifdən etdilər söhbət,
Həzin laylay çalır sanki təbiət.

# Otuz İl Əvvəl Həzrəti Yusifin Gördüyü Yuxu Gerçəkləşdi

Həzrəti Yəqubla  övladlar gəldi,
Kral sarayında məclis düzəldi.
Kral Akinaton, kraliça Nüfərti,
Sağında əyləşmiş, öz anası Ti.
Hurem,ölkəsində gözəl komandan,
Malik də sarayda mühafiz  başqan.
Enarusla Mimi yaxın məmur həm,
Hamısı məclisdə dayanmış bu dəm.
Hökmüdar yerindən durdu ayağa,
“Xoş gəldin”-söylədi əziz qonağa:
-Misir torpağına verdiniz şərəf,
Sizə bir vətəndir bura hər tərəf.
İndi ölkəmizdə iki Peyğəmbər,
Allahımız bizi həmişə sevər.
-Dünyaları odur quran, yaradan,
Elçini yollayar hey zaman-zaman.
Möcüzəylə gələr həmişə onlar,
Çətinlikdən, cəhalətdən qurtarar.
Allahdan vəhy alıb bizə yetirən,
Bizə nicat verən, xeyir gətirən.
Əziyyətə dözən, zülmə qatlaşan,
Şam kimi əriyən, şam kimi yanan.
Onun var-dövləti xalqın imanı,
Xalq qovar onunla mənfur şeytanı.

Allah öz elçisin qoruyar şərdən,
Fitnəli, azğınlı, şeytan bəşərdən.
Xilas oldu orda əziz Peyğəmbər,
Allah yetirmişdi Nuha ön xəbər.
İbrahim peyğəmbər bütləri yıxdı,
Əzazil Nəmrud da  odlara yaxdı.
Allah peyğəmbəri qorudu oddan,
İsmayıla qurban, qoç gəldi ordan.
Yusif peyğəmbər də taparaq nicat,
Saraylar bəxş etdi, dəyişdi həyat.
Misiri qurtardı bir olan Allah,
Yusif vəsilədir, qurtaran Allah.
Yusifin duası gözünü açdı,
Züleyxanın üzü parlayıb saçdı.
Bizə şərəf verdi kəlməsi, sözü,
Yəqub peyğəmbərin açıldı gözü.
O, çox alicənab, məğrur bir insan,
Onun imanıyla göyərdi zindan...
Gözəl Nüfərtinin incə sözləri,
Ona yönəltirdi bütün gözləri.
Həzrət Yəqub dedi:-Allaha şükür!
Krala, kraliçaya etdi təşəkkür:
-Babam İbrahimi siz yada saldız,
Allahın bir daha rizasın aldız.
Kralın,kraliçanın heyranı oldum,
Onlarda imana həmən vuruldum.
Allaha söykənən hökmüdar ölməz,
Xalqın qəzəbinə heç zaman gəlməz.

Xoşbəxtdir ki Misir,gözəl şahı var,
Gözəl bir ölkənin  tək Allahı var.
Peyğəmbər danışdı keçmiş həyatdan,
Yusifi körpəykən itirən vaxtdan:
-Doqquz yaş içində Yusifim onda,
Anası ölmüşdü körpə yaşında.
Mənimlə gəzərdi,hər gün,hər səhər,
Onu görməyəndə bir anlıq əgər.
Ürəyim darıxar, dözməzdim, inan,
Getməzdim uzağa onsuz heç zaman.
Şeytan qardaşları çıxartdı yoldan,
Qısqanclıq etdilər,vurdular daldan.
Xəbərdar etdim ki:-Yusif  bir uşaq,
Anasız uşağa siz olun dayaq.
Sizi də körpəykən əzizləyərdim,
Özümlə gəzdirər,hey izləyərdim.
Ancaq oğlanlarım etmədi əməl,
Həmişə Yusifə oldular əngəl.
Yusif yuxu gördü, danışdı həmən,
Sevincdən açıldı gözümdə çəmən.
"Ata,on bir ulduz,bir də Günəş,Ay,
Sanki gerçək idi  bütün bu olay.
Göydən enmişdilər, gələrək vəcdə,
Mənə gülümsəyir, edirlər səcdə".
Dedim ki, bu sirri söyləmə haman,
Allah elçi seçir, gələcək zaman.
Eşidər qardaşlar, qısqanar səni,
Bir pislik edərlər, üzərsən məni.

Qardaşlar hardansa yuxunu bildi,
Onların xoş sözü tamam kəsildi.
Saldılar quyuya, sonra satdılar,
“Qurd yedi”-dedilər, məni atdılar.
Gözlərim kor oldu,ağladım zar-zar,
Yediyim, içdiyim oldu hey azar.
Yenə demədilər, şeytan oldular,
“Qurd yedi ay Ata”-saç da yoldular.
Mənsə inanmırdım, gözlərim yolda,
Günlərim keçirdi hey qeyrü-qalda.
Köynəy cırılmamış, al-qan içində,
Qurd yesəydi əgər qalar dişində.
Ölüm mələyi də mənə demişdi:
“Yusif sağdır,Yəqub o,ölməmişdi”
Bu yaxın günlərdə sevindi üzüm,
Köynəyin yolladı, açıldı gözüm.
Başqa olayları bilirsiniz siz,
Onların günahın bağışladıq biz.
Peyğəmbər danışdı,qurtardı sözün,
Dərin nəfəs aldı, sildi üz- gözün.
Bu zaman Yusifə göründü mələk:
-Yusif, gözəl geyin, zərxarə, ipək.
Başını bəzəsin qoy sənin tacın,
Vəcdə gəlsin hamı, silinsin acın.
Yusif  hökümdardan aldı icazə,
Yan otağa keçdi, geydi  təptəzə.
Qayıtdı məclisə, başında da tac,
Belə gözəlliyə hər insan möhtac.

Məclisdə olanlar oldular çaş-baş,
Gözəllik önündə  əyildi çox baş.
Həzrəti Yəqub ki, sükütu pozdu,
Məclisdə yavaşca canlanma oldu.
Qurumuş bədənlər gələrək dilə,
Susmuş dil-dodaqlar çevrildi gülə:
-Budur yanımızda, o gözəl insan,
Onu əzizlədi, sevdi Yaradan.
On bir ulduz ona səcdə ediblər,
Ay,Günəş də indi,sənə gəliblər.
Həzrəti Yüsifə ediniz təzim!
Əyilib önündə göstərin əzim.
Həzrəti Yəqubla zövcəsi Liya,
Öpdülər Yusifi, gəlib ortaya.
On bir qardaş ona edərək səcdə,
Saray adamları gəlmişdi vəcdə.
Allahın şəninə dedilər tərif,
Qucaqladı bir-bir onları Yusif.
Züleyxa, Esenas orda, yaxında,
Liyaynın yanında solu-sağında.
Həzrəti İbrahim cənnətdən endi,
Yusifin qəlbinə şadlıq ələndi.
Salam verib təqdim etdi özünü,
Gələcək barədə dedi sözünü.
Qurani-Kərimdən danışdı gerçək:
“Xatəmi-Ənbiya sonra gələcək.
Allahın bayrağı yüksələr onda,
İslam işıq saçar, artar o anda”.

Dedi:“Görüşünə yəqin gedərsən,
Mənim səlamımı sən ərz edərsən”.
Dedi:“Nuru göydə, ləqəbi Əmin,
Vaxtına çox qalıb Rəsul Əkrəmin.(s)
Dəyişər qərinə, dəyişər zaman,
Xatəmi-Ənbiya olar anadan.*
Quşlar da sevinər, oxuyar nəğmə,
Ulduz yağış kimi yağar aləmə.
Kahinlər lal olar, bütləri düşər,
Doğum tarixində atəşgah sönər.
Rəsuli-Əkrəmlə görüşən zaman,
Sənin səlamını yetirrəm haman”.[42]
Həzrəti İbrahim görünməz oldu,
Yusifin qəlbinə sevinclər doldu.
Susduğu zamanda tərlənən sifət,
Tədricən azaldı getdi əlamət.
Zaldakılar görüb tez hiss etdilər,
Yusifin halını onlar sezdilər.
Dedi:-İnşəallah xeyir bir xəbər,
Zəmanə gələcək, Allahdan zəfər.
Allaha inanan dünyada artar,
Müşriklər, kafirlər zülmətə çatar .
Deyə, həzrət Yusif gülümsər oldu,
Sevinc, şadlıq hissi qəlblərə doldu.
Sarayda ziyafət bitərək əlbət,
Qonaqlar yeməyə edildi dəvət.
Yusiflə birlikdə ata- anası,
Nüfərti, Esenas həm Züleyxası.
*-570,Məkkə(təxmini)

Firon Akinaton, anası həm də,
Yeməyə əyləşdi hamı birlikdə.

## Yəqub Peyğəmbərin Vəfatı (s)

Çadırlar qurdular, evlər tikdilər,
Ayrılmış sahədə buğda əkdilər.
Kanallar çəkildi, salındı bağlar,
Qoyun sürüsündən bəzəndi dağlar.
Dəryanı damcıdan dolduran ustad,
Züleyxaya vermiş bir neçə övlad.
Əfraim həm Müniş, Rəhildi qızı,
Kölgədə qoyurdu  ayı- ıldızı.
Esenasdan isə bir qız, bir oğlan,
Uşaqlar böyüyür,dəyişir dövran.
Kənanlılar artır, çoxalır onlar,
Həm Bəni-İsrail adlanırdılar.
Həzrəti Yəquba həm də,“İsrail”,
Mənası “seçilmiş”,ağıllı, kamil.
Yüz qırx yeddi yaşı yaşadı Həzrət,
Hiss etdi vaxtıdır, etdi vəsiyyət:
-İbrahim dinindən çıxmayın, haşa!
Xəyanət etməsin qardaş-qardaşa.
Kimsəni incidib olmayın nahaq,
Zəifi qoruyun, üzülməsin haqq.
Həzrəti Yusifin sözüdür, sözüm,
Ona qulaq asın, özüdür ,özüm.

Mənim cənazəmi Fələstinə,həm,
İbrahim-Xəlilə tapşırın bu dəm.
Deyərək, gözünü əbədi yumdu,
Ruhu Rəbbimizə qovuşdu,cumdu.
Onun vəsiyyəti yerinə yetdi,
Cənazə dəvəylə Qüdsə“getdi”.
Qardaşı Eysin də,o kədərli vaxt,
Gəldi cənazəsi,hərədə bir baxt.
Əkiz doğulmuşdu,getdilər qoşa,
Kimsələr keçəməz dünyada başa.

# Yusif Peyğəmbərin Vəfatı (s)

Həzrəti Yəqub köç edən zaman,*
Onun əlli altı, hələ ki, cavan.*
İllər bir-birini hey əvəz etdi,
İsrail  tayfası zirvəyə yetdi.
Yüz iyirmi yaşı peyğəmbər atdı,
Vaxtın yetişdiyi Yusifə çatdı.
Cəm oldu yanına onun tayfası,
Esenas köçmüşdü bir ay olası.
Züleyxa dəyişmiş,qocalmış o,da,
Akinaton köçmüş, axır dünyada.
Nüfərti qocalmış, hələ ki, yaşar,
Oğluydu Misirdə indi hökmüdar.
Malik dünyasını çoxdan dəyişmiş,
Yusifin də ömrü çatmış, yetişmiş.
*-vəfatı,*-Yusifin

Böyük bir əsərim tamama yetir,
Yusif də qocalır, qalmayıb gedir.
Sübhan, əbədi ki,qalmaz kimsələr!
Dünya gah boşalar,gah da yüksələr*.
Yenə Allahıma təriflər deyim,
Qızılı sözlərdən əblisə geyim.
Torpaqdan yaratdın, sən insanları,
Ora qaytarırsan yenə canları.
Biz gəlib gedənik, sənsə daimi,
Bütün dünyalarda Şahənşah,hami.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Sənin əl işindir dünya, ruzigar.
Vaxtı gələnləri həyatdan üzən,
Hər şeyi özünsən nizamla düzən.
Nizamla gələnlər, nizamla gedər,
Nizamsız məhv olar həyatda bəşər.
Nə canlı yaşayar, nə cansız qalar,
Nə yağışlar yağar,nə Günəş parlar.
Gecə ulduzlar da,o Ay da saçmaz,
Küləklər də susar, bir yerə qaçmaz.
Bunların həyatda bir nizamı var,
Nizam pozularsa dünya tarimar.
Yusifin önündə qohumlar durdu,
Hamısı əyləşdi həm bardaş qurdu.
Bəzi qardaşları həyatda qalmış,
Daha yaşlıların əzrail almış.
Bünyaminlə Levi əlində əsa,
-Allahım,Yusif də,ayağa dursa.
*-dolar

Deyə, zarı-zarı hey ağladılar,
Yusifin başını qucaqladılar.
Həzrət, sakit-sakit hamını süzdü,
Keçmiş günlərini gözündə düzdü.
Züleyxa kədərli, gözlərində yaş,
Yusif  Esenası aradı yavaş:
-Kaş,sən də,yanımda indi olaydın,
Əllərin əlimdə dinməz qalaydın.
Özündə taparaq son kərə qüvvət,
Etdi yaxınlara öyüd, vəsiyyət:
-Babamız İbrahim,sizin yolunuz,
İbrahim dininə  sadiq olunuz.
Atamız Yəqubun arzusu, sözü,
Nəsildən-nəsilə ötrülsün düzü.
Dəyişər zəmanə, dəyişər dövran,
Sizlər incidilər Misirdə yaman.
Bütlər hey çoxalar sarsılar inam,
Allah unudular burada tamam.
Kral da dəyişər, həqq gedər əldən,
Yaşamaq  əzaba dönər o ildən.
Levinin xəttiylə Peyğəmbər gələr,
Allahın hökmüylə işlər düzələr.
Firon əzabından sizi qurtarar,
Misirdən Kənana alıb aparar.
Mənim cəsədimi atmayın burda,
Atamın yanında tapşırın yurda.
Peyğəmbər gözünü əbədi yumdu,
Züleyxa hönkürdü,əl üzə cumdu.

Ağı dedi, yandı, hey için -için:
-Sənsiz axı indi yaşamaq neyçin?
Ağlar gözlərini aşağı saldı,
Peyğəmbərin əlin əlinə aldı:
-Vaxtı ilə isti olan bu əlin,
İndi çox soyuqdu, susubdu dilin.
Ürəyin od oldu, əllərin məşəl,
İnsanlıq yolunda yanaraq əzəl.
Şam kimi əridin, hey işıq saçdın,
Misir tarixində bir cığır açdın.
Başın nələr çəkdi həyatın boyu?
Bir an unutmadın Kənanı, soyu.
Dinini satmadın ani bir zövqə,
Vəfalı sən oldun uca Xaliqə.
Yuxu yozmağını öyrənərək, şah,
Sarayda yüksəldin, hamıya agah.
Misir ölkəsində oldun xilaskar,
Əqlindən,zəkandan oyandı lal-kar.
Görən gözümüzü bir daha açdın,
Günəş tək aləmə sən işıq saçdın.
Züleyxa hönkürdü:Yusifim!-deyə,
Qoşa əllərini qaldırıb göyə.
Xeyli dua etdi uca Allaha:
-Qalmaq istəmirəm həyatda daha.
Al mənim canımı, Yusifə yetim,
Onsuz yaşamağa yoxdur taqətim.
Yusifsiz bu həyat zindandı mənə,
Artıq yaşamağın bir mənası nə?!.

Düşərək səcdəyə gözlərində yaş,
Bir daha qalxmadı ayağa ,o baş.
Allah Züleyxanın eşitdi səsin,
Səcdədə kəsmişdi onun nəfəsin.
Görüb eşidənlər bu möcüzəni,
Yusif, Züleyxanı yazıb düzəni.
Allahın şəninə dedilər tərif,
Misir tarixinə həkk oldu Yusif.
Əyanlara aid orda qəbristan,
Şəhər kənarında Esenas yatan.
Yusif, Züleyxaya son oldu torpaq,
Allahdan izinsiz düşməz ki,yarpaq.
On ikinci surə, yüz on bir ayə,
Qurani-Kərimdə Yusifdir ayə!..
Gecə keçir, sözlər axır dilimdən,
Göz yorulub,qələm düşür əlimdən.
Bilirəm oxucum, həyəcan artır,
Əsərin sonluğu bizləri dartır.
Bəni -İsrailin son aqibəti,
Həzrəti Yusifin son vəsiyyəti.
Allahın Elçisi kimlər olacaq?
Yusifin cəsədin kimlər alacaq?
Əgər ki, bunları bilmək istəsən,
Əsərin sonunu onda izlə sən.

# Əyyub Peyğəmbərin (Səburi) (s) Əhvalatı

İkimin beşyüzil, keçibdir zaman,*
Yazıram vərəqə qalmasın pünhan.
Əmisi Yəqubla gəlmişdi o vaxt,
Misirdə yaşadı ,hərədə bir baxt.
Yusif peyğəmbərin qızını aldı,
Dəməşq tərəflərə yolunu saldı.
Həvrana gəldilər,torpaq əkdilər,
Özlərinə gözəl bir ev tikdilər.
Onların peşəsi  olaraq zəhmət,
İşiylə çoxaldı mal-dövlət, izzət.
Allaha ibadət edirdi hər gün,
Yaşayır həyatda təqvalı,düzgün.
Allahın eşqiydi düşmüş canına,
Allaha hesabat hopmuş qanına.
Zövcəsi Rəhimə, sədaqət rəmzi,
İmanlı, qeyrətli, onun əzizi.
Əyyubla yanaşı hey çalışırdı,
Ərinə sevgisi coşub- daşırdı.
Unutmur heç zaman o, ibadəti,
Orucu, namazı olmuş  adəti.
Qonşu qadınlara edər təbliğat,
İmanı kamildi hamıdan qat-qat.
Əyyub razı idi həmişə ondan,
O da öz ərini sevirdi  candan.
*-2500-il

Əyyubun evinə gəlsəydi bir,ac,
Qayıtmazdı geri o, ac-yalavac.
Onlarda daha da çoxaldı sərvət,
Heç vaxt azalmadı sidqi- ibadət.
Qoyun sürüləri, örüşlər, otlaq,
İnəklər, dəvələr xeyli artaraq.
Varlı adam oldu Həvran elində,
Yaxşı əməlləri xalqın dilində...
Əyyuba gətirdi Cəbrail xəbər:
"Seçildin elinə oldun Peyğəmbər,
Allaha elçisən, gəlmişdir zaman,
Gözün aydın olsun, imanlı insan".
Həzrət,səcdə etdi uca Allaha,
Yalvardı,ağladı, mömin bir daha.
Günəşi, Ulduzu, Ayı yandıran,
Yer üzünü, Göyü işıqlandıran,
Sənin iradəndə canlı həm cansız,
Səndə dünyaların hökümü yalnız.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Sənsən aləmlərdə uca Hökmüdar.
Xeyli dua etdi Allaha Həzrət,
Qanındaydı onun sidqi ibadət.
Əyyuba on övlad vermişdi Allah,
Yeddi oğul, üç qız, hamıya agah.
Hamısı çalışqan həm fərasətli,
Ataları kimi çox səxavətli.
Acları şəhərdə hey axtararaq,
Onların evinə daşıyar ərzaq.

Əyyub,hey Allaha edir ibadət,
Şeytanda artırdı kini-küdurət.
Onu sevmirdi ki, Allahı sevir,
Hər gün Allahına ibadət edir.
Şeytan insanların ürəyin aldı,
Əyyubun hörməti xeyli azaldı.
Dedi:-Əyyub qorxur azala dövlət,
Gedə əllərindən var-dövlət,sərvət.
Yalvarır bu üzdən Əyyub Allaha,
Əməli saxdadır, yalandır daha.
Camaat inandı şeytan sözünə,
Salam vermədilər, etdilər tənə.
Allah mələkləri etdi xəbərdar:
"Baxın Peyğəmbərə, olsun sizə car.
Gör necə verəcək Əyyub imtahan?
Yazılar kitaba, unutmaz cahan.
Həqiqi eşq nədir, anlasın bəşər,
Hər bir müşgül işin sonu bir zəfər"...
Bir gün çoban gəldi,verdi bəd xəbər:
-Quldurlar soxuldu, yarıldı çəpər.
Qoyun sürülərin apardı onlar,
Al-qana boyandı bizim çobanlar.
Həzrət qəmgin oldu,susaraq dözdü,
Səbr edib səcdəni səcdəyə düzdü.
Bir an azalmadı ondakı iman,
Hələ ki, ziyana işləyir zaman.
İkinci imtahan ondan da ağır,
Yenə çoban gəldi, ayağı qançır.

Yetişdi Əyyuba, əsdi dil- dodaq,
Necə xəbər versin, danışdı ancaq:
-Gur yağışlar yağdı, başlandı daşqın,
Çayın kənarında durmuşduq çaşqın.
Birdən sel-su gəldi, hər yanı yaxdı,
Dəvələr, inəklər su ilə axdı.
Sularda boğuldu bizim çobanlar,
Sanki heç əzəldən yox imiş onlar.
Peyğəmbər dinlədi ürəyində qan,
Gözləri yaşardı, çox üzüldü can:
-Allahım,kömək et verim imtahan,
Sən özün vermişdin, sənindi cahan.
Günəşin doğması, ayın çıxması,
Ulduzların göydə yanıb baxması.
Hüdudsuz etmisən sən kainatı,
Sənin iradəndə zamanın vaxtı.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Sənsən aləmlərdə vahid hökmüdar.
Əyyub peyğəmbərin alındı varı,
Yenə azalmadı inam, rəftarı.
Əksinə, çoxaldı hər gün ibadət,
Şeytani-məluna nifrət və şiddət.
Allahla söhbətə vaxtı şoxalmış
Şeytanın bədənin gidişmə almış.
Həvran camatı çaşıb qaldılar,
Gördülər ibadət, fikrə daldılar.
Allah,mələklərə buyurdu bu vaxt:
“Getdikcə əyilir Əyyubdakı taxt.

Amma ibadətə həmişə sərvaxt”
Pərvərdigar yenə imtahan etdi,
Daha ağır sınaqlardan keçirtdi.
On övlad bir evdə edirdi söhbət,
Düşünür, daşınır, edir məşvərət.
Birdən yer titrədi,uçdu daş divar,
Qaldılar altında, həlak oldular.
Peyğəmbər ağladı, edərək fəqan,
Övladları, varı getmişdi bu an.
Ətrafı boşaldı, hamıya bəlli,
Zövcəsi Rəhimə oldu təsəlli.
Peyğəmbər ağladı, olmadı asi,
Şeytanın olmadı ancaq həyasi.
“Dinləyin camaat, siz tanış olun,
İnna lillah,inna iləyhi raciun.
Biz qayıdacağıq yenə Allaha,
Yola salınmışıq oradan daha.
Allah özü verdi,həm aldı yenə ,
Fəda olsun bizlər onun özünə”.
Deyə, o bildirdi öz məqamını,
Camaat gördülər onda imanı.
Hər gün,hər saat Allahı anır,
Allahın eşqiylə ürəyi yanır.



# Həzrəti Əyyubun Şəhərdən Qovulması

Şeytan əl çəkmədi, verərək elan:
-Əyyub qarğanıbdı Allahdan,inan.
Qovun bu şəhərdən, uzağa getsin,
Bəla sizdən uzaq, Əyyuba yetsin.
Şeytanın sözünə uyub camaat,
Gəldilər yanına onlar o saat:
-Allah qəzəblənib, ey Əyyub sənə!
Çıx bizim şəhərdən, başa düşsənə!
Dedi:-Bütün bunlar bizə imtahan,
Allah sevdiyini yoxlar hər zaman.
Camaat onunla olmadı razı:
-Bəlaya salarsan sən hamımızı.

Köç edin şəhərdən, qarğayıb Allah,
Yəqin ki, çox böyük etmisən günah.
Zövcəsi yalvardı, mümkün olmadı,
Onların ürəyi yumuşalmadı.
Nə tez unuduldu edilən köməy,
Həzrətin aclara verdiyi çörəy.
Yükləndi dəvəyə Həzrətin yükü,
Tərpənmir zalimin bircəcik tükü.
İnsanlar Əyyubu qovdular evdən,
Şeytan hiyləsinə uydular həmən.
Səhrada qaldılar Əyyub, zövcəsi,
Qalib gəldi yenə şeytan hikgəsi.
Peyğəmbər yenə də onu çağırdı,
Onun sözlərindən bir eşq yağırdı:
-İstəyirsən burda tənha qalım mən?
Razıyam Allahım, razı qal məndən.
Rizanı almağa qurbandır bu can,
Səndən çox razıyam həmişə,hər an.
Şeytan eşidirdi Həzrətin sözün,
Tez kənara atdı o murdar üzün.
Qorxurdu Allahın adı gələndə,
Qaçırdı uzağa ad çəkiləndə.
Günəşin istisi yandırır torpaq,
Yarpaqlar yanmışdı, ağaclar çılpaq.
Yaxında, uzaqda görünmür insan,
Əyyubla zövcəsi tək qalmış, aman!
Köməkləşib onlar, qurdular çadır,
Günəşin istisi yandırır, yaxır.

Peyğəmbəri yenə sınağa çəkdi,
Allah bədənində xəstəlik əkdi.
Təkcə işləyirdi ağzında dili,
Kəsilmir ibadət, hey göydə əli.
Evdə olan-qalan ərzaq da bitdi,
Zövcəsi iş üçün şəhərə getdi.
Qulluqçu işləyir, qazanır əkmək,
Xəstə Əyyubuna yetirir yemək.
Heç vaxt narazılıq etməzdi övrət,
Acıqla baxmadı, etmədi küdrət.
Bir gün iş axtardı Rəhimə ana,
Heç kim iş vermədi evində ona.
Yenə adamları öyrətdi şeytan:
-İşlətməyin onu qalsın sərgərdan.
“Əliboş gəlsinmi,bəs necə etsin?
Axı əri acdır, hayana getsin?”
Düşündü Rəhimə, bazara çatdı,
Saçını kəsərək orada satdı.
Göz yaşı axıtdı, gəldi evinə,
Aldığı yeməyi verdi ərinə.
Həzrət tez soruşdu:-Niyə pərişan?
Gözlərin kədərdən verirlər nişan!
Bəlkə sən Rəbbimə etmisən giley?
Dözməyib Allaha ağlamısan, hey?
Dedi:-Pərişanlıq deyil şikayət,
Allaha imanım hədsizdir əlbət.
Kimsə iş vermədi, olmadı çörək,
Saçlarımı satdım, gətirdim yemək.

Peyğəmbər ağladı, qopartdı fəryad:
-Saçını kəsdirdin? Sənə baxdı yad?
Orucla, pəhrizlə keçirirəm gün,
Ürəyim də toxdur, nəfsim ölgün.
Allah eşidir ki, sağalıb dursam,
Ürəyim dincələr yüz çubuq vursam.
Getmə işləməyə evlərə daha,
Duaçıyam hər gün gözəl Allaha.
Yabanı meyvələr, ot-ələf yeyək,
Ona dua edək, şeytanı əyək...
Bir gün çadırına gəldi bir oğlan,
Zahiri insandı, batini şeytan.
Danışdı yaxından, uzaqdan o,hey,
İstədi eşidə Əyyubdan giley.
Dedi:-Əlindəki tükənməz o var,
Gözünün önündə gözəl övladlar.
Getdi, özündə ki, yataq xəstəsi,
Axı bu dərdlərə necə dözəsi?.
Dedi:-Allah belə məsləhət bilir,
Gələnlər hey gedir, yenilər gəlir.
Anadan olanda lüt-üryan gəldik,
Gedəndə lüt-üryan yola düzəldik.
Allahın adını eşitdi şeytan,
Üzünü turşutdu, tez qaçdı ordan.
Gəlirdi qabaqdan yenə çətin gün,
Etmirdi ahuzar, olmurdu küsgün.
Peyğəmbər dözürdü səbrlə buna,
Demədi bir dəfə Yaradanına:

“Allah,niyə məni bu günə saldın?!
Verdiyini nə tez əlimdən aldın?!”
Heç vaxt şikayətçi olmadı, inan,
Olmadı Xudadan incik,bədgüman.

## Möcüzə baş verir

Günlərin birində gəldi üç qonaq,
Əvvəl dost idilər, sonra da uzaq:
-Ey Əyyub,nə böyük işlətdin günah?
Niyə qəzəblidir, o uca Allah?
Günahını söylə, qoy biz də bilək,
Axı, gizlətməyin nəyinə gərək?
Uzanmışdı halsız döşəkdə Həzrət,
Ayağa durmağa nə güc, nə qüvvət.
Çoxdandı düşmüşdü  Əyyub illətə,
Eşitdi sözləri, gəldi dəhşətə:
-Həyatda kimsəyə pislik etmədim,
Acları doydurdum, pisə yetmədim.
Yatmadım evimdə bir axşamı tox,
Evimə gələnə mən demədim,yox!
Hansı günahlarla vururlar tənə?
Olmayan işlərli  yaxırlar mənə.
İlahi, bildiyin yaxşıdır daha,
Səhvim varsa yazma onu günaha.
Sənin bildiyini bilməyirik biz,
Heç nəyik İlahi, hamımız sənsiz.

Xeyir və mərhəmət yalnız səndədir,
Canlılar, cansızlar qüdrətindədir.
İllər xəstəsiyəm, yanıram bivaxt,
Halımdan narazı olmadım heç vaxt.
Xəcalət çəkirəm deyilən sözdən:
Ki:"Əyyub nə böyük günah etmisən?"
Səndədir dərmanım ey Pərvərdigar,[42a]
Sənsən aləmlərdə vahid Hökmüdar.
Ən böyük təbibsən, əvəzin yoxdur,
Adilsən, kərimsən,mərhəmət çoxdur.
Səndən istəyirəm diləyimi mən,
İlahi, pənahım, köməyim sənsən.
Peyğəmbər ağladı, tökdü göz yaşın,
Köksünə endirdi mübarək başın.
Qonaqlar baxaraq dəyşildi sifət,
Əyyubun səbrinə etdilər heyrət.
Düşünə- düşünə getdilər onlar,
Peyğəmbər ağlayır,sızlayır  naçar.
Ətraf işıqlandı, qərq oldu nura,
Elə bil Günəş də, enmişdi ora.
Həzin bir titrəyiş eşitdi Həzrət,
Bədəndə tərpəniş, çadırda zinət.
Cənabi Cəbrayıl aşağı endi,
Səmimi baxışla danışdı-dindi:
"Səlam olsun sizə əziz Peyğəmbər,
Varımdır sizlərə inan,xoş  xəbər.
Əyyubun səbrini Allah bəyəndi,
Duan qəbul oldu, çox əzizləndi.

Allahın önündə verdin imtahan,
Yazılar tarixə, unutmaz cahan.
Qurani-Kərimdə adın yer tutar,
Rəsuli Əkrəm də səndən danışar.
Qorxma,dur ayağa, Əyyubi Səbur,
Gəl sağ ayağını burda yerə vur!”.
Həzrət qorxa- qorxa durdu ayağa,
O, sağ ayağını vurdu torpağa,
Yerdən pokkur vurdu duru,sərin su,
Şırıltıyla axdi orda şirin su.
“İndi sol ayağın burda vur yerə!”,
Həzrət əməl etdi yenə bir kərə.
İnamla torpağa təpiklə vurdu,
Buxarlı isti su suladı yurdu.
Həzrəti Cəbrayıl buyurdu ona:
“Girərsən bulağın isti suyuna.
Çimib yuyunarsan,tökülər xoran,
Sərin sudan içər, sağalar yaran.
Övrətin də gələr, qoy belə etsin,
Bulaqda yuyunsun, istirab bitsin”.
Mələk xoş ovqatla görünməz oldu,
Həzrətin sevincdən gözləri doldu.
İsti suda çimdi, sərin su içdi,
Cavanlıq donunu əyninə biçdi.
Şükür səcdəsinə başladı Həzrət,
Bir azdan qayıtdı işindən övrət.
Çadırda yox idi ərindən xəbər,
Gözəl iy gəlirdi, qoxurdu ənbər.

Yataq yığılmışdı, çadır tərtəmiz,
“Bəs hardadır xanım, sizin əriniz?.
Çıx sən çadırından ey sadiq insan,
Taparsan Əyyubu diqqətlə baxsan”.
Rəhimə çadırdan bayıra çıxdı,
Diqqətlə o baxdı, gözləri axdı.
Gördü bulaqları, sular hey axır,
Cavan bir kişi də, gülərək baxır.
Dedi:-Peyğəmbəri gördünüzmü siz?
Dedi:-Rəhimə gəl, darıxdım sənsiz!
Həzrəti Əyyubam, sənin ərinəm,
Ürəyini üzmə, gördüyün mənəm.
-Yeddi illik xəstə necə ayıldı?
Durub ayaq üstə beləcə qaldı?
-Allahım rəhm etdi, inayət etdi,
Mənə yeni həyat, sağlamlıq yetdi.
İsti suda yuyun, iç sərin sudan,
İnan ki, bir anda olarsan cavan.
Zövcəsi yavaşca gəldi irəli,
Bulaqdan su içdi o, iki əlli.
Bədəndən ağrılar həmən yox oldu,
Yanaqlar qızardı, saraltı soldu.
Rəhimə inandı, bildi öz əri,
Allah sağaltmışdı, vermiş dəyəri.
Qışqırıb özünü üstünə atdı,
Sevinc bulaq kimi yanağa axdı.
Həzrəti Yusifin qızı yuyundu,
Cavanlıq qayıtdı, qəlbi ovundu.

Səcdəyə düşdülər, gözlərində yaş,
Əyildi Allaha iki mömin baş.
Sular hey axaraq saçdı hər tərəf,
Yenə çiçək açdı torpaqda ələf.
Gülüstana döndü orda bağ -bağat ,
Meyvələrlə doldu, canlandı həyat .
Gözəl meyvələrin ətri, ləzzəti,
Yayıldı ətrafa tər -təravəti.
Bulaqların suyu axdı ha  axdı,
Torpaq qızıl gülü sinəyə taxdı.
Uçmuş daş binada ölmüş on övlad,
Məzarlar sulandı, ruhlar oldu şad.
Onlara can gəldi, verildi həyat,
Verdi Allahımız bir daha nicat.
Həvran camaatı tutdular xəbər,
Möcüzə önündə hey tökdülər tər.
İman gətirdilər gözəl Allaha,
Asi olmadılar onlar bir daha.
Həyat məktəbidir Əyyubi Səbur,
Qaçdı uzaqlara şeytani-mənfur.
Qoyun sürüləri, həm çoxaldı mal,
Övladlar, nəvələr, yaxşılaşdı hal.
Yenə səxavətdə qalmadı geri,
Kasıbların dərdi onun dərd- səri.
Əyyub möcüzəsi bir məktəb oldu,
Xalqın ürəyinə din-iman doldu.
Allah insanlara edərək bəyan,
“Aldada bilməsin sizləri şeytan.

Varlılıq, kasıblıq yetirən mənəm,
Xəsətlik, sağlamlıq sizə verənəm.
Xəstə insanları atıb getməyin,
Heç kimi incidib təhqir etməyin.
Kasıb insanlara siz olun dayaq,
Təkəbbür, yalandan qaçınız uzaq.
İman həm səxavət birləşsin sizdə,
Halal ruzi yeyin ailənizdə”.
Ənbiya surəsi, Qurani-Kərim,
Əziz oxucuma məlumat verim.
Oxuyun Qurani, iki ayədir,
Əyyub peyğəmbərə bir işarədir.



# Yunus Peyğəmbərin Əhvalatı ( s)

Həzrəti Yunusdan danışım sizə,
Yayılsın yağ kimi ürəyə, gözə.
Neynəva şəhəri, Dəclə sahili,[43]
Yüz  mindən yuxarı vardı əhali.
İnsanlar daşlara inanıb yaşar,
Bütlərin önündə əyilib-aşar.
Onların içində təqvalı insan,
Allaha inanan, bütlərə yaman.
Allah onu seçdi ora Peyğəmbər,
"İlahini tanıt hər gün, hər səhər".
Allah dür sözləri ona vəhy etdi,
Yunus, tayfasının yanına getdi.

Onları çağırdı həqqə,  Allaha,
-İnanmayın daşa,bütlərə daha.
Ancaq ki,sözləri gedərək kütə,
Onlar inandılar yenə də bütə.
-Allah qəzəbinə gələrsiniz siz,
Sürünər hərəniz tezliklə diz-diz.
Həzrət,qarğış etdi onlara dərhal,
Getdi uzaqlara, olaraq bihal.
Yunusda olmadı səbir, hövsələ,(s)
Allah bəyənmədi getməyin belə.
Həzrət uzaqlarda bir xeyli qaldı,
Gələndən-gedəndən hey xəbər aldı.
Gözləyir şəhərdən gəlsin bəd xəbər,
“Allah öz qəzəbin nə vaxt göstərər?”
Neynəvadan uzaqlaşdı qəm-kədər,
Allah qəzəbinə gəlmədi şəhər.
Çünki gətirdilər Allaha iman,
Gəlmədi onlara çətinlik, yaman.
Həzrəti Yunusu gəzdilər, fəqət,
Tapmadılar onu, etdilər heyrət.
Yunus sa bilmirdi, xəbərsiz biri,
Hamıya gizlidir Allahın sirri.
Gələrək sahilə, mindi gəmiyə,
Dənizdə gəzməyə başlasın, deyə.
Aral dənizində üzərək mətin,*
Gəmidə var idi çoxlu sərnişin.
Dalğalar qoynunda üzürdü onlar,
Fərəhlə, sevinclə keçirdi anlar.
*-Aralıq

Birdən peyda oldu yekə bir balıq,
Qorxdu sərnişinlər, oldular yazıq.
Balıq zərbə vurdu gəmiyə, dəhşət,
Gəmidə həyacan, gözlərdə vəhşət.
İnsanlar qışqırır, edirdi fəryad,
Balıq sa əl çəkmir ey dadi-bidad.
Balıq sakit olmur, hey vurur zərbə,
Girmişdi gəmiylə sanki o, hərbə.
Balıq istəyirdi gəmini, haman,
Sındırıb sularda qərq etsin, inan.
Gəminin sahibi gələrək dilə:
-Gərəkdir bir nəfər qurban edilə.
Yoxsa hamımızı qırıb tökəcək,
Gəmini sularda yeksan edəcək!
Püşk atdılar onlar, gəmidə, heyhat!
Onların üzündə  sönmüşdü həyat.
“İndi bax kiməsə bəd püşk düşəcək,
Həyatı büsbütün burda sönəcək”.
Püşk düşdü Yunusa, baxırdı hamı,
“Görməyəcəm bir də ata-anamı”.
Deyə,o düşündü,udqundu haman,
Allahı anaraq çox oldu peşiman.
“Beləymiş Allahın öz  iradəsi,
Yazıdan qaçmağın yoxdur çarəsi”.
Deyərək, özünü sulara atdı,
Bir anda dalğalar özünə qatdı.
Gəmidən əl çəkdi bədheybət balıq,
Hər şeyin yaxşısın bilirdi Xalıq.

Balıq tez üzərək Yunusa sarı,
Artıq yanındaydı onun şikarı.
Bədheybət açaraq ağzını geniş,
Bu işə etmişdi dənizdə vərdiş.
Elə diri- diri uddu Həzrəti,
Sanki çoxdan idi insan həsrəti.
Balığın mədəsi genişdir,geniş,
Gəlişi var idi, yox idi gediş.
Evdən gəlməyinə olaraq peşiman:
"Axı niyə qaçdı o, Neynəvadan?
Allahın vəyhini yarımçıq qoydu,
Şeytan hiyləsinə Peyğəmbər uydu.
Niyə camaata İbrahim qədər,
Təbliğat etmədin, tapmadın təpər.
Axı eşitmişdin Yusif  haqqında,
On bir il yaşadı qara  zindanda.
Nəfsin qorudu o,eşq oldu Allah,
Məsum ürəyinə girmədi günah.
Misirdə bütləri yox etdi Həzrət,
Aclıqdan qurtardı,etdi mərhəmət.
Əyyubi Səbur da yadından çıxdı?
Əziyyətə dözdü, gözləri axdı.
Övladları getdi, varı- dövləti,
Xəstəliyə saldı, getdi haləti.
Şeytan qarşısında olmadı o,xar,
Allahın önündə ağladı zar-zar.
Bunları ki, mələk sənə demişdi:
"Unutma bunları"-O,bildirmişdi.

Neynəva xalqının adi danlağı,
Atdın öz elini, atdın ocağı!”.
Allahın Elçisi düşünürdü, hey,
Göz yaşı süzülür,t ökürdü ley-ley.
“Ey əziz Allahım ən uca sənsən,[44]
İlahi sən paksan, müqəddəssən sən.
Zalimlərdən oldum, qulağım sa kar,
Bağışla İlahi, mənəm təqsirkar.
Əfv et günahımı, məni bağışla,
Ürəyim, gözlərim dolubdu yaşla.
Bütün insanlara pənahsan, pənah,
Rəhimsən, adilsən ey gözəl Allah”.
Həzrəti Yunusun gözlərində yaş,
Düşündü keçmişi,canlandı yaddaş.
İlahi əfv etdi, qurtuldu o, zat,
Balığın qarnında taparaq nicat.
Balıq sahibindən aldı göstəriş,
Sahilə tulladı, tapdı pərvəriş.
Gücsüz uzanaraq yatırdı,Həzrət,
Ayağa durmağa yox idi taqət.
Allah boranını bitirdi orda,
Yunusun qoymadı yenə də darda.
Boranı tumunu o, yeyib yaşar,
Enli yarpaqları bədənə aşar.
Boranı yarpağın sevmir həşərat,
Allah qismət etdi yeni bir həyat.
Güc-qüvvət taparaq hərəkət etdi,
Nenəva yoluna axır ki, yetdi.

Camaat gördülər, etdilər hörmət,
İman gətirdilər, Allahdan qismət.
Həyatı bir örnək bizlərə Həzrət,
Allahdan izinsiz getmişdi, fəqət.
Pərvərdigar yenə qaytardı onu,
Balığın qarnında oyartdı onu.
Allah göstərdi ki:”Başda olsa tac,
Yenə də Allaha sizsiniz möhtac.
Balığın qarnına bir kimsə girə,
Dəryanın dibində olsanız zərrə.
Yenə eşidirəm, görürəm sizi,
Sizin şah damarı, ürəyinizi”.



# Musa Peyğəmbərin Əhvalatı (s) [45]

Günlər,aylar ötdü, ötüşdü illər,
Dəyişdi Misirdə köhnə nəsillər.
Həzrət İbrahimin solaraq dini,
İcra edilmədi islam aini.
Həzrəti Yusifdən qalan hər bir iş,
Tamam unuduldu, getdi asayiş.
Bütlər peyda oldu,həqqi dandılar,
Bəni -İsraili düşmən sandılar.
İkinci Ramsisin şahlıq illəri,
İbrahim dininin qara günləri.
Ağırlaşdı həyat orda ilbəil,
Qul kimi əzildi Bəni- İsrail.

Göz yaşı axıdır, edirlər giley,
Allahdan xilaskar istədilər hey.
Rəhimsiz Ramsisin həyatı soldu,
Ondan da dəhşətli Minfitah oldu.
Yəqub övladları ağladı zar-zar,
Göz  yaşı axıdır, edir ahuzar.
Allah adlanırdı özün Minfitah,
Xalq çağırır onu orda baş allah.
Bir gün o,yuxudan hövlənək durdu,
Yuxu yozanlardan bir məclis qurdu.
Firon yuxusunu danışdı, baxdı:
-Şamdan yana-yana bir alov qalxdı,
Misrin hər yerin yandırıb-yaxdı,
Bəni –İsrail sə zərərsiz  çıxdı.
Kahinlər yuxunu yozdular belə:
-Tez bəla gələcək saraya, elə.
Bəni- İsrailli bir oğlan doğar,
Misir fironunu öldürər, boğar.
Firon qəzəbləndi,verdi sərt qərar,
Ürəklər ürpəşdi, sarsıldı diyar.
“Doğulan uşağa baxılsın haman,
Oğlan uşağına verməyin aman”.
Evləri bürüdü ağlaşma, nalə,
İnsan çığırtısı yüksəldi zilə.
Uşaqlar anadan doğulan kimi,
Dərhal yoxlayırdı qadın həkimi.
Girirdi evlərə silahlı əsgər,
Zorla alınırdı oğlansa əgər.

Ana fəryad edir, tökür göz yaşı,
Kəsilir ordaca körpənin başı.
Levinin nəslindən gözəl bir insan,
Adı Amran idi, çağrılır İmran.[46]
Yukabed adında imanlı zövcə,
Allah qismət etmiş İmrana öncə.
Bir qızı var idi adı da, Məryəm,
Ondan gözəlliy kəsməmiş Kərəm.
Qızın Harun adlı qardaşı vardı,
Bağçanı bəzəyən o, bir fidandı.
Anası uşağa qaldı hamilə,
Fironun fərmanı düşdü o ilə.
Ərlə arvad çox oldular narahat,
Doğuş vaxtı yaxınlaşırdı, heyhat!
Qibti həkim tez-tez onu yoxlayır,[47]
Yukabedin ayın, günlərin sayır.
Gözləri baxsaydı oğlan uşağa,
Dərhal verilməli cəllada, çağa.
Gecənin birində Yukabed doğdu,
Ana,ürəyində sevincin boğdu.
Ananın gözləri yaşardı, doldu,
İmranın bənizi saraldı, soldu.
Körpənin üzündə nurlanan çıraq,
Heyrətə salmışdı hamını uşaq.
Onu öldürməkdən utandı mama,
Cəllad qılıncına atmadı, amma.
-Əmizdir oğlunu, ey xoşbəxt ana,
Açmaram sirrini heç vaxt firona.

Ancaq ki, uşağı aparıb gizlət,
Yoxsa firon bilər,etməz mərhəmət.
Mənim də həyatım düşər zindana,
Uşağın,özün də, batar al- qana.
Dedi,qibti qadın saraya döndü,
Ananın ürəyi əsdi, döyündü.
Gecə yuxusunda görərək röya:
“Uşağı sandığda atginən çaya”.
Ana yalvararaq Allaha yenə,
Uşağı suların verdi cənginə.
Daxilində bir səs deyirdi ona:
“Yenə qovuşarsan əziz oğluna”.
Qızı Məryəm gizli, izlər uşağı,
Qorxudan əsirdi dili, dodağı...
Firon Minfitahın zövcəsi vardı,
Asiya adıydı, imanlı yardı.
Mərhəmət,nəzakət hamısı onda,
Ədalət, gözəllik vardı canında.
Ərinin zülmünə edər etiraz:
“Deyərdi,insanı incitmək olmaz!”.
Həmişə sözünü deyərdi üzə,
Əriynən gələrdi tez-tez üz-üzə*...
Nilin sahilində tikilmiş saray,
Sarayın önündən “yeriyirdi”çay.
Günəş işıq saçır,bərq vurur sular,
Oynaşır sularda gözəl balıqlar.
Otaqda pəncərə, açılmış lay- lay,
Təmiz, sərin hava, İlahidən pay.
*-mübahisə

Pəncərə açıqdı, əyləşmişdi, ah,
Uşaq arzulayır,verməmiş Allah.
Üzü pərişandı, ürəyində qəm,
Sularda göründü qaraltı bu dəm.
Suyun üzərində üzürdü sandıq,
Ona tərəf gəlir qəribə "varlıq".
Asiya  kənizi yolladı, həmən,
Üzünə gülürdü bəzəkli çəmən.
Təəccüb etdilər qalxanda qapaq,
Yatırdı içində gözəl bir uşaq.
Asiya görərək körpəni sevdi,
Musa adlandırdı, ürək sevindi.[48]
Adının mənası"tapılmış"demək,
Uşaq cazibəli, nurluydu gerçək.
Firon xəbər tutdu,ey dadi-bidad!
Saraya çağırdı bədheybət cəllad.
Asiya körpəni himayə etdi,
Verdi dayələrə, arzuya yetdi.
Uşaq hey ağladı, olmadı aram,
Etdi dayələrin yediyin haram...
Məryəm bilirdi ki,sarayda uşaq,
Özü izləmişdi, almışdı soraq.
Öyrəndi ki,orda körpə əmməyir,
Gələn dayələri qəbul etməyir.
Gələrək söylədi o,tez kənizə:
-Tanıyır birini, düşmüşəm izə.
Yukabed təcili gəldi saraya,
Göstəriş vermişdi belə Asiya.

Adını gizlədi,saxladı pünhan,
Sirrini açmadı, o,ağıllı can.
Ana qucağına körpə isindi,
Dərhal sakit oldu, gözləri endi.
Asiya, kənizlər oldular çox şad,
Çətin qapıları açdı o, Ustad*.
Allahın öz vədi yerinə yetdi,
Ayrılıq, intizar qurtardı, getdi.
Günlər, aylar keçir,ötüşür illər,
Su kimi hey axır, ötür fəsillər.
Oldu əzələli, güclü bir cavan,
Həm də fərasətli, ağıllı insan.
Qibtilər Musadan ehtiyat edir,
“Firon oğlu”bilib uzaqdan gedir.
Anası Yukabed, atası İmran,
Açıldı bəzi sirr, qalmadı pünhan.
Həzrəti Yəqubdur  onun tayfası,
İbrahim Peyğəmbər ulu babası.
Bəni-İsrailə  edirdi hörmət,
Əgər yaranarsa bir müxalifət.
Günlərin birində bir qibti insan,
Bəni-İsraili döyürdü yaman.
Yazıq ağlayırdı, diləyir imdad,
Bir kimsə yox idi ey dadi-bidad.
Musa eşidərək haqsız savaşı,
İstədi həll etisn dava- dalaşı.
Qibti kişi dindi, etdi həqarət,
Musanı söyməyə tapdı cəsarət.
*-Allah

Aldığı  zərbədən yerə yıxıldı,
Yıxıldığı yerdən durmadı,qaldı.
Musa əzab çəkdi, oldu narahat,
Öldürdü qibtini bilmədən,heyhat.
Bəni-İsrailli çəkilib getdi,
Kimsələr görmədi,sakitlik yetdi...
Yenə də çıxmışdı Musa küçəyə,
Birdən səs eşitdi:-Gəlin köməyə!.
Musa gəlib gördü, dünənki kişi,
Bu adam üstündə əyilmiş işi.
Dedi:-Niyə tez-tez savaş edirsən?
Ziddiyyətli yerə niyə gedirsən?.
Bəni-İsrailli gələrək dilə,
Əsəb tellərini o, çəkdi zilə:
-Musa dünən burda öldürdü adam,
Gözümlə görmüşəm, şahidi ollam.
Casuslar firona verdilər xəbər,
Musanın ardınca salındı əsgər.
Fironun əlinə düşmüşdü fürsət,
Musaya var idi qəlbində nifrət.
“Başını kəsdirək, qurtulaq ondan,
Ürək narahatdır Musa olandan”.
Firon qərarından olaraq agah,
Qaçdı uzaqlara, köməydi Allah.

# Şüeyib Peyğəmbərin Əhvalatı (s), Həzrəti Musanın Onun Qonağı Olması

Firondan qorxaraq xeyli yol gedir,
Gecə aləmində Nil çayın keçir.
Qırmızı dənizə yollanır, yazıq,
Süveyş körfəzin görür azacıq.
Yavaş-yavaş şərqə tərəf yollanır,
Mədyənə getməyi düşünür,yanır.[49]
İradəli, güclü, on səkkizdi yaş,
Uzağa gedirdi o,yavaş- yavaş.
Axır ki,Mədyənə o,axşam çatdı,
Bir quyu başında uzanıb yatdı.
Misirlə Hicaza yaxın bir məkan,
Ortada yerləşir,yaxındı Mədyan.
Əkinə yarallı, münbit torpağı,
Qoyun sürüləri, çoxlu yaylağı.
Yorulmuşdu yaman ayaqlar qançır,
Axşamdan yatmışdı, hələ də yatır.
Günorta, günəşin qızmar şüası,
Qoyun mələməsi, çoban sədası.
Gözlərini açdı, ayağa durdu,
Su ilə yuyundu,bardaşın qurdu.
Çobanlar quyudan sərin su alır,
Hovuzlar hey dolur,yenə boşalır.
Sürüsün suvarır zirək olanlar,
Zəiflər gözləyir,baxır qoyunlar.

Kənarda duraraq  iki qız baxır,
Göz yaşı üzündən yağış tək axır.
Musa yaxınlaşdı, verərək səlam,
Danışdı onlarla bir neçə kəlam:
-Siz niyə durmusuz, nə edirsiniz?
Niyə qoyunlara su vermirsiniz?
-Gözləyirik ora tezcə boşalsın,
Çobanlar oradan qoyunun alsın.
Musa çobanları edərək kənar,
Qızlara köməyə o, verdi qərar.
Quyudan su çəkdi,hovuzlar doldu,
Qoyunlar su içdi, qızlar şad oldu.
Çobanlar kənarda duraraq baxdı,
Qorxu damcıları ürəkdən axdı.
Qızlar evlərinə gəldi sevincək,
Şüeyb peyğəmbərə dedilər gerçək:
-Ata, qoyunları bir gənc suvardı,
Yerli adamlara heç oxşamırdı.
Oxşayır yolçuya, temiz bir cavan,*
Mehriban biriydi, səmimi insan.
-Çağırın qonağı, edim təşəkkür,
Bu gün tez gəldiniz  Allaha şükür.
Qızlar yubanmadan evdən çıxdılar,
Quyunun başında tapıb baxdılar.
Dedilər:-Ey cavan, çağırır Həzrət,
Sizə etmək üçün teşəkkür, hörmət.
Musa razılaşdı, onlarla getdi,
Həzrətlə görüşə şadlandı,yetdi.
*-yol gedən

Həzrəti Şüeyib”Xoş gəldin”-dedi,
Qonağı süfrəyə o, dəvət etdi.
Musa çox acmışdı, yedi doyunca,
Danışdı onlarla sakit olunca.
Misir fironuna oxudu lənət,
Şüeyib eşitdi, etdi məsləhət:
-Həzrət İbrahimdən gəlibdi soyun,
Həzrəti Yəqubdur öz baban,oyun*.
Allaha imanın yerli-yerində,
Xoşuma çox gəldi fərasətin də.
Gəl al qızlarımın biriylə evlən,
Ancaq ki,istəyim,ya Musa səndən.
Başlıq parasını ödəmək adət,
Çobanlıq edəsən bizlərə əlbət,.[48]
Musa razılaşıb qızını aldı,
Mədyən diyarında düz on il qaldı.
On illik bir həyat, çox şey dəyişdi,
Allahı düşündü, kamil yetişdi.
Səsli, izdihamlı, bütlü saraydan,
Qaçıb uzaqlaşmış Musa o taydan.
Dağlarda, düzlərdə otardı qoyun,
Təkliyə alışdı, düşündü soyun.
Gecə ulduzlara,bərq vuran aya,
Gündüz çəmənliyə,dağlara,çaya.
Baxıb düşünürdü uca Allahı,
Yandırır az qala ətrafı ,ahı.
“Niyə hiss etmirik bütün bunları?
Daşlara inanır, sevir onları.
*-tayfa

Yusif  peyğəmbərin etdyi hər iş,
Niyə unuduldu o gözəl keçmiş?
Hamı tək Allaha inanmış onda,
Akinaton şahdı həmin zamanda.
İndi sə baş “allah” sayılır Firon,
Kim səcdə etməsə həyat olur son”.
Musa düşündükcə bütün bunları,
Nifrətlə yad edir, söyür onları.
“Bəni-İsraili, ey Musa qurtar!
Kökünü, soyunu Kənana apar!”.
Arzular ürəkdən hey gəlib keçir,
Misir fironuna həd- hədə biçir.
Şüeyib, Musada görüb bu halı,
Gözləri yaşarır, qəlbi yaralı.
Təsəlli verərək:-Qəlbini üzmə,
Allah əncam çəkər,ürəyə düzmə.
Mədyən torpağında neçə il öncə,
Mənə verirdilər burda işgəncə.
Bütlər idi inan, burda baş “allah”,
Yalan ayaq tutub gəzirdi, billah.
Haqqı, həqiqəti danışdım, dindim,
Alnımın tərinə özüm bələndim.
Fəsaddan,yalandan çəkmədilər əl,
Hey yalan dedilər, olmadı gözəl.
İman edənləri saldılar ələ,
Allah qəzəbinə gəldilər belə.
Yerləri alışdı, yandılar qat-qat,
Allahı sevənlər tapdılar nicat...

Firon əziyyəti çox uzun sürməz,
Allahımız haqqı nahaqqa verməz.
Şüeyb peyğəmbər etdi moizə,
Musa sakit oldu, ruh oldu təzə...
Bir qış gecəsində açaraq söhbət:
-On ilim ötüşdü, qurtardı müddət.
İcazə ver mənə geriyə dönüm,
Ahuzarla keçir inan, hər günüm.
Doğma adamlarım qalıb kimsəsiz,
Hər gün ürəyimdən yaş axır səssiz.
Ürəyim hey deyir:-Daha durma get!
Sən orda lazımsan, Vətəninə yet!!!
Şüeyb peyğəmbər verdi icazə:
-Yaxşı yol deyirik hamımız sizə.
Fironun şərindən Allah qorusun,
İlahi həmişə köməyin olsun.
Əhli-əyalını çəm etdi Musa,
Əlinə almışdı uzun bir əsa.
Həzrəti Şüeyib vermişdu ona,
O əsa oxşamır başqalarına.



# Tur Dağında Musanın Allahla Danışması (s)

Sübh tezdən Mədyənə etdilər vida,
Kaş, ola xətərsiz, olmaya qada.
Gecələr yatdılar, gündüz getdilər,
Sina tərəflərə  gəlib yetdilər.
Tur dağına yaxın azdılar yolu,
Leysan yağış yağır, tökülür dolu.
Sonra yağış kəsdi, islanmış paltar,
Paltar qurutmağa qaldılar naçar.
Zülmət bir qaranlıq, külək də əsir,
Soyuq qılınc kimi üz- gözü kəsir.
Birdən Tur dağında göründü məşəl,
Biixtiyar dağa uzandı tez əl.

-İndi od parçası gedib gətirrəm,
Çox çəkməz özümü sizə yetirrəm.
Od yanan tərəfə Musa yönəldi,
Axır ki, mənzilə üz tutub gəldi.
Tur dağına qalxdı, hər tərəf  işıq,
Ancaq nə od vardı, nə də ki,yanıq.
Ağac parıldayır, saçırdı  şölə,
Hər tərəf al-əlvan, közərir böylə.
Sakitlik adamı  qorxuya salır,
Ölüm kabus kimi gəzir,dolaşır.
Nə bir böcək səsi, sönmüşdü həyat,
Yarpaqlar da səssiz, işləmirdi vaxt.
Nə quş civiltisi, nə ağac səsi,
Nə də heyvanların bir hənirtisi.
Musa dayanaraq  xəyala daldı,
Kimsəni görmədi, karıxıb qaldı.
Birdən açıq -aydın  eşidərək səs,
Baxdı sağa-sola, görmədi bir kəs.
Gördü ki ağacdan gəlir bir səda,
Bədəni titrədi, eşitdi nida:
-Çıxart nəleyini, sən amandasan,
Müqəddəs Tubanın torpağındasan.
Musa çox qorxaraq, axtardı nəsə,
Ancaq rast gəlmədi orda bir kəsə.
-Ya Musa,sakit ol,qarşında Allah,
Aləmlərin Rəbbi ,olginən agah.
Sanki günəş doğub saçırdı dağa,
Musa üzü üstə düşdü torpağa.

Allahın önündə edərək səcdə,
Sözləri eşidib gələrək vəcdə.
-Ya Musa,yubanma, əsanı tez at,
Əsanı tez atdı, tər tökdü qat -qat.
Əsa dönüb oldu dəhşət əjdaha,
Qorxudan ürəyi əsdi bir daha.
-Yaxınlaş ağaca, qorunursan sən,
Müqəddəs torpaqda himayədəsən.
Allahın elçisi kimsədən qorxmaz!
Allah olan yerdə ürək darıxmaz!.
Musanın ürəyi sevinclə doldu,
Allahla danışdı, ürək şad oldu.
İlana uzatdı əlini Musa,
Yenə ilan dönüb oldu bir əsa.
Yenə səda gəldi:-Cibini yoxla,
Əlini sal cibə, bir azca saxla.
Əlini çıxartdı az sonra cibdən,
Əli işıq saçdı Musanın birdən.
Musa tez yoxladı, sağlamdı əli,
Közərən işığın yox bir əngəli.
Yenə səda gəldi:-Apar qoynuna,
Dərhal qoşa əli girdi qoynuna.
Ürək rahat oldu, qorxmadı daha,
Həzrət səcdə etdi, gözəl Allaha.
Yenə səda gəldi Allahdan ona:
-Təbliğ et Allahı orda Firona.
Firon tüğyan edir, azmışdır yolun,
Zülmü, fəsadları çoxalmış onun.

Allah adlandırır Firon, özünü,
Onu başa salın, deyin düzünü.
Çalışın qayıtsın o, uçurumdan,
Ona izah edin ağır durumdan.
-İlahi, bilmədən öldürdüm adam,
Onlar inanmazlar axı yalqızam.
Qardaşım Harunsuz olar çox çətin,
Dilli-dilavərdir, həm də ki mətin.
-Harunla qoluna veririk qüvvət,
Biz də sizinləyik, ey Musa əlbət.
Müqəddəs torpağı bürüdü zülmət,
Od-alov yox oldu, getdi sükunət.
"İndi arxayın ol, tək deyilsən sən,
Allahın elçisi, bir Peyğəmbərsən.
Sənə bir vəzifə tapşırdı Xuda,
Vaxtını itirmə müqəddəs Turda.
Böyük xarüqələr səsləyir səni",
Düşünüb boşaltdı öz ürəyini.
Tur dağından endi,tələsik getdi,
Əhli -əyalının yanına yetdi.

## Həzrəti Musa və Həzrəti Harun Firon Sarayında

Aşağı enərək müqəddəs Turdan,
Əlləri edirdi yolu çıraqban.
Ətraf  işıqlandı, nə bir təhlükə,
Daha düşmədilər əvvəlki kökə.

Zövcəsi görərək Musada halı,
Sifət cizgiləri olmuş mənalı.
Hiss etdi Musada dəyişmiş vicud,
Ona yol göstərmiş ən uca Məbud.
Uzun, çətin yolu rahat getdilər,
Münfisə, cənuba onlar yetdilər.[51]
Burda yaşayırdı Bəni-İsrail,
Fironun əlində olmuşdu zəlil.
Harun qarşıladı Musanı yolda,
Allah bəyan etmiş yatdığı halda.
Ata -anasının yanında oldu,
Onların sevincdən gözləri doldu.
Musa tayfasına verdi müjdəni:
-Allah öz elçisi seçmişdir məni,
Sizi əziyyətdən gərək qurtaram,
Kənan torpağına həmən aparam.
Onlar sevindi ki, dəyişir dövran,
Gəlir peyğəmbərin dediyi zaman*.
Musa peyğəmbərlə gerçək olacaq,
Firon qəddarlığı yanıb solacaq.
Bir gün öz evində oldular rahat,
Saraya gəldilər Harunla ,o zat.
Minfitah əyləşmiş, təxti zil qara,
Misir əhalisin gətirmiş zara.
Musa ,Harun gəlib verdilər səlam,
Ədəb göstərdilər, həm şirin kəlam.
Musanı görərək dərhal o, coşdu
Gəlib yetişdinmi?-Firon soruşdu.
*-Yusif (s)

Dedi:-Mən Mədyəndən edərək səfər,
Gəldim ki, Allahdan verim son xəbər.
Dedi:-Mənəm Allah, nə tez unutdun?
Ya Musa, sən kimi nəzərdə tutdun?.
Mən bir şahənşaham,həm də ki,allah,
Bütün Misir xalqı bu işdən agah.
Harun dedi:-Sən ki,Allah deyilsən,
Həqiqi Allaha diz çök, əyil sən.
Musa:-İlahidir bizə can verən,
Günəşi, Ulduzu,Ayı  göstərən.
Yağışı yağdıran, külək əsdirən,
Gecəni gündüzlə əvəz etdirən.
Xırda bir zərrədən yaratdı Rəbbim,
Ruhları bədəndən alan, O Hakim.
Onsuz nəfəs almaz canlılar bir an ,
Allahsız buzlaşar ,lal olar zaman.
Əgər sən Allahsan bir canlı yarat,
Ölmə, öz ömrünü ömürlük  uzat.
Bunları ki, insan bacara bilməz,
Onsuz bu kainat inan, düzəlməz.
Allah elçisiyəm, ey firon, eşit!
İnsanlara rəhm et,xalqı az incit.
Bəni- İsraili döymə, az işlət,
Kənana dönməyə verginən rüsxət.
-Mən səni saxladım lap körpə ikən,
İndi də ağ oldun, laf söz deyirsən?
-Körpələri kəsdin saysız-hesabsız,
Əzazil işlərin qalmaz cavabsız.

Bəni -İsrailə sən uddurdun qan,
Sənə bağışlamaz bunu,Yaradan.
-Qibtini öldürdün, salaraq nifaq,
İstədin qaçmaqla unudulsun haqq.
-Təsadüf üzündən oldu hadisə,
Səbəb axtarırdın asmağa sən sə.
Xilas olmaq üçün qaçaraq tənha,
İndi də gəlmişəm ümid Allaha.
-Allah elçisisən, göstər möcüzə,[52]
Gözlərimlə görüm inanım sizə.
Əgər ki,sən bunu etməsən sübut,
Yatağın olacaq ağacdan tabut!
Musa çomağını tulladı, dərhal,
Əjdahaya döndü çomaqı bu hal.
Firon, əyan -əşrəf çığırdı, dəhşət!
Onların üzündə qorxu və vəhşət.
Hərə bir tərəfə qaçdı, yüyürdü,
Əjdaha salonda hey sürünürdü.
Zəhərli dişindən süzülür zəhər,
Adamı çalmağa hey məqam istər.
Uzun haça dili eyləyir fəqan,
Quyruğu üstündə qalxırdı ilan.
Qorxunc bir dəhşətlə çıxararaq səs,
Qurudu dodaqlar, susdular hər kəs.
Qapının önündə durmuş Minfitah,
Qorxudan əsirdi, o“böyük allah”.
Əlini uzatdı Musa qabağa,
Yenə də əjdaha döndü çomağa.

Qayıtdı, əyləşdi taxdında kral,
Tərini silməyə götürdü dəsmal.
Yaxına gəldilər əyanlar həmən,
Vəziri Haman da, qaçdığı yerdən:
-Ya Musa,bu sehri sən necə bildin?
Bizə dərs keçməyə saraya gəldin?
Musa gördü onlar gəlmir imana,
Möcüzələr təsir etmir firona.
Əlin cibə saldı, çıxartdı bu vaxt,
Otaq işıqlandı, al geyindi taxt.
Bənizlər saraldı, böyüdü gözlər,
Yenə də möcüzə, kəsildi sözlər.
Fironun gözlərin kor etmiş dövlət,
Ona görünmürdü heç bir həqiqət.
Gördü ki, əyanlar dönəcək şahdan,
Coşdu, əsəbləşdi, qışqırdı Haman:
-Musa cadugardır,həm də hoqqabaz,
Sarsaq oyun qurur bizə kələkbaz.
İstəyir hamını tilsimə salsın,
Bəni-İsraili buradan alsın.
Misir xalqı gəlsin,toplansın meydan,
Kimin düz olmasın göstərər zaman.
Hər yerdən yığarıq sehr, cadugər,
Görək onda Musa nə cavab verər?
Minfitah:-Düz deyir vəzirim Haman,
Yığılsın insanlar, qoy dolsun meydan.
Yarışa hazırlıq başlansın burda,
Milli bayram günü, yığışaq orda.



# Həzrəti Musanın Meydanda Yarışı

Misir dövlətinin milli bayramı,
Yaxından, uzaqdan toplaşıb hamı.
Bayram paltarını geyinib onlar,
Gözlərində sevinc, gülür insanlar.
Carçı elan etdi, eşitdi meydan,
Alqış sədaları ucaldı bir an.
-Bu gün sehrkarlar yarış edəcək,
Musa da Harunla bura gələcək.
Hərə öz sehrini edəcək izhar,
Meydanda gəzəcək canlı ilanlar.

Firon əyləşmişdi gözündə inam,
Sehrikar dostlardan alırdı ilham.
Onların məqsədi Musanı əzmək,
Onu rəzil edib, başını üzmək.
Carçı elan etdi:-Başlanır yarış!
Sehrkarlar gəldi əllərdə qayış.
Meydana girdilər Musayla Harun,
Yaxında dayanmış allahsız Qarun.
Bəni-İsrailli, hiyləgər insan,
Hikkəsi, qüruru firona səhman.
Meydanı almışdı dərin bir sükut,
-Harun,kədərini tamamən unut!
Musa, qardaşına verdi təskinlik,
İzdiham önündə dayanmışdı dik.
Baş cadugər üzün tutdu Musaya,
Təklif verdi, əməl etdi qaydaya:
-Sehiri göstərin,başlayın görək,
Yarışın əvvəlin sizlərə verək.
-Allah elçisiyəm, verirəm xəbər,
Bir olan Allahı tanıyın sizlər!
Birinci başlayın, göstərin nə var,
Allahı dananlar mütləq xar olar.
Cadugərlər xeyli edərək gərdiş,
Etmişdilər çoxdan bu işə vərdiş.
Əllərdə oynayan iplər, qayışlar,
Atıldı torpağa, əyildi başlar.
İplərlə qayışlar oldular ilan,
Yerində qıvrılır, qışqırır insan.

İlanlar sürünür, özləri xal-xal,
Meydan uğuldayır,camaat bihal.
Ovsun olunmuşdu onlara, əlbət,
Saray məmurları oturmuş rahət.
Musanın narahat oldu ürəyi,
Ona xəbər verdi o, vəhy mələyi:
-Ya Musa, görürük, sizinləyik biz,
At əsanı qorxma, qalibsiniz siz.
İzdiham qışqırır, hey alqış gəlir,
Fironun üzündə sevinc yüksəlir.
"Bilirəm ki,Musa məğlub olacaq,
Onun həyatına son qoyulacaq".
Fikirləşir firon, gözləri gülür,
Onun ürəyindən biclik süzülür.
Musa  əsasını qaldırdı göyə,
İzdiham susaraq baxdi əsayə.
Sonra da əsanı atdı torpağa.
Camaat dözmədi durdu ayağa.
Şaşırmış gözləri Musaya çöndü,
Qorxunc əjdahaya ,o əsa döndü.
Əjdaha qalxaraq quyruğu üstə,
Camaat qışqırdı, gəldi dəhşətə.
Saxta ilanları, o bir -bir uddu,
Qorxudan fironun dili tutuldu.
Əjdaha fırlandı, qalxaraq şahə,
Gözlərini dikdi o, Minfitahə.
Fironun üz-gözü tamam ağardı,
Onun bədənini üşütmə sardı.

Əyan-əşrəf, cadugərlər qorxdu çox,
Qaçmaq üçün tez durdular,əlac yox.
Peyğəmbər uzatdı əl, əjdahaya,
Sahib oldu yenə gözəl əsaya.
Cadugərlər gördü, susmadı təpər:
-Sehrikar deyildir,o bir Peyğəmbər.
Həzrəti Musaya etdilər iman,
-Bir daha olmarıq sehrikar,şaman!
Musayla, Harunla görüşdü onlar,
Birlikdə Allaha səcdə yapdılar.
Firon qışqırdı ki:-Vay olsun sizə!
Damğa vuracağam ürəyinizə,
Məndən icazəsiz iman etdiniz,
Sizdən güclüsünü belə sevdiniz.
-Bu cadu deyil ki, bu bir həqiqət,
İnandıq hamımız  Musaya, əlbət.
Firon tez qışqırdı:-Tutun bunları,
Nil çayına atın, boğun onları.
Dedilər:-Razıyıq uca Allahdan,
Gözümüzü açdı, sildi günahdan.
Yalandan özünə Allah deyirsən,
Sən də bir bəndəsən,unutma ki,sən.
Şəkkin varsa göstər belə möcüzə,
Yarat bir əjdaha, gələk üz- üzə.
Əgər bacarmırsan, etginən iman,
Yoxsa o dünyada verilməz aman.
-Aparın onları, susdurun həmən,
Nil çayına atın,xar olsun düşmən!

Cəlladlar onlara vurdular qandal,
Həqqi görənlərin dili oldu lal.
Açıq dəlillərə olmadı rəğbət,
İman edənlərə verdi əziyyət.
Möcüzəni görən bir xeyli insan
Həzrəti Musaya etdilər iman.
Ancaq ki, qorxudan qaldılar gizlin,
Fikrin gizlədilər, yumdular dilin.
Asiya inandı tamam  Allaha,
İman möhkəmləndi onda bir daha.
Birdə ki, fironun nəslindən Hizgil,[52a]
Allaha inandı, görərək dəlil.
Asiya ərini çağırdi haqqa:
-Allahını tanı, son qoy nahaqqa!
Firon əsəbləşdi, coşdu,kükrədi,
Onu öldürməklə hədələr biçdi.
Asiya dönmədi, etdi ibadət,
Hər gün Allahyla edirdi söhbət.
Firon incidirdi, verirdi əzab,
Dözmədi əzaba, gətirmədi tab.
Allaha yalvardı, istədi ölüm,
Fironla qalmağa olmadı dözüm:
-İlahi, cənnətdə mənə bir ev ver,
Dərgahına apar, orda ayır yer.
Şəhid oldu özü, susmadı iman,
Fironun önündə əyilmədi can.

# Qarunun Əhvalatı

Bəni -İsraildən bir adam vardı,
Firona bənzərdi,dünyası dardı.
Varı, xəzinəsi dillər əzbəri,
Pislikdə yox idi onun bənzəri.
Musaya qohumdu, ürəyi şeytan,
Həzrəti həmişə sanırdı düşman.
Varından sədəqə verməzdi,haşa,
Omrünü beləcə vururdu başa.
Yardım istəyəni edirdi təhqir,
Qovurdu qapıdan görəndə həqir.
Həzrəti Musaya etmirdi iman,
Ona yaxın idi həmişə şeytan.
Qarunun imanı, dini xəzinə,
Musanı pisləyir, düşür izinə.
Həzrət dəvət etdi onu Allaha,
Cavabı bu oldu:-Əl çək bir daha!
Onu öldürməyə cızaraq tədbir,
Əxlaqsız qadınla o,oldu əlbir.
Həzrət camaata edir moizə,
Qarun da arxadan danışır hərzə.
Dedi:-Qadınlarla edirsən zina,
Əlimdə sübut var, bir utansana.
Qaldırdı ayağa pis bir qadını,
-Bununla çirklədib Musa adını.
Üzünə deyilən iftira, böhtan,
Ürəyi od tutdu, alışdı hey,can.

Qadını çağırdı Musa qabağa,
And verdi Allaha,durdu ayağa.
Qadın ağlayaraq söylədi,haman,
Bəxşiş aldığını edərək bəyan.
Qarunun hiyləsi, zalım hikkəsi,
Qəlbini incidib böhtan deməsi.
Peyğəmbər inlədi,tökdü göz yaşı:
-İlahi əncam çək, etdi qarğışı.
Gecə aləmində torpaq yarıldı,
Qarunun sarayı yer altda qaldı.
Yer uddu Qarunu, saray tarimar,
Yer altında qaldı xeyli-xeyli var.
Camaat gördülər, oldular əyan ,
Qarunun qərqinə inandı cahan
Onlar bildilər ki, Musada nicat,
Aparar Kənana  bizləri, o zat.



# Bəni –İsrailin Misirdən Gecə Qaçması

Möcüzə göstərdi, etdi moizə,
Firon inanmadı, gəldi üz-üzə.
Qəlbi möhürlüydü, gözləri də kor,
Şeytanın oduna yanan gorbagor.
Ən uca ev tikdi saraya yaxın,
Bir“behişt”yaratdı, iddaya baxın.
Açıq dəlilləri edərək uzaq,
Elə hey qururdu xalqına duzaq.
Cəllad qılıncından axır qızıl qan,
Hər gün öldürülür neçə-neçə can.
Fironun getdikçə artır hikkəsi,
Gəlir insanların ağlaşma səsi...

İlahi vəhyindən tutaraq xəbər:
“Bəni- İsrailə olginən sipər.
Dərhal ev-eşikdə hazırlıq görün,
Gecə aləmində Misirdən köçün!”
Musa təyin etdi köç üçün müddət,
“Qurban da,kəsilsin”-tapşırır əlbət.
“Yola hazırlığı təmamən bitir!”
Ondan camaata göstəriş yetir.
Aprel günləri, sərin bir axşam,
Yəhudilər bunu edirlər bayram.[53]
Gecə aləmində səssiz-səmirsiz,
Çıxdılar evindən onlar xəbərsiz.
On iki qəbilə gedirdi şərqə,
Sübhan,yaz tarixi sən də vərəqə!
Musa, Harun gedir əsa əlində,
Süveyş körfəzi gözləyir öndə.
Qaçırdı insanlar, arzular dərin,
Ulduzlar sayrışır ,hava da sərin.
Gedirdi insanlar, arxada gözlər,
Əkib becərdiyi bağ-bostan,özlər...
Yenə ana vətən düşdü yadıma,
Kömək olsun Allah,çatsın dadıma.
Pərən-pərən düşdü xəlqim,anam,oy!
Öz yurdundan qovdular, yanam, oy!
Qaçqın oldu vətənimdə insanlar,
Çoxdandır görməyir vətəni onlar.
Öz evində külə döndü körpə, böy,
Yandırıldı ev-eşiyim, min-min köy.

Nahaq şüd eləyir, ürəyimdə dağ,
Düşmənin əlində yanır Qarabağ.
İlahi,kömək et, haqq zəfər çalsın,
Hərə öz yurdunda xoş nəfəs alsın.
İnanıram o gün uzaqda deyil,
Zəfər bayramımız qoy olsun bu il!..
Firon xəbər tutdu, qışqırdı:-Haman!
Təcili Musanı haqlayın daldan!
Onlara olmazın biz əzab verək!
Harunla birlikdə edam etdirək!
İsrail tayfası qayıtsın, görək!
Qibti xalqı üçün işləyə gərək!
Minfitah qışqırdı, tezcə geyindi,
Musanın ardınca söydü, deyindi.
Qoşun hazırlandı, çıxdılar  yola,
Firon da Hamanla çapır dördnala.
Atların nalından çıxırdı şimşək,
Bəni -İsrailə çatsınlar gərək...
Süveyş körfəzinə çatdılar onlar,
Gördülər arxadan gəlir düşmanlar.
-Evimiz yıxıldı, düşmən çatacaq,
Tezliklə hamımız həlak olacaq.
Xilasımız çətin, yoxdur bir ümid,
Tayfamız olacaq burdaca şəhid.
Uşaqlar, qadınlar qopardı şivən,
Hamısı göz yaşı tökdülər həmən.
Firon, əsgərləri budur ha çatır,
Yəqub övladının ürəyi atır.

Peyğəmbər söylədi:-Ucadır Allah,
Bizi darda qoymaz!-Eylədi agah.
Düşmən əsgərləri lap çata-çatda,
Bəni-İsrailli lap batabatda.*
Allahın mələyi endi bu zaman,
Şad xəbər gətirdi, söylədi haman:
-Peyğəmbər, əsanı vurun dənizə!
Həzrət əməl etdi deyilən sözə.
Dünyanı sarsıdan qərib möcüzə,
Camaat təəccüblə baxdı göz-gözə.
Dəniz bölünmüşdü, açılmışdı yol,[54]
Darda qalanlara Rəbbim, kömək ol.
Yol açıldı, nicat yolu adlandı,
Sevindilər, göz yaşları odlandı.
Yolun sağı, solu sulardan bir dağ,
Sanki donmuşdular, görsənirdi ağ.
İki göz lazımdır hüsnünə baxsın,
Allah qüdrətini qəlbinə yaxsın.
Çatdılar sahilə, qabaqda Firon,
Çox çəkməz həyatı olacaq bir son.
Bəni-İsraili gördülər haman,
Dəryanın içindən tələsik qaçan.
Allahın qüdrətin görsə də onlar,
Möcüzə sirrindən axı nə anlar?
Fironun gözləri artıq kor olmuş,
Allaha dönüşü, sevgisi solmuş.
Dağ kimi qalanmış sular üst-üstə,
Axmır, gözləyirdi sakit ,ahəstə.
*ölüm ayağında

Firon səbəbini anlamadı heç,
Musa peyğəmbəri sayırdı o, heç.
Mindiyi kəhər at getmədi durdu,
Möcüzə önündə yerə oturdu.
Cəbrayıl ağ atla düşərək qabağ,[55] (s)
Fironun da atı getdi dal-qabağ.
Yəqub övladları çıxaraq çölə,
Körfəzin şərqinə, qumsal sahilə.
Sahildən baxdılar, çapırdı Firon,
Qaçağan atıyla yel kimi fayton.
Hərəkət etdilər sular bu zaman,
Qoynuna aldılar dalğalar bir an.
Minlərlə əsgərlər suda qərq oldu,
Fironun qarnına şor sular doldu.
Firon qışqıraraq:-Allah, inandım!
Ya Musa, bəri bax indicə qandım.
“İndimi?-halbuki edirdin tüğyan!
Allah elçisinə vururdun ziyan.
Mənim möcüzəmə sən inanmadın,
Həqqi xatırlatdım,həqqi qanmadın![56]
Fironu dalğalar atıb tuturdu,
Şorlu sular ilə mədə dolurdu.
Bildi ki öləcək, yoxdur bir çarə,
Yenə səs eşitdi firon biçarə.
“Bədənini sudan qurtararıq biz,
Gələcəyə örnək qalar meydiniz”.
Firon əsgərindən qalmadı bir can,
Yəqub övladında qanamdı qan.

Möcüzə görərək, gəldilər vəcdə,
Allaha yalvarıb etdilər səcdə.
Camaat sahildə dincəldi, yatdı,
Qəlbindən, beynindən əzabı atdı.
Fironun cəsədi görən nə oldu?
Kafirin ki, qarnı su ilə doldu.
Dalğalar fironu atdı sahilə,
Cəsədi düşərək hey əldən-ələ.
Keçdi qərinələr, keçdi min illər,
Axır ki, tapdılar, danışdı dillər.[57]
Nilin sahilində, keçmişdi zaman,(1898)
Mumya görünərək sahildə,aman!
Fironun cəsədi, muzey Qahirə,
Şüşədə saxlanır, baxırlar hərə.
Ötdü hadisədən yenə də müddət,(1975)
Cəsəd yoxlanıldı, verildi qiymət.
Dünyanı sarsıtdı son nəticələr,
Qurani-Kərimin verdiyi xəbər:
“Firon boğulmaqla suda o, ölmüş,
Bədənində zərbə, xeyli döyülmüş”.

## Yusif  Peyğəmbərin Cənazəsi

Suveyş körfəzini keçdilər rahat,
Onları gözləyir yeni bir həyat.
Sonra da Sinana yol aldı onlar,
Qumsal səhralara gecə çatdılar.

Kənan torpağına gedirdi karvan,
Qızmar günəş yanır, əridirdi can.
Dəvənin belində qiymətli yaqut,
Həzrəti Yusifə məxsusdur tabut...
Qəbrinin yerini axtararaq çox,
Axır ki, tapdılar aşkar oldu,ox!
Bir qoca qarı var, sirlər sandığı,
Musaya şərt qoydu sözün açığı:
-Behiştdə yanından olmayım uzaq,
Eyni bir dərəcə verilə ancaq.
Kor olan gözlərim açılsın gərək,
Ayaq işləsin ki, biz ora gedək!
Həzrəti Musaya dərhal vəhy gəlir:
“Ya Musa, qəbul et, o çox istəmir”.
Musa razı oldu, qarı söylədi,
Yusifin qəbrini bəyan eylədi ...
İndi fikirləşir bunları Həzrət,
Ağıllı qadında danışıq,hikmət.
Öz-özünə güldü, sevinci artdı,
Allah dərgahına əlin uzatdı:
-Sirli aləmlərin fövqündə duran,
Sənin bildiyini bilməyir insan.
Hamının yerinə düşünürsən sən,
Hər cür çətinliyin sirrini bilən.
Şeytanın şərindən qoruyan sənsən,
Ey böyük Allahım,yaradan sənsən...
Mövzudan kənara oxucum, çıxaq,
Hadisə boyunca su kimi axaq.

Bir kitab vermişdi gözəl bir insan,[58]
Oxuyum, qaytarım etmişdim bəyan.
Kitab adlanırdı-“Hədisi-Qüdsi”,
Təmiz vərəqləri, yoxdur ləkəsi.
Dini məlumatlı maraqlı kitab,
Orda çox suala mən tapdım cavab.
Oxudum kitabı ,çox fayda aldım,
Kitab da əlimdə fikirə daldım.
Gözlərim önündə vərəqlər təmiz,
Nə bir ləkə vardı, nə də ki, bir iz.
Belə səliqəmlə qürrələndim çox,
Özümü düşündüm İlahini yox!
Kitab açıq idi ,xəyala daldım,
Özüm də bilmədən qələmi aldım.
Xəyalım uzaqda, cızıldı kitab,
Xəyaldan ayrıldım, tapıldı cavab.
Unutmuşdum ən vacibin özünü,
Düşünəndə,”İnşəallah”- sözünü...
Günəşin doğması, ayın çıxması,
Ulduzların göydən yerə axması.
Hühudsuz etmisən sən kainatı,
Sənin iradəndə zamanın vaxtı.
Sənsiz ola bilməz nə gündüz,gecə,
Sənsiz yaşayarmı bir canlı necə?.
Qurani- Kərimi göndərdin bizə,
Möcüzə göstərdin hər birimizə.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Sənsən aləmlərdə uca Hökmüdar.

Başqa bir hadisə danışım sizə,
Maraqlı bir gündən hər birinizə.
İnan,unutmadım, çıxmır yadımdan,
Yazmaqdı məqsədim öz Allahımdan.
Sovet hökuməti laxlayır, batır,(1986)
Sonunu yaşayır, axırı çatır.
Cavan vaxtım idi, qolumda qüvvət,
İsti yay ayları, bitməmiş müddət.
"İran" bazarından alırdıq paltar,*
Ya uçaqla uçur, ya da ki, qatar.
Rusiya bazarı olmuşdu azad,
Dəyib dolaşmırdı nə milis,nə yad.
Vətəndə vəziyyət olmuşdu çətin,
Camaat sevmirdi Sovet dövlətin.
Alanda-satanda heç aldatmadım,
Yararsız malları alıb-satmadım...
Təzə qayıtmışdım yoldan Bakıya,
Şirin bir yuxuda  görərək  röya.
Üç nəfər durdular önümdə haman,
Tez durub oturdum, artdı həyacan.
Gətirmək çətindi önlərində tab,
Ortada dayanan, üzündə niqab.
Sağ- solda ikisi geyinmiş əba,
Əllərində təsbeh, sarı kəhrəba.
Sağ cinahda olan dedi ki, mənə:
"Kəndində məscid yox,onu tiksənə".
Üçüncü söylədi:"Köhnə məscid var,
İstəsən sök  gətir,tez tikib qurtar".
*-İran malları

Qısa bir fasilə, ani bir sükut,
Sübhan, xatırla sən, nəin ki,unut.
Mülayim bir səslə niqablı, dedi,
İlahi sözlərdən əblisə geydi:
“İnşəallah, o, özü təzəsin tikər”,
Allahın evini kəndində əkər”.
Bir anda onları görmədim daha,
Röyadan ayıldım baxdım sabaha.
Açılırdı səhər, hava tər təmiz,
Hələ ki, röyada fikrim şübhəsiz.
Yuxu təsirində oldum bir müddət,
Yaşlı insanlarla etdim məsləhət.
Məscid tikintisi alaraq vüsət,
Camaat gəlirdi, verirdi qüvvət.
Kəndin ustaları tökərək qan-tər,
Nə muzd alırdılar, nə də ki,bəhər.
Məscidin divarı yüksəlirdi, hey,
Heç kimsə etmirdi işindən giley.
Fikirləşdim yenə Kazana gedim,
Qazandığım pulu bura sərf edim.
İnan ki,məqsədim deyildir yazmaq,
Burda əməymi yazıb qabartmaq.
Belə bir hekayə yazıram sizə,
Allah köməyini hər birinizə.
Yenə də bazardan aldım parça- mal,
Sumkalara yığdım, hamısı halal.
Bakı limanına gələrək tezdən,
Qəbul şöbəsində keçdilər gözdən.

Hava limanında qohum, Şərafət,[59]
Kazana gedirdi, məqsəd ticarət.
Uçağa əyləşdik hər şey qaydada,
İlahi nicat ver, sən yetiş dada.
Enərək Kazanda,Allahdan kömək,
Orda qazanmaqa  bir tikə əkmək.
Xeyli sərnişinlər, çox idi yüklər,
“Mala baxılacaq”-verdilər xəbər.
“Yüklərin hamısı yoxlanılacaq,
Kimin malı çoxsa saxlanılacaq”.
Mənə aid idi yüklərin çoxu,
Həyacanım artdı, keçirtdim qorxu.
Sumkalar hərəsi sanki bir kisə,
Xuda köməy olsun darda hər kəsə.
Milis işçiləri edir nəzarət,(polis)
Hər tərəf hər yerə edilir diqqət.
Sərnişinlər bir-bir keçir,yoxlanır,
Artıq yükü varsa dərhal saxlanır.
“Bir sumkadan artıq yoxdur icazə!”
Deyə, nəzarətçi söylədi üzə...
Beş böyük sumkanı qoydum kənara,
Baxırdım yükləri tutulanlara.
İki sumkalardan alınır biri,
Cərimə edilir, verilir geri.
Daha gözləmədim, getdim irəli,
Əziz Allah ya Mühəmməd ya Əli!
Kəmərin üstünə qoydum şeyləri,
Təəccübə saldım sərnişinləri.

Ekrandan keçir sumkalar bir-bir,
Camaat arxadan çox diqqət edir.
Onlar əmin idi yəqin ki, yüklər,
Gömrük işçiləri verməyəcəklər.
Fırlanan kəmərdən qoyaraq yerə,
Gömrük işçiləri baxdı yüklərə.
Gömrüyün rəisi bir az kənarda,
Sumkalar görsənir yerdə ard-arda.
Dayanıb kənarda,uzaqdan baxır,
Sifətindən onun məmunluq axır.
Milis işçiləri çəkildi kənar,
Durduğum tərəfə baxmadı onlar.
Getdim ona tərəf bəlkə buraxa,
Dərhal da dönərək çevirdi arxa.
Bilmədim gözləyim yada ki, gedim,
Qalmışdım ortada, axı nə edim?.
Nə dindirən vardı, nə də yoxlayan,
Nə“get”deyən vardı,nə də saxlayan.
Qəfildən o rəis çevrildi mənə:
-Vətəndaş, gözləmə, çıxıb getsənə!
Yükün mane olur, kəsib yolları,
Yığışdır buradan, apar onları!
Bir an quruyaraq, yerimdə qaldım,
Sonra sumkaları tez ordan aldım.
Uzaqdan göz qoyur, baxır Şərafət,
Zənn etdi tanışdır, etmişdir hörmət.
-Mənə də kömək et, çıxaraq burdan!
Yeridim irəli, qurtarım dardan.

Üç sumkalar idi böyük olmayan,
İstədim aparım, mən olum həyan.
Gömrük işçiləri dərhal saxladı,
Sumkaları alıb yolu bağladı.
-Sumkalar iridir,sayları da çox,
Çıxınız bayıra, icazəniz yox!
Çıxaraq bayıra, ayıldım birdən,
Ürəyim titrədi, islandım tərdən.
Böyük sumkaları onlar“görmədi”,
İçərdə qalmağım uzun sürmədi.
Axı, mənim malım məscidin idi,
Pullar tikintiyə xəriclənirdi.
Uca Alalh mənə edərək kömək,
Bu bir həqiqətdir,oxucum,bilək!
Uzun illər keçib indi o gündən,
Getmir o hadisə gözüm önündən…
Bizi çox gözlədi əsas qəhrəman,
Qayıdaq geriyə,qalmasın pünhan.
Yəqub övladları xeyli getdilər,
Bir dağ ətəyinə onlar yetdilər.
Hər tərəf quraqlıq, gələn nə gedən,
Susuzluq onları salmışdı pərən.
Gəzib axtardılar nə çay, nə bulaq,
Dodaqlar susamış,olmuşdu çatlaq.
Quraqlıq torpağı etmişdi çat-çat,
Elə bil sönmüşdü burada həyat.
Uşaq, qoca ahı ürək dağlayır,
Heç yerdə su yoxdur,hamı ağlayır.

Vəhy mələyi bir an oraya yetdi:
“Dağda ağacını daşa vur!”-dedi.
Musa camaatı dağa gətirdi,
Orda böyük daşa özün yetirdi.
Camaat arxadan baxaraq ona,
Həzrət dua edir Yaradanına.
Sonra ağacını vuraraq daşa,
Allaha yalvarış getmədi boşa.
-Su!-deyə,qışqırdı həzrəti Musa,
Həmən daşa vurdu ağır bir əsa.
Daşların altından qaynadı çeşmə,
Su fəvvarə vurdu, axdı aləmə.
Camaat baxdılar yenə göz-gözə,
Gözüylə gördülər yeni möcüzə.
Dindarlar Allaha etdilər səcdə,
İnsanlar sevindi, gəldilər vəcdə.
Yəqub övladları oldular sirab,
Ehtiyat su alıb gətirdilər tab.
Başları üstündə ağ bulud topa,
Hərəkət edirdi hey lopa-lopa.
Onlara rast gəldi büdpərəst kəslər,
Hələ də bütlərə ümidlər bəslər.
Dedilər:-Ya Musa,büt düzəlt bizə,
Gözümüzlə görək, gələk üz-üzə.
Həzrət əsəbləşib dedi:-Nadanlar!
Allah möcüzəsin görüb dananlar.
Gördünüz ki firon boğuldu suda,
Ölümdən qurtulduz orda dəryada.

Açıq dəlilləri edirsiz inkar,
Şeytan istəyini sevirsiz aşkar.
Siz necə bütlərə edərsiz iman?
İbrahim dininə olasız düşman?
Ağsaqqallar susdu,kipriklər endi,
Soyuq tər bürüdü, üzə ələndi.
Ancaq ki, ürəklər xəyala daldı,
Gözləri bütlərdə, daşlarda qaldı.
Çünki uzun illər bütlərlə qalmış,
Bütlərə sevgini ürəyə salmış.
Əqidə dəyşilir, ürəklər yaman,
Xaric İbrahimdi, daxili şeytan.



# Musa Peyğəmbərin Tur Dağına Getməsi

-Allahını göstər ya Musa, bizə!
Deyə, camaatı gəldilər üzə.
Möhkəm olmq üçün onlarda iman,
Seçdi yetmiş nəfər ağsaqqal insan.
Harunu qoyaraq yerində rəhbər,
Getdi Tur dağına, sübh çağı, səhər.
Bəhsə girmişdilər bəzi təpə, dağ,
"Musa hansımıza gələcək qonağ?".

Bir uca dağ dedi:-Mənəm ən uca,
Sizlərin içində ağsaqqal-qoca.
Vəhy gəldi Musaya,eşitdi haman:
"Çıx alçaq təpəyə, orada dayan,
Hansı ki,öyünmür, dayanıb fəqir"
Musa o təpəyə çıxaraq, deyir:
-İlahi, məqsədim görməkdi səni.
-"Bir bəşər ğvladı görmməz məni.
O hündür dağa bax, qalırmı yerdə?
Əgər qalarsa dağ, görərsən sən də".
Bir anda dağ yandi, nura boyandı,
Nurun zərbəsindən dağ parçalandı.
Daşlarla torpaqlar sovruldu göyə,
Zəlzələ baş verdi, keçdi iliyə.
Musa bihuş oldu, yıxıldı yerə,
Ayılıb yalvardı Pərvərdigarə.
Musa anladı ki, Allah görünməz,
Yaxını, uzağı onun bilinməz.
Qırx gün Tur dağında etdi ibadət,
Öyrəndi Allahdan dünya, axirət.
Həzrəti Musaya səmavi bir din,
Allah etdi ona Tövratı təlqin.
Çoxlu lövhələrdə əksini tapdı,
Şəriət elmini ürəyə yapdı.
Əldə lövhələrlə qayıtdı geri,
Allah bildirmişdi ona Samiri.[60]
Musa Tur dağına gedəndən bəri,
Aldatmış tayfanı,dönmüş gözləri.

Samiri qızıldan bir büzov çatmış*,
“Müqəddəs torpaq”ı içinə atmış.
Mövzudan kənara çıxaq, camaat,
Dəryadan keçəndə ağ qanadlı at.
Yəqub övladları çıxdı salamat,
Fironla ordusu tapmadı nicat.
Samiri ağ atın dırnağı altdan,
Torpağı özüylə almış o vaxtdan.
Bax indi o torpaq eyləyir fəqan,
Qızıldan buzovu dəbərdir, inan.
Buzovun heykəli səs salır,böyrür,
İnsanlar qorxuyla buzovu süzür.
Samiri deyir ki:-Öküz,məbuddur,
Yəqub övladının Allahı budur!
Harun çox desə də, batmadı sözü,
Yəqub övladının“kor”oldu gözü.
Həzrəti Musaya olmuşdu əyan,
Alnında damarlar vurur durmadan.
Musa dağdan enir, tələsik gedə,
Görür ki, camaat edirlər səcdə.
Buzovun önündə durub çox insan,
“Allahımız”-deyə edirlər fəqan.
Peyğəmbər görərək qopartdı şivən,
Bəni-İsrailə azaldı güvən.
Qardaşı Harunun tutdu saçından ,
Qışqırıb ağladı, vurdu qıçından.
-Bəni-İsraili niyə boş qoydun?!
Niyə Samirinin felinə uydun?
*-düzəltmək- mənasında

Harun tir-tir əsdi:-Atmadım səni,
Onlar istəyirdi öldürsün məni.
-Samiri, sən niyə belə iş gördün?
Niyə dinimizi şeytanla  hördün?
Nə tez yaddan çıxdı həqiqi Allah?
Şeytani-məlunla qazandın günah.
Allahın əzabı gözləyir hər an,
Uzaqlaş buradan,yaramaz insan!
Qızıldan heykəli yandırdı Həzrət,
Külünü göylərə səpdi cəmaət.

## Tur Dağında Zəlzələ Baş Verir

Kitab nazil oldu, sevindi Həzrət,
Onlara Allahdan yetdi Risalət.
Tövrat adlanırdı səmavi kitab,
Bəxş etdi İlahi, sevindi əshab.
Ancaq ki bir çoxu olmadı rahat,
"Necə nazil oldu onlara Tövrat?"
Qəlbləri həmişə narahat oldu,
Onların içinə şər- şübhə doldu.
-Allahı ya Musa,sən göstər bizə,
Allahla danışaq, gələk göz-gözə.
Yetmiş ağsaqqalı çağırdı Musa,
Hamının əlində vardı bir əsa.
Musa bilirdi ki, görünməz Allah,
Ancaq başqa yolu qalmamışdı,ah!

Birdən gözlənilməz hadisə oldu,
Tur dağı titrədi, bənizlər soldu.
Yuxarı sıçradı, daş -qaya aşdı,
Torpaq tir-tir əsdi, ayaq dolaşdı.
Ürəklər dayandı, huş getdi başdan,
Allah nəfəslərin kəsdi bu başdan.
Peyğəmbər əlini qaldırdı göyə:
-Allahım rəhm eylə bu əhaliyə.
Səndədir ixtiyar ,sənsən yaradan,
Ən çətin bir anda qurtaran dardan.
Günahından keçdi, verdi yenə can,
Həyata qaytardı, ötdü həyacan.
Anladılar onlar, Allah laməkan*,
İlahini kimsə görməz heç zaman.
Qayıtdılar Turdan, gəldilər evə,
Ayaqlar əsirdi, itmişdi qüvvə.
Söz aldı tayfadan orada Həzrət,
“Tövrata edərik hər vaxt itaət”.
Görsələr də onlar çoxlu möcüzə,
Peyğəmbərlə yenə gəlir üz-üzə.
Çünki batinləri deyildi möhkəm,
Onları bezdirdi bu həyat, aləm:
-Səlva əti bəsdir, mədə usandı,
“Məni”toplamaqdan əlimiz yandı.[61]
Allahına deynən yetirsin soğan,
Paxlalı bitkilər, həm də badımcan.
Peyğəmbər ərz etdi:-Misirə gedin,
Bax orda bunları tədarük edin.
*-görünməz

“Allahımız”sözün demədi, qövüm,
Narazılıq salır, göstərmir dözüm.
Bağışladı Allah, günahdan keçdi,
“Gözü kor”bəndənin günahın biçdi.
Vəhy gəldi Musaya, gülərək gözlər,
Peyğəmbər sevindi, gül açdı sözlər.
Məbəd tikmək üçün aldı sərəncam,
Musa da Haruna verərək əncam.
Allah tikintiyə verdi bərəkət,
Dindarlar işləyir, etmir şikayət.
Şümşad ağacından ucalmış divar,
Döşəmə üstündə xeyli dəri var.
Qızıl bir günbəzə qoyulmuş Tövrat,
Mələk simasından düzəlmişdi taxt.
“Tabuti -Səkinə” adlandı günbəz,
Məbədə deyildi-“Beytül-müqəddəs”.
Məbədin rəhbəri seçildi Harun,
Sonra da övladlar olacaq sorun.

# Bəni–İsrail Qırx İl Sinan Yarımadasında Qalmağa Məhkum Edilir

Yəqub övladının vətəni Kənan,
Fasiqlər əlində qalıbdır yaman.
Tayfa Əmaliqə orda köç salıb,
Bəni-İsrailli kənarda qalıb.

Vəhy gəldi Musaya:“Geriyə alın,
Vətən torpağında Tovratla qalın”.
Bəni-İsraili yığdı Peyğəmbər,
Allahın əmrindən verərək xəbər.
Kənana göndərdi sirli kəşfiyyat,
Bəd xəbərlə gəldi, dilləndi o zat:
-Onlarla vuruşmaq olacaq çətin,
Hamı ucaboylu, qüvvətli, mətin.
Qələbə müjdəsin Musa versə də,
Allahın köməyin o, bildirsə də.
Döyüşməyi inkar etdi camaat,
Xudanın əmrindən çıxdılar,heyhat!
Həzrət çox desə də, olmadı əməl,
“Xudanla get döyüş!”-etdilər cəhəl.
Yusif peyğəmbərin nəslindən olan,
Yuşa bin Nun oldu Musayla qalan.
Musa peyğəmbərə çıxaraq qahmar,
Allahın əmrinə oldu tərəfdar.
Yəqub övladları söylədi:-Gedin!
Müqəddəs torpağı siz xilas edin!.
Musa qəmgin oldu, gözləri doldu,
Ürək kədərləndi, yanağı soldu.
Başını qaldırdı açıq səmaya,
Xeyli dua etdi gözəl Xudaya:
-İlahi ailəm, qohum, qardaşım,
İxtiyarım çatan dostum, sirdaşım.
Mənə sadiq olan bunlardı ancaq,
Məni rədd edəni salginən uzaq.

Bəni-İsraili Həzrət qarğadı,
Sinay səhrasında qırx il saxladı.

## Sarı İnək Macərası

Günlərin birində, günəşli səhər,
Bir meyid tapıldı,artdı qəm-kədər.
Qatil yoxa çıxdı, olaraq pünhan,
Həzrəti Musaya gəldilər haman.
Allahın vəhhiylə  söylədi əlbət:
-Gedin inək kəsin!-Verdi məsləhət.
-Ya Musa, sən bizə lağmı edirsən?
Bizim adam ölüb, sən sevinirsən?
-İnəyin əzasın meyidə vurun!
Ölü diriləndə  canini sorun!
Qayıtdılar yenə,baxıb durdular,
İnəyin yaşını bir də sordular.
Təkrar qayıtdılar:-Bəs rəngi necə?
Hansı yaşda daha verər nəticə?
-Nə qoca, nə körpə, bir orta yaşlı,
Açıq sarı olsun, gözəl bir başlı...
Yetim uşaq vardı, ədəb-ərkanlı,
Yaşlıya hörməti, həm istiqanlı.
Atasın sevərdi,göstərər hörmət,
Onun hər sözünə edər itaət.
Bir gün atasına iş üçün gəldi,
Atası yatmışdı, geri düzəldi.

Xoş gəldi Allaha belə hərəkət,
Xoş gəldi ataya ədəb, mərifət .
Bağışlayır ona  sarı bir inək,
Oğlu gülümsəyir, sevinir ürək...
Camaat çox gəzir, onlara gəlir,
İnəyi görürlər, əhval yüksəlir.
Alırlar uşaqdan, qiyməti baha,
Kəsəndə gəlirlər dəhşətə daha.
Meyidə vuranda açılır gözlər,
Ölmüşdü,dirilir, dillənir sözlər.
Qatilin adını onlara deyir,
Əmisi oğlunu aşikar edir.

## Həzrəti Musanın Saleh Bir Adamla Görüşü

Tih səhrası orda, əzab,əziyyət,
Musa qarğamışdı, itmiş bərəkət.
Bəni-İsrailli görmüş möcüzə,
Yenə Peyğəmbərlə gəlir üz-üzə.
Çətin günlərində göz yaşı tökür,
Yaxşı günlərində din-iman sökür...
İlahi  Musaya verməkçün hikmət,
Zehin açıqlığı,məntiq və zəhmət,
Yuşa ilə evdə əyləşən zaman,
Vəhy aldı, sevindi ürəyi haman:
“Dəniz sahlinə gediniz bu vaxt,
Gözləyir o, sizi, olunuz sərvaxt.

Ondan bəzi sirlər öyrənməlisən,
Daha da diqqətli olmalısan sən”
-O saleh bəndəni haradan tapım?
Kimdən xəbər alım, nə işlər yapım?
Vəhy gəldi Həzrətə Allahdan yenə:
“Dərya qovuşanda  yetişər sənə”.
Peyğəmbər Yuşanı etdi xəbərdar:
-Gün çıxmamış yola çıxacaq onlar.
Sübh tezdən düşdülər yolçular yola,
Yuşa xurcununu atmışdı dala.
Xurcunda var idi təzə bir balıq,
Yolu göstərəcək onunla Xalıq.
Musa yol dostuna tapşırdı ,həmən:
-Balıq diriləndə de, tez bilim mən!
Dəniz sahiliylə xeyli getdilər,
Dərya qovuşana onlar yetdilər.
Musa yorulmuşdu,uzanıb yatdı,
Gur yağışlar yağdı, yeri islatdı.
Su xırda arxlarla dənizə süzdü,
Balıq da dirildi, o səmtə üzdü.
Musa oyanaraq durdu ayağa,
Xeyli yol getdilər yenə uzağa.
Peyğəmbər söylədi:-Yenə əyləşək,
Sonra yolumuzun izinə düşək!
Tez dilləndi Yuşa təqsirkar kimi,
Etiraf edərək səhvin səmimi:
-Leysan yağış yağdı, balıq dirildi,
Unutdum deməyi, yuxum gərildi.

Musa gülümsədi, tələsik dindi:
-Yenə həmin yola çarıq geyindi.
Gəldilər yağışın yağdığı yerə,
“Bəlkə qismət ola, kişini görə”.
Yağış çoxdan kəsib,hava dəyişib,
Gördülər bir kişi orda əyləşib.
Musa salam verdi,edərək hörmət,
Kişi salam aldı, göstərdi diqqət.
Dedi:-Musa mənəm,İmrandı atam,
Odda alışmayan İbrahim babam.
-Bəni-İsraildə bir Peyğəmbərsən!
-Sən bu məlumatı hardan bilirsən?
-Kim göndərdi səni,O, mənə dedi,
Sənin kimliyini həm bəyan etdi.
Dedi:-Sizə gəldik, öyrənək hikmət,
Dedi:-Danışıram qoyuram bir şərt.
Mənimlə yoldaşlıq ağır, çox çətin,
Savadın zəifdir, deyilsən mətin.
Mən batində arayıram həqiqət,
Sən isə xaricə edirsən diqqət.
-Söz verirəm sənə,olmaram əngəl,
Sualımla yorub etmərəm cəhəl.
Səyahətə çıxdı üç nəfər yoldaş,
Gəmiyə mindilər orada birbaş.
Saleh kişi dərhal gəmini deşir,
Musa əsəbləşir ,əhval dəyişir:
-Gəmini deşərək düz iş etmədin,
Batırmaqda nədir axı məqsədin?

-Sənə dedim axı, səbirsizsən sən!
-Bağışla bizləri,düz etmədim mən.
Gəmidən düşdülər, xeyli getdilər,
Gəlib bir uşaqa onlar yetdilər.
Öldürdü uşaqı o, saleh kişi,
Musanın əsəbdən sındı ön dişi:
-Məsum bir uşağı öldürdün nahaq!
Günaha bulaşdın,əldən getdi haqq!
Saleh kişi dərhal bildirdi giley:
-Özün də bilmədən danışırsan hey.
-Bir də işlərinə söyləsəm irad,
Cəzaya razıyam,etmərəm fəryad.
Yenə razılaşıb xeyli getdilər,
Böyük bir şəhərə gəlib yetdilər.
Pulları qurtarmış, yox idi yemək,
Minnətlə, xahişlə dilədi çörək.
Nə yemək verildi, nə də ki, otaq,
Qaldılar bayirda, olmadı yataq.
Şəhər kənarına gəldi yolçular,
Uçmağa hazırdı köhnə bir divar.
Pulsuz, təmənnasız etdilər təmir,
Musa yenə dözmür pozulur səmir:*
-Havayı işlədik, alaydıq gərək,
Pulumuz olsaydı yeyərdik çörək.
Saleh kişi durdu, getmədi daha,
Üzünü Musaya tutdu birdaha:
-Dostluğumuz  bitdi,bura qədərdi,
Sizinlə yoldaşlıq artıq hədərdi.
*-sükut

Ayrılıqdan əvvəl gəl izah edim,
Sonra da yolumla aramla gedim.
Dəniz quldurları gözləyirdilər,
Gəmini aparmaq istəyirdilər.
Deşməklə gəmini biz xilas etdik,
Orda olanların hayına yetdik.
Uşağa gəlincə olardı kafir,
Atası, anası imanda mahir.
Sonralar onlara verərdi əzab,
Qanlar axıdardı,ağlardı əshab.
Uçulan divarın altı xəzinə,
Atadan qalmışdı yetimlərinə.
Ərsiyə çatanda qismət olacaq,
Hələliks bu sirri  gizli qalacaq.
Allahın əmriylə etdim hərəkət,
Allah işimizə verdi bərəkət.
Dünyanı nizama Allahdır salan,
O,həm yetirəndi həm də ki,alan.
Hər şeyi əvvəldən o,ölçüb biçir,
Şeytan əməllərin qarşısın kəsir.
Bir anlıq nizamı pozulsa dünya,
Həyat alt-üst olar, çevrilər suya!.
Adını soruşdu ondan Peyğəmbər,
Musanın üzünə baxdı gülümsər.
-Həzrəti Xızıram ya Musa!-dedi
-Allahın quluyam!-yenə söylədi.
Arxada həzin səs qulağa axdı,
Musa,Yuşa həmən oraya baxdı.

Başları dönəndə yox idi kimsə,
Onu düşündürdü olan hadisə.
Musa anladı ki, elə sirlər var,
Mənasını ancaq İlahi anlar.
Qayıtdı geriyə, qəlbində hikmət,
Beyni işıqlandı, verildi zinət.

## Musa Peyğəmbərin Xəbərsiz Yoxa Çıxması

Təbliğat edirdi Tovratı hər gün,
Bəni- İsrailə çatdırır düzgün.
Dəyişdi zəmanə, dəyişdi dövran,
Qırx ilin tamamı oldu bu zaman.
Harun da ömrünü vuraraq başa,
Əlvida söylədi qohum-qardaşa.
Oğlu İzhar qaldı, tarixdən xəbər,
Beytül-Müqəddəsə o,oldu rəhbər.
Misirdən gələnlər dünyadan getmiş,
Cəsurlar yaranmış, köhnələr bitmiş.
İndi müharibə etməyə dəyər,
Çünki yetişmişdi orda igidlər.
Musa tayfasını etdi səfərbər,
Udin tərəflərə  düzəndi səfər.
Müharibə edib gələrək qalib,
Bir neçə şəhərə oldular sahib.
Ömür çatdığını duyaraq Həzrət,
Yığdı tayfasını etdi nəsihət:

-Allah kitabından düşməyin uzaq,
Getməsin aradan, içimizdən haqq.
Əməl edənləri  alqış eylədi,
Əməl etməyənə qarğış eylədi.
Həzrətin sözlərin tarixçi yazır,
Beytül-Müqəddəsə verilir hazır .
Həzrəti Yusifin nəslindən Yuşa,
Xəlifə seçdirdi, keçirtdi başa.
Bəni-İsraili tərk etdi Həzrət,
Yaxındaki dağa etdi hərəkət.
Kənan diyarına o ,xeyli baxdı,
Vətən torpağına gözləri axdı.
Həzrəti Musadan çıxmadı xəbər,
Yüz iyirmi yaşda getdi bixəbər.
Məzar bilinmədi, gizlədi torpaq,
Xeyli axtarıldı, nə iz, nə soraq.
Peyğəmbər gözlərdən əbədi itdi,
Şərəfli həyatı beləcə bitdi.
 Qısa bir fasilə, dəyişdi Tövrat,
Özlərinə sərfi tapdılar, heyhat.
Telmud adlı kitab yazıldı,qaldı,
Allahın dinini hörmətdən saldı.
Yəhudi olanlar  sayıldı  üstün,
Şüdd etdi,yayıldı irqçilik bütün.

# Həzrəti Yuşa İbn Nunun Əhvalatı (s)

Yuşa tayfasına rehber seçildi,
Bəni-İsrailə göstəriş gəldi.
Udin sahilinə gəldilər bivaxt,
Kənana dönməyə gözlədilər vaxt.
Çayda yüksəlmişdi xeyli gur sular,
O taya keçməyə qorxdular onlar.
Yuşa istəyərək Allahdan kömək,
Vəhy gəldi Yuşaya,oxuyaq, görək:
“Tabut-Səkinəylə  giriniz suya,[62]
Bu vaxt su dayanar, keçin,o taya”.
Yəqub övladları girərək çaya,
Udin çayı susdu, axmadı, aya!
Bəni-İsrailə açıldı düz yol,
Kənana keçdilər,məhsulu bol-bol.
Bu günləri onlar etdilər bayram,
Fətir bişirdilər ,yandırdılar şam.
Pasxa adlanırdı bu Fas bayramı,
Məmnun olmuşdular burada hamı...
Misirdən Kənana qirx il yol etdi,
Quynun səmtinə cənazə “yetdi”.
Həmən quyuydu ki, onun başında,
Yusif atılmışdı doqquz yaşında.
Yusif dəfn edildi quyu önündə,
Yuşa da qocalmış, getdi o gündə.128-yaş
*-H.Yusifin nəslindən olan



# İşmuil Peyğəmbər (s), Talut Və Calutun Hekayəti (Hükəm Dövrü)

Həzrəti Yuşa da edərək vəfat,
Cansıxıcı oldu yaşamaq həyat.
Hakim seçilmədi dörd yüz əlli il,
Daha ağırlaşır  həyat ilbəil.
Hükəm dövrü adlanırdı bu illər,*
Haqsızlıq şüdd etdi, susaraq dillər.
İşmuil peyğəmbər gəldi bu zaman,
Bir hakim istədi xalqına haman.
*-hakimiyyətsizlik

Talutu onlara bildi məsləhət,[63]
Qəbul etmədilər onu camaat.
Çünki kasıb idi onun atası,
Yetməzdi şahlığa pulu-parası.
İşmuil peyğəmbər edərək israr,
Talutu hökmüdar o,verdi təkrar.
Camaat söylədi:-Hökmüdar gərək,
Nişanə göstərsin, bizlər də görək.
Həzrəti İşmuil:-Yaxın bir zaman,
Musayla Harunun sandığı haman.
Qayıdar sizlərə bunu görərsiz,
Keçər əlinizə, şadlıq edərsiz.
Sandığın haqqında qısa məlumat,
Beytül-Müqəddəsə verilmiş,o vaxt.
Bəni-İsrailin zəif bir halı,
Fələstin elinin gəzəl əhvalı.
Məğlub edildilər, əzil ha əzil,
Sandıq aparıldı, oldular rəzil.
Bəni-İsraili etməkçün təhqir,
Qoyub büt altına etdilər əsir.
Ertəsi gün görür Fələstinlilər,
Kəsilmişdi bütdə ayaqlar, əllər.
Sandıq üstə qalxıb,altda isə büt,
Bu sanki onlara verdi bir öyüt .
Xəstəlik çoxaldı, artaraq zilə,
Düşdü bu möcüzə dillərdən-dilə.
Arabaya qoyub qoşdular inək,
"Görəsən səhrada hara kedəcək?"

İnəklər adamsız düzəldi yola,
Ya canavar  yeyə, yada ki, qala...
Həzrət bildirmişdi:“Gələcək sandıq,
Zəfərlər çalmağa xoş xəbər aldıq”.
Bəni-İsrailə sübh çağı, səhər,
Tabut-Səkinədən verdilər xəbər:
-Beytül-Müqəddəsin özünə yaxın,
Sandıqlı araba gözləyir, baxın!
Həzrətin vədəsi yerinə yetdi,
Ayrılıq çağları üzüldü, bitdi.
Tabut-Səkinənin mənasın verək,
Səkinə-sükunət, sakitlik demək.
Taluta inandı onlar bu zaman,
Onun şahlığına olmadı yaman.
Hükəm dövrü orda çataraq başa,
Talutdan başladı, yetdilər şaha.
Bəni-İsraili yığdı bir yerə,
Cihad elan etdi bütpərəstlərə.
Gərəkdir ki, onlar olaydılar cəm,
Olmadı Talutla hamısı həmdəm.
Çətinliklə Talut yaratdı ordu,
Ordu hazır oldu, səf çəkib durdu.
Talut elan etdi hamıya erkən,
-Öndəki o çaydan sizlər keçərkən.
Bir ovucdan artıq su içməyin siz,
Əgər içərsəniz bizdən deyilsiz.
Allah imtahana çəkir sizləri,
Qələbə gözləyir inan, bizləri!

Dözmədi əsgərlər, içdilər sudan,
Sudan içməyənlər oldular udan*
Düşmən qabağında sarsıldı ürək,
Onlarda çoxluğu onlar görərək.
Xeyli qəmgin oldu, görərək Talut.
Fələstin tərəfdən sərkərdə Calut,
Çıxaraq qoşunun önünə bu dəm:
-Çıxın qabağıma, rəqib istərəm!
Bəni-İsraildən olmadı bir kəs,
Calutla döyüşə çıxmadı bir səs...
Bir az uzaqlaşaq döyüşdən, əşi,
Şəhərdə var idi qoca bir kişi.
Həmən o kişinin dörd oğlu vardı,
Allaha inanar, düzgün yaşardı.
Bir gün eşitdi ki, verilib cihad,
Üç oğul göndərdi davaya o, şad.
Dördüncü oğlunu bürüdü kədər:
-Ay ata məni də davaya göndər.
Axırda əlacsız qalaraq  o, da,
Üzünü tutaraq  yenə  Davuda:
-Müharibə üçün sən xeyli cavan,
Hələ ki uşaqsan, yetişməyib can.
Ancaq qardaşlara sən apar yemək,
Ordan xəbər gətir, məlumat bilək!
Davud sevinərək düzəldi yola,
“Döyüşü yaxından görə nə ola”.
Tələsə-tələsə çatdı bir düzə,
Ordu dayanmışdı orda üz-üzə.
*-imanlı

Pəhləvan birisi  edir gərdişi:
-Çıxsın irəliyə, yoxmu bir kişi?!
Davud soruşaraq onun ad-sanın,
Öyrəndi Calutun şöhrətin-şanın.
Calut qışqıraraq edirdi təhqir,
Bəni-İsrailli durmuşdu həqir.
Özü hey özünü tamam öyürdü,
Bəni-İsrailli gözün döyürdü.
Davud sapandını alaraq ələ: [64]
-Vuruşaram onunla, gözləyin hələ.
Meydanda hərəkət artaraq haman,
Talut da Davudu gördü bu zaman.
Bildi ki, Həzrətin dediyi cavan,
Calutun qətlinə verəcək fərman.
Atı, qılıncını edərək təklif,
Qılıncı rədd etdi novcavan arif.
Davud ki piyada meydana getdi,
Ümidi sapanda, özünə yetdi.
Calut onu gördü, çəkdi qəhqəhə,
Gülüşü çox baha düşdü əbləhə.
Davudun sapandla tulladığı daş,
Yıxdı yekəpəri torpağa birbaş.
Onun qılıncıyla başını kəsdi,
Qələbə bayrağı ucaldı, əsdi.
Calutun qoşunu düşdülər pərən,
Davuddu Calutu torpağa sərən.
Bəni-İsrailə ucalıq, gövhər,
Fələstin elində çaldılar zəfər.

Onun igidliyi yetirdi şöhrət,
Bəni-israildə qazandı hörmət.
Talut, öz qızını verərək ona,
Dost bildi Davudu öz sarayına.
Gördü hər gün artır onun şöhrəti,
Kin bəslədi ona Talut xəlvəti.

## Davud Peyğəmbərin Əhvalatı (s)

İşmuil peyğəmbər edərək vəfat,
İlahi Davuda verdi nəbüvvat.*
Davudun hörməti daha da artdı,
Talutun sa kini zirvəyə çatdı.
Allahın elçisi əziz Peyğəmbər,
Gördüyü işləri qoxuyur əmbər.
Bir zamanTalutun ov düşərgəsi,
Davud çox təəccübə saldı hər kəsi.
Talutun çadrına ox düzüb getdi,
Öldürmür Talutu, xəbərdar etdi.
Talut sa düşünür, qururdu plan,
Davudu çalmağa gəzirdi hər an...
Əmaliqə ilə çətin bir vuruş,[65]
Talut, oğlanları gətirmir duruş.
Həlak olur onlar,Davud sa hakim ,[66]
Gözəl hökmdardı, ürəyi həlim.
Ölkə möhkəmləndi,ucalaraq gah,
Zəburi- Şərifi göndərdi Allah.[67]
*-Peyğəmbər

Qudsi-Şərif oldu onlara paytaxt,
Ağıllı rəhbərdi, nəsibində baxt.
İbadət edəndə yalvarardı, hey,
Davudun dilində yox idi giley.
Günlərin birində şam ibadəti,
Allah imtahana çəkdi Həzrəti.
İki nəfər insan, üz-gözü bəyaz,
Gəldilər otağa dilində niyaz.
İbadət vaxtında belə bir zaman,
Bir kimsə girməzdi otağa bu an.
Ona görə Davud oldu narahat,
Ölümün düşündü, gözü qaldı mat.
Dedi:-Ya Peğəmbər,bir sualım var,
Çətin işlərimdən qalmışam naçar.
Bir camışım vardır,özüm də ağ baş,*
Onu da əlimdən alır bu qardaş.
Doğsan doqquz camış evini bəzər,
Yüz olması üçün mənimkin istər.
Həzrəti Davud da, etdi məzəmət,
İkinci qardaşa verərək töhmət.
Başını qaldırdı, görmədi bir kəs,
Demək,mələklərmiş,ağladı əbəs.
Əlini qaldırdı uca Dərgaha,
Xeyli yalvararaq gözəl Allaha:
-Tələsik bir anda çıxartdım qərar,
Dinləmədim onu,oldum günahkar.
Allaha yalvardı, oldu peşiman,
Ona bir dərs oldu belə imtahan.
*-yaşlıyam

Həzrət bağışlandı, silindi günah,
Dəmiri əzməyi bəxş etdi Allah.
Davud peyğəmərə halal bir sənət,
Dəmir zireh satır, çəkirdi zəhmət.
Böyük bir hökmüdar olsa da özü,
Xəzinə malına baxmazdı gözü.
Öz əməyi daha əzizdi ona,
İbadət edərdi hey yana-yana.
Bəni-İsraili  xəstəlik alır,
Yolxucu bir virus möhnətə salır.
Yığdı camaatı yenə Peyğəmbər,
Məsçidi-Əqsaya həmən gəldilər.
Xeyli dua etdi yenə Allaha:
“Taun xəstəliyi yox olsun daha”.
Allah möminlərin sözün eşitdi,
Xəstəlik yox oldu, silinib getdi.
Möminlər orada etdilər söhbəd:*
“Məsçidi-Əqsada ucalsın məbəd”.
Hazırlıq işinə başladı onlar,
Ancaq İlahinin öz məqsədi var.
Vəhylə Peyğəmbərə edildi xəbər,
Oğlu Süleymana qalırdı işlər.
Çox keçmədi etdi həyata vida,
Həzrəti Davuda deyək, əlvida!.
*-söhbət



# Süleyman Peyğəmbərin Əhvalatı (s)

On iki yaşına çatmış Süleyman,[68]
Özünə hamını etmişdi heyran.
Ata ölümündən keçdi bir müddət,
Məbəd ucaltmağa verdilər diqqət.
Yeddi il əməyi verərək bəhrə,
Məscidi-Əqsada sevindi çöhrə.
Qızıldan məbədə verilmiş zinət,
Tabuti-Səkinə yerləşmiş, əlbət.
Yaxında ucaldı yeni bir saray,
Gecə işıq saçır sanki parlaq ay.
Xarici qızıldan, daxili büllur,
Görənlər deyirdi:“Yəqin ki,sudur”
Ölkəni dirçəltdi,bağ-bağat saldı,
Dini-Musa yenə qələbə çaldı.

Bütlər yox edildi,məbəd çoxaldı,
Allahın varlığı  qələbə çaldı.
Allah peyğəmbərlik verərək ona,
Quşların dilini həm Süleymana.
Cinlər-əcinnələr edilərək ram,
Süleymana keçdi ixtiyar tamam.
Vəhşi heyvanlar da çökərək dizə,
Süleyman önündən keçdi diz-dizə.
Ən uzaq ölkələr tabe oldular,
Musanın diniylə ellər doldular.
Yeddi yüz arvadı, üç yüz kənizi,
Ram etdi özünə gölü, dənizi.
Bir gün o,quşları yığdı bir yerə,
Məşvərət eylədi, danışdı hərə.
Hud-hudu görmədi, soruşdu həmən: [69]
-Bu quş gözlərimə görünmür nədən?
Deməк, hökmüdarı o, saya salmır?
Mənimlə görüşü vecinə almır?
Onu tutub tökəcəyəm qanını,
Tikə-tikə edəcəyəm canını.
Ancaq ki, səbəbin göstərsə əgər,
Onda günahından bəlkə də keçər.
İki-üç gün keçdi,Hud-hud göründü,
Bəd xəbər eşitdi, qanad süründü.
Gələrək saraya günahkar, peşman,
Ürəyi çırpınır can qorxusundan.
Süleyman söylədi:-Hardasan sən?
Bəlkə sən əmrimə üz çevirmisən?!

Hud-hud quşu dindi,danışdı yavaş,
Harada gəzdiyin anlatdı birbaş:
-Çox uzaq ölkəyə səyahət etdim,
Səhralar,dərələr, meşələr yetdim.
Səba ölkəsində qəribə iş var,[70]
Günəşə sitaiş edirlər onlar.
Hökmüdarı qadın, Bilqeyis, adı,
Təxti-tacı gözəl, sevməyir yadı.
İki göz istəyir taxtına baxsın,
Əvəzsiz tacina günəş də axsın.
Min cürə zinətlər vurub taxtına,
Şahlıq quşu uçub qonub baxtına.
Sonra şahı gördüm, hamıdan gözəl,
Gözləri mavidir, yox ondan gözəl.
Danışanda dür tökülür sözündən,
Ağılda, kamalda yoxdur özündən.
Həzrət əsəbləşdi, narahat oldu,
Onun yanaqları bir azca soldu.
-Hələlik get dincəl,gələrsən tezdən,
Məktub aparарsan, o şaha bizdən!.
Hud-hud sevinərək saraydan çıxdı,
Hey sevinc yaşları gözündən axdı.
Axşam rahat yatdı, gəldi sübh çağı,
Artıq axsamırdı əli- ayağı.
Alaraq məktubu uçdu ley kimi,
Təki razı salsın böyük hakimi.
Səba ölkəsinə axır ki çatdı,
Şahın sarayına su kimi axdı...

Bilqeys durmuşdu səhər sübh çağı,
Təmiz hava alır, süzürdü bağı.
Pəncərə açıqdır,günəş boylanır,
Hökmüdar günəşi allahı sanır.
Pəncərə önündə duraraq baxdı,
Quşcuğaz məktubla içəri axdı.
Məktubu görərək o, gözəl pəri,
Diqqətlə oxudu o, sətirləri.
Qaşı düyünləndi, bürüdü kədər,
Bir daha Hud-huda yetirdi nəzər.
Vəzir, vəkilləri cəm etdi ora,
Məktubu oxudu tamam onlara.
Fələstin elindən yazır Süleyman,
Allahın adıyla deyir bu zaman:
"Tövsiyyə edirəm, qaçın vuruşdan,
Düşünmə döyüşü,deyim bu başdan!
Həqqə təslim olun,gəl həqqə tərəf,
Günəşə səcdəylə olma naxələf.
Günəşi, ulduzu, göyü xəlq edən,
Onları yandıran, sonra son verən.
Bütün məxluqata can verən, alan,
Allahdır hamının qeydinə qalan.
Ayın da gecələr şöləsi axır ,
Ulduzlar zirvədən bizlərə baxır.
Fəsillər dəyişir, dəyişir zaman,
İllər bir-birini hey qovur haman.
Bu gün şahlıq edən sabahı torpaq,
Həmişəlik deyil yaşıl bir yarpaq.

Bunların nizamın Allahdır yazan,
Ən xırda zərrəni yaradan, pozan.
Yoxsa külli aləm xar olub gedər,
Allahın izniylə yaşayır bəşər.
O göz ki,bunları anlamır nədən?
Bəlkə içinizdə varmıdı bilən?
Baxar kor deyirlər onlara, inan,
Günahlar içində boğulur insan.
Salonu bir anlıq aldı sükunət,
Sonra da başlandı orada söhbət:
-Bizim öz dinimiz, allahımız var,
Günəşə sitaiş edib babalar.
Yəmən ölkəsindən danışdı vəzir,
Eyni söz salonda dolaşıb gəzir.
Axırda son sözü dedi, hökmüdar,
Heyət göndərməyə o, verdi qərar.
Sınamaq istədi Peyğəmbəri, şah,
Hər şeyin gözəlin biləndi Allah.
Vermək üçün ona orada bəxşiş,
Saray vəzirinə verdi göstəriş:
-Qəbul edilərsə deyil Peyğəmbər,
Demək,hökmüdardır,vuruşa dəyər...
Səba ölkəsindən bir xeyli əyan,
Fələstin elinə oldular rəvan.
Budur,büllur saray uzaqdan baxır,
Onu görənləri yandırıb -yaxır.
Qapıda keşikdə durub cin,pələng,
Əmrə müntəzir, başlayarsa cəng.

Uzaqdan gördülər bunları,dərhal,
Qorxudan dəyişdi üzlərində hal.
Sarayın məmuru verdi təsəlli,
Həzrətlə görüşün tapıldı həlli.
Peyğəmbər əyləşmiş təxti-rəvanda,
Belə təxt görməmiş onlar cahanda.
Şirlərlə pələnglər düzülmüş səf-səf,
Cinlər yan tərəfdə gözləyir hədəf.
Əsgərlər dayanıb əmrə müntəzir,
Əyan- əşrəf  güncdə ,ayaqd gəzir.
Quşlar sakit-sakit vururlar dövrə,
Həzrətin yaninda qurublar çevrə.
Səba ölkəsinin əyan -əşrəfi,
Təəccüblə izləyir hər bir tərəfi.
Belə cah-cəlalı görməmiş onlar,
Təəccüb içindəydi orda əyanlar.
Utana- utana yaxın getdilər,
Həzrətə hədiyyə təqdim etdilər.
Peyğəmbər görərək şeyləri haman,
Qəbul etməyərək üzüldü yaman:
-Mənə hədiyyəmi bəxş edirsiniz?
Allahın verdiyi tükənməz,hədsiz.
Allaha inanın, bu mənə yetər,
Allahı inkarla olmayın betər.
Yoxsa ölkənizdən xaric edərəm,
Bir-bir hamınızı asıb-kəsərəm!...
Əyanlar qayıtdı yollardan kəsə,
Məlumat verdilər şah Bilqeyisə.

Həzrət Süleymana inandı,o can,
Səfərə çıxmağı düşündü bir an.
Bilqeyis dostluğa üstünlük verdi,
Ağıl dəryasından bir inci dərdi.

## Səba (Yəmən) Hökmüdarı Bilqeysin Süleyman Peyğəmbərin Görüşünə Getməsi

Ağıllı bir qadın, ürəyi qorxmaz,
Aslanın erkəyi,dişisi olmaz.
“Müharibə olsa onlar uduzar,
Səfərə çıxmasa ölkəsi batar.
Üz-üzə danışsa,dost olar,bəlkə,
Şahlar görüşərsə, qazanar ölkə”.
Bütün olanları düşünərək, şah,
Onların sirrindən olmaqçün agah.
Əyan, kənizlərlə səfərə çıxdı,
Xəbəri ellərə sürətlə axdı.
Həzrət Süleymana quşlar söylədi:
“Səba ölkəsindən şah gəlir”-dedi.
Həzrəti Süleyman etdi məşvərət,
Əyan- əşrəf, cinlər edildi dəvət.
Peyğəmbər onlara söylədi həmən:
-Şah gəlir görüşə Səba elindən.
Şəhər bəzədilsin, düzülsün çiçək,
Saraya baxanda görünsün gerçək.

Şah bura çatmamış taxtı da, gərək,
Sarayımda olsun,biz baxaq-görək.
Hansınız təcili gətirər bura?
Şah görək nə deyər bu olanlara.
-Gətirrəm o taxtı günəş çıxmamış,
Hələ siz yataqdan çölə baxmamış.
Deyə,bir cin dindi, hörmətlə baxdı,
Onun gözlərindən qığılcım çaxdı.
Peyğəmbər soruşdu imanlı şəxsdən:
-Ey Bərxia oğlu, nə düşündün sən? [70a]
-Lap indi gətirərəm, bir göz açınca,
Yerimdən durmadan, nəfəs alınca.
Saraya bir anlıq qoyuldu bir taxt,
Şahdan başqa orda hamı qaldı mat.
Həzrət istəyirdi, cin başa düşsün,
İmanlı insanın gücün düşünsün.
Həqiqətən taxtın hər yeri gözəl,
Baxanda gözləri qamaşdırır,ləl.
Mahir usta əli üstündə gəzmiş,
İncidən inci tək naxışlar əzmiş.
Dedi:-Taxt gözəldir,bəzyin daha,
Göstərək taxtını yenidən, şaha.
Əyanlar, ustalar əllərdə, alət,
Hökmüdar taxtına vurdular zinət.
Quşlar xəbər verdi, bildi Süleyman,
-Onlar uzaq deyil büllur saraydan.
Saray əyanları pişvaza çıxdı,
Onların üzündən gözəllik axdı.

Gəldilər saraya, daxil oldular,
Möcüzə gördülər,susub durdular.
Onları bəzədi sarayda rəğbət,
Gördülər sarayda əzəmət, hörmət.
Vəhşi heyvanarla bədheybət cinlər,
Əmrə müntəzirdi, göstəriş dinlər.
Yəmən şahı gördü belə  bir həyat,
Şaşırıb qalmışdı ,alnında çat -çat.
Hər şeylər qəribə gəlirdi şaha,
Taxtının oxşarı çaşdırdı daha.
Bilqeyis təmamən itirdi özün,
İstədi qışqıra, tez tutdu üzün
Təxtini görərək xəyala daldı,
Təxti-rəvanına baxaraq qaldı.
Həzrətin davranış,ciddi gözləri,
Onun söhbətləri, lətif sözləri
Dininə bağlılıq, İlahi bilgi,
Möcüzəli həyat, Allahdan vergi.
Vara həm dövlətə istəyi solmuş,
Allahın eşqilə ürəyi dolmuş.
“Quşların dilini o,hardan bilir?
Cinləri özünə necə ram edir?
Deməmk, Süleymandır Allah elçisi,
Tək Allahdır peyğəmbərin hamisi”.
Düşündü Bilqeyis, gördü bunları,
Getdi ürəyindən qorxu anları.
Süleymanın həqq yoluna inandı,
Onun sözlərinə ürəyi yandı.

Ziyafət bitərək,durdu hökmüdar,
Qonaq otağına keçdilər onlar.
Qızlar edirdilər onu müşayət,
Xidmətçi onlara göstərir xidmət.
Bilqeys bu zaman istədi girə,
Suyla qarşılaşdı o, birdən- birə.
Otağın içində düzəlmiş hovuz,
Hovuz kənarıda yanırdı “ulduz”.
Mavi sular dalğalanır-qaçışır,
İnsan gözü gözəllikdən alışır.
Hökmüdar paltarın qatladı dərhal,
Hovuza girməyə istədi bu hal.
Xidmətçi qızlardan biri tez dedi:
-Bu hovuz deyil ki,otaq mərmərdi.
Qonaqlar hamısı oldu xəbərdar,
Qonaq otağına keçdilər onlar.
Bilqeyis şah səssiz, şaşırıb qaldı,
Mərmərin altını gözləri aldı.
-Axı bunu necə yaradıb insan?
Altda su çağlayır, artır həyacan.
Ləpələr oynaşır, zövq verir şaha,
Belə bir mənzərə görməmiş daha.
Xidmətçi qız yenə verdi məlumat:
-Cinlər düzəldiblər bunu xeyli vaxt.
Bilqeys eşitdi, artaraq iman,
Səcdəyə əyildi Allaha haman:
-Allahım, bilmədən unutdum səni,
Əfv et günahımı, bağışla məni.

Əyan-əşrəf gördü, gətirdi iman,
Allahın önündə əyilərək can.
Həzrəti Süleyman xeyli şad oldu,
Onun yanağına göz yaşı doldu.

## Həzrəti Süleymanın Vəfatı

Günlər, aylar ötdü, illər dəyişdi,
Süleyman şahlığı sona yetişdi.[71]
Hər şeyin bir sonu, sonluğu,aya,
Yaranan gedəcək, fanidir dünya.
İstər hökmüdar ol, istərsə gəda,
Bir gün ömrümüzü verərik bada.
Dünyaya gəlirik verək imtahan,
Qiymətlər verilir bizə sonradan.
Qiyməti dəyişmək gec olur, inan,
Yaxşı əməlləri biz qazanmadan.
Firon da Allahlıq eşqinə düşdü,
Dəryanın içində suya büzüşdü.
Qarun var-dövlətə, sərvətə yetdi,
Birdən yer yarıldı, zülmətə getdi.
Burnunu dik tutub söyünmə, oyan!
Varıynan, puluynan öyünmə,oyan!
Allaha, qurana  ey nifrət edən!
Bir qətrə zərrədən yaranmısan sən.
Hər şeyin dünyada bir nizamı var,
Nizamsız kainat məhv olar, uçar

Sübhan Abasbəyli, kənara çıxma,
Danış Süleymandan, boş yerə axma!
Böyük bir hökmüdar,hər dilə hakim,
Adını həkk etmiş Qurani-Kərim.
Quşlarla danışar, onları dinlər,
Cinləri günlərlə işlədər,yenər.
Allah yox etməmiş heç nəyi ondan,
Ona üstünlüklər vermiş çoxundan.
Allahın elçisi, həm də hökmüdar,
Dünyanı yönəldən o,bir cahandar...
Bir gün o, cinləri işlədən zaman,
Söykənmiş əsaya, baxırdı bu an,
Cinlər hey qorxudan işləyir,baxır,
Onların gözündən ildırım çaxır.
Peyğəmbər dayanmış əlində əsa,
Cinlər də yol cəkir, batmışdı yasa.
Bu zaman pak ruhu canından çıxır,
Allah dərgahına qovuşur, axır.
Həzrət ayaq üstə çıxmışdı canı,
Cinlər sə işləyir,tökür tər,qanı.
Onlar bilmirlər ki, Süleyman yoxdur,
Cansız bir bədəni yanar bir oxdur.
Yaradan cinlərə anladır, yəni,
Bilməzsiniz sizlər Allah biləni.
Allah qarışqanı yetirdi bu dəm,
Əsanı deşdilər,çeynədilər həm.
Əsa ağırlığa dözmədi, sındı,
Həzrətin cəsədi yerə uzandı.

İndi bəlli oldu, ruh uçmuş göyə,
Yayıldı xəbəri şəhərə, köyə.
Cinlər başlarına döydülər yaman:
“Kaş ki, biləyidlər, ölmüş Süleyman!”
Sevindilər daha, gözləri gülşad,
İnsana xidmətdən oldular azad.
Mömin insanlar sa tökdü göz yaşı,
Getdi zamananın düşünən başı.

## Süleyman Peyğəmbərin Vəfatından Sonra Bəni İsrailin İki Yerə Parçalanması. Həzrəti İlyas və Həzrəti Əlyasın Əhvalatı (s)

Həzrəti Süleyman edərək vəfat,
Dəyişdi qanunlar, dəyişdi həyat.
Oğlu Rahbəam ki,keçdi hökmüdar,
Bəni -İsrailə oldu giriftar.
Dövlət parçalandı, qaldı ikiyə,
Bıcaq dirənmişdi artıq sümüyə.
“Yəhuda” adlandı dövlətin biri,
“İsrail” dövləti oldu digəri.
Qüdsi-Şərif idi birində paytaxt,
Tovrat əzizlənir, ucalmışdı taxt.
Tovrati-Şəriflə, əsayi-Musa,
Ziyarət edilir Məscidi-Əqsa.

İsrail hakimi, nacis Yürbəan,
Ziyarət etməyə qoymadı bu an.
Ölkəsində haman tikdirdi məbəd,
Məscidi-Əqsanın yolunda bir səd.
Şəriət, ehkamlar çıxaraq yaddan,
Bütpərəstlik yenə elədi tüğyan.
“Bəl”adlı bir bütü onlar “tutdular”,
Bir olan Allahı tez unutdular.
Allah möcüzəsin görsədə gözlər ,
Yenə də Allaha dəyişdi sözlər.
Onlardan yox oldu əqidə, iman,
Üzləri tez döndü uca Allahdan.
Allah Elçiləri təhqir edilir,
Musanın Tövratın yenə diddilir.
Dindarlar orada izlənir hər gün,
Ağlaşma çoxalır orda günbəgün.
Bəni-İsrailə rəhm edərək, ah,
İlyas peyğəmbəri göndərdi Allah.
Xalqını Tövrata edərək dəvət,
Xeyli möcüzələr göstərdi, əlbət.
İlyas peyğəmbərə oldular asi,
Olmadı onların abrı- həyasi.
Peyğəmbər inciyib oradan getdi,
Bərəkət kəsildi, xəstəlik yetdi.
Aclıq qılıncını çəkdi hər yerə,
Camaat diş atdı ölən kəslərə.
Bəni-İsrailli olaraq peşiman,
İlyası axtardı camaat haman.(s)

Allahın əmrini alaraq Həzrət,
Qayıtdı onlara, etdi mərhəmət.
Bir müddət Tövrata etdilər əməl,
Yaddan çıxarıldı daş bütləri "Bəl".
Dönük insanları dəyişmək olmaz,
Çox keçməz iç üzü açılar, qalmaz.
Dünya bəzəyinə satılar iman,
İmanlı öz dinin satmaz heç zaman.
Yenə peyğəmbərə çıxdılar dönük,
Ürəklər daşlaşmış, olmuşdu sönük.
"Gecə-gündüz allah bizimlə olsun,
Gözlərimiz görsün, sevinclə dolsun".
Peyğəmər onlara nifrin etdi,
Şagirdi Əlyəsə qoşulub getdi.
Günlərin birində, uzaq bir məkan,
Çıxartdı əynindən çuxanı haman.
Şagirdi Əlyəsin başına saldı,
Əlyəs, tez örtüyü başından aldı.
Həzrəti görmədi, axtardı onu,
Hər şeyin axırı, hər şeyin sonu.
İlyasın varisi Əlyəsdir, demək,
Çuxaya belə bir mənanı verək.
Həzrəti Əlyəs də, çəkərək zəhmət ,
Tovratdan danışdı, etdi mərhəmət.
Bəni -İsrailli edərək israr,
Bütə sitaişə verdilər qərar.*
Allah unudulur,Həzrət qaldı mat,
Daha da, dözülməz gəlirdi həyat.
***-daşdan heykəl**

## Həzrəti Əşiya və Həzrəti Ərmiyanın Əhvalatı (s). İsrail Dövlətinin Dağılması.

Assuriya şahı topladı ordu,
İsrail şahının dağıldı yurdu.
Paytaxtı "Samirə" edildi viran,
Əhali qul oldu, ağlaşma, hicran.
Təqibdən canını qurtaran insan,
Yəhud dövlətinə sığındı haman.
Həzrəti Musadan ötmüş yüz illər,*
Dəyişdi zəmanə, gəldi nəsillər.
İsrail dövləti tamam yox oldu,
Yadelli əsgərlər oraya doldu.
Yəhuda dövləti olaraq qəmgin,
Çünki qardaşları tarimar, əzgin.
Məscidi-Əqsada həzrət Əşiya,
Bir xeyli yalvardı uca Tanrıya.
Allahın eşqindən danışdı Həzrət,
Xalqı birləşməyə edərək dəvət:
-Vətəni qorumaq hamıya vacib,
İnsanlar hamısı gərək birləşib,
Vətəni düşməndən qoruya gərək,
Bir olub yağıya biz cavab verək..
Assuri dövləti həd- hədə biçir,
Yəhuda xalqını hey asıb-kəsir.
Tacirlər uzaqdan gətirdi xəbər:
-Assuri hakimi toplayıb əsgər,
*-800-il öncə itgin düş.

Böyük bir orduyla gəlir buraya.
İlahi bir vəhdən bildi Əşiya:
-Tezliklə Assuri xəstəlik tapar,
Əsgərlər içində çaxnaşma artar.
Geriyə qayıdar düşmən qoşunu,
Allah kömək edər, bilin siz bunu.
Düz çıxdı həzrətin verdiyi xəbər,
Orduda yayıldı pis xəstəliklər.
Qüdsi-Şərifdə də, canlandı həyat,
Yəhud məmləkəti tapdılar nicat.
İlahidən gələn kömək,mərhəmət,
Çox tez unuduldu, itdi kəramət.
Camaat içində zəiflədi din ,
Pozğunluğu artdı o gözəl yerin.
Həzrəti  Əşiya çox dedi, inan,
Onu öldürməyə verdilər fərman.
Allah Ərmiyaya verdi nəbüvvat ,
“Musanın dinini etsin təbliğat”.
Tovratdan danışdı, dilində Allah:
-Ana yurdu sevin, etməyin günah!
Yenə də Assurlar hərbə əl atdı,
Fələstinə, Qudsə qoşun çıxartdı.
Cəsur, şücaətli Yəhuda qızı:
-Peşiman edərəm mən hamınızı!
Deyərək, çadıra işrətə getdi,
Ordu başçısının həyatı bitdi.
Vətənin naminə gedərək qurban,
Azad oldu vətən,xar oldu düşman.

Assuri qoşunu düşdülər pərən,
Qayıdıb getdilər yad ölkəsindən.
Xeyli zəiflədi Assurda dövlət,
Midiya, Babildə bitdi əsarət.
Assurini onlar məğlub etdilər,
Midiya həm Babil vara yetdilər.*
Babil hökmüdarı Büxtün Nəssari,
Qaniçən, zülümkar şöhrət əsiri.
Başqa tayfalara tutaraq divan,
Axırdı həmişə qılıncından qan.
Yəhuda şahına  həzrət Ərmiya,
Məsləhətin verdi:-Qayıt Xudaya.
Əl çək bütpərəstlik xasiyyətindən,
Xəlqi uçuruma gəl aparma sən.
Tövbə et, yalvar ki, sovuşsun bəla!
Hökmüdar Sidqiyyə gəlmədi yola.
Peyğəmbər inciyib oradan getdi,
Allahın bəlası onlara yetdi.
Babil hökmüdarı qoşunun çəkdi,
Qüdsi yandıraraq “yerini əkdi”.
Məscidi-Əqsanı etdilər qarət,
Getdi ölkəsindən din-Musaviyyət.
Tövrat yandırıldı, edildi təhqir,
Yəhuda şahını aldılar əsir.
Yəqub övladları qolları bağlı,
Başları aşağı ,gedir yaralı.
Babil torpağına yayıldı həmən,
Vətəndən camaat düşdülər pərən.
*-azad

Qüdsi-Şərifdə də, əlsiz-ayaqsız,
Qocalar, xəstələr qalmışdı halsız.
Babildən qayıtdı insanlar ora,
Birlikdə yaşamaq qismət onlara...

## Daniyam Peyğəmbərin Əhvalatı (s)

Günlər, aylar ötür, dəyişir illər,
Yox olur, yaranır yeni nəsillər.
Şahlar bir-birini edirlər əvəz,
Ancaq uca Allah qalır dəyişməz.
Allahın varlığı  əbədi, pünhan ,
Nə doğulan biri, nə də yox olan.
Kainatın ancaq bir Xudası var,
Ən xırda zərrədən olur xəbərdar.
Xoşbəxt o şəxsdir ki,yaxındır ona,
Onun gözlərilə baxır cahana.
Tamahdan uzaq ol ey şair Sübhan!
Torpaqın altında çürüyəcək can.
Anbaan qocalır, hey ağarır baş,
Köməyə çatmayır nə para, qardaş.
Dünya yaranandan varlığı ümman,
Əvvəlin, axırın bilməyir insan.
Ömür-gün gödəlir, yaxınlaşır son,
Bizə qalan dövlət iki metrə don...
Vaxt vardı müttəfiq, dost olan ölkə,
Niyə yolun azdı, göz dikdi mülkə?

Babil torpağıydı onunçün bir ov,
Farsın şahənşahı uca Keyxosrov*
Döyüşkən ordunu edərək hazır,
Babil şahlığının sonunu yazır.
Babil hökmüdarı Pültə Nəssarı,
Tikdirmiş şəhərdə uca hasarı.
Uca daş hasara oldu arxayın,
İşrətə ayırdı öz gözəl vaxtın.
Yenə də sarayda qurmuş ziyafət,
Bilmirdi gözləyir onu fəlakət.
Birdən bir əl gəldi,yazdı divarda,
Gəldiyi kimi də, yox oldu orda.
Əyanlar birlikdə qaldılar çaş-baş,
Onu oxumağa tapılmadı baş.
Toplandı alimlər saraya haman,
Sirri açılmadı, qalaraq pünhan.
Bəni-İsraildən həzrət Daniyam,
Söylədi carçıya:-Bəlkə oxuyam.
Daniyam gələrək yazını açdı,
Onun açmasından bənizlər qaçdı:
-Çox keçməz şəhəri yağılar tutar,
Hündür istehkama əlləri çatar.
Allah hökmüdarı salaraq başa,
Həzrətin varlığın çıxartdı başa.
Keyxosrov Fəratdan bir qol ayırdı,
Su səmtin dəyişib hasarı aşdı.
Gildanə dövləti edildi yeksan,
İranlılar oldu orda hökmüran.
*-böyük

Keyxosrov  Həzrəti etdi ziyarət,
Onunla söhbətdə göstərdi hörmət.
Bəni-İsrailə yarandı imkan,
Vətənə dönməyə gəldi bir zaman.
Yetmiş illik möhnət,bitərək sürgün,
Tarixə yazıldı məşəqqətli gün.

## Üzeyir Peyğəmbərin Əhvalatı (s)

Qapısı qıfıllı qaldı bir zaman,
Nə dini ainlər, nə yada salan.
Məscidi-Əqsada başlanır təmir,
Allah öz elçisin ora göndərir.
O zaman ki, Tövrat atıldı oda,
Yetmiş il ayələr düşmədi yada.
Həzrəti Üzeyir təzədən yazdı,
İlahi vəhylərlə məlumat aldı.
Orda hakim oldu işğalçı İran,
Sonra İskəndərə qaldı, o məkan.
Yunanların dövrü tükənib,söndü,
Qalib gəldi Roma, artdı,böyüdü.
Allah Üzeyiri yüz il yatırtdı,
Ulağı özüylə birlikdə yatdı.
Eşidin, danışım sirli bir həyat,
Həzrət Üzeyirdən verim məlumat.
Şəhər kənarında bir bağı vardı,
Hər gün ora gedib bağ suvarardı.

Günlərin birində sübh səhər çağı,
Mindi ulağına görməyçün bağı.
Yolunun üstündə köhnə qəbristan,
Dincəlməyə düşdü öz ulağından.
Ağacın altında süfrəni saldı,
Üzüm salxımını mis qaba aldı.
“Çörəyi islatsın iştahla yesin,
Sonra da yoluna o, davam etsin”.
Üzeyir gözlədi, islansın çörək,
Biz də hadisəni izləyək, görək.
Baxdı qəbirlərə, tarimar olmuş,
Torpaqlar sürüşmüş,su ilə dolmuş.
Sümüklər görsənir, ağarır başı,
Sümük əl uzanmış hər addım başı.
Yüz illərdir onlar getmiş dünyadan,
Artıq unudulub, çıxıbdır yaddan.
Sağında, solunda sökülmüş məzar,
“Görən dirilərmi ölmüş insanlar?”
Düşündü Peyğəmbər ötən çağları,
Tədricən örtüldü göz qapaqları.
Ulaq da uzandı yuxuya getdi,
Sonra da tamamən nəfəsi bitdi.
Həzrət axtarıldı axşam həm səhər,
Amma Üzeyirdən çıxmadı xəbər.
Üzeyir söhbəti tamam yox oldu,
Xalqın yaddaşından silinib soldu.
Dəyişdi zəmanə, dəyişdi dövran,
Yüz il ötüb keçdi, sanki, o bir an.

Günlərin birində, günəş də baxır,
Peyğəmbər yatırdı, üzdən tər axır.
Ulaq sa ölmüşdür, sümük çürümüş,
Bura gəlişindən bir yüz il ötmüş.
Ətraf  işıqlandı, qərq oldu nura,
Həzrəti Cəbrayıl enərək ora.
Üzeyir gözünü açdı bu zaman,
Dərin nəfəs aldı, oturdu haman.
Həzin səs eşitdi, gözəl bir məqam,
Həzrəti Cəbrayıl verərək səlam:
-Çoxdanmı yatmısız ey əziz insan?
-Dünəndən yatmışam, ağrıyırdı can.
-Xeyir, yüz ildir ki, yuxudaydın sən,
Bax öz ulağına ,gözlə görərsən.
Sümüklər çürümüş, yarısı torpaq,
Çörəyin sə qalıb tamam ağappaq.
Allah istədiyin bir anda edər,
Kimini dirildər, ya da öldürər.
İndi bax ulağa, müşayyət eylə,
Sonra danışarsan sən eldən-elə.
Allah insanlara sən tək nişanə,
Ölüb-dirilməyə verdi nümunə.
Allah varlığına inanmayan kəs,
Şübhə etməsinlər Allaha əbəs!
Ulağın sümüyü etdi hərəkət,
Onlar birləşdilər, örtülərək ət.
Damarlar yarandı, əzələ və qan,
Həzrət mənzərəyə baxırdı heyran.

Dəriylə örtüldü ulağın canı,
Bürünərək tükə onun hər yanı.
Ulaq anqıraraq durdu ayağa,
Getdi çəmənliyə ot otlamağa.
Həzrət yerə çökdü, edərək səcdə,
Möcüzəni görüb gələrək vəcdə.
Gedərək şəhərə, hər yer camaat,
Özünün haqqında verdi məlumat:
-Ey əziz insanlar, Üzeyirəm mən,
Yüz il bundan əvvəl çöllərdə itən.
Camaat dilləndi:-Dəlidir dəqiq,
Özü əlli yaşlı bu nəcə məntiq?
-Hanı mənim evim, ailə, övlad?
Göstərin onları, ürək olsun şad.
Birdən yaşlı kişi düşündü nəsə,
Baxdı camaata, orda hər kəsə.
Dedi:-Yaşlılardan eşitdim söhbət,
Yüz il bundan əvvəl itibdi Həzrət.
Təəssüf, oğlanları həyatda yoxdur,
Nəvəsinin yaşı səksəndən çoxdur.
Hər yerdən üz tutdu çoxlu əhali,
Nəvənin səksən yaş, babanın əlli.
Peyğəmbər danışdı vaqiəsini,
Allahın onlara nişanəsini:
-Allah istəyir ki,görəsiniz siz,
Ölmək,dirilməyi eşidəsiniz.
Çoxları inandı, bəziləri yox,
İlahi,möcüzən dünyada nə çox.

Yüz iyirmi yaşlı qoca bir qarı,
Gözü tutulmuşdu, bədəni zarı.
Peyğəmbər itəndə iyirmi yaşı,
Ancaq yaxşı idi onun yaddaşı.
Tapıb gətirdilər onu camaat,
Üzeyir barədə versin məlumat.
Ağır- ağır dindi, əldə əsa sı:*
-Kimdir ki Üzeyir?-Hanı əsası?
Əgər Üzeyirsən, açılsın gözüm,
Şəhadət verərəm, görərəm özüm.
Həzrəti Üzeyir diz üstə çökdü,
Allaha yalvardı, göz yaşı tökdü.
Möcüzə baş verdi ,gözlər açıldı,
Baxan insanların çoxu bayıldı.
Qarı inanmadı, bəlkə yuxudur,
Üzeyir durmuşdu, özüdür,odur:
Birdən qışqıraraq torpağa çökdü,
Onun ayağını oxşadı, öpdü.
Əlini qaldırdı uca Allaha:
Yenə dua etdi ona bir daha...
Qarı dua edir, tökür göz yaşı,
Hamı ağlayırdı onla yanaşı.
Camaat Tövratı soruşdu ondan,
Tövrat da itmişdi axı o vaxtdan.
-Təqib edirdilər, qoydum sandığa,
Tapşırdım uzaqda qara torpağa.
Birlikdə gəldilər, qoca bir zeytun,
Yarpaqlar yaşıldı, gövdəsi yoğun.

Onu əzməmişdi nə çovğun, külək,
Hamisi olmuşdu ağacın fələk.
Qazdılar dibini çürümüş artıq,
Torpağa qarışmış orada sandıq.
Tövratın nüsxəsi qalmış salamat,
Görüb mat qaldılar orda camaat.
İman gətirdilər, etdilər səcdə,
Bəzi adamlar sa yenə şübhədə.
"Üzeyirə Allah oğlu"-həm dedi,
Möcüzədən əfsanələr düzəldi.
Üzeyir qışqırdı, ucaldı səsi:
-Mənəm Allah qulu, Allah elçisi.
Ancaq ki, əfsanə yayıldı, qaldı,
"Allah oğlu"sözü hər yeri aldı.
Həzrəti Üzeyir köçsə də özü,
Əfsanə ölmədi, gəzdi söz-sözü.
Orda Romalılar oldu hökmüran,
Qüdsi-Şərifə də vurdular ziyan.
Musanın dinini hey təqib edir,
Tövrat yandırılır, aradan gedir.
Həqiqi Tövrat ki ,itib yox olur,
Yalançı  tövratlar evlərə dolur.
Xatəmi Ənbiya gəldiyi zaman.(s)
Gətirdi həqiqət, etdi ərməğan,
Həzrət Üzeyirin yüz il yatmasın,
Sonra da həyata həm qayıtmasın.
Aşkar etdi, həqiqəti söylədi,
"Allah oğlu"əfsanəsin pislədi.

# Həzrəti Məryəmin Anadan Olması (s)

Bəni-İsraildən imanlı, kamil,
İmran adlı dindar, Allaha mail.
Ömrün qürub çağı çəkirdi zillət,
Hənnə qadınıyla gözündə həsrət.
Övlad verməmişdi onlara, Allah,
Ahıl yaşlarında qovrulurdu, ah!.
Vəhy gəldi onlara:"Gözünüz aydın,
Tezliklə bilərsiz övladın dadın".
İmranla zövcənin sevindi üzü,
Evində gül açdı ər-arvad sözü.
İbadət evində ibadət vaxtı,
Ana gözlərindən xeyli yaş axdı:
-Körpəmi verərəm evinə ,Allah!
Evində xidmətə həm, İnşəallah!
Qəbul et Allahım,eşidənsən sən,
Deyə, niyaz etdi Hənnə, ürəkdən.
Vədə tamam oldu, doğuldu uşaq,
Hənnə gözləyirdi oğlanı nahaq.
Çünki qız doğuldu,sirlidir Xuda,
Uşağın üzünü görmədi ata.
Üzünü səmaya tutaraq  ana,
Bildirdi Allaha o, yana-yana:
-Qız uşağı oldu,ey Pərvərdigar!
Qızlarla bir deyil axı oğlanlar.
Halbuki əzəldən bilir Yaradan,
Qızmıdır bətnində,ya da ki,oğlan.

İlahi, anaya həm əyan etdi:
"Məryəm qoy adını o,bərəkətdi".
Məryəmin mənası ibadət edən,
İbadət yerinə xidmətə gedən.
Körpəsi böyüyüb çataraq həddə,
Anası Məryəmi verdi məbədə.
Ki, orada boy atsın, tərbiyə alsın,
Allahın evində Məryəm ucalsın.
Kahinlər içində püşk ilə, həmən,
Zəkəriyyə oldu tərbiyə verən.

## Həzrəti Zəkəriyyə Məryəmin Tərbiyəçisidir (s)

Beytül-Müqəddəsin hami rəisi,
İmanlı, təqvalı, təmiz birisi.
Həmdə ki,Məryəmin xalası əri,
Evində saxladı körpə günləri.
Sonra da,məbəddə verərək otaq,
Məryəm orda qaldı,nəzərdən uzaq.[71a]
Yaşayır, böyüyürdü bir fidan kimi,
Heç kimlə danışmır, gəzmir aləmi.
Ən yaxın həmdəmdi özünə namaz,
Şeytan əməlləri oraya çatmaz.
Mələklər yanında gəzirdi hər an,
Qönçə bir gül idi, açırdı pünhan.
Hücrədən sızırdı bənövşə ətir,
Allah qoruyurdu sanki bir çətir.

Bir gün Zəkəriyyə gələrək ora,
Baxdı süfrədəki tər xurmalara.
Qışın oğlan çağı təp-təzə xurma,
Həzrət, çaşıb qaldı, soruşdu,amma:
-Ay qızım,xurmalar səndə haradan?
Qışın bu vaxtında dərilmiş haman.
Dedi:-Allahdandır gələn bu nemət,
Allahdadır qüdrət, bu bir həqiqət.
Peyğəmbərin qəlbi inamla doldu,
Məryəmə ürəkdə hörmət çox oldu.
Peyğəmbər inandı, bir zaman gələr,
Bu qızdan möcüzə burda baş verər.
Peyğəmbər qayıtdı fikirli, dalğın,
Məryəmin işinə olmuşdu çaşqın.
Gələndə yanına, süfrədə yemək,
Təzə meyvələri sərt qışda görmək.
Ətir yayılırdı otaqdan çölə,
"Məryəm İlahiyə yaxındır böylə?"
Heç nə soruşmurdu, qayıdır geri,
Nə baş verəcəkdi?  Nəydi sirləri?

## Həzrəti Zəkəriyyənin Duası

Peyğəmbər görürdü orda möcüzə,
Qışın oğlan çağı meyvələr təzə.
Həyata ümidi gün-gündən artdı,
Bəlkə də arzuya, diləyə çatdı.

Qocalmışdı özü, həm də zövcəsi,
Olmamışdı hələ onun meyvəsi.
Durub namaz qıldı, ürəkdə fəryad,
İstədi Allahdan təmiz, pak övlad.
Axdı göz yaşları, islandı saqqal,
Ətraf işıqlandı, gələrək siqnal.
Həzin bir səs gəldi, eşitdi Həzrət:
"Allah müjdə verir,qurtarır həsrət.
Övladın olacaq, Yəhyadır adı,
Hələ heç kim belə adlanmamışdı".
Dedi:-Vaxtı keçmiş ahıl bir kişi,
Zövcəsi də yaşlı, imkansız işi.
"Allahın yanında bu iş çox asan"
-Əlaməti nədir, bilim haradan?
"Üç günün içində tutular dilin,
Uşağın təməli qoyular, bilin!".
Dərhal səs kəsildi, işıq yox oldu,
Həzrət çox sevindi, ürəyi doldu.
Zülmət gecə düşdü, dil topuq çaldı,
Dil dondu ağızda, daş kimi qaldı.
İstədi danışa, hər şeyi desin,
Allahın vədini o, izhar etsin.
Ancaq ki, üç günlük susaraq dili,
Mat qaldı zövcəsi, həm də əhali.
Dördüncü gün sirri edərək bəyan,
Evində danışdı oğluYəhyadan.
Qadını inandı, inanmadı gah,
Axı qocalmışdı, pənahdır Allah.
Həzrət gülümsədi:-Allahdan istə,

Dərdə ilac edər, sağalar xəstə.
Həzrətin qadını qaldı hamilə,
Allahın lütfünü yaydılar elə.
Uşaq doğularaq çöhrəsində nur,
Uşağı görənlər hey məftun olur.



# İsa Peyğəmbərin Anadan Olması (s)

Getdikcə azalır ürəkdə iman,
Bütlər hazırlanır yayılır haman.
Daşların önündə edilir səcdə,
Allahın dininə inanır üzdə.
Məbəddə ibadət çıxaraq yaddan,
İcra edilmir ki, ayinlər çoxdan.
Yatmış ürəklərə titrəyiş lazım,
Mən də olanları birbəbir yazım.
Ananın bətnində atasız uşaq,
Allahın lütfünə dastanlar qoşaq.
Yəhudilər görək nə deyər buna?
Açıq möcüzələr görünsə ona.

Məryəm bir hücrədə edir ibadət,
Mələk nazil olur edir mərhəmət.
Məryəmin qorxudan ürəyi əsir,
Üzdə həya təri cavana deyir:
-Sığındım Allaha, otaqdan çıxın,
Mənə naməhrəmsən, Alaha baxın.
-İlahi mələyəm, hörmətli Məryəm,
Gəlmişəm ki, övlad hədiyyə edəm.
Məryəmin qızardı həmən, üz-gözü,
Allahı düşünüb danışdı özü.
Dedi:-Mən ki hələ subay bir qızam,
Analıq hissindən tamam yalqızam.
-Ən çətin işlərə Allahdan rəhmət,
Bu iş həll olunub, artıqdır söhbət.
Köynəyindən onun dərhal üfürdü,
Məryəm tez özünü hamilə gördü.
Narahat-narahat,düşündü Məryəm:
“Ah, necə olacaq atasız körpəm?”
Günlər bir-bir ötür, aylar dəyişir,
Məryəmin bətnində körpə yetişir.
Allahdan Məryəmə yetişdi fərman:
-Beytül-Müqəddəsdən uzaqlaş haman!
Məryəm səhər çağı çıxaraq evdən,
Gəldi bağ yerinə hər tərəf çəmən.
Ağaca söykəndi, qurumuş çoxdan,
Ucadan ağladı Məryəm qorxudan:
-Kaş əvvəl öləydim, gizlin qalaydım,
Xalqın xatirindən tamam çıxaydım!.

Birdən səs eşitdi:-Ana, darıxma!
Ağacda bax necə yetişib xurma.
Onun söykəndiyi qurumuş ağac,
Xurmalar əyilib sanki başda tac.
Məryəm sevinərək, inamı artdı:
-Bəs xalqa nə deyim?-kədəri atdı.
-Onlara deynən ki, orucam bu gün,[71b]
Körpəmdən soruşun o,deyər düzün.
Körpənin sözündən o, sakit oldu,
Hamiləlik bitdi, uşaq doğuldu.[72]
Ana körpəsini köksünə sıxdı,
Qayıtdı geriyə, insanlar baxdı.
Camaat gördülər, irişdi üzlər,
Başlandı şəhərdə bayağı sözlər.
Yayıldı, çoxaldı dedi- qodular,
Beytül-Müqəddəsə gəlib sordular:
-Axı sən nə üçün belə iş gördün?
Dinini alçaltdın, bizləri üzdün!
Atan da, anan da, deyildi belə,
Niyə ləkə vurdun nəslinə, elə?
İşarə etdi ki:-Orucam bu gün,
Uşaqla danışın o, deyər düzün.
-Beşikdə körpəylə necə danışaq?
Suallara kimdən biz cavab alaq?
Möcüzə baş verdi, görənlər çaşdı,
Beşikdəki körpə birdən danışdı:
-Allah elçisiyəm, sizə gəlmişəm,
Səmavi kitabla göndərilmişəm.

Allahımız birdir, mənimlə sizin,
Allahdır sahibkar hər birimizin.
Uşaq danışanda onlar qaldı mat,
Sanki bir anlığa susmuşdu həyat.
Həzrət Zəkəriyyə edərək səcdə,
Məryəmə inandı, gələrək vəcdə.
Təsdiqlədi Məryəm oğlu İsanı,
Xəbərlər yayıldi, gəzdi hər yanı.
Bir çoxu dinmədi, düşündü onlar,
“Atasız bir körpə anadan olar?”
Roma hökuməti oldu xəbərdar: [73]
“Beşikdəki uşaq necə danışar?”
Narahat oldular orda hökumət,
Tədqiqata gəldi Romadan, heyət.
Məryəm körpəsini tutaraq uzaq,
Vətəndən ayrıldı, düşərək qaçaq.
Xilas olmaq üçün Misirə getdi,
Bir müddət orada səs-səmir bitdi.
Yəhudlar hər yerə saldılar xəbər,
Amma tapılmadı, getdi bixəbər.
Həzrət Zəkəriyyə tutuldu dərhal,
Başı kəsilərək car oldu mahal.

## Yəhya Peyğəmbərin Əhvalatı (s)

-Ağıllı, hörmətli, elmli Yəhya,
Sənin gözlərində heç idi dünya.

Necə ki, cavanlıq yaşına çatdın,
Tövratdan yapışdın, Allahı andın.
Allah nəbüvvətlik verərək sənə,
Təbliğ etmək üçün yəhud nəslinə.
Yoldan azanları dəvət edirsən,
O daş ürəklərə iman verirsən.
"Paltar olmayana paltarlar alın,
Yetim uşaqları bir yada salın.
Pis insan olmayın, atmayın böhtan,
Allahın yolundan çıxma heç zaman!"
Allahdan hər yerdə  açaraq söhbət,
Sözlərin haqq oldu, əməlin rəhmət.
Qorxutmadı səni nə təzyiq, zindan,
Zalım Herodisin sən qılıncından...[74]
Herodis qorxutdu, lal oldu qardaş,
Aldatdı qadını, yoldan çıxdı baş.
"Ərli bir qadınla evlənmə, yetər!
Verdiyin əzablar vaxt gələr bitər".
Qaniçən Herodis atdı zindana,
Ki ,səsin kəsilsin, çatmasın ona.
Orda da, səsini ucaldaraq sən:
"Ərli bir qadına sən göz dikmisən!"
Səsini kəsməyə çağırdı cəllad:
"Kəs onun səsini, üzüm olsun şad".
Susmadın, qılıncı qaldıranda da:
"Sənə halal deyil ey haramzada!".
Qışqırdın, aləmə sən bəyan etdin,
Susmadın öləndə, Allaha yetdin.

Cəlladın qılıncı başına endi,
Mələklər inlədi, ürəklər dindi .
Səslər eşidildi qanlı başında:
“Sənə halal deyil,ey haramzada!”.
Səslər eşidilir mərmər divarda:
“Sənə halal deyil, ey haramzada!”.
Herodis səslərdən gəldi dəhşətə,
Sarayı dönmüşdü onun vəhşətə.
Kafir pis işlərdən olmadı  uzaq,
Kələylər düşünür, qururdu duzaq.
Çox keçmədən it damında gəbərdi,
Saliminin üzü yandı, göyərdi[75a]
Onun keçmiş əri olaraq çox şad,
Camaat sevindi, üzləri gülşad.
Misirdə eşitdi İsa peyğəmbər,
Yəhyanın haqqında verərək xəbər:
“Həzrəti Yəhyadan üstün bir insan,
Hələ doğulmayıb inan, anadan”.
Bir zaman gələcək, Rəsuli Əkram,[75a]
Yəhya barəsində deyəcək kəlam:
“Kimsə Allahımla qiyamət günü,
Günahsız bilməsin öz görüşünü.
Həzrəti Yəhyadır günahsız olan,
Ölənə qədər də günahsız qalan.
Allah görüşünə günahsız gedən,
Yəhyadır, bliniz bəni Adəmdən”.
Qurani-Kərimdə həzrəti Yəhya,
Allah ayələrlə veribdi ziya.

# Səmavi Kitab (İncil)

Zalim Herodisin ölüm xəbəri,
Bürüdü yaxını, uzaq yerləri.
Ölüm xəbərini alaraq Məryəm,
Ruhəllah İsayla çıxdılar bu dəm.
On iki il idi gedəli müddət,
Qurtardı qürbətin əzabı, şiddət.
Qüdsi diyarına gəldilər onlar,
Əl-Cəlil kəndində gecə qaldılar.
Tərki dünya idi, gəzirdi dalğın,
Beytül-Müqəddəsdə edər duasın.
Gecə mağaralar olardı otaq,
Səhralar verərdi Məsihdən soraq.
Onu bu dünyaya heç nə bağlayan,
Nə övlad, nə varı, nə bağ, nə bostan.
Allah qorxusundan tez-tez ağlayar,
Ona məhəbbətdən Məsih yaşayar.
Bəni-İsraildə bütlərə inam,
Romanın əzabı artaraq tamam .
Ruhulla İsada artaraq dərd-sər,
Yox idi vücudda şadlıqdan əsər.
Özü hündür boylu, otuz iki yaş
Yabanı bitkilər onunla yoldaş.
Günlərin bir günü gəlmişdi ora,
Dağların qoynunda tək bir mağara.
Gecədən keçmişdi, göylərdə ulduz,
Baxırdı göylərə kainat sonsuz.

Düşünür Allahı, artır həyacan,
Göydə ulduz görür, titrəyirdi can.
Gözlər sulanmışdı, süzülürdü yaş,
İslandı başının altındaki daş.
Birdən işıqlandı mağara başdan,
Bir mələk göründü İsaya ordan.
İsaya bəxş etdi səmavi kitab,
İncil nazil oldu sanki bir gülab.
Dedi:-Risaləti xalqa təbliğ et,
Allahın əmridir,yubanmadan get!
O, sübh açılmamış yola düzəldi,
İnsan kütləsinin içinə gəldi:
-İlahi elçiyəm,mən bir peyğəmbər!
Səmavi kitabdan verirəm xəbər.
Özümdən əvvəli təsdiq edirəm,*
Məndən sonra gələr Rəsuli Əkrəm.
Dünyada olacaq o, son peyğəmbər,
Sevinin insanlar ,budur şad xəbər.
Kahinlər birləşdi İsaya qarşı,
Təhlükə altında qalaraq başı.
Çünki həqq, ədalət onun amalı,
Kasıb bir həyata ürəkdən bağlı.
Sözlə işin vəhdətini istəyər,
Kahinlərin daxilini pisləyər.
Allaha imanı, hər gün ibadət,
İnsana məhəbbət, diqqət, səxavət.
-Kimsəni aldatma, görəndi Allah,
Harama göz dikmə, biləndi Allah.
*-Peyğəmbərləri

Yetimin malını əlindən alma,
Qadını evindən bayıra salma.
Ölmək-dirilmək var,Allaha inan,
Allaha dönəcək yenə də, hər can.
Kahinlər bəyənmir,bəsləyirlər kin.
Onlarda daş allah, ayrıca bir din,
-Allah elçisisən möcüzə göstər!,
Tələb edirdilər ondan kahinlər.
Ruhulla torpaqdan hazırladı quş,
Kafirlər baxırdı, ürəklər coşmuş.
Sonra da üfürdü göyərçin oldu,
Onun möcüzəsi qəlblərə doldu.
Ağ göyərçin uçdu ,süzdü havada,
Uçub uzaqlaşdı mavi səmada.
Daş ürəklər gördü, üzləri yandı,
İsa peyğəmbəri sehirkar sandı.
Gözlərdə intiqam alışdı haman,
Həzrətin qətlinə yazdılar fərman.
Məsih camaatdan xahiş edərək:[76]
-Allahın yolunda göstərin kömək!
On iki həvvari durdu ayağa,
Hər biri oxşayır sanki bir dağa:
-İman gətirmişik, sən də şahid ol,
Allahın yoludur getdiyimiz yol.
Üzlərin tutdular mavi səmaya,
Onlar dua etdi uca Xudaya:
-Nazil etdiyinə iman gətirdik,
Ruhulla İsaya razılıq verdik.

Bizi azğınlarla bir yerdə etmə!
Gəlmişik qapına, bizi rədd etmə!



# Həzrəti İsanın Yeni Möcüzəsi Və Göyə Çəkilməsi

Azir adlı dostun görməyir, Həzrət,
Dostunu görməyə tələsdi, əlbət.
Ulağına minib  gedərək ona,
Soruşdu dostunu o, yana-yana
Dostunun anası tökdü göz yaşı,
Oturdu yanında, qurdu bardaşı:
-Üç gündür ki, Azir edibdir vəfat,
Gözümdə getdikcə qaralır həyat
Peyğəmbər anaya tutaraq üzün:
 -Ziyarət eyləyək məzarın özün.
Ruhulla İsaya qoşuldu  ana,
Axıtdı göz yaşı yenə oğluna.

Məzarın üstündə İsa peyğəmbər,
Düşərək səcdəyə, üzündə kədər.
Allaha yalvardı, ağladı zar-zar:
-İlahi, Aziri təzədən qaytar!
Kafirlər eşidib gəlsin imana,
Bəlkə ürəkləri görə, oyana.
Ağlaya-ağlaya səcdədən qalxır,
Qonşular kənarda dayanıb baxır.
Torpaq silkələndi, kənara axdı,
Məzardan Aziri  ayağa qalxdı.
İnsanlar gördülər,bənizlər soldu,
Hamının gözləri ağladı, doldu.
Şəfa tapdı karlar, açıldı gözlər,
Mərizlər sağaltdı, şad oldu üzlər.
Dəri xəstələri oldular rahat,
Balıqçı torları doldular qat-qat...
Bir gün həvvarilər gələrək dilə:
-İlahidən yemək bizümçün dilə!
Həzrət bu sözlərdən oldu narahat:
-Yəqin inamınız azalmış, heyhat!
Dedilər:-Əksinə, verək şəhadət,
Ürəklərdə artsın inam, cəsarət.
Hamı yaxın olsun ürəyimizə,
Kafirlər də dönsün, gəlsinlər bizə.
Peyğəmbər Allaha düşdü səcdəyə:
-İlahi, rüsxət ver bu möcüzəyə.
İnamları artsın, daha çoxalsın,
İnsan yaddaşında həmişə qalsın.

Allahdan vəhy gəldi:“Möcüzə olar,
Bundan sonra kafir olsalar onlar,
Onlara olmazın verərəm əzab,
İşkəncə, ağrıya gətirməzlər tab”.
Səmavi bir süfrə enərək həmən,
Möminlər sevindi bu möcüzədən.
Süfrədən yeyilir, tükənmir nemət,
Allahdan üzülməz dövlət, bərəkət.
Sehirkar adlandı İsa peyğəmbər,
Allah möcüzəsin“görmədi”gözlər.
Hakimə çuğulluq edərək onlar,
Həzrətin həbsinə nail oldular.
Hakim, Məsih ilə edərək söhbət,
Dövlət əleyhinə görmədi illət.
Həzrəti  dustaqdan edərək azad,
Özü danlaq yedi, kahindən irad.
Kahinlər hakimdən şaha yazdılar,
Həzrəti Musaya quyu qazdılar.
Həzrət məcbur olub uzaqda qaldı,
Dağlarda özünə yurd- yuva saldı.
Romadan gəldilər xüsusi dəstə,
Axtarış başlandı gizli, ahəstə.
Mükafat ayrıldı:-Yerin kim desə,
Sehrikar İsanın məsgənin bilsə.
Cadugər adlandı İsa peyğəmbər,
Niyə görmədilər o görən gözlər?
Allah peyğəmbəri hər an izlənir,
Çöldə yaşayaraq, sərgərdan gəzir.

İbadət etdiyi gizli mağara,
On iki həvvari cəm oldu ora.
Son dəfə Ruhulla etdi möizə,
Gələcək işlərdən dedi üz-üzə.
Xoş arzu dilədi, edərək hörmət,
Göstərdi onlara hədsiz məhəbbət:
-Siz də, mənim kimi hərəkət edin,
Hamıya xoş sifət, şəfqət göstərin.
Sonra da peyğəmbər sirrini açdı,
Onun son sözləri qığılcım saçdı:
-Sizlərdən biriniz xoşlanır vardan,
Səhər xoruz banı qaçacaq burdan.
Gedər kafirlərə o, satar məni,
Özü kafir olar, Allah düşməni.
Yəhuda tez gözün dikdi aşağı,
Qorxdu ki,dostların tutar danlağı.
Gecədən çox keçmiş,hamı yuxuda,
Qalxaraq yerindən xəlvət Yəhuda.
Sonralar satqına Yuda deyildi,
“Xəyanət edəndir”-ləqəb verildi.
Yəhuda keşişin gəldi yanına,
Həzrətin yerini söylədi ona.
Bir ovuc qızıl pul aldatdı onu,
İmanını satdı, həm də, soyunu.
Başına örtmüşdü qara bir pərdə,
Varlanmaq həvəsi salmışdı dərdə.
Əsgərlərlə gəldi, mağara zülmət,
Gözə görünmürdü orda heç sifət.

Həvvarilər qaçdı hərə bir yana,
Məmurlar axtardı hər yeri sona.
Yəhuddan başqası olmadı kimsə,
Peyğəmbər bənzərin verdi o kəsə.
Allah dərgahına köçərək Həzrət,
Allahda sonsuzdur bil ki, kəramət.
Əsgərlər Yəhuda vurdular qandal,
Kəlgələ dağında dəyşilmişdi hal.[77]
Göydən yağış yağır, ildırım çaxır,
Yəhudun fəryadı ətrafı yaxır:
-İsa mən deyiləm!-edərək fəryad,
Çarmıxa çəkdilər, olmadı imdad.
Yəhud axtarıldı, yoxdur bir əsər,
Təşvişə düşdülər kafirlər, betər.
"İsa ölməmişdir"-gəzirdi söhbət,
"Allah dərgahına çəkilmiş Həzrət"...
Oğlunun  meydini istəyir, ana,
Yazıb xahiş edir, ölkə şahına,
Alaraq "oğlunu" verdi torpağa,
Gözündən göz yaşı hey yağa-yağa.
Birdən gördü oğlun, baxırdı ona,
Anada az qaldı ürək dayana.
Dedi:-Əziz ana, ölmədim daha,
Allah çəkdi məni orda dərgaha.
Məzarda yatan sa xain Yəhuda,
Satdı məmurlara, adlandı Yuda.*
Allah bənzərimi verərək ona,
Nəsibi qismətmiş dar ağacına.
*-satqın

Qurani-Kərimdə yazılır səhi,
Ölməmiş,yaşayır, qayıdar Məshi*.
Dəyişər zamanə, sonuncu İmam,[78]
Haqsızlığa qarşı o edər qiyam.
Onda Məsih enər şəhadət verər,
Dünyada ədalət həm hökm sürər.
*-Məsih



# Əshabi – Kəhf

Roma dövlətinin qüvvətli çağı,
Kəsir qılıncının dalı-qabağı.
İzləndi hər yerdə dindar İsavi,
Təbliği dayandı tamam dünyavi.
İordaniya da Fələstin kimi,
Bürümüş təzyiqlər burda aləmi.
Heykəllər qoyulmuş orda "allaha",
Camaat səcdəyə dururlar şaha.
Təzim etməyənlər asılır dardan,
Belə istəyirdi hökmüdar Tərcan.[79]
İordaniyanın payaxtı Amman,
Filadelf adlanmış əvvəlki zaman.

Məmurlar gəldilər əlində fərman:
“Görəsən necədir onlarda iman?”
Başlandı şəhərdə təftiş, yoxlama,
Camaat qorxdular təftişdən amma,
Yeddi imanlı şəxs,həm xeyli cavan,[80]
İsanın dininə sevdalı, heyran.
Şəhərdən qaçmağa verdilər qərar,
Keşikçi olmadı işdən xəbərdar.[81]
Rəqim adlı kənddən keçərək onlar,
Dağda mağaraya gəlib çatdılar.
Qərara aldılar qorxulu çağda,
İbadət etsinlər bu ucqar dağda.
Qorxdular ki, kimsə onları duya,
Cavanlar getdilər dərin yuxuya.
Mağara ağzında ov iti yatdı,
Üç yüz il cavanlar həyatı atdı.[82]
Dəyişdi zəmanə, dəyişdi dövran,
Qaniçən hakimlər getdi həyatdan.
Miladi tarixi dörd yüz səkkiz il,
Teodos şah oldu ,arxivlər dəlil.
Dini-İsavilər zindandan çıxdı,
Onların gözləri sevincə baxdı.
İsavi dinində həm şah, anası,
Yayıldı aləmə yaxşı sədası.
Yenidən qayıdaq yatan kəslərə,
Əshabi- Kəhfdə olan şəxslərə.
Üç yüz il ötərək, uzun bir zaman,
Təhlükədən uzaq, gizli bir məkan.

Günlərin birində axşama yaxın,
Ov iti hürərək, gərdişə baxın.
Cavanlar gözlərin açdılar həmən,
Gözlərin ovdular heçnə bilmədən.
Artıq dağda günəş qürub edirdi,
Qızılı şüasın çəkib gedirdi.
Təlmixa tez dedi,yerdən durmadan:
-Bütün günü yatdıq,heç oyanmadan,
Yəmanis söylədi:-Bəlkə yarım gün?
Baxın, hələ indi qürub edir Gün.*
“Nə qədər yatmışıq bilir İlahi,
Ya bir gün, yarım gün,bilir O, Dahi”
Düşünmədən onlar belə dedilər,
Durub yaradana dua etdilər.
Onlar danışdılar tökülən qandan,
Zindana salınan bir xeyli candan.
Sonra axşam düşdü, açıldı səhər,
Günəş öz şüasın ətrafa səpər.
Dağ döşündə quşlar verdi səs-səsə,
Nəğməsi xoş gəlir duyan hər kəsə.
Aclıq öz sözünü dedi onlara,
“Bəlkə üz tutsunlar indi bazara?
Roma əsgərləri mütləq tutacaq,
Hamımız birlikdə həlak olacaq.
Məcbur edəcəklər çox allahlara,
Diz çökdürəcəklər bizi onlara”
Tez dinərək biri:-İndi gedərəm,
Lazımi bazarlıq özüm edərəm.
*-Günəş

Qızıl sikkələri çıxartdı, baxdı,
Dağ-kəsəyli yolu gah enib,qalxdı.
Ürəkdə həyacan, gəzirdi cavan,
Baxırdı şəhərə, hər tərəf əlvan:
“Bir günün içində burda nə olmuş?
Yenisi yaranmış, köhnələr solmuş.
Daş bütlərdən indi nə soraq, xəbər,
Nə də qamçı vuran cəlladdan əsər.
Camaat işləyir, yoxdur bir fağır,
Xoşbətlik onların üzündən yağır”.
Cavan fikirləşir:”Bəlkə azmışam?
Tanışım da yoxdur, aciz qalmışam.
Heç kim bu cavana vermirdi fikir,
Hərdən paltarına gözlərin dikir.
Bazarın yerini soruşdu, fəqət!
Onun ləhcəsində göründü illət.
Gələrək bazara yeməklər aldı,
Pul üçün əlini cibinə saldı.
Qızıl sikkələri görərək tacir,
Baxaraq cavana tələsik deyir:
-Xəzinə tapmısan?-Şərik et məni!
Yoxsa məmurlara deyərəm səni.
-İnanın kasıbam, yoxumdu imkan,
Dostlarım da acdır, arıqlayıb can.
Satıcı tutaraq onun qolundan,
Dedi:-Buraxmaram,bu pul haradan?
-Məni buraxmasan asdırar Tərcan,
Üstündə qalacaq bir günahsız qan.

İnsanlar duruxdu, etdilər təəccüb,
-İndi Tərcan deyil o, çoxdan ölüb.
Hökmüdar Teodos, İsa fikirli,[83]
Tək olan Allaha bağlı, xeyirli.
-Yəni İsavilər indi tam azad?
Yenə sual verdi, ey dadi-bidad!
Orda söhbətləri dinləyən qoca,
Baxdı, o cavana xeyli doyunca.
Dedi:-Aman Allah, bu bir möcüzə!
Nənəmdən qalıbdır, nəql edim sizə.
Üç yüz il öncədən, çox keçib zaman,
Yeddi cavan qaçdı can qorxusundan,
İsa ardıcıllı həm həmfikirlər,
Onlardan çıxmadı bir daha xəbər.
Cavan eşidərək qocadan söhbət,
Ürək fəryad etdi, bürüdü dəhşət.
-İlahi, bu qədər yatmaqmı olar?
Heyrətlə dedilər, orda insanlar.
Xəbər tez yayıldı, eşidərək, şah,
Zərrəni dəryada görəndi Allah.
Cavanı aldılar saraya haman,
Hökmüdar eşitdi, ürəyində qan.
Dərk etdi bir daha yeni həqiqət,
İnamı yüksəldi, göstərdi diqqət:
“Ölmək,dirilməyə sübutdur bunlar,
Kafirdir Allaha inanmayanlar”.
Şah ona ərz etdi:-Ey mömin insan,
Bizi mağaraya əgər aparsan.

Görərdik hamımız yeni möcüzə,
Kafir insanlarla gələk üz-üzə.
Mömin razılaşdı, düşdü qabağa,
Camaat eşitmiş, gəlir sorağa.
İzdiham axışdı dağlara sarı,
Möcüzə sarsıtmış bu insanları.
Mağaraya qalmış söylədi cavan:
-Görsələr dostlarım, olar nigaran,
Onların yanına gərək tək gedəm,
Hər şeyi ehmalca mən izah edəm.
Cavan mağaraya girərək vahid,
Dostlara danışdı, gözləri şahid.
Möminlər eşitdi, oldu xəbərdar,
Allah qorxusundan ağladı onlar.
Hamısı birlikdə etdilər səcdə,
Allaha yalvardı əlləri göydə:
-İlahi, bizləri apar yanına,
Göz yaşı tökdülər hey yana-yana.
Qol-boyun oldular, gözləri al-qan,
Ürəklər döyünür, artır həyacan.
Yeddi mömin dostu tərk etdi ruhlar,
Allah dərgahına döndülər onlar.
Hökmüdar gözlədi, çıxmadı xəbər,
Əyanlar axışdı, üzlərdə kədər.
Görən gözlər dondu, üzüldü hər kəs,
Qucaqlaşıb ölmüş yeddi mömin şəxs.
Onların önündə səcdə etdilər,
Allaha yalvarıb, boyun əydilər.

Əshabi-Kəhf oldu onlara məzar,
Bir məscid tikdilər, dünya oldu car.
Məzarlar yaşadı zaman ha zaman,
Gəldi dövrümüzə xəbər Qurandan.
Ammana gedənlər görür, düşünür,
Həyəcan yüksəlir, ürək döyünür.
Yeddi mömin qəbri, daş səlnamələr,
Möcüzədən bizə verirlər xəbər.

## Kitabın Sonu

Artıq tamam olur kitabın sonu,
Gözəl misralardan bəzənib donu.
Üç ildən yuxarı düşünüb yazdım,
Bəzən cığırlarda yolumu azdım.
Gecə sübhə kimi işlədim çox vaxt,
Zülmət gecələrdən quruldu bir taxt.
Payızın əvvəli Vətəndə oldum,
Ürəyim sevindi, sevgiylə doldum.
Masallı torpağı, Abasbəyli kənd,
Onlara tanışdır hər kitab,hər bənd*.
Göz oxşayır kəndim, ana təbiət,
Talış dağlarının zirvəsi zinət.
Ürəyim dinlədi həzin nəğmələr,
Çağlayan suları görəndə gözlər.
Quşların cəh-cəhi saldı kəməndə,
Uca dağ başında qartal görəndə.
*-Kitablarım

Misralar axışdı, yazıldı dilə,
Dodaqlar söylədi, yaydılar elə.
Kazandan Vətənə düşəndə yola,
Vətənə gəldiyim bir aylıq ola.
Beynimi, qəlbimi üzürdü fikir:
“Yeni əsərini saxlama, bitir.
Rəsuli Əkrəmdən yaz təzə əsər!
Feyziyab olsunlar, oxusun bəşər”.
Vətəndə olanda olmadım bekar,
Yeni-yeni ağ kağızlar doldular.
Kazana dönəndə unutdum tamam,
Qalmışdı Vətəndə yeni əlyazmam.
Narahat ürəyim oldu narahat,
Rahat olamadım,Kazanda bir vaxt.
Üç illik zəhmətim çıxaraq yaddan,
İtirmişəm yəqin,düşündüm yaman.
Kazan şəhərində mərkəzi küçə,
Nərimanın adı verilmiş öncə...*
Orda iş yerimə gəldi bir adam,[84]
Gözlərində gülüş,sözündə inam.
Gördü ki, üzümü bürüyüb kədər,
Dedi ki:-Darıxma, əsərin gələr.
Bitirdi sözünü, ayağa durdu,
Gülüş çələngini toxuyub hördü .
Aramızda olan belə söz-söhbət,
İki gün keçmişdi tapdı həqiqət.
Yenə otağımda yazırdım nəsə,
Başımı qaldırdım qapıda səsə.
*N.Nərimanov.

Qapıda göründü o, əziz insan,
Dərhal dəvət etdim otağa haman.
Üzündə təbəssüm, hamının dostu,
Gözümün önünə qoydu bir qutu.
Maraqla qutunu açaraq bu dəm,
Qəlbimdən silindi üzüntülü qəm.
Evdə unutduğum yeni əlyazmam,
Gözlərim önünə qoyuldu tamam.
Çox sevindim inan,üzünə baxdım,
Minnətdarlıq etdim, əlini sıxdım.
-Şair,məndən də yaz,bir əsər yarat!
Deyə, gülümsədi, etdi zarafat...
Yaxşılar olmasa ürək usanar,
Dünya da yerindən oynayar, uçar.
Bir qəlb sevindirək,düşünək bir az,
İnsan ömrü su tək axar-qayıtmaz.
Yaxşıların el-el gəzər sözləri,
Pislər gələr-gedər, qalmaz izləri.
Ey əziz Allahım, köməyim sənsən,
Həmişə özündən güc almışam mən.
Ürəyimə saldın gözəl sözləri,
Uzaq etdin məndən xəbis gözləri...
Gəlin kömək olaq bir-birimizə,
Şirin söz yayılsın ürəyimizə.
Xudam, nicatına insanlar möhtac!
Səndədir kəramət, səndədir ilac.
Yenə möhlət versən İlahi, əgər,
Rəsuli-Əkrəmdən yazaram əsər.

Onun həyatına ayrıca kitab,
Səpim misralara ənbərlə gülab.
Kitab tamamlanır, yazılır sonu,
Gözəl misralardan biçilib donu.
Qalxıram ayağa dincəlim,deyə,
İstirahət verim yorğun ürəyə.
Ürək dilə gəldi, dedi:-Yaz şair,
Maraqlı əsərlər səni gözləyir.
Hələ ki cavansan,usanma,yarat,
Həyatda arzuna, istəyinə çat!
Həyatın yoxuşu, enişi çətin,
Ürəyindir ancaq dayanan mətin.
İnsanlar ha gedir, dünya sa cavan,
Hələ ki,dünyadan doymayıb insan.
Şahlarla sultanlar harada qaldı?
Torpağın altında yuxuya daldı.
Varlı da,kasıb da,köçər bir zaman,
Allahın önündə verər imtahan.
Vaxtını yuxuda keçirmə , şair!
Kitab yaz Allahın şəninə dair.
Saç-saqqal ağarıb,yaxındır son an,
Zaman da hey axır, ey şair Sübhan!.
Peyğəmbərə, şaha qalmayan dünya,
Kimlərə qalacaq, siz deyin aya?!
Dünyada hər şeyi nizama salan,
Yarpağı ağacdan saraldıb, alan.
Dünyanın əvvəlin, sonunu bilən,
Həyata qaytaran, həyatdan silən.

Bizim ağlımızla rəftar etmə sən,
Ey gözəl Allahım paksan,rəhimsən.
Balığın qarnına Yunusu salan,(s)
Yenə də oradan sahilə atan.
Ey ulu Xaliqim, ey Pərvərdigar,
Sənsən aləmlərdə vahid Hökmüdar.

**SON**




**Mənə möhlət versən Allahım,əgər,**
**Rəsuli-Əkrəmdən yazaram əsər.**
**Onun həyatına ayrıca kitab,**
**Səpim misralara ənbərlə gülab.**

# ŞEİRLƏR

# Əziz Allah

Danışanda sözlərimdən irəli,
Dünyaların həm axırı, əzəli,
Həyatımın son anları, hər  ili
Əziz Allah, ya Məhəmməd, ya Əli.

Dünyaya gətirdin islamiyyəti,
Yaydın aləmlərə İlahiyyəti,
Bəxş etdin bizlərə imamiyyəti,
Əziz Allah, ya Məhəmməd, ya Əli.

Qurani-Kərimi yetirdin bizə,
Namazı,orucu hər birimizə,
Özün yaxın etdin ürəyimizə,
Əziz Allah, ya Məhəmməd, ya Əli.

Həmzə idi orda aslan biləkli,
Zənci Bilal, Əbuzərdi ürəkli,
Əmmar Yasir Peyğəmbərə gərəkli,
Əziz Allah, ya Məhəmməd, ya Əli.

İmam Həsən məzlumların rəhbəri,
İmam Hüseyn həqq yolunun sərvəri,
Hər ikisi Peyğəmbərin bənzəri,
Əziz Allah, ya Məhəmməd, ya Əli.

Peyğəmbərin ürəyilə döyünən,
Öz canını fəda edən,söyünən,
Əli idi haqq donuna bürünən,
Əziz Allah ya Məhəmməd ya Əli.

Sübhan arzulayar yaxşı dünyanı,
Gözləyir həmişə İmam Zəmanı,
Qalib gələr Peyğəmbərin imanı,
Əziz Allah ya Məhəmməd ya Əli.

# Adam var ki,

Adam var ki, ürəklərdən silinməz,
Adam da var,gələr,gedər bilinməz.
Adam var ki, adamlığın itirməz,
Adam da var, adamlıqdan naşıdır.

Adam var ki, unutmaz düz ilqarı,
Adam da var, tez atar dostu, yarı.
Adam var ki, könül açır vüqarı,
Adam da var, uzaq olsan yaxşıdır.

Adam var ki, heç vaxt yalan danışmaz,
Adam da var, nahaq söylər, heç çaşmaz.
Adam var ki, verdiyi sözdən qaçmaz,
Adam da var, saxta işin naxşıdır.

Adam var ki, dilində söyüş olmaz,
Adam da var, söyüşsüz bir an qalmaz.
Adam var ki, verdiyin geri almaz,
Adam da var, şər- böhtanlar başıdır.

Adam var ki, dürr tökülür dilindən,
Adam da var, utanıram əlindən,
Adam var ki, alqış alır elindən,
Adam da var, pisin təməl daşıdır.

Adam var ki, səhər-axşam işləyir,
Adam da var, işləmədən dişləyir,
Adam var ki, duz-çörəyə baş əyir,
Adam da var ,haramlar sirdaşıdır.

# ÜRƏYİN AĞILLA SÖHBƏTİ

Bir gün ürək dindi, gələrək dilə,
Süzüldü gözündən yaş gilə-gilə.
Sızlayıb, kövrəlib dəyişdi halət,
Döyünə- döyünə etdi şikayət.
-Ey ağıl, üzünü bürüyüb kədər,
Əridib ömrünü verirsən hədər.
Saçın ağaranda etdim xəbərdar,
Eşitmədin məni, qulaq oldu kar.
Qəm-qüssə çoxaldı,aldı qoynuna,
Tezliklə həyatın gələcək sona.
Özgə dərdlərini çəkirsən niyə?,
Niyə sən verirsən zillət ürəyə?.
Hərənin həyatda öz qisməti var,
Allahın bildiyin bilməz canlılar.
Məni də salırsan çətinə, qəmə,
Hər gözü yaşlını çəkir sinəmə.
Yaşa həyatını, şad- xürrəm yaşa,
Çox fikir eyləmə gözlərdə yaşa.
Özünü fikirləş, sən olma yanan,
Şam da əriyərək yox olur haman.
Zülmətli gecənin bir sabahı var,
Günəş tutularsa yenə bərq vurar.

Bir də görərsən ki,ağlayan gülər,
Onun da içindən sevinc süzülər.
Özgə dərdlərini çəkmə ey ağıl!
Tez sönər həyatın olar bir nağıl.
Vaxt axır su kimi, geriyə dönməz,
İlahi qanunlar üzülməz, sönməz.
Ürək bax beləcə xeyli danışdı,
Qovrularaq, o qəlb yandı, alışdı.
"Yorulmuşam"dedi,gileyləndi çox,
Töhməti, tənəsi sanki yanar ox.
-Dinlədim mən səni, sevimli ürək,
Deyə,ağıl dindi, danışdı gerçək.
-Vətən kədərini çəkib almasam,
Axan göz yaşına şərik olmasam,
Bəs onda o ürək nəyimə gərək?
Möhtaca əl tutub etməsə kömək.
Günəş öz şöləsin saçmasa əgər,
Bərqərar olarmı yerində məgər?
Belə bir həyatın mənasi nədir?
O ki, başdan-başa bir viranədir.
Mənə biganəlik edirsən təlqin,
Nəyini mən sevim belə ürəyin?
İstəmirəm daha, döyünmə ürək!
Gözü yaşlılara etməsən kömək!
Ürək çox düşüdü, gələrək dilə,
Belə ərz eylədi o, gülə-gülə:
-Necə istəyirsən o cür də yaşa,
Köhlənin ayağı dəyməsin daşa.

Ancaq ki,ey ağıl, vermə əziyyət,
Sən gəl ürəyinə çəkdirmə zillət.
Axı,döyünməsəm işləməz qanın,
Həyatı tərk edər, çürüyər canın.
Səninlə birlikdə gözəl arzular,
Onlarda bir anda əriyər, solar.
Hər bir kədərinlə incitmə məni,
Qoru bu döyünən əziz qəlbini.
Ağıl gülümsəyib ürəyə baxdı,
Ürəkdən ağıla mərhəmət axdı.
İki dost sevinib düşdülər yola,
Kaş ki,bax beləcə barışıq ola..

# QİSMƏTİN OLSUN

**Şirin-şəkər gözəl qızım,Gülnarım,**
**Sağlam bir həyatın,dövlətin olsun.**
**Çingizin toyunda qol-qanad açıb,**
**Gəlinlə oynamaq qismətin olsun.**

**Həyatda xoşbəxt ol, gülərüz yaşa,**
**Heç zaman ayağın dəyməsin daşa.**
**Rahidlə yüz ili vurasan başa,**
**Halal duz-çörəyin,zəhmətin olsun.**

**Aygülüm,Gülayın tutsun əl-ələ,**
**Məryəmə, Saraya səadət dilə.**
**Rəcəb bəy, Xədicəm yaraşıq,elə,**
**Çingizin övladı şöhrətin olsun.**

**Elçinim, Əsmərim,Əli bəy, sizə,**
**Kədər-qəm düşməsin ürəyinizə.**
**Məhəmmədəlim də, adlasın yüzə,**
**Fatimə, Zeynəbim zinyətin olsun.**

Vətən qədrini bil, Vətən bizə, can,
Vətənin naminə tökülüb al -qan.
Var olsun həmişə qoy,Azərbaycan.
Vətən düçmənlərim nifrətin olsun.

Sübhan Abasbəyli, yalvar Allaha,
Həsən bəy,Leyluşum oxşasın "Şaha"
Zəhragül həyatda  ucalsın daha,
Anan Kərbəlayı  izzətin olsun.

# Qarabağ

Vətən torpağında sən əsir oldun,
Murdar ayaqlarla əzildin,doldun.
Qanlı yaş axıdıb başını yoldun,
Vətənində yanan,solan ,Qarabağ!
Torpağları işğal olan, Qarabağ!

Bazarda hərraca qoydular, səni,
İşgəncə, əzabla soydular, səni,
Çox asan yollarla tutdular, səni,
Şərıfsiz,satqınla dolan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Torpağını tamam tutdu o,"yan"lar,
Getdi əlimizdən kəndlər, rayonlar,
Didərgin salındı minlər,milyonlar,
Gülşənləri viran qalan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Məktəblər dağıldı,evlər söküldü,
Məscidlər,gümbəzlər yerə töküldü.
Tarix saxtalaşdı,bir-bir gömüldü,
Muzeyləri yerlə yeksan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Qəbristan qazılır,”hay”lar əkilir,
Köhnə qəbirlərə “xaç”lar çəkilir,
Sonra Avropadan səsləri gəlir,
“Bizik ibtidai insan”,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Xankəndi,Laçınım,Şuşam,Xocalım,
Xocavənd,Kəlbəcər, gözəl Qubadlım,
Ağdərəm, Fizulim, əsir Əsgəran,
Cəbrayıl, Quşçular,bir də Zəngilan,
Çəkilsin başından duman, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Meşələr qırılır Laçın, Şuşanda,
Aparıb satırlar qonşu İranda,
Tiryək becərilir torpaqlarında,
Vətənimin yurdu, viran Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Şərurla Zəngəzur, əvvəl İrəvan,
Aldılar,oldular bu işdən rəvan.
Mehri ilə ayrı düşdü Naxçıvan.
Dığalar əlində, yanan Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Naxçıvana dişin atdı, tutmadı,
İstədi vuruşa, gücü çatmadı,
Çaqqal tək uladı, gecə yatmadı,
Türküm əl uzatdı haman,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Adın dəyişdilər öncə Xankəndin,
Dəyşildi küçələr,rayonun,kəndin,
Alçaq siyasətə  tamam yenildin,
Güzəşt etdin,getdi, o can Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

İtə yal atarsan quyruq bulayar,
Dilini çıxardar, ayaq yalayar,
Verməsən diş qıcıb sənə ulayar,
Daha bəsdir,oyan, oyan Qarabağ!
Torpaqları işğal olan Qarabağ!.

Gəzdim Qarabağı,Cıdırn,düzün,
Yazdım Natəvanın qızılı sözün,
Xatırladım orda Vaqifin özün,
Zakirin Vətəni, sınan Qarabağ!
Torpaqları işğal olan ,Qarabağ!.

Şairlər məsgəni, o Qarabağda,
Böyük şəxsiyyətlər yetişib orda,
Üzeyirin ruhu qalıbdı darda,
Köçərlini yada salan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Seyr etdim Şuşanı, uca dağını,
Vurğunun gəzdiyi dağ bulağını,
Meyvəli, çiçəkli, barlı bağını,
"Hay"lar indi gəzir,aman,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Şəhid oldu min-min, oldular biryan,
Oğuz elim, yatma, oyan, dur, oyan!
İt kimi qovulsun Vətəndən düşman!
Qırılsın buxovlar bir an, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Dağların qoynunda yerləşir bilaq,
İsa adlı adam qazdırıb qabaq,
İzn ver Allahım, Şuşada olaq,
Güllü- gülüstanın talan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Azərbaycan, nə çox səxavətlisən,
Bütün qonşulara” pay vermisən”,sən,
Düşübdür torpağım hey pərə-pərən,
Azad olacaqsan inan ,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ.

Qacar başın qoydu,“getdi” İrana,*
Ellər əhsən ,dedi  onda, Şuşana,
Qovuşdu tarixə, yazıldı sana,
Nəcəf bəyin ruhu şan-şan,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ.

Daşınır ölkəmin qızılı, daşı,
Vətənin hər yerin bürüb göz yaşı,
Qaçqındır bir milyon öz vətəndaşı,
Vətənin göz yaşı al-qan, Qarabağ!.
Torpaqları işğal olan, Qarabağ!.

Sevinmə ey dığa, gələcək bir vaxt,
İnşəallah,bizə də, gülümsəyər baxt,
Yeksan olunacaq  çıxdığın o, taxt.
Sübhan,qəm yemə ,gələr Qarabağ,
Düşmənləri qovar yurddan,Qarabağ.
*-başı kəsildi
Kazan-2012.

# Yalan ayaq açır...

Hiylə, riyakarlıq girib qol-qola,
Süzür ölkələri gözündə dəhşət.
Xəyanət toxumun əkirlər yola,
İblisin dostları sarıb hər yanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Yoxdur  ürəklərdə  inam, etibar,
Üzlərində həya, abır, ismət, ar.
Fikirləri qara,düşüncəsi dar,
Sözü düz ilqarlı indi bəs hanı?
Yalan ayaq açır, gəzir dünyanı.

Kimə göstərirsən ülfət,ehtiram,
Kələyə bənzəyir kəsdiyi kəlam.
Yerişi,duruşu qərəzkar,haram,
Zamanın Sahibi qurar divanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Gəlib pul istəyir,borc alıb gedir,
Deyir,qaytararam,and-aman edir.
Vaxt tamam olanda yox olur,itir.
Borc verən axtarır,tapmır ünvanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Düz söz eşidilmir,verilmir qiymət,
Dolaşır dillərdə,sevilir qeybət.
Təkəbbür,nadanlıq olub müsibət,
Müftəxor işləmir,tapır dalanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Gedir aramızdan,gözəllik solur,
İçimiz pisliklə qaynayıb dolur.
Haqsızlıq haqlının başını yolur,
Pula,mal- dövlətə satır imanı,
Yalanlar çoxalır, gəzir dünyanı.

Çətindir ayırmaq əyrini düzdən,
Məkirli sözləri seçilmir üzdən.
Qara pərdəsini asıbdır gözdən.
Getdikcə dəyşilir atadan qanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Hər gün bir kədərlə üzülür ürək,
Ya da kor olasan həyatda gərək.
Çirkinliyi görüb biz necə dözək?,
Bazarda hərraca qoyublar canı,
Pozğunluq çoxalır, gəzir dünyanı.

Sübhan,qartal uçar dağ zirvəsinə,
Enməyək nadanlıq səviyyəsinə.
Səs ver yaxşıların haray səsinə,
Allahım,zalıma vermə amanı,
Yalan,ayaq açma,gəzmə dünyanı!

GÖZÜM AĞLADI

Atalı günlərim düşdü yadıma,
Baxdım o illərə gözüm ağladı.
O idi köməyim, dadıma çatan,
Sözləri canlandı, sözüm ağladı,
Baxdım o illərə, gözüm ağladı.
----
Əlləri qabarlı, zəhmətkeş insan,
Dilindən çıxmazdı acı söz, yalan.
Allahı hər anda yadına salan,
Getdi həyatımın onunla dadı,
Baxdım o illərə ,gözüm ağladı.
--------
Atam ürək sirrim, evim,dirəyim,
Mənə təhsil verən, halal çörəyim,
Ona söykənərdi əlim, kürəyim,
Hər zaman dilimdə çəkilir adı,

**Atamı yad etdim gözüm ağladı,**

**Sovet önəmiydi,vəziyyət çətin**
**“Köləsiydi” qoca,cavan dövlətin .**
İşləməkdən beli əyri millətin,
Salanda yadıma qohumu,yadı,
Gördüm o illəri, gözüm ağladı.
-----
Babam Alı, İsa, Əhəd, Cahangir,
Qədim dövrlərdən soy-köküm gəlir.
Mal-mülk sahibləri, şumlayır, əkir,
Sovet zorla aldı, ürək dağladı,
Baxdım o illərə, gözüm ağladı.
---
Əzizlərim atam, anam kğç etdi,
Üç oğlum bizləri tərk edib getdi.
Fələk arzusuna, kamına yetdi.
Qəlbim hey alışdı, yaram çağladı,
Sübhan Abasbəyli, yazdı,ağladı.

# İLKİNSİZ GÜNLƏRİM

Sənli günlərimi axtarır gözüm,
Hər gün ahuzardır ötən günlərim,
Ürək xəyalınla danışır indi,
Azalır gülüşüm, tükənir sözüm.

Yaşadıq kədərsiz,qəmsiz bir zaman,
Günlərimiz keçdi xoşbəxt, firavan,
Baxıram keçmişə ürəyim al-qan,
Keçmişi geriyə yetməyir gücüm.

Qartal yerdə ölməz, göydə can verər,
Uçar  əngillikdə , coşub qıyy çəkər,
Məğrur görkəm alar,gözdən yaş tökər,
Səni zirvələrdə hey, gəzir könlüm.

Nə yaman ayrılıq, dondurur qani,
Yandırır, susdurur, əridir canı,
Tamam dərdi-qəmə alıb Sübhanı,
Zülmət gecə gəlir, kəsilir ünüm.

İndi de hardasan, cavab ver mənə?
Ürəyim arayır, yetməyir sənə,
Gözüm həsrət qalıb gözəl hüsnünə,
Yoxdur anmadığım sənsiz bir günüm.

## Mənmi günahkaram,yoxsa ki, zaman?

Ürəyim od tutur, yanır ocaqsız,
İşığım qaraldı, qaldım çıraqsız.
Dayağım əzildi, qaldım dayaqsız,
Sənsiz tarimardı həyatım, aman!
Mənmi günahkaram,yoxsa ki,zaman?.

Bu ayrılıq hardan oldu, bilmədim,
Həmin gecə mən də, niyə ölmədim?
Ürəyimdə dağ çəkirəm, gülmədim.
Həyatımı yazıb Xaliqi- Rəhman,
Bilmirəm günahkar mənəm,ya zaman?

Sən idin ümidim, köməyim, arxam,
Nə tez atıb getdin, sənsiz yalqızam.
Gəzirəm quruca, həyatda  yoxam,
Qaçıram hər kəsdən, oluram pünhan,
Bilmirəm günahkar mənəm,ya zaman?

Yaxşı əməllərin el-oba gəzdi,
Fələk həyatını büsbütün əzdi.
Bəlkə bəd nəzərlər üstünə əsdi?
Həyatım dəyişib olubdur talan,
Mənmi günahkaram,yoxsa ki,zaman?

Namazı, orucu heç ötürmədin,
Kimsənin minnətin sən götürmədin.
Arzuların qaldı ,heç bitirmədin.
Bəlkə plan qurdu hiyləgər şeytan?,
Bilmirəm günahkar mənəm,ya zaman?

Vağzalda namazla birlikdə oldun,
Gecikdin qatara, maşını buldun.
Gül kimi tər ömrün əzildi, soldun,
Başıma daş yağdı, üzüldüm yaman,
Mənmi günahkaram,yoxsa ki,zaman?

Üç körpə uşağın səndən yadigar,
Elimə, obama deyin, a dostlar,
İlkinsiz günlərim olubdur azar,
Hər gün damla-damla əriyir Sübhan,
Bilmirəm günahkar mənəm,ya zaman?



Əhədzadə İlkin Sübhan oğlu 1979 – 2011

# Ünvanına yetişməyən məktub

Moskvaya iki günlüyə getmişdin, iş dalınca. Sonra işlədiyin, yaşadığın Kazan şəhərinə gəlmək üçün vağzala gəldin. İki nəfər idiniz. “Əvvəl namaz qılım, sonra gedərik” – dedin. Yol yoldaşın sənə deyəndə ki: “Axı gecikirik”. Sən isə cavabında: “Namaz daha vacibdir” – demişdin. Namazdan sonra “platformaya” yaxınlaşdın, ancaq qatar getmişdi, gecikdin. Sən heç vaxt maşınla qayıtmazdın, ya qatarla,ya da təyyarə ilə gələrdin. O gün sən nədənsə maşınla gəlməyi qərara aldın. Adını çəkmək istəmədiyim iş yoldaşın da sənin yanına əyləşmək istədi, amma sən ona: “Yuxumu pis

görmüşəm" – demişdin. Bir də ona demişdin: "Mən daha Moskvaya gəlməyəcəm, sən gələcəksən əvəzimdə ..."

Düz deyirdin, sən geri qayıtmadın, heç gəlmədin də. 28 iyul 2011-ci il o qorxulu gecə (11:30) səni qoymadı gəlməyə Kazan şəhərinə, öz uşaqlarının, atanın, qardaşının, dostlarının yanına. Mən gəldim ora – Vladimir şəhərinə, sənin yanına. Birlikdə getdik vətənə - Azərbaycana, boya-başa çatdığın Masallı rayonunun Abasbəyli kəndinə. Evə kimi mən səninlə danışdım, amma sən susmuşdun, cavab vermirdin, sanki küsmüşdün məndən. Gün yarıma təcili yardım maşını ilə gəldik. Təyyarə ilə üç nəfəri aparmağa icazə vermədilər. Axı siz üç nəfər idiniz – sən, qaynatan, qaynanan. Düşündüm ki, bir yerdə təcili yardım maşınında aparım sizi. Sağ olsunlar Masallının Yeyənkənd kəndindən, hal-hazırda Vladimir şəhərində yaşayan Sehran, Mais, Samid qardaşları sənədləşmə işində çox kömək etdilər.

Maşın kəndin girəcəyinə çatanda çox ağır getməyə başladı. Əvvəl sənin qaynatanla qaynananı apardıq evlərinə, sən onlarla vidalaşdın, sonra gəldik evimizə. Maşın həyətə girəndə yaxınların bildilər ki, sən gəlirsən, boynunu qucaqladılar, ancaq sən yenə də susdun, onlarla da danışmadın. Gözlənilməz oldu sənin gəlişin. Axı sən bir aydan sonra gəlməliydin evimizə. Mənə söz vermişdin ki: "Bu il evimə köçəcəyəm". Evinin təmirini bu il qurtarmaq

istəyirdin. Ancaq sən başqa evə köçdün, sözünün üstündə durmadın ...

El-oba gəldilər səninlə görüşə, iynə atsaydın yerə düşməzdi. Hamı səni görmək istəyirdi. Bilirsən niyə? Çünki sən elin məhəbbətini qazanmışdın. Sən həqiqi müsəlman idin, xeyirxah, təvazökar, səmimi, təqvalı. Öyrənərdin harda məscid tikilirdisə yardım edərdin. Mədərəsələrə, orda oxuyan tələbələrə öz köməyini əsirgəməzdin. Ehtiyacı olanlara yardım əlini uzadardın. Yardımı alan ailə belə bilməzdi kimin yardım etdiyini. Allaha xatir edərdin. İranın Qum şəhərində mədrəsədə oxumuş bir azərbaycanlı din xadimi gəlmişdi səninlə vadalaşmağa. O dedi: “Mən Qum şəhərində oxuyanda onun haqqinda eşitmişdim, ancaq özünü tanımırdım, görməmişdim. O vaxt onun haqqında eşitdiyim üçün bu gün onun məclisinə gəlmişəm. Ətraf rayonlardan da din xadimləri gəldilər sənin məclisinə, danışdılar ürək sözlərini. Sən, Allah, imam aşiqi idin, Allah kəlməsi heç düşməzdi dilindən. Həmişə yaxşılıq haqqında düşünərdin. Sən Əli aşiqi idin, oğlunun adını Əli qoydun, qızlarının adlarını Fatimə, Zeynəb qoydun. Öz adını da istəyirdin ki, dəyişdirəsən Əli qoyasan. Sən gül kimi tez açıldın, öz ətrini ətrafa yaydın. Ancaq, tez soldun deməyə, dilim gəlmir. Çünki sənin kimi insanlar solmurlar, ölmürlər, həmişə xalqın qəlbində yaşayırlar. Axı sən təkcə özün üçün yaşamırdın, həm də başqaları üçün yaşayırdın. Kəndimizdə qadın mədrəsəsi açdın, ancaq bu barədə heç kim bilmirdi. Bu faciədən sonra camaat təsadüfən

bildi ki, mədrəsənin maliyyə xərcini sən ödəyirmişsən. Arxayın ol, mədrəsə səndən sonra da davam edəcək, kəndimizin və ətraf kəndlərin qız-gəlinləri orda Qurani-Kərimi öyrənirlər və öyrənəcəklər. Sən 32 il yaşadın, ailən üçün, insanlar üçün çox iş gördün.

Azərbaycandan, Moskvadan qalaq-qalaq kitablar gətirərdin islama aid, paylayardın Kazan şəhərində. Neçə-neçə gənclər sənin təbliğatınla namaz qıldılar. Yaxın, uzaq qohumlar sənin təbliğatınla hicab bağladılar. Çoxlu tatar qadınları tanıyıram ki, onlara namaz qıldırdın, hicab bağlatdırdın (əsasən öz işçilərin). Onlar səndən çox razılıq edirlər: "İlkin bizim gözümüzü açdı, islamı öyrətdi bizə" – deyirlər. Sən öz işçilərinə, tanımadığın adamlara islama aid kitablar verərdin: "Oxuyun, öyrənin, qəlbnən inanın" – deyərdin. Sən hüquqşünas idin. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdin. Ancaq bu sahədə işləmədin. "O iş mənə aid deyil" – dedin. Kazan şəhərində DİN-nin Hüquq İnstitutunu qurtarmış qardaşın Elçini də qoymadın polisdə işləməyə, "Mənimlə işləsin, mənə kömək etsin" – dedin. Sən şəhidliyi sevərdin, "Şəhidlər xöşbəxtdirlər" – deyərdin. Sən çörək dalınca getmişdin, özün üçün, başqaları üşün. Belə adamlar həlak olanda şəhid qismindədirlər. Bir dəfə yenə şəhidlikdən danışırdın, mən sənə etiraz etdim, "Üç körpə uşağın var" – dedim. Sən isə: "Allah saxlayar, Allah bilən daha yaxşıdır" – dedin.

Qarabağda döyüşlər gedəndə sən onda uşaq idin. Bir gün Masallı hərbi komissarlığından xəbər göndərdilər ki: "Gəl uşağını apar". Onda sən 6-cı sinifdə oxuyurdun. Müharibəyə getmək üçün hərbi komissarlığa getmişdin. O vaxtlar mən kənddə tədris işləri üzrə direktor müavini işləyirdim.

Həyatın qəribə qanunları, gözlənilməz anları var. 1995-cı ildən sonra Kazan şəhərinə gəldim işləməyə. Kiçik bizneslə məşğul olmağa başladım. 3-cü kursdan qiyabiyə keçdin, "Ata, gəlim sənə kömək edim" – dedin. Gəldin, çalışdın, özün üçün iş qurdun, öz yolun oldu, öz biznesin.

Qarabağa, Xocalı faciəsinə aid materialları ANS telekanalından alıb Kazana gətirən ilk dəfə sən oldun. Biz səni vətən torpağına tapşırandan ay yarım sonra yenə qayıtdıq. Heç gəlmək istəmirdim, səni tək qoymaq istəmirdim orda, məcbur oldum. Körpələrindən arxayın ol, onlar yanımdadırlar, qismət olsa oxudacağam onları, gözün arxada qalmasın, oğul! Bilirəm məktubu oxumasan da, məzmunundan xəbərdar olacaqsan. Bayramda gələcəyəm, inşallah, görüşərik. Bizsiz darıxma, evimizi, öz evini sənin ümidinə qoyuram, mənim əziz oğlum ,İlkin!

Atan Sübhan Əhədzadə. 31 oktyabr 2011-ci il. Kazan şəhəri.

**Qeydlər və şərhlər**

1. Adəm peyğəmbər min ilə qədər yaşamışdır.
2. Qurani-Kərim, Əl-Bəqərə surəsi, 30-32-ci ayələr, Əl-Hicr surəsi.
3. Əl-Bəqərə surəsi, 34-cü ayə, Əl-Hicr surəsi.
4. Əl-Əraf surəsi, 12-20-ci ayələr, Əl-Hicr surəsi.
5. Əl-Əraf surəsi, 20,21,22-ci ayələr,Əl – Hicr surəsi.
6. Müşərrik - çoxallahlıq.
7. Həzrəti Şisə 50 səhifə nazil olur.
8. Həzrəti İdrisə 30 səhifə nazil olur.
9. Nuhun 3 mərtəbəli gəmisinin eni 70, uzunu 200, hündürlüyü 25 metr idi.
10. "Peyğəmbərlərin həyatı". Müəllif Seyid Kamal.
11. Təbərrük üçün gəmidə asılan taxtada beş müqqəddəs şəxslərin adları –Həzrəti Mühəmməd (s), Əli-əleyhisəlam, Həsən (ə), Hüseyin (ə), Fatimə (ə).
12. Köşək dəvə balasına deyilir.
13. Ur şəhərində olan məbəd Zəqirə adlanırdı.
14. İbrahim Peyğəmbər Babil vilayətinin Ur şəhəri yaxınlığında olan Kövsəriyyə qəsəbəsində andan olmuşdur.
15. Yeddi gün idi ki, Həzrəti İbrahim həbs edilmişdi.
16. Üzüyün üstündə yazılmışdı: - La ilahə İlləllah, Mühəmmədən Rəsulallah, La hovla və la qüvvətə İllah billah, Fəvəztu əmri illəllah, Əsnədtu Zəhra illəllah həsbiyəllah.
17. İbrahim Peyğəmbərə 20 səhifə nazil olmuşdur.
18. Fələstinə əvvəllər Kənan deyirdilər.
19. Bu vaxt İbrahin Peyğəmbərin 90 yaşı var idi ( daha dəqiqini Allah bilir).
20. Kəbənin tikilməsi haqqında iki rəyi yazıram: 1) Kəbə Adəm Peyğəmbər tərəfindən tikilmişdir, Kəbəni İbrahim Peyğəmbər Həzrəti İsmayılla birlikdə təmir etdirir; 2) Kəbəni Hz. İbrahim Hz. İsmayılla birlikdə tikmişdir (tam dəqiqini Allah bilir).

21. Əbu Qubeys dağı. Qara daş haqqında müxtəlif fikirlər vardır: 1) Daşı Həzrəti Adəm behiştdən gətirmişdir; 2) Daş Hz. İbrahimə ildırım çaxması nəticəsində Allah tərəfindən göndərilir. Belə ehtimal da var ki, əvvəllər ağ olub, sonralar qaralıb (tam dəqiqini Allah bilir).
22. Əl-Bəqərə surəsi 124-131-ci ayələr.
23. Hz. Yəqubun zövcəsi Liyadan altı oğlu, iki kənizdən dörd, zövcəsi Rəhildən isə iki oğlu olmuşdu.
24. Dəməşq torpaqları əvvəllər Yəsir adlanırdı.
25. İsrail seçilmiş deməkdir, İsrail övladları və ya Yəqub övladları eyni məna verir.
26. Yusif Peyğəmbər bizim eradan əvvəl (b.e.ə) 1722-1580-cı illərdə yaşamışdır ( tam dəqiqini Allah bilir).
26[a]. Yusif surəsi, 1-5-ci ayələr.
26[b]. Yusif surəsi, 16-20-ci ayələr.
26[v]. Yusif surəsi, 21-22-ci ayələr.
27. Həzrəti Yusifin Sarayda adı dəyişdirilib Ruzarsif adlandırılmışdır.
27[a]. Yusif surəsi, 23-25-ci ayələr.
27[b]. Yusif surəsi, 26-28-ci ayələr.
27[v]. Yusif surəsi, 29-32-ci ayələr.
28. Ant Mahuni Misirin baş kahini idi.
29. Misirdə fironun vəzirinə əziz deyilirdi. Misirin əzizi, yəni vəziri Potifar idi. O, Yusifi öz sarayına başçı seçir.
29[a]. Yusif surəsi, 33-35-ci ayələr.
29[b]. Yusif surəsi, 36-41-ci ayələr.
29[v]. Yusif surəsi, 42-ci ayə.
30. Aşbazın adı Apakos, saqinin adı İranus idi.
31. Zindanda olanda aşbaz kahinlərin onu şahı zəhərləməyə sövq etdiklərini etiraf etsə də, kahinlər onu yolda qorxudur, uşağını öldürməklə hədələyir, aşbaz da məcbur olur məhkəmədə ifadəsini dəyişir, kahinləri satmır. Kahinlər də cəzadan yaxa qurtara bilirlər.
31[a]. Yusif surəsi, 43-49-cu ayələr.

31[b]. Yusif surəsi, 50-53-cü ayələr.
31[v]. Yusif surəsi, 54-57-ci ayələr.
32. Amon sərkərdəsi Padiyamon kahinlərin ixtiyarında olan qoşunlara rəhbərllik edirdi.
33. Amon Misrin baş allahı sayılırdı.
34. Amon xüsusi otaqda yerləşdirilmişdi.
35. Kahinlər otaqda ikinci gizli otaq hazırlamışdılar ki, lazım olanda heykəli, yəni amonu orada gizlədirdilər, sonra da şayə buraxırdılar ki, allah inciyib getdi. Onlar xalqı belə qorxu içində saxlayırdılar.
36. Şəhərin adı Təbs adlanırdı.
36[a]. Yusif surəsi, 58-ci ayə.
36[b]. Yusif surəsi, 59-62-ci ayələr.
36[v]. Yusif surəsi, 63-65-ci ayələr.
36[q]. Yusif surəsi, 66-69-cu ayələr.
37. İbrahim peyğəmbərin köynəyini Yəqub peyğəmbər Yusifə uşaqikən hədiyyə edir.
37[a]. Yusif surəsi, 70-81-ci ayə.
37[b]. Yusif surəsi, 83-86-cı ayələr.
38. -------------------------------
38[a]. Yusif surəsi, 87-ci ayə.
38[b]. Yusif surəsi, 88-92-ci ayələr.
38[v]. Yusif surəsi, 93-cü ayələr.
38[q]. Yusif surəsi, 94-101-ci ayələr.
39. Yusif və Bünyamin anasının itirəndən sonra xalasına, yəni atasının birinci zövcəsinə ana deyirdilər.
40. Yəqub peyğəmbər oğlu Yusif peyğəmbəri 28-30 il görmür. 9 yaşında satılır qardaşları tərəfindən. Misir əzizi Potifarın sarayında 8-9 il yaşayır. Sonra Züleyxa onu zindana göndərtdirir. Zindanda 11 il yaşayır. Zindandan çıxarılır, fironun sarayına gətirilir, əzizlik vəzifəsinə qədər yüksəlir. Bolluq illəri 7 il sürür. Sonra aclıq illəri gəlir, 7 il sürür. Həzrəti Yəqub aclığın 2-ci ya 3-cü ilində oğlanlarını Misirə

taxıl almağa yollayır. Beləliklə ata-oğul 28-30 ildən sonra görüşürlər (tam dəqiqini Allah bilir).
41. Müdam – daima, həmişə mənasını verir.
42. Həzrəti Yusif babası İbrahin peyğəmbərdən xahiş edir ki, Rəsul Əkrəmə görüşünə gedəndə məndən salam deyərsən.
42[a]. Əl-Ənbiya surəsi, 83-84-cü ayələr.
43. Neynəva şəhəri Fəratla Dəclə çayı arasında yerləşən ərazinin şimal tərəfində Assuri tayfasının paytaxtdır.
44. Əl-Ənbiya surəsi 87-88-ci ayələr, Əs -Səffan surəsi 139-148-ci ayələr.
45. Həzrəti Musa haqqında Əl-Əraf, Yunus, İbrahim, Əl-İsra, Əl-Kəhf, Məryəm, Ta ha, Əl-Muminun, Əl- Şuəra, Ən-Nəml, Əl-Qəsəs surələrinə bax.
46. İmran (Amran) Kahis ibn Levinin qızı Yuhabed ilə evlənmişdir. Bu izdivacdan Musa anadan olmuşdur. Miladdan əvvəl 1000 – 1500 - cü illər arasında yaşamışdır.Yəni, yeni Misir dövründə Misir tarixi 3 hissəyə bölünür: qədim, orta və yeni Misir.
47. Misirdə yerli xalqlara qibtilər deyilirdi.
48. Musa adının mənası sudan ağaclar arasında tapılan deməkdir. Mu – su, Sa – ağac deməkdir.
49. Mədyən Hicazla Misirin arasında yerləşir.
50. Musanın zövcəsinin adı Semfora idi. Səkkiz həc, yəni səkkiz il Şüeyib peyğəmbər hər il Həcc ziyarətinə gedirdi.
51. Münfis şəhəri Misirin paytaxtı idi.
52. Əl-Əraf surəsi.
52[a]. Əl-Mumin surəsi, 28-ci ayə.
53. Bu bayram Eydi Fas bayramı adlanır ki, yəhudilər onu hər il bayram edirlər. Bu da aprelin 14-nə düşür. Ərəb dilində pasxa adlanır.
54. Dərya bəzi ehtimallara görə 12 yerə bölünür.
55. Fironun atı dəryada açılan yol ilə getmək istəmir. At təhlükəni hiss edirdi. Cəbrayıl (ə) ağ madyan atla irəli düşür.

Fironun atı madyan atın ardınca hərəkət edir. Allah onları suda qərq etmək istəyirdi.
56. Yunus surəsi, 90-92-ci ayələr.
57. 1898-ci ildə firon Minfitahın mumiyasını tapırlar, indi də Qahirə muzeyində saxlanılır. 1975-ci ildə Misir dövləti yeni araşdırma aparmağa icazə verir. Sübut olunur ki, firon həqiqətən suda boğulmaqla ölmüşdür. Ölməmişdən qabaq bədəninə zərbələr dəymişdir (döyülmüşdür).
58. Kərbəlayi Ramin Azərbaycan Respublikası, Masallı rayonu, Yeyəlkənd kəndində anadan olmuşdur.
59. Hacı Şərafət Azərbaycan Respublikası, Masallı rayonu, Yeyəlkənd kəndində anadan olmuşdur.
60. Samiri Bəni-İsrail içərisində yaşayırdı. Deyilənə görə kahin idi. Firon suda qərq olmazdan bir az qabaq mələyin (Cəbrayıl (ə)) atının ayaqları altından torpaq götürür saxlayır. Musa Tur dağına gedəndə qızıldan buzov düzəldir və həmin torpaqdan da onun içərisinə tökür, buzov başlayır səs çıxartmağa.
61. Səlva – Allah tərəfindən göndərilən quşlar idi ki, çox alçaqdan uçurdular. Adamlar onları asanlıqla tuturdular. Məni isə yağış kimi yağan ağ şirin dənələr idi ki, camaat yığıb çörək bişirirdilər.
62. Rəvayətə görə Tabuti-Səkinə öküz şəklində olan sandıqdan ibakət idi ki, içində Tövratın nüsxələri və Musanın əsası, Harunun bəzi əşyaları qoyulmuşdu. Səkinənin mənası sükunət, sakitlik deməkdir.
62[a]. Sad surəsi, 21-30-cu ayələr.
63. Talut b.e.ə. 1020-965-ci illərdə şahlıq etmişdir. Bünyaminin nəslindən idi.
64. Həzrəti Davud Yəhuda nəslindən idi. Sapand iki möhkəm iplərdən düzəldilir. İpin uclarını əl boyda dəriyə bənd edirlər. İpin uzunluğu 70-80 sm olur. Daşı dəri üzərinə qoyurlar, bir neçə dəfə fırladaraq hədəfə sarı atırlar.
65. Əmaliqə tayfaları Allaha inanmırdılar.

66. Həzrəti Davud b.e.ə. 1004 – 965 – ci illərdə şahlıq etmişdir.
67. Zəburi-Şərif Davud peyğəmbərə göndərilən səmavi kitabdır ki, nəsihətlərdən ibarət idi.
68. Süleyman peyğəmbər b.e.ə. 965-928-ci illərdə şahlıq etmişdir. Sad surəsi 31-40-cı ayələr. Səba surəsi 12-15-ci ayələr.
69. Hud-hud quşuna şanapipik də deyirlər. Əl-Nəml surəsi 15-44-cü ayələr.
70. Yəmən ölkəsinə əvvəllər Səba ölkəsi deyirdilər.
70[a]. Əl-Nəml surəsi 40-42-ci ayələr. O imanlı şəxsin adı Asəf ibn Bərxiya idi.
71. Süleyman Peyğəmbər 52 il şahlıq etmişdir. Ona 40 vəhy nazil olmuşdur. Əl-Maidə surəsi 110-120-ci ayələr, Əl-Səff surəsi 6-cı ayə.
71[a]. Məryəm surəsinə bax.
71[b]. O vaxt oruc tutanlar oruc tutduğu vaxt danışmırdılar.
72. İsa peyğəmbər Fələstinin Beytülləhə qəsəbəsində anadan olmuşdur.
73. O vaxtlar Fələstin Romaya tabe idi.
74. Herodis yəhudilərin hökmüdarı idi. Qardaşı arvadına gözü düşür, qadın da razılıq verir. Həzrət isə bu nigaha qarşı çıxır, haramdır deyir.
75. Qadının adı Salimi idi.
75[a]. "Peyğəmbərlərin həyatı". Müəllif Seyid Kamal, 3-cü çap, səh.181
76. Məhsi İsa peyğəmbərin ləqəbi idi. Ayaqlarının altı düz olduğu üçün bu ləqəbi almışdır. Və ya mələklər uşaq vaxtı ona sığal çəkdikləri üçün məsih ləqəbi almışdır (düzünü Allah bilir).
77. Kəlgələ təpəsi Fələstində idi. Guya Həzrəti İsanı burada çarmığa çəkirlər.
78. 12-ci imam həzrət Mehdi Sahibəz Zəman əleyhissəlam (s).

79. Taracan miladi tarixi ilə 98-117-ci illərdə Romada hökmüran olmuşdur.
80. Yeddi mömin cavanların adları: 1. Təlmixa, 2. Yəmənas, 3. Maksimilyans, 4. Dinasiyas, 5. Martinas, 6. Antindos, 7. Klitiya.
81. Ova getmək bəhanəsi ilə şəhərdən çıxırlar.
82. Bəzi məlumatlara görə 300 il, bəzilərinə görə isə 309 il yatırlar (dəqiqini Allah bilir).
83. Miladi tarixi ilə 408 ildə Tiuodos Roma taxtında əyləşmişdir.
84. Fərəcov Almaz İsax oğlu.

## Kitabın içindəkilər:

Ön söz ………………………………………………………...1
Adəm və Həvvanın əhvalatı (s) ……………………………….2
Qabil və Habilin əhvalatı ………………………………………
Şis və İdris Peyğəmbərin əhvalatı (s) …………………………..
Nuh Peyğəmbərin əhvalatı (s) …………………………………

Həzrəti Nuh quşları torpaq axtarmağa yollayır ………………...
Hud Peyğəmbərin əhvalatı (s) …………………………………….
Saleh Peyğəmbərin əhvalatı (s) …………………………………...
İbrahim Peyğəmbərin əhvalatı (s) ……………………………...
Həzrəti İbrahimin oda atılması …………………………………
Peyğəmbərin vətəndən qovulması, İsmayıl Peyğəmbərin anadan olması (s) ………………………………………………
Hacərlə İsmayılın məkkəyə aparılması…………………………
Lut Peyğəmbərin əhvalatı (s)……………………………………...
Həzrət İshaqın anadan olması (s) ………………………………
Həzrəti İbrahim Həzrəti İsmayıl ilə kəbə evini tikirlər ………...
Həzrəti İbrahimin oğlu İsmayılı qurban kəsmək istəməsi ……..
İbrahim Peyğəmbərin vəfatı, Həzrəti İshaq (s) ………………...
Həzrəti İsmayıl, Həzrəti İshaqın vəfatı, Yəqub Peyğəmbərin əhvalatı (s) …………………………………………………...
Bünyaminin anadan olması. Rəhilin vəfatı ……………………
**Yusif və Züleyxa (s)**
Həzrəti Yusifin uşaqlığı ……………………………………..
Həzrəti Yusif qul kimi satılır ………………………………….
Həzrəti Yusif Misir əzizinin sarayında ……………………...
Züleyxanın səyahətə çıxması ………………………………….
Kahinlərlə ziddiyətlərin kəskinləşməsi ………………………...
Yusifin Potifarın sarayında başqan seçilməsi ………………….
Züleyxanın səyahətdə darıxması ………………………….
Yusifin zindana salınması ………………………………..
Qəsd ……………………………………………………….
Yusifin zindan həyatı ……………………………………….
Zindanda Yusifə, Züleyxanın göstərişilə əzab verilməsi ………
Aşbazla saqinin yuxusu ……………………………………...
Aşbaz dar ağacından asıldı ……………………………………
Gənc kral qəribə yuxu görür ………………………………...
Yusif Peyğəmbər şah qəbulunda ……………………………….
Həzrəti Yusifin Misir əzizi (vəziri) təyin edilməsi ……………
Yusif Peyğəmbərin Esenasla evlənməsi ……………………

Taxılın yığılması, Yusifə qəsd ……………………………
Züleyxanın Yusifə qəsd barədə eşitməsi ………………………
Qıtlıq illəri başlanır ………………………………………
Döyüş ……………………………………………………..
Sahibkarlar qulları azad edirlər ………………………...
Züleyxa Yusifin evlənməyini eşidir ………………………
Kənan diyarında aclıq ………………………………….
Vəhy mələyi ………………………………………………
Qardaşların misirə birinci səfəri ……………………….
Yusifin qardaşları ilə birinci söhbəti ……………………...
Baş kahin Ant Mahunin məhkəməsi …………………………..
Möcüzə. Züleyxanın gözəlliyi özünə qayıdır ……………..
Yusifin qardaşlarının Kənana qayıtması ………………………
Qardaşların Misirə ikinci səfəri ………………………..
Qardaşların  evə kədərli qaytması ………………………...
Bünyamin qardaşı Yusifin yanında ………………………
Züleyxa Yusifə göz aydınlığı verməyə gəlir …………….....
Qardaşların Misirə üçüncü gəlişi ……………………
Sirr açılır ……………………………………………
Yəqub Peyğəmbər keçmiş günahını yada salır ………………..
Həzrəti Yəqub Yusifin ətrini duyur ……………………
Bünyaminin atası ilə anasının məzarına gəlməsi ……………
Eysin qardaşının görüşünə gəlməsi ………………………….
Züleyxaya kənizin nəsihəti …………………………
Yusif Esenasla bağda ……………………………………..
Yusif fironun qəbulunda ……………………………………
Şahın Yusiflə ova çıxması ……………………………..
Yəqub Peyğəmbərin Misirə gəlməsi …………………………...
Otuz il əvvəl Həzrəti Yusifin gördüyü yuxu gerçəkləşdi ………
Yəqub Peyğəmbərin vəfatı (s) …………………………
Yusif Peyğəmbərin vəfatı (s) ……………………………..
Əyyub Peyğəmbərin (Səburi) əhvalatı (s) …………………...
Həzrəti Əyyubun şəhərdən qovulması ……………………
Möcüzə baş verir ……………………………………….

Yunus Peyğəmbərin əhvalatı ( s) ………………………………
Musa Peyğəmbərin əhvalatı (s) ………………………………...
Şüeyib Peyğəmbərin əhvalatı (s), Həzrəti Musanın onun qonağı olması ……………………………………………………………..
Tur dağında Musanın Allahla danışması (s)……………………
Həzrəti Musa və Həzrəti Harun firon sarayında…………………
Həzrəti Musanın meydanda yarışı……………………………..
Qarunun əhvalatı ………………………………………………
Bəni –İsrailin Misirdən gecə qaçması…………………………
Yusif  Peyğəmbərin cənazəsi………………………………….
Musa Peyğəmbərin Tur dağına getməsi………………………
Tur dağında zəlzələ baş verir………………………………
Bəni – İsrail qırx il Sinan yarımadasında qalmağa məhkum edilir ……………………..
Sarı inək macərası……………………………………..
Həzrəti Musanın saleh bir adamla görüşü………………..
Musa Peyğəmbərin xəbərsiz yoxa çıxması…………………..
Həzrəti Yuşa İbn Nunun əhvalatı (s)…………………
İşmuil Peyğəmbər (s), Talut və Calutun hekayəti (Hükəm dövrü) ……………….
Davud Peyğəmbərin əhvalatı (s)………………………………
Süleyman Peyğəmbərin əhvalatı (s) …………………
Səba (Yəmən) hökmüdarı Bilqeysin Süleyman Peyğəmbərin görüşünə getməsi ……………………
Həzrəti Süleymanın vəfatı ……………………..
Süleyman Peyğəmbərin vəfatından sonra Bəni-İsrailin iki yerə parçalanması. Həzrəti İlyas və Həzrəti Əlyasın əhvalatı (s) ……………………………………
Həzrəti Əşiya və Həzrəti Ərmiyanın əhvalatı (s). İsrail dövlətinin dağılması ……………………..
Daniyam Peyğəmbərin əhvalatı (s)…………
Üzeyir Peyğəmbərin əhvalatı (s)………………
Həzrəti Məryəmin anadan olması (s)……………..
Həzrəti Zəkəriyyə Məryəmin tərbiyəçisidir (s)……..

Həzrəti Zəkəriyyənin duası ……………………………..
İsa Peyğəmbərin anadan olması (s) ………………………
Yəhya Peyğəmbərin əhvalatı (s) …………………………
Səmavi Kitab (İncil) ………………………………
Həzrəti İsanın yeni möcüzəsi və göyə çəkilməsi ….
Əshabi – Kəhf ……………………………………
Kitabın Sonu ………………………………………
**Əziz Allah**
Adam var ki,………………………………
Ürəyin ağılla söhbəti………………………………
Qismətin olsun………………………………
Qarabağ………………………………
Yalan ayaq açır…………………………………
İlkinsiz günlərim………………………………
Mənmi günahkaram,yoxsa ki,zaman?………………………
Gözüm ağladı...........................................
Ünvana yetişməyən məktub..........................................
…………………..
……………………

Redaktor: Fuad Yaqubov
Korrektor: - Elçin Əhədzadə
Texniki redaktor: Könül Məmmədzadə
Operator: Ekaterina Kuzneçova
Dizayner:Sənan Kərimov ...

Hazır diopozitivlərdən çapa imzalanıb 00.00.2012
Formatı: 84x108$^{1}/_{32}$
Qarnitur A3 TimesNewRomanAzLat
Ofset kağızı. Ofset çapı. F.ç.vərəqi 9.125
Tiraj 500. Sifariş 1250

«AAA» nəşriyyatı

«AAA»
Poliqrafiya Evinin mətbəəsi
Kazan şəhəri, K.Nəcmi küçəsi, 8a, tel: 111-11-11.